Mirzə Əli Deyləm



# Səfəvi əsri

# Müqavimət Mədəniyyəti: Səfəvi Əsri

**Mirzə Əli Deyləm**

**AZƏRBAYCAN ARAŞDIRMA MƏRKƏZİ**

*Əssəlamu əleykə, Ya Bəqiyyətullah*

*İslam cəbhəsinin bayraqdarı şəhid Seyyid Əli Xameneinin əziz ruhuna ithaf olunur*

# Mündəricat


Ön söz ........ 8
Səfəvilərin tarixinin müxtəlif baxışlarda ........ 10
**I Fəsil ........ 19**
Səfəvilərin şəcərəsi ........ 19
Hərəkatın ilk dönəmi ........ 31
Şeyx Zahid Gilani ........ 36
Şeyx Səfiəddin Ərdəbili ........ 43
Mürşid axtarışında ........ 45
Müridin mürşidinə qovuşması ........ 48
Səfəviyyə cərəyanının təşəkkülü ........ 53
Təriqəti fərqləndirən cəhətlər ........ 57
Şeyx Səfiəddinin vəfatı ........ 60
Şeyx Sədrəddin Musa ........ 66
Səfəvi təriqətinin siyasi fəaliyyətləri ........ 68
Həbs və sürgün dövrü ........ 71
Şiə qiyamları və Şeyx Sədrəddin ........ 72
Ərdəbilə qayıdış ........ 74
Xacə Əli ........ 78
Qızılbaş dəstələrinin təşkili ........ 80
Qüds səfəri və vəfatı ........ 82
Şeyxşah İbrahim Səfəvi ........ 83
**II Fəsil ........ 84**

Şeyx Cəfər Səfəvi ........................................................................ 84
Şeyx Cüneyd Səfəvi...................................................................... 88
Şeyx Cüneydin Qaraqoyunlu Cahanşahla mübarizəsi ............. 89
Şeyx Cüneyd Anadoluda ............................................................ 95
Şeyx Cüneyd Suriyada............................................................... 100
Şeyx Cüneydin Trabzon səfəri................................................... 104
Şeyx Cüneyd Diyarbəkirdə........................................................ 107
Ərdəbilə dönüş............................................................................ 110
Şeyx Cüneyd və Şirvanşahlar ................................................... 111
Şeyx Cüneydin şəhadəti............................................................. 116
Əhli-İxtisas ................................................................................. 119
Şeyx Heydərin əhəmiyyəti......................................................... 124
Şeyx Heydər................................................................................ 124
Səfəvi hərəkatı yenidən dirçəlir ................................................ 127
Qızılbaş geyiminin yaranması .................................................. 128
Şeyx Heydər Tabasaranda ......................................................... 131
Şeyx Heydər Lənkəranda........................................................... 138
Sonuncu hücum .......................................................................... 138
Köhnə dost qatı düşmənə çevrilir ............................................. 139
Şeyx Heydərin şəhadəti ............................................................. 142
Şeyx Heydərin yetirməsi – İlahi Ərdəbili ................................. 148
Sultan Əli .................................................................................... 150
İstəxr qalası................................................................................. 153

Sultan Yaqubun ölümü ........................................................ 156
Ağqoyunlu taxtı uğrunda mübarizə ........................................ 158
Şeyx Əlinin azad olması ....................................................... 160
Şeyx Əlinin şəhadəti ............................................................. 166
**III Fəsil ........................................................................ 174**
Şeyx İsmayıl Mirzə Səfəvi ................................................... 174
Gilan səfəri ........................................................................... 178
Lahican dönəmi .................................................................... 181
İran Osmanlının torunda ...................................................... 194
**IV Fəsil ......................................................................... 203**
Fəcr vaxtı .............................................................................. 203
İlk döyüş ............................................................................... 204
İsmayıl Mirzə Xalxalda ......................................................... 207
Ərdəbil .................................................................................. 208
Talış istiqamətində ............................................................... 209
Ərdəbil ziyarəti ..................................................................... 212
İkinci şəbəkə mərkəzinə doğru .............................................. 214
Şirvana doğru ........................................................................ 217
Səfəvilərin ilk fəth yürüşü .................................................... 219
Səfəvilərin Şirvana gəlişi ...................................................... 220
Cabanı döyüşü ....................................................................... 224
Bakının Fəthi ......................................................................... 228
Şirvanşahın son qalaları ........................................................ 233

Həlledici döyüşə doğru ........................................................ 235
Şərur öncəki ilk döyüş ........................................................ 238
Şərur döyüşünün öncəsi ........................................................ 241
Şərur döyüşü ........................................................ 247
Səfəvi hakimiyyətinə doğru ........................................................ 252
Qiyamın qələbəsindən sonra Əhli-sünnə ........................................................ 257

## Ön söz

Xalqın tarixi yaddaşı onun kimliyini formalaşdıran əsas sosial-psixoloji və mədəni fenomendir. Tarixin təhrifi fərdin və cəmiyyətin dünyagörüşünə zərbə vurur, qərəzli siyasi cərəyanlar tərəfindən manipulyasiyaya zəmin yaradır və toplumun həqiqi kimliyini aradan aparır. İctimai yaddaş, fərdi yaddaş kimidir: bəzi hadisələri qoruyur, bəzilərini unudur, xırdalıqları isə xatırlamır. Məhz bu seçicilik hakim qüvvələrə tarixi öz maraqlarına uyğun təhrif etmək imkanı verir. Beləliklə, tarixin təhrifi və yaddaşın idarə edilməsi xalqı istismar edən qüvvələrin siyasi alətinə çevrilir. Onlar mədəni və tarixi yaddaşımızı məhv edərək və ya təhrif edərək öz maraqlarına xidmət edən süni "dəyərlər sistemi" qurmağa çalışırlar. Tarixin islahı isə həqiqi kimliyə qayıdış, sivilizasiya köklərinə yetişmək və həqiqi identiklik baxımından düzgün özünüdərki bərpa etmək deməkdir. Əsrlər boyu formalaşmış kimliyimizi dirçəltməklə xalqımızın özünümüdafiə və özünəinam sistemini möhkəmləndiririk.

Tariximizin ən parlaq səhifələrindən biri Əhli-Beyt (ə) məktəbinə bağlılıqdır. Azərbaycan xalqı bu məktəb uğrunda qiyam edən toplumlar arasında önəmli yer tutur. Bunun bariz nümunəsi Şah İsmayılın rəhbərlik etdiyi Səfəvi hərəkatıdır. Təəssüf ki, bu şanlı hərəkat qərəzli

tənqidçilər tərəfindən ya şəriətdən kənar bir sufi cərəyanı, ya da sırf millətçi bir hərəkat kimi təqdim olunur. Halbuki qərəzsiz və dəqiq tarixi yanaşma göstərir ki, Səfəvi hərəkatı yerli şəraiti nəzərə alan, ali məqsədlərə xidmət edən dini bir cərəyan idi. Düşmənlər onu məzhəb təfriqəçisi kimi göstərmək üçün əsassız əfsanələr uydurmuşlar. Lakin ciddi araşdırmalar sübut edir ki, bu hərəkatın əsas hədəfi Əhli-Beyt (ə) məktəbinə düşmən olan qüvvələr, xüsusilə də hakimiyyəti ələ keçirmiş zülmkar qruplar idi.

Təqdim olunan bu kitabda gənc və istedadlı tədqiqatçı Mirzə Əli Deyləm Şah İsmayıl inqilabının həqiqi mahiyyətini açmaqla yanaşı, onu tarixi təhriflərdən təmizləməyə çalışır. Bu əsər Azərbaycan xalqının həqiqi kimliyinin kəşfi və möhkəmlənməsi yolunda mühüm bir xidmətdir.

**Orxan Məmmədov**



## Səfəvilərin tarixinin müxtəlif baxışlarda

**Şəhid İmam Xamenei:**

Keçmişdə, Səfəvilər sülaləsinin yüksəlişi dövründə Ərdəbil torpağı bu ölkəyə iki böyük xidmət göstərə bildi. Birincisi, o, hissələri bir-birindən ayrılmış, bir-biri ilə ziddiyyət təşkil edən bir ölkədən vahid, böyük və qüdrətli bir ölkə yarada bildi. Səfəvilərin yüksəlişindən əvvəl və Səlcuqlular dövründən sonra İran elə bir ölkə idi ki, onun hər bir guşəsində hərc-mərclik hökm sürürdü və o dövrlərdə İranın əzəmətindən söz belə açılmırdı. Bu izzət İrana Səfəvilər tərəfindən verilmişdir. Səfəvilər Ərdəbildən yüksəldilər və Şeyx Səfiəddin Ərdəbilinin

nəslindən olan mücahid və mübariz arif ailəsi bu ölkəni birləşdirə bildi ki, onların nəsli o günün dünyasındakı bütün alimlərə İranı birləşmiş, qüdrətli, məğrur və qabaqcıl olaraq tanıtdırdı.

Şiə, yəni Əhli-beyt (ə) məzhəbinin dirçəlişi və Peyğəmbər (s) ailəsinə məhəbbətin yaradılması bu qəhrəman xalqın və bu qeyrətli qəbilələrin zəhməti ilə ərsəyə gəlmişdir. Onlar Əmirəl-möminin (ə) adı ilə, İmam Hüseynin (ə) adı ilə, Kərbəla şəhidlərinin adı ilə, Məsum İmamların (ə.s) adı ilə gedib, Allahın və Əhli-Beytin (ə.s) adının yad olunmasını, İslam dininin ayinlərini və həmçinin Cəfəri (ə.s) fiqhinin hökümlərini ölkəmizin hər bir nöqtəsində hakim etdilər və bütün bunların nəticəsində vahid, möhkəm və qüdrətli bir ölkə yarandı. Bu, mənəviyyatdan, dindən və Əhli-beyt (ə.s) təlimindən yaranan bir iqtidar idi.

Şeyx Səfiəddin Ərdəbilinin özü, onların iddia etdiyi kimi sufi deyildi. O, bir alim, arif, təfsirçi və hədisçi idi. Mərhum Əllamə Məclisinin qeyd etdiyi kimi, Şeyx Səfiəddin Ərdəbili fiqh alimləri və eyni zamanda arif olan Seyyid İbn Tavus və İbn Fəhd Hilli kimi şəxslərin sıralarında yer almışdır. O, (hicri-qəməri) 7 və 8-ci əsrdə Əllamə Hilli ilə birlikdə şiə məzhəbinin dəyərlərini, fiqhini və fiqhin dəlillərinin elmi hövzələrdə dərs olaraq

keçirilməsini ərsəyə gətirmişdilər. Övladlarının çoxu mücahid ariflər idi; Ona görə də Ərdəbilin “Hidayət şəhəri” olduğunu deyiblər. Yəni burada insanları dinə hidayət edirdilər. Ərdəbillilər hələ Səfəvilər dövründən əvvəl İranda monqol ordularını iki dəfə məğlub edə bilən azsaylı insanlardan idilər. Monqol qoşunları hara getsələr xalqı qorxudurdular ki, geri çəkilsinlər. Ərdəbildə monqol qoşunları iki dəfə xalqa məğlub olaraq geri çəkildilər. Sonralar bu cəsur və mömin insanlar bunu Səfəvilər dövründə böyük və qüdrətli şiə İranının yaranması üçün başlanğıc nöqtəsi edə bildilər. Əlbəttə, onu da deyim ki, Qacar və Pəhləvi hökumətləri dövründə Səfəvilərə nifrət bəslənilirdi və Səfəvilərin tam əksinə olaraq Ərdəbilə ümumiyyətlə diqqət yetirmirdilər. Qacarlar, sonralar isə Pəhləvilər bu uzaq sərhəd nöqtəsinə heç bir məhəl qoymadılar. Ona görə də həm kənd təsərrüfatı, həm sənaye potensialı, həm də sağlam xarici ticarət imkanlarına malik olan bu şəhər indiyə kimi kasıb və məhrum şəhərlərdən biri sayılır.

Niyə?!… Çünki Səfəvilərdən sonra hakimiyyətə gələn bəzi hökmdarlar bu bölgədən, bu insanlardan və o dövrün Ərdəbildə olan qızılbaş tayfalarından qisas almaq istəyirdilər.

*İmam Seyyid Əli Xameneinin 24 İyul 2000-ci ildəki çıxışı*

Səfəvi şahları bizim üçün qürur mənbəyidir. Bilirsiniz ki, biz Səfəvi şahlarına dəyər veririk və hörmət edirik; Çünki onlar Əhli-beyt (ə) məktəbinə tabe olub, İranın istiqlaliyyətini, ərazi bütövlüyünü qoruyub saxlayıblar, amma görürsən, elə həmin Şah Abbas, görkəmli şəxsiyyətlərdən biri, sırf istibdad ucbatından nə qədər zülmlər edib. (Amma) Şah İsmayılla Şah Təhmasibin hesabı fərqlidir.

*İmam Seyyid Əli Xameneinin 1 Yanvar 1991-ci il və 3 Noyabr 2001-ci ildəki çıxışı*

O, adam ki (Şah İsmayıl) özü himmət, iradə və zəhmətləriylə bu bölgədən ayaq açdı. Gəncliyində himmət etdi. Əhli-beyt (ə) aşiqlərini, din və mərifət aşiqlərini özünə yoldaş etdi. İrana nicat verdi. Əhli-beyt (ə) məktəbini bu torpaqlarda və bu bölgənin xalqının qəlbində hakim etdi.

*İmam Xameneinin Meşkin şəhərindəki çıxışından*[1]

Mən Səfəviləri dəyər düşməni kimi göstərənlərdən fərqli olaraq, demək istəyirəm ki, onlar nəinki adi şiəlik, hətta Şiə elmi, fiqhi və kəlamı üzərində də böyük haqqa malikdirlər. Yolu açıb şiə alimlərini yetişdirən və

---

[1] https://www.aparat.com/v/b50mmol

yüksəldən onlar olmuşlar. Əvvəlcə Livandan Mühəqqiq Kərəki kimi böyük alimlər gətirdilər, sonra da yerli alimlər yetişməyə başladı.

*Müqəddəs Ərdəbilinin xatirəsinə həsr olunan elmi konfransın Ali Şurasının üzvləri ilə görüşdə çıxışından: 1996.*

**"Qəməri Bəni Haşim Hüseyniyyəsi"nin Tehrandakı xətiblərindən biri olan Höccətül-İslam Murtəza Ədib Yəzdi:**

Mən monarxiya ilə razı deyiləm, amma Şah İsmayılın modelinin digərlərindən fərqli olduğunu deməliyəm. İnqilabın Ali Rəhbərinin (Allahdan) bağışlanmasını istədiyi yeganə şah mərhum Şah İsmayıl Səfəvidir.[2]

**Əbdülbaki Gölpınarlı:**

Ərdəbiliyyə və ya Səfəviyyə dövləti, Səfiyyəddin İshaq Ərdəbilinin nəvələri tərəfindən, geniş xalq kütlələrinə əsaslanaraq qurulmuşdur.[3]

**Əllamə Təbatəbai:**

906-cı hicri ilində Şeyx Səfiyəddin Ərdəbilinin (Şeyx Səfiyəddin Ərdəbili şiə aləmində böyük şəxsiyyətlərdən

---

[2] https://www.asriran.com/fa/news/291664/تنها-پادشاهی-که-رهبر-انقلاب-برایش-طلب-مغفرت-کرد

[3] Abdülbaki Gölpınarlı, 100 soruda Tasavvuf, səh:150

sayılırdı və 735-ci ildə vəfat etmişdir) sülaləsindən olan 13 yaşlı bir cavan ata-babalarının müridlərindən təşkil olunmuş üç yüz nəfərlik bir dəstə ilə müstəqil və iqtidarlı bir şiə dövləti qurmaq üçün Ərdəbildən qiyama başladı. O, öz ətrafında qoşun toplayaraq İranın ayrı-ayrı xanlıqlardan təşkil olunmuş şahlıq üsul idarəsini devirmək fikrində idi. Şah İsmayıl Səfəvi xanlıqlar arasında, xüsusilə Osmanlı imperatorluğu tərəfindən ələ alınmış Ali-Osman padşahlarının apardıqları qanlı müharibələrdə parçalanmış İranı vahid bir ölkə halına salaraq, bu ölkədə şiəliyi rəsmi məzhəb elan etdi. Şah İsmayılın vəfatından sonra Səfəvi şahları 12-ci hicri əsrinin ortalarına qədər hakimiyyətdə oldular və biri digərindən sonra on iki imamçı şiə məzhəbinin rəsmiyyətini təsdiq etdilər.[4]

**Höccətil-İslam vəl-müslimin Ruhul Əmin Müctəba Əştəri Kəlbasi:**

Səfəvi tarixini araşdıranlar yaxşı bilirlər ki, Şah İsmayıl Səfəvi İmam Mehdi əleyhis-səlamın missiyası əsasında Səfəvi dövlətini qurmuşdur. Şah İsmayıl Səfəvi özünü Mehdi əleyhis-səlamın kəmər bağlayanı elan etmiş, buna

[4] Əllamə Təbatəbai, İslamda Şiəlik, s: 76-77

görə də dövrün alimlərinin dəstəyi ilə İslam sivilizasiyasını qurmuşdu.[5]

**Dr. Musa Nəcəfi:** Dr. Əli Şəriəti "inqilabi şiəlik" layihəsini irəli sürmək istəyir və bunun qarşısında duran cərəyanı "Səfəvi şiəliyi" adlandıraraq ittiham edirdi. Halbuki, Səfəvi şiəliyi bu günkü meyarlarla baxdıqda tam mənasıyla inqilabi idi, hətta bəzi hallarda bu inqilabçılığı daha sərt və kəskin formada təzahür edirdi.[6]

**Kamil Mustafa əş-Şeybi (Bağdad Universitetinin fəlsəfə professor):**

Şah İsmayıl Səfəvinin hərəkatı, əvvəlki Ələvi üsyanlarının bir növ yekunu və zirvəsi kimi meydana çıxdı; bu hərəkat o qədər güclü idi ki, İslam dünyasının bütün şərqini silkələdi. O, atalarının uzun illər boyunca hazırladığı ideoloji və mənəvi zəmin üzərində yüksələrək bütün İranı bir bayraq altında birləşdirdi.[7]

**Tarixçi Əli Anuşəhr:** Səfəvilərin güc qazanması ani üsyan ilə deyil, qızılbaşların təcrübəli rəhbərləri

---

[5] www.espadanakhabar.ir
[6] https:/farsi.khamenei.ir/others-dialog?id=8381
[7] Kamil Mustafa əş-Şeybi, Şiə və Təsəvvüf, səh: 367

tərəfindən ehtiyatla idarə olunan planlı bir kampaniya idi.[8]

**Peter Jackson və Laurence Lockhart:** Bu İsmayıl kim idi ki, öz dövrünün İranına belə bir təsir göstərmiş və əsrlər sonra da onun təsiri hiss olunmuşdu?[9]

**Dr. Musa Nəcəfi, Musa Fəqih Həqqani:** Səfəvilərin zühuru və Qızılbaşların yaratdığı fırtına, digər hadisələrlə (İslamdan sonrakı İran tarixi boyunca) müqayisədə daha çox araşdırılmağa layiqdir və milli-fikri baxımdan daha yüksək prioritet daşıyır.[10]

**Edvard Braun**: Mən "İran ədəbiyyatı tarixi" kitabının (Səfəvi dövrünə aid) dördüncü cildini yazarkən çap olunmamış bir neçə nadir kitaba Şah İsmayıl və digər səfəvilər ilə bağlı olaraq müraciət etdim və həqiqətdə İranın yaradıcısı olan bu ali əsilli ailənin əhəmiyyətini az-çox başa düşməyə başladım... ***Həqiqətən, belə nəzərə çarpır ki, iranlılar indiyə kimi Şah İsmayılın qədrini bilməmişlər. O, türk Sultan Mahmud Qəznəvidən,***

---

[8] "The Rise of the Safavids According to their Old Veterans: Amini Haravi's Futuhat-e Shahi"

[9] History of İran, Kembric nəşriyyatı, c 6, səh: 190

[10] İranın siyasi dəyişiklik tarixi, Dr. Musa Nəcəfi, Musa Fəqih Həqqani, s: 40

***sünni təəssüblü səlcuqlardan, tatar Teymurdan mənim fikrimcə ...sitayiş və ehtirama daha layiqlidir.*** İndiyə qədər Şərqdə və Qərbdə çap olunan tarix kitablarının heç birində Səfəvilərin tarixi lazımi şəkildə öz əksini tapmamış və iranlılar da İranın milli ruhunun oyadılması ilə bağlı Səfəvilərin tarixinə nüfuz edə bilməmişlər.[11]

**Tarixçi Səid Nəcəfinejad**: İran xalqı üçün isə əsrlər boyu belə bir hadisə misilsiz idi. Çünki çox uzun müddətdən sonra ilk dəfə idi ki, şiə məzhəbi dövlət səviyyəsində güclü şəkildə təbliğ olunur, məscidlərdə, məktəblərdə və idarə sistemində rəsmi yer alırdı. Bu, xalqda ***"mükəmməl dini–milli cəmiyyət"*** arzusu oyatmışdı. İnsanlar Səfəviləri yalnız hökmdar deyil, müqəddəs bir missiyanın daşıyıcıları kimi görür, bu inanc uğrunda fədakarlığa hazır idilər.[12]

---

[11] Edvard Braun, Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 685

[12] An introduction to Shiite culture in the historiography of the Safavid era, Saeed Najafinejad, s: 64

# I Fəsil

## Səfəvilərin şəcərəsi

Mənbələrdə Səfəvilərin şəcərəsi belə qeyd olunur:

***Şah İsmayıl, İbn Sultan Heydər, İbn Sultan Cüneyd, İbn Sultan İbrahim, İbn Şeyxşah Xacə Əli, İbn Sultan Sədrəddin Musa, İbn Şeyx Səfiəddin İshaq, İbn Əminəddin Cəbrayıl, İbn Saleh, İbn Qütbəddin, İbn Səlahəddin Rəşid, İbn Məhəmməd Əl-Hafiz, İbn Əvəz Əl-Xəvas, İbn Firuzşah, İbn Məhəmməd, İbn Şərif, İbn Məhəmməd, İbn Həsən, İbn Məhəmməd, İbn İbrahim, İbn Cəfər, İbn Məhəmməd, İbn İsmayıl, İbn Məhəmməd, İbn Əhmədül Ə'rabi, İbn Əbi Məhəmməd Əl-Qasim, İbn Əbül-Qasim Həmzə İbnül-İmamül Hümmam Əbi İbrahim Musaül-Kazim, İbn İmamün – Natiq Cə'fərüs-Sadiq, İbnül-İmam Məhəmməd Əl-Baqir, İbnül-İmam Əli Zeynalabdin, İbnül-İmam Əbi Abdullah Əl-Hüseyn, İbn Əmirəl-Möminin Və İmamül-Mottəqin Əsədullahül-Qalib Əli İbn Əli Talib Əleyhüssalam.***[13]

Səfəvilərin seyyid mənşəyinin ilk dəfə şübhə altına alınması Osmanlı sultanı I Süleymanın dövrünə təsadüf

---

[13] İsgəndər bəy Münşi Türkman. Dünyanı bəzəyən Abbasın tarixi. Bakı, "Şərq-Qərb" Nəşriyyat evi, 2010, səh: 17

edir. Şah Təhmasib öz təzkirəsində qeyd edir ki, *(İsgəndər Paşanın) qürurunun çoxluğu və ədəbsizliyi işi o yerə çatdırdı ki, bizim seyyidlik nəslindən məhrum olduğumuzu elan etdi.”*[14]

Sonrakı mərhələlərdə bu şübhə əsasən şiəlik əleyhdarları tərəfindən istifadə edilmiş, lakin XX əsrə qədər iddialar elmi müstəvidə geniş yer tutmamışdır. 1927-ci ildə tarixçi və publisist Əhməd Kəsrəvi tərəfindən irəli sürülən bəzi tezislər səfəvişünaslıqda yeni mübahisələrin meydana çıxmasına səbəb olmuşdur. Əhməd Kəsrəvi bu mövzu ətrafında çıxış edən ilk tədqiqatçılardan biri hesab olunur. O, seyyid mənşəli və türkdilli olsa da, əsərlərində əsasən sekulyar və fars milliyyətçiliyi mövqeyindən çıxış etmişdir. Bu tarixçinin iddialarında mövcud olan qərəzinin səbəbi öz ideologiyasına Səfəviləri qoşa bilməməsidir. Səfəvilərin özlərini *“seyyid”* olaraq tanıtması və şəriət əsaslı dövlət quruluşuna malik olmaları hər radikal millətçi üçün qərəz doğurur. Çünki bu xüsusiyyətlərə malik olan bir dövlət müasir islamofob düşüncə ilə formalaşmış (türk və fars) milliyyətçi cərəyanların diskurs quruculuğu üçün yararsız hesab edilir və onlar üçün müsbət təəssürat yaratmır. Bu keçən əsrdə də belə idi, müasir dövrümüzdə də belə qalmışdır. Əbülqasim Səhab “Tarixe-

[14] Şah Təhmasibin təzkirəsi, s: 66

zəndeganiye Şah Abbas Kəbir" adlı əsərində yazır: "*Bu sülalənin mənşəyi haqqında bəzi alimlərin yanlış fikir söyləməsinin səbəbi qərəzdən başqa bir şey deyildir.*"

İddianın irəli sürüldüyü dövr də nəzərdən qaçırılmamalıdır. Mənfur Pəhləvi rejimi lehinə fəaliyyət göstərən araşdırmaçı tərəfindən irəli sürülən bu iddialar İranda şiə instutunu zəiflətməyə yönəlmiş məqsədli fəaliyyət silsiləsinin tərkib hissəsi idi. Onun fəaliyyətləri elmi camiədə öz təsirini buraxsa da, tarixi faktlar və sənədlər iddianın əsassızlığını ortaya qoymaq üçün kifayətdir. Aşağıda həmin faktlardan bəziləri təqdim edilmişdir. Şah Təhmasib Özbək xanına yazdığı məktubda belə bir nöqtəyə toxunur: "*Gizli qalmasın ki, ali dərəcəli seyyidlərin nəsəbləri barədə qeyri-məhdud sayda ətraflı və izahlı kitablar yazılmışdır və bunlar İslam əhlinin diyarlarında yayılmış və məşhurdur.*"[15]

Səfəvilərin şəcərənamələri əsasən Səfəvi dövründə qələmə alınmışdır ki, bu da müəyyən şübhələrin yaranmasına zəmin yaratmışdır. Bu baxımdan sual meydana çıxır: Səfəvi dövlətinin təsisindən əvvəl

[15] Həsən bəy Rumlu. Əhsənüt-təvarix. Kastamonu: Uzanlar, 2017, səh: 481

yazılmış və müəllifi Səfəvi şeyxləri ilə əlaqəli olmayan hər hansı bir sənəd mövcuddurmu?

Cavab: Bəli, belə bir sənəd Britaniya Milli Kitabxanasında mövcuddur.

Bu şəcərənamə, Səfəvi hökumətinin qurulmasından illər əvvəl, Nəcəf-i Əşrəfdə sənəd kimi mövcud olmuşdur. ***“Ərdəbil şeyxlərinin nəsəbi”*** adlı bu nəsil cədvəli İmam Museyi Kazıma (ə) qədər uzanır. Bu sənədin müəllifi isə Əli ibn Qasim ibn Həmzə ibn Əli ibn Muhsin Hüseyn Musəvi Nəcəfi adlı bir şiədir.




*Şəcərənamənin surəti*

Sənədin etibarlılığını gücləndirən digər bir məqam isə, onun qələmə alındığı dövrdə Səfəvilərin həmin şəcərənamənin tərtibi ilə heç bir əlaqəsinin olmamasıdır. Bu əlyazma, Britaniya Milli Kitabxanasında *9-1406a* nömrəsi ilə saxlanılmaqdadır və bu günə qədər qiymətli bir tarixi sənəd olaraq mühafizə olunur. Doktor Kazuo Morimoto 2010-cu ilin sentyabr ayında bu əlyazmanı araşdıraraq, adı çəkilən nəsil cədvəlini ***"İranşünaslıq"*** jurnalında dərc olunan məqaləsində təqdim etmişdir. Şəcərənamənin müəllifi, məşhur Şərqşünas Çarlz Rieu tərəfindən nəsəbşünas kimi tanıdılmışdır. Müəllif Nəcəfin tanınmış Seyyid ailələrindən olan "Bəni-Muhəssin" nəslinə mənsub olmuşdur.[16]

Seyyid Salman Səfəvi özünün iranianstudies.org-da yerləşdirdiyi məqaləsində yazır: "Qədim mənbələrdə də şeyxin seyyidliyə mənsubluğu vurğulanır. "Rövzatül-Cənnat"in müəllifi Şeyx Səfiəddini "Ələvi" adlandırır. Bu kitabın müəllifi, sünni məzhəbli olmasına və Səfiəddinin nəslindən olanlara qarşı olmasına baxmayaraq, öz şeyxi Şah Məcəddin (Əmir Bədrəddinin oğlu) vasitəsilə Şeyx Səfiəddinin həyatı zamanı onun seyyidliyə mənsubluğunun aşkar olduğunu, lakin onun bunu açıqlamağa çalışmadığını söyləyir. Qeyd edilir ki,

---

[16] Muhəmməd Kazım Rəhməti, Səfəvilər dövründə Mədəniyyət, s: 54

Şeyxdən soruşurlar: ***"Bu nəsəbi açıqlamaqdan xoşunuz gəlmir?" Şeyx belə cavab vermişdir: "Hansı layiqli əməllə özümü bu şərəfli nəslə aid edə bilərəm?"***

Şeyx Səfiəddinin nəticəsi, Xacə Əli Siyahpuş Qüdsdə vəfat etmiş və Ələvi övladı kimi dəfn edilmişdir. Xacə Əlinin nəvəsi İbrahim Ərdəbildə Mir İbrahim olaraq tanınırdı. [17] 1454-cu ildə vəfat edən Təbrizli Xoca Əbdürrəhim Xuluti 1447-ci ildə vəfat edən Şeyx İbrahim Səfəvi haqqında yazdığı əsərində onun nəsəbini "İbrahim Ələvi Musəvi" kimi qeyd edir. Bu sübutlar göstərir ki, bu xanədanın seyyidliyə mənsubluğu iddiası Səfəvilərin hakimiyyətə gəlməsi ilə eyni vaxtda ortaya çıxmayıb. Müasir dövrdə də tarixçi Əbdülhüseyn Zərrinkub təriqətlər tarixi üzrə yazdığı ***"İranda təsəvvüf axtarışlarının davamı"*** kitabının birinci fəslində Şeyx Səfiəddinin seyyidliyə mənsubluğunu təsdiq edərək, bunu qəti bir həqiqət adlandırır. Analitik baxımdan isə bəziləri qeyd edirlər ki, həmin dövr şiələrin təqib olunduğu və təqiyyənin geniş yayıldığı bir zaman idi; Əmirəlmöminin Əlinin (ə) ailəsinə qarşı edilən zülmlər səbəbilə, onlar seyyidlik nisbələrini hər zaman açıq şəkildə bəyan etmirdilər.”[18]

---

[17] Abbasqulu Ğəfarifər, Xanedan-e Səfəvi. səh: 85

[18] https://iranianstudies.org/fa/1398/10/05/-اهمیت-شیخ-صفی-الدین-اردبیلی-در-تاریخ-ف

Şeyx Səfiəddin ilə eyni dönəmdə yaşamış məşhur şair Nasir Buxarayinin divanında Şeyx Səfiəddinin mədh olunduğu şeirlər yerləşir ki, bu şeirlərdə onun böyüklüyü və seyyidliyə mənsubluğu vurğulanır:

***Yeganə seyyidüs-sədat, fəxr-i Ali-Rəsul,***
***Elm, comərdlik və səxavətdə, mərdlik və hünərdə üstün olan.***

***Güzgü kimi safdır, lakin əynində keçə geyim vardır,***
***Keçə libas onun qamətində gözəl bir surət almışdır.***

***Ali-Mustafanın mədh və fəzilət bağı bir çəmən kimidir,***
***Zamanə isə quldurlar üçün muğilan tikanlığına bənzər.***[19]

Digər bir mühüm dəlil Moğol (monqol) salnamələrində yer alır. Əkbər şah, Səfəvilərin Peyğəmbər nəslinə mənsub olduqlarını əsas gətirərək, Səfəvilərə qarşı Osmanlı-Özbək ittifaqından kənarda qalmağı seçir.[20]

---

[19] Mehdi Derəxşan, «Şeyx və Seyyid kəlməsi ətrafında», Tehran Universiteti Ədəbiyyat və Humanitar Elmlər Fakültəsi, 21-ci il, 4-cü say, s. 159–160.

[20] Farooqi, Naimur Rahman. Mughal–Ottoman Relations: A Study of Political and Diplomatic Relations between Mughal India and the Ottoman Empire, 1556–1748. – Dehli: Idarah-i Adabiyat-i Delli, 1989. s, 20

Pietro Dellevalli öz səyahətnaməsində Səfəvilərə “Hüseyni” deyildiyini və onların nəsil şəcərəsinin İmam Əli (ə)-a  çatdığını yazır.[21]

*“Anadolu Aleviliği'nin Tarihsel Arka Planı”* əsərinin müəllifi Mustafa Ekinçinin nəzərinə görə, Səfəvilərin seyyid bir ailədən olması ehtimalı heç də zəif bir nəzər deyil.[22]

Prof. Dr. Namiq Musalı: ***“Səfəvilər dövlətinin seyyidliyi ilə bağlı Qaraqoyunlular dövrünə aid 1441-ci, 1461-ci ilə aid şəcərələr sübut edir ki, bu şəcərəni Səfəvilər dövlət qurandan sonra uydurmayıblar.”*** [23]

Muhəmmədbaqir Purəmini yazır ki, Şeyx Səfinin seyyidliyini inkar edənlərin arqumentləri etibarlı əsasdan məhrum olduğuna və elmi baxımdan zəif olduğuna görə bu fikri düzgün saymaq olmaz. [24] Təhqiqatçı Samid Bağırov yazır ki, Səfəvilərin seyyidliyini inkar edən araşdırmaçılar çoxluq təşkil edir və onların qənaətinə görə Səfəvilərin bu addımı o zaman dini legitimlik və mənəvi nüfuz qazanmaq məqsədi daşıyırdı. Lakin reallıq bundan ibarətdir ki, Şah İsmayılın altıncı babası olan

---

[21] Pietro Dellevalli, Pietro Dellevallinin səfərnaməsi, (1370) Tehran, s, 43,
[22] Tofiq Nəcəfli, “Səfəvilərin etnik mənsubiyyəti məsələsi müasir Türkiyə tarixşünaslığında”, s.29
[23] lib.az/news/666
[24] Muhəmmədbaqir Purəmini, Səfəviyan nemad – eqtedare İran, səh: 24

Şeyx Səfiəddinin yeddinci babası Firuzşah Zərrinkolahın (XII əsrin II yarısı) istər Mərvdən köçüb gəlməsi, istər Kürdüstandan gəlməsi və vaxtilə hansı ərazidə yaşaması onun seyyid olmamasına dəlalət etmir. Çünki tarixdən bəllidir ki, adıçəkilən ərazilərə ərəblərin ayaq açması elə hicri-qəməri təqvimi ilə I əsrdə baş verib. Belə ki, Əməvilərin zülmündən Əli övladlarının bu bölgələrə köç etməsi Firuzşah Zərrinkolahın yaşadığı dövrdən yüz illər öncə baş vermiş bir hadisədir. Yaxud da Şeyx Səfiəddin və əcdadına vaxtilə "türk" deyə xitab edilməsi və ya fars dilinin hansısa şivəsində məktub və şeir yazması da həmin millətə mənsub olmasını göstərən qəti sübut deyil. Belə ki, müasir dövrümüzdə də seyyidliyi sübuta yetmiş çoxlu insanlar var ki, ərəb dilini bilmir, ərəb ölkələrində yaşamır, eyni zamanda türkdilli və farsdilli olaraq tanınırlar. Bu o deməkdir ki, yuxarıda qeyd edilən məsələlərə görə səfəvilərin seyyidliyini qəti şəkildə istisna etmək doğru sayılmaz.[25]

Alman şərqşünası Hans Robert Roemer (1915-1997) yazır ki, Şirvanşah hökmdarı Sultan Xəlilullah (1465), Osmanlı sultanı II Bəyazid (1447-1512), Ağqoyunlu hökmdarı Sultan Yaqub (1464-1490) Səfəvi şeyxlərinin

---

[25] Samid Bağırov, Şah İsmayılın həyatı ("Fütuhati- şahi" və "Həbibüs-siyər" əsərləri əsasında), s, 26-27

seyyidliyini danmırdılar. Bu məsələ artıq Şah İsmayıl zamanında tərəddüdü olmayan bir məsələ kimi qəbul edilir, şahın özü şeirlərində, habelə, digər rəqiblərinə göndərdiyi məktublarında Əli övladı və seyyid olduğunu deyərək fəxr edirdi.[26]

Ağqoyunlu hökmdarı Sultan Yaqub Şeyx Heydərə qalib gələndən sonra Osmanlı sultanı II Bəyazidə yazdığı fəthnamədə şeyxin seyyid olmasına baxmayaraq yoldan çıxdığını iddia edir.[27] Məhəmməd Mehdi Təbatəbayi öz araşdırmaları ilə Səfəvilərin seyyidliyini təsdiq edir.[28]

Səfəvilərin seyyid mənşəli olmalarının danılmaz fakt olduğunu təsdiqləyən şəxslərdən biri də Əhməd Kəsrəvi olmuşdur: ***"Bu sülalənin nəsəbi o qədər məşhur idi ki, heç kim bununla bağlı şübhə etməmişdir."***[29] Qəribə budur ki, Əhməd Kəsrəvi bu iddiası ilə yanaşı eyni zamanda qərəz ucbatından Səfəvilərin seyyidliyini sual altına aparmaq istəyib.

Özbək xanı Übeyd xan Şah Təhmasibə məktubunda yazır: ***"Həzrət Mürtəza Əlinin (ə) övladı və dostu***

---

[26] Hans Robert, İran dər rahe əsre cədid, (Tərcümə) s. 266.

[27] Ahmed Firudin bey, Münşeatüs-selatin, s. 303.

[28] Məhəmməd Mehdi Təbatəbai, Səfəviyyə əz təxte puste dərvişi ta təxte şəhriyari, "Mahnameyi Vəhid" məcəlləsi, 1354 h.ş, say: 3, s. 722

[29] Əhməd Kəsrəvi, "Şeyx Səfi və nəsli (Şeyx Səfi və təbarəş)", s: 4

***olduğunuzu iddia edirsiniz. Lakin o böyük şəxsiyyətin övladı olub-olmadığınız şübhədən xali deyildir.”***

Şah isə cavabında yazır: ***“Nəsəb barədə dili kəsik qələminin nazik səhifə üzərinə yazdığı pərişan ibarələr və hədyan kəlmələr bizə çatdı. Gizli qalmasın ki, ali dərəcəli seyyidlərin nəsəbləri barədə qeyri-məhdud sayda ətraflı və izahlı kitablar yazılmışdır və bunlar İslam əhlinin diyarlarında yayılmışlar və məşhurdurlar. Aşkar, yayğın və aydın olan bu nəsəb, barəsində hələ heç kəsin bir kitab görmədiyi və nəsəbinin gerçəkliyi məlum olmayan digər nəsəblərə, o cümlədən də türklərin nəsəbinə bənzəməz.”***[30]

Osmanlı–Səfəvi çəkişmələrinin hələ kəskin xarakter almadığı dövrdə Osmanlı sarayı tərəfindən Şah İsmayıla göndərilən ikinci məktubda onun nəsəbinin açıq şəkildə “seyyid” olduğu vurğulanmışdır. II Bəyazid Şah İsmayıla ünvanladığı məktubda onu belə vəsf edir:

***“****Böyüklük sifətini daşıyan şövkətli cənab,* **seyyidliyə mənsub,** *səltənət və hökumət cəngavəri, sağlam fəthlərə sahib, Allahın ədalətini və dininin fərzlərini icra etmək üçün vəzifəli olan Heydər oğlu, Səfəvi sultanı Əmir*

[30] Həsən bəy Rumlu. Əhsənüt-təvarix. Kastamonu: Uzanlar, 2017, səh: 481

*İsmayıl! Uca dövlət silsiləsinin başlanğıcı Dara və Keyxosrovun xəlifəsisiniz, öncəliklə sizə salam və salamat olmağınızı diləyirəm.”*[31]

[31] Fəlsəfi N. Cəng-e mihəni-ye iraniyan dər Çaldıran. Tehran, 1381, s.20-23

## Hərəkatın ilk dönəmi

Səfəvilər tarixin axarını dəyişdirən və mədəni təsirini günümüzə qədər qoruyub saxlaya bilən nadir sülalələrdən biridir. Bu sülalə məzlum kütləlləri ətraflarına toplamış ariflərin təşkilati əməyi və şiə üləmalarının dəstəyi ilə vüsət tapmışdır. Bu hərəkatın tarixə məlum olan birinci rəhbəri Firuzşah Zərrinkolahdır.

Mirzə Məhəmməd ibn Yusuf Valeh İsfahani və digər Səfəvi tarixçiləri Firuzşahı hərəkatın başlanğıc fiquru kimi təqdim edirlər: ***"Kəramət və irşad taxtına əyləşən ilk xoşbəxt şəxs, qızıl tacdan başına papaq qoyan, qapısına müridləri get-gəl edən, bütün camaata ümumi ehsan mehmanxanəsi açan, varlıq dənizinin alovlu gövhəri, məqsəd gövhərinin əziz sədəfi Əmir Firuz şah Zərrin Kolah idi"*** [32]

Qeyd olunur ki, Firuzşah Zərrinkolah Yəməndən çıxıb Ərdəbilə gəlməzdən əvvəl bir müddət İmam Rzanın (ə) Məşhəddəki mübarək məqbərəsinin mühafizi olmuşdur. [33] O, daha sonra İbrahim Ədhəmin oğlunun

[32] Mirzə Məhəmməd ibn Yusuf Valeh İsfahani, Xolde-bərin, səh: 17
[33] W.Hinz. Uzun Hasan ve Şeyh Cüneyd. Ankara, 1992, s.5,109; F.Musəvi. Tarix-i Ərdəbil və daneşməndan. I c. Nəcəf, 1347, s.277.)

göstərişi ilə Ərdəbilə getmiş və Ərdəbilə bağlı ərazilərin idarəsini təhvil almışdır. Ərdəbil şəhəri məhz bu mərhələdən etibarən Səfəvi xanədanının mərkəzi kimi tarix səhnəsinə çıxmışdır.[34]

Dr. Kamil Mustafa əş-Şeybi özünün *"Şiə və Təsəvvüf"* kitabında qeyd edir ki, Firuzşah Zərrinkolah Ərdəbil və ətraf bölgələrdə dini xarakterli bir hərəkat formalaşdırmışdı. Ərdəbil bu fəaliyyətlərinin nəticəsində *"Firuziyyə"* adı ilə tanınırdı.[35]

Firuzşah uzun illər Ərdəbildə fəaliyyət göstərdikdən sonra Talış bölgəsinə köçmüş, burada dini-irşadi fəaliyyətinə davam etmiş və həmin bölgədə vəfat etmişdir. Onun məzarının dəqiq yeri bu günə qədər müəyyən edilməsə də, Lerik rayonunda Firuzşaha aid bir sıra tikilinin mövcudluğu, eləcə də bu bölgədə Ərdəbil mənşəli əhalinin sayca çoxluğu onun burada dəfn edildiyinə dair ehtimalı gücləndirir. İndi bu tikililərə nəzər salaq.

**Lerikin Kələxan kəndində yerləşən *"Zərrin Kılo"* (kılo – fars dilində olan kolah sözünün talış dilində olan mənasıdır, yəni "papaq") bulağı:** Xalq

---

[34] Vilayəti Ə.Ə. Şah İsmayıl Səfəvi dövründə İranın xarici əlaqələr tarixi. Bakı, səh 28, 1998

[35] Dr. Kamil Mustafa əş-Şeybi, Şiə və təsəvvüf, səh: 368

rəvayətinə əsasən, bulaq Firuzşahın hörmətinə belə adlandırılmışdır. Kələxan kəndi bu gün belə Ərdəbil mənşəli əhalinin sayca üstün olması ilə diqqət çəkir.

**Firuzşaha dair digər mühüm abidə Lerikin Lüləkəran kəndində yerləşən *"Qırmızı Məscid"*dir.** Bu tarixi ibadətgah hazırda Lüləkəran kənd məscidi kimi qeydiyyata alınmışdır. Kənd ağsaqqallarının rəvayətinə görə, Şah İsmayılın ulu babası Firuzşahın məzarı burada yerləşir. XIX əsrin tanınmış qaçaqlarından Qaçaq Şahverənin qardaşı Əşrəf ağa Firuzşahın xatirəsinə Lənkərandan ustalar dəvət edərək burada qırmızı kərpicdən bir məscid inşa etdirmişdir. Həmin dövrdə qırmızı kərpicdən tikilmiş binalar xüsusi dəyər daşıdığından, bu məscid Lüləkəran kəndinin ən mühüm tikililərindən biri hesab olunmuşdur. Məscidin adı da tikilinin bu xüsusiyyətinə görə verilmişdir. Rəvayətə əsasən, məscid məzarın üzərində inşa edilmişdir. Bununla belə, məsələ geniş elmi araşdırmalardan kənarda qalmış və əlavə tədqiqatlara ehtiyac duyulur.

Firuzşahın vəfatından sonra onun oğlu Əvəz əl-Xəvas Ərdəbilə qayıtmış və fəaliyyətini burada davam etdirmişdir. Mənbələr onun evində insanlara dərs keçdiyini qeyd edir.

*“Aləm-arayi Şah İsmayıl”* əsərində qeyd olunur ki, Şeyx Səfiəddin İshaqın babası Seyyid Saleh Gürcüstana səfər edərək orada yaşayan xristianlar arasında İslam dinini təbliğ etmişdir. Rəvayətə görə, onun bu fəaliyyəti nəticəsində bölgədə İslam dinini qəbul edənlərin sayı gündən-günə artırdı. Seyyid Salehin bu fəaliyyətləri Gürcü hakiminin qulağına çatmış və onu hiddətləndirmişdi. Gürcü hakiminin əmri ilə Ərdəbilə hücum edən Gürcü qoşunu şəhərdə qırğın törədib oranı talan etdikdən sonra geri qayıtdılar. Bu hücum zamanı Seyyid Saleh ağır yaralanmışdı. Mənbələrdə onun bu qarşıdurmadan ağır yaralı olmasına baxmayaraq sağ çıxdığı bildirilir. Amma *“Aləm-arayi Şah İsmayıl”* əsərində qeyd olunur ki, o ağır yaralardan şəhid olmuşdur.

Seyyid Salehdən sonra oğlu Cəbrayıl atasının fəaliyyətini davam etdirmişdir. “Əminuddin” (“dinin etibarlı şəxsi”) ləqəbi ilə tanınan bu şeyx Ərdəbilin məşhur ariflərindən biri hesab olunurdu. Gənc yaşlarında dərviş libası geyinərək Şiraza getmiş və orada dövrün tanınmış sufi şeyxlərindən biri olan Xacə Kəmaləddin Ərəbşah Ərdəbilinin yanında təxminən 20 il müridlik etmişdir.

Daha sonra mürşidinin qızı ilə evlənərək Ərdəbilə qayıtmış və evini şəhərin təxminən 3 km şimalında

yerləşən Gohəralan (indiki Kəlxoran) kəndində, İmamzadə Həmzənin məzarı yaxınlığında inşa etdirmişdi.[36]

1622-ci ildə I Şah Abbas babasının Kəlxoran kəndində yerləşən məzarı üzərində gözəl bir məqbərə tikilməsi barədə göstəriş vermişdi. Məqbərə gözəl xalçalar və pərdələrlə bəzədilmiş, zəvvarlar üçün cazibədar bir ziyarətgah halına gətirilmişdi. Məqbərənin ətrafında Firuzşah Zərrinkolahın oğlu Seyyid Əvəz əl-Xəvasın, İmamzadə Həmzənin və Seyyid Muhəmməd əl-Ərabinin məzarları yerləşir.

Səfəvi dövlətinin qurulmasından sonra şah ailəsinin üzvləri Şeyx Cəbrayıl və Şeyx Səfi məqbərələrini tez-tez ziyarət edir, təmizlik və baxım işlərinə xüsusi diqqət göstərirdilər. Şah Təhmasib isə müşkül işlərində bu ziyarətgahlara üz tutar, xüsusilə babası Şeyx Cəbrayılın evində qalaraq gecələrini münacatla keçirərdi.[37]

Bu mərhələ Səfəvi təşkilatının ilkin nüvəsini təşkil edir. Firuzşahdan sonra fəaliyyətlərinə davam edən bu ailə artıq Şeyx Səfiəddin İshaq dövründə Ərdəbilin köklü və nüfuzlu ailələrindən biri kimi tanınırdı.

---

[36] Dr. Kamil Mustafa əş-Şeybi, Şiə və Təsəvvüf, səh: 370

[37] Mehmet Dağlar, Şah Tahmasbın Dini Siyaseti, İstanbul 2019, s: 132,

## Şeyx Zahid Gilani

Səfəvilər sıfırdan formalaşmış bir hərəkat deyildi; Ərdəbildəki Firuziyyə və Gilandakı Zahidiyyə hərəkatlarının təşkilati varisi kimi təşəkkül tapmışdı. Zahidiyyə təriqəti adını gilanın məşhur ariflərindən biri olan Şeyx Tacəddin İbrahim Zahid Gilanidən almışdır. Şeyx Zahid Gilani Sultan Xudabəndə sarayında hörmətlə qarşılanan arif və alimlərdən biri idi. Milliyətcə Talış olan bu Şeyx nüfuzlu ariflərin nəslindən gəlirdi. Şeyxin özü də mənsub olduğu təsəvvüf silsiləsinin qütbü [38] hesab olunurdu. Səfəviyyə hərəkatının formalaşması və eləcə də Şah İsmayıl qiyamına qədər uzanan silsiləvi təşkilati fəaliyyətin təməlində Şeyx Zahidin məqsədyönlü zəhməti dayanır.

Təəssüf ki, Şeyx Zahidin həyatı barəsində ətraflı məlumat mövcud deyil. Onun haqqında yazılan ən müfəssəl kitab nəvəsi Şeyx Sədrəddin Musanın nəzarəti altında qələmə alınmış "Səfvət əs-Səfa" əseridir. Bu səbəbdən Şeyx Zahid haqqında təqdim olunan məlumatlar əsasən məhdud və ümumi xarakter daşıyır.

Atası Şeyx Rövşən siyasi qarışıqlıqlar səbəbilə Xorasandan Talış bölgəsinə köçmüş və Füməndə bir

---

[38] Qütb - İrfan və təsəvvüfdə ən yüksək mənəvi mərtəbəyə çatmış kamil insan hesab olunur və o, bütün silsilələri hidayət edir.

dəmirçinin qızı ilə evlənmişdi. Daha sonra Lənkəranın Siyavrud kəndinə gəlmiş və ömrünün sonunadək burada yaşamışdır.

Şeyx Zahid 1215-ci ildə Lənkəranın Siyavurd kəndində dünyaya göz açmışdı. Dünyəvi elmləri müəyyən səviyyədə mənimsədikdən sonra təsəvvüfə yönəlmiş və irfan təhsilini Astaranın Butəsər (indiki Pensər) kəndində məskunlaşmış Seyyid Cəmaləddin Cəbəlidən almışdır. Seyyid Cəmaləddinin tədrisi dövründə nümayiş etdirdiyi əxlaqi keyfiyyətlərinə görə ona *“Zahid”* ləqəbi verilmişdir.

XIII əsrdə Talış ərazisi inzibati olaraq Gilanın tərkibində olduğu üçün Şeyx Zahid *“Gilani”* təxəllüsü ilə yad edilir. Mənbələrdə şeyxin təxəllüsləri arasında *“Kurdi”* təxəllüsünə də rast gəlmək olur. *“Kurdi”* talış dilindən tərcümədə “dərviş” və ya “nohə deyən” mənasına gəlməklə *(kırdi-ağlaşma və ya ağı)* şeyxin dərvişanə həyat tərzi və dini mərasimlərlə bağlı fəaliyyətinə işarə edir.

Şeyx Zahid ərəb, fars, gilək, talış, pəhləvi və kürd dilini mükəmməl səviyyədə bilməklə yanaşı, bu dillərdə şeirlər də yazmışdır. “Fütuhati-Şahi” əsərində Şeyx Zahid Gilani *qısa boylu, parlaq rəngli, enli kürəkli, alnı açıq və*

*gür saqqallı* biri kimi təsvir edilir.[39] Mənbələr Şeyx Zahidin şəxsi həyatı haqqında bu təsviri bizə təqdim edir ki, o yuxuya çox az vaxt ayırar, xanəgahın işlərindən əlavə gündüzlər vaxtını oruc və gündəlik namazlar ilə, gecələri isə münacat və Quran oxumaqla keçirərdi. Təriqətin əldə etdiyi gəlirə baxmayaraq o, öz zəhməti ilə ailəsinin dolanışığını qazanmaqdan əl çəkməzdi. Şeyx Sədrəddin nəql edərmiş ki, babası Şeyx Zahid öz təkyəsi və evi üçün o qədər odun daşıyıbmış ki, çiynində şişlər yaranıbmış. Bu zəhmətkeş kişinin əynində bir köynəyi var idi və uzun müddət həmin köynəkdə gəzərdi. Hətta anasının toxuyub ona göndərdiyi köynək və digər geyim əşyalarını da öz ehtiyaclı müridlərinə bağışlamışdı.[40]

Şeyx Zahidin getdikcə artan nüfuzu nəticəsində ətrafında geniş və təşkilatlanmış bir mürid kütləsi formalaşmışdı. Bu mürid şəbəkəsi geniş bir coğrafiyanı əhatə etməklə müxtəlif sosial təbəqələrdən olan insanları bir araya gətirirdi. Mənbələrin rəvayətinə görə, Qazan xan başda olmaqla bir sıra dövlət xadimləri də şeyxi ziyarət etmişlər. Eyni mənbələrdə Şeyx Zahidin 100.000 müridi

---

[39] Fütuhati-şahi, s. 16

[40] Şeyx Səfi təzkirəsi, s. 82-83

və 400 xəlifəsinin olduğu, onlardan 12 mininin isə bu bölgədə yerləşdiyi qeyd olunur.[41]

Şeyx Zahidin irşad fəaliyyəti və mürid şəbəkəsinin genişləndirilməsi məqsədi ilə müxtəlif məntəqələrə etdiyi səfərlər qeydə alınmışdır. Mehman Süleymanov "Şeyx Səfiəddin Ərdəbili" adlı kitabında bu səfərlərin adlarının bəzilərini sadalayır: *Şirvan, Güştasb (Salyan bölgəsi), Səblan, Abgərmkuh, Sərab, Muğan, Alaruğ, Ərdəbil, Şitavənd, Pişkin və Kəlxoran kəndi.*[42]

Zahidiyyə təriqətinin sürətlə genişlənməsi əvvəllər Şeyx Zahidə böyük hörmət bəsləyən Şirvanşah III Axsitanı ciddi şəkildə narahat edirdi. Bu narahatlıq hətta Şeyx Zahidi aradan götürməyə qədər irəliləmiş, lakin sui-qəsd planı baş tutmamışdı. Mənbələr sui-qəsd zamanı Şeyx Səfinin xüsusi fədakarlıq ilə özünü Şeyx Zahidə sipər etdiyindən bəhs edir.[43]

Rəvayət edilir ki, Şeyx Zahid ömrünün sonlarında daim oruc tutar, iftarını isə su ilə açardı. Şeyxin bu vəziyyətindən narahat olan müridləri onun üçün gözəl

---

[41] Aləmara-yi Səfəvi. Tehran, 1350, s.11; Cahanquşayi-Xaqan. Tehran, 1400, s. 68

[42] Mehman Süleymanov, Şeyx Səfiəddin Ərdəbili, Bakı, s: 70

[43] Şeyx Səfi Təzkirəsi, s. 91-92

ətli yeməklər bişirsələrdə o, öz sadə iftarından əl çəkməzdi. Tələbələrinin yeməyini öz yeməyindən üstün tutan bu şeyx oruclu halda dünyasını dəyişdi.[44]

1301-ci ildə vəfat edən Şeyx Zahid Siyavurd kəndində torpağa tapşırıldı. Lakin bir müddət sonra kəndi su basmış və nəşi Şeyx Heydər tərəfindən Hiləkəran kəndinə köçürülmüşdür. Şeyxin cənazəsinin bu kəndə gətirilməsindən sonra kəndin adı Şeyx Zahidin hörmətinə *Şıxəkəran (Talış dilində - Şıxakon - Şeyx evləri deməkdir)* olaraq məşhurlaşdı.

1478-ci ildə Şeyx Heydər bir neçə nəfər mahir bənna və nəccarla gəlib məqbərə ilə günbəzi təmir etdirmişdir. Şah İsmayıl Səfəvi 1500-ci ildə, I Şah Abbas isə 1609-cu ildə buranı ziyarət etmişdilər. Nəsəbus-Səfəviyədə Şeyx Zahidin övladlarının Səfəvi şeyxləri tərəfindən himayə edildiyi yazılır.[45]

Şıxakəran kəndinin axundu Əzizov Muxtar nəqlinə əsasən, Sovet dövründə insanlar Şeyx Zahidin məqbərəsini gizlicə ziyarət edirdilər. Daha sonra Sovet hökuməti tərəfindən türbə söküldükdən sonra insanlar Şeyxin qəbrinin aradan getməməsi üçün məzar üzərində

---

[44] Azərbaycan Mədəniyyətinin Görkəmli Nümayəndəsi Şeyx Tacəddin İbrahim Zahid Gilani, Müşfiq Bayramov / Kamal Mahmudov

[45] Şeyx Abdal Zahidi, Nəsəbus-Səfəviyə, s. 103-104

taxtadan kiçik kümə (kiçik tikili) tikmişdilər. Sovet hakimiyyətinin aradan getməsindən sonra isə kənd camaatı öz hesabına bu gün mövcud olan türbəni inşa etmişlər.

Hazırda türbəyə nəzarət edən Şıxakəran kənd sakini Anar Məmmədov deyir: ***"Mən və atam türbəyə qulluq edirik. Məndən əvvəl isə atam və babam bu işi görüb baxıblar. Yəni mənim ulu babalarım daim Şeyximizin türbəsinə nəzarət ediblər. Babam o vaxt deyərdi ki, ötən əsrin 60-cı illərində Şeyxin məzar daşı sökülərək, Leninqrada (indiki Sankt Peterburq) "Ermitaj Muzeyi"nə aparılıb. İndi də Şeyxin məzar daşı həmin muzeydə qorunur".***




*Cavan Səfiəddin Şeyx Zahidin hüzurunda*

## Şeyx Səfiəddin Ərdəbili

### Tarixi portret

Əbul-fəth Şeyx Səfiəddin İshaq Ərdəbili miladi 1252-ci ildə Ərdəbil yaxınlığındakı Kəlxoran kəndində dünyaya göz açdı. O, Səfəvilərin ulu babası və Səfəvi təriqətinin banisidir. Əsl adı İshaq olan bu arif ***"Hümayun Səfiəddin"*** və ***"Nəcibəddin"*** ləqəbləri ilə də yad edilir.[46]

Şeyx Hüseyn ibn Şeyx Abdal Zahidin nəqlinə əsasən, Şeyxin zahiri görkəmi aşağıdakı kimi olmuşdur:

***"Orta boylu, üz cizgiləri gözəl, saqqalı gur, gözləri iri və qara, qaşları enli, saçları sıx idi. Alnının sağ tərəfində iri, qırmızı bir xal var idi."***[47]

O, sarışın simasına görə ***"Zərrin-Məhasin"*** ("qızıl saqqallı") ləqəbi ilə də tanınmışdır.[48] Məşhur qaynaqlar Şeyx Səfiəddinin təbiəti haqqında yazır ki, Şeyx Səfiəddin şübhəli olan heç bir qidanı yeməz, uşaq ikən digər tay-tuşlarına qaynayıb qarışmaz və uşaqlıq illərinin təbii tələbi olan oyunlara da qatılmazdı.[49] Mənbələrdə

---

[46] Qasim bəy Həyati Təbrizi, Tarix-e Qasim bəy Həyati Təbrizi, American Oriental Society – New Haven, Connecticut, 2018, s: 111

[47] Nəsəbus-Səfəvi, s, 27

[48] Səfvətus-səfa, s, 961-962

[49] Nəsəbus-Səfəvi, s, 16

qeyd olunur ki, şeyxin qidalanmada olan vasvaslığı Gilan səfərinə qədər davam edibmiş. Atasını uşaq yaşlarından itirən İshaq, ibtidai təhsilini onun davamçılarından almışdır. O, Ərdəbildə dini elmlərin əsaslarına yiyələnir. Əbdülhüseyn Zərrinkub Şeyx Səfiəddin İshaqın elmi məqamı haqqında yazır:

***"Onun rəsmi elmlərdə nə qədər dərin biliyə malik olduğu dəqiq bilinmir, lakin dedikləri və davranışlarından dini elmlərə kifayət qədər bələd olduğu aydın olur. "Aləmara-ye Abbasi"-nin müəllifinin bildirdiyinə görə, o, bir müddət zahiri fəzilət və kamilliklər əldə etməyə çalışmışdı. Bu kamilliklər o dərəcədə idi ki, Quranı əzbərləmiş, dini vacibatlar və sünnələri dərin bilmişdi. "Rövzətul-cinan" əsərinin müəllifinin rəvayətinə əsasən, o, şeir və ədəbi incəliklərdən də zövq alırdı."*** [50]

"Cambridge University Press" tərəfindən nəşr olunan İran tarixinə həsr olunmuş 7 cildlik əsərin 6-cı cildində Şeyx Səfi haqqında belə məlumat verilir:

***"Şeyx Səfi zahidlik və ibadətlə tanınsa da, onun xarakterində elə cəhətlər vardı ki, bunlar adi bir sufinin təcrid olunmuş, meditativ həyat tərzi ilə uyğun***

---

[50] Doktor Əbdülhüseyn Zərrinkub, İranda təsəvvüfün axtarışı, Əmir Kəbir müəssisəsi, səh: 60-61

***gəlmirdi: özünəinam, təşəbbüskarlıq, əldəetmə istəyi kimi xüsusiyyətlər. O, mənbələrdə ziddiyyətli və paradoksal bir şəxsiyyət kimi təsvir olunur, möcüzə göstərən Allah adamı ilə aydın düşüncəli, praqmatik siyasətçi bir bədəndə birləşmişdi".***[51]

Kembric üniveritetinin akademikləri tərəfindən aparılan bu təhlil, Şeyx Səfinin zahid kimliyi ilə yanaşı siyasi-ictimai şəxsiyyətə də malik olduğunu və sadəcə Səfəvi təriqətinin deyil, həm də Səfəvi qiyamının da inkişafında mühüm rol oynadığını göstərir.

## Mürşid axtarışında

Şeyx Səfiəddin, atası kimi, gənc yaşlarından etibarən təsəvvüf yoluna maraq göstərmiş və mənəvi kamilliyə çatmaq arzusu ilə yaşamışdı. O, günlərinin böyük hissəsini ariflərin məzarları yanında ibadət və təfəkkürlə keçirirdi. Bir müddət sonra Şeyx Səfi təsəvvüfdə daha yüksək mərhələlərə yetişmək və mənəvi tərbiyəsini kamilləşdirmək məqsədilə Şiraza getmək qərarına gəlir. Lakin anasının narahat olacağını düşündüyü üçün bu niyyətini birbaşa açıqlamır. Şirazda tacirliklə məşğul

[51] The Cambrıdge History Of Iran, c, 6, The Timurıd And Safavid Periods Edited By Peter Jackson Lecturer In History, University Of Keele And The Late Laurence Lockhart s, 191

olan qardaşı Səlahəddini ziyarət etmək adı ilə səfərə icazə istəyir və anasının razılığını aldıqdan sonra Şiraza yola düşür. Amma Şiraza çatdıqda, uzun müddət axtarışında olduğu Şeyx Nəcibəddin Bazğəşin artıq vəfat etdiyini öyrənir. Təəssüf hissi ilə Şirazın böyük təsəvvüf ocaqlarından biri olan Şeyx Abdullah Xəfifin xanəgahına üz tutur.

Şirazda müəyyən imkana malik olan qardaşı Səlahəddin onu öz evinə çağırsa da, o, xanəgahın sadə süfrəsini özü üçün daha faydalı görür.[52] Gənc İshaqın burada qalması Şirazın tanınmış arif və alimləri ilə tanış olmasına imkan yaratdı. Mənbələrdə qeyd olunur ki, o, burada etdiyi ibadət və münacatlar zamanı o qədər ağlamışdı ki, yanaqlarında müvəqqəti izlərin qalmasına səbəb olmuşdu.[53]

Gənc İshaq burada Şeyx Zəhirəddin Əbdürrəhman, Fars ədəbiyyatının böyük şair və ariflərindən Sədi Şirazi[54], Mövlana Rədiyuddin əl-Maliki (o, bu alimdən təfsir dərsləri almışdı), Rüknəddin əl-Maliki, Şeyx Rüknəddin Bayzavi və Əmir Abdullah Farsi kimi ariflər ilə görüşdü. O, burada günlərini ibadət etmək və xanəgaha sığınan

---

52 Doktor Əbdülhüseyn Zərrinkub, İranda təsəvvüfün axtarışı, s, 61

53 Nəsəbus-Səfəvi, s, 18

54 “Fütuhati-şahi”, s. 15

insanlarla söhbət etmək ilə keçirirdi.[55] Bir gün Şiraz sufilərindən biri gənc İshaqa Mövlanə Abdullah Şirazi adında bir arifdən bəhs etmiş və onun sorağına getməyini tövsiyyə etmişdi. Gənc İshaq, Mövlana Abdullah Şirazinin yanına getdikdə mehribanlıqla qarşılandı:

***“Ey gözümün nuru, sən kimsən, haradansan?”***

Şeyx Səfiəddin cavab verdi: ***“Mən bir mürşid axtarıram, siz mənim şeyxim olarsınız?”***

Mövlanə gülümsəyib dedi: ***“Məndə bu hal yoxdur. Amma sənə yol göstərə bilərəm: Gilana get, Şeyx İbrahim Zahidin xidmətinə çat. O, bir süvaridir, süvarilər yetişdirəndir, mən isə hələ piyada qalmışam.”***[56]

Gənc İshaq Gilanlı mürşid haqqında soruşduqda belə bir cavab alır: ***“Sizin vilayətinizin (Ərdəbilin) yaxınlığında yerləşən Gilanda yaşayır. Qısa boylu, qırmızı yanaqlı, qara gözlü, alnı açıq və geniş, başının üzərində isə saçı yox, saqqalı da çoxdur”.***[57] Şeyx Səfiəddin 4 il Şirazda qaldıqdan sonra Ərdəbilə qayıdır və anasının yanında bir

---

[55] Doktor Əbdülhüseyn Zərrinkub, İranda təsəvvüfün axtarışı, s, 62

[56] Cahanquşayi-Xaqan, s, 68

[57] “Fütuhati-şahi”, s. 16

müddət qaldıqdan sonra yenidən icazə alaraq Şeyx Zahidin sorağına gedir.[58]

Şeyx Səfiəddinin Şiraz səfərinin əsas məqsədi Sührəvərdi silsiləsinin görkəmli nümayəndələrindən biri olan bir sufi şeyxi ilə görüşmək və onun irfani dərslərindən faydalanmaq idi. Lakin bu görüş Şeyx Nəcibəddinin vəfat etməsi səbəbilə baş tutmamışdı. Bununla belə, ilahi təqdir Şeyx Səfiəddinin yolunu Sührəvərdi silsiləsində qütb sayılan Şeyx Zahid Gilaninin yolu ilə birləşdirdi.[59]

## Müridin mürşidinə qovuşması

Şeyx Zahid adəti üzrə Ramazan ayı boyunca xəlvətə çəkilərək bütün gününü ibadətə sərf edərdi. Amma Şeyx gənc İshaqın gəldiyi həmin gün gözlənilmədən otağından çıxdı. O, bir cavanın xanəgahın kənarında namaz qılmaqla məşğul olduğunu gördükdə xidmətçisinə işarə edərək dedi: ***“o gənci namazdan sonra yanıma gətir.”***

O, namazını bitirdikdən sonra Şeyx Zahidin görüşünə yollandı. Cahanquşayi-Xaqan əsərində bildirilir ki, o

---

[58] Cahanquşayi-Xaqan, s, 68

[59] Doktor Əbdülhüseyn Zərrinkub, İranda təsəvvüfün axtarışı, s. 63

Şeyx Zahiddən 80 sual soruşmuş, Şeyx isə bu suallara dəqiqliklə cavab vemişdi.[60]

Görüş Şeyx Səfiəddinə o qədər xoş təsir etdi ki, dərhal Şeyx Zahidin əlini öpdü. Şeyx Zahid isə ona tərəf baxıb dedi: ***"Xoş gəlmisən".***

Şeyx Hüseyn ibn Şeyx Abdal Zahidinin rəvayətinə əsasən, Şeyx Zahid əbasını gənc İshaqa geyindirmiş və Şeyx Səfiəddini Məhəmməd Xəlilana tapşıraraq demişdi ki, onu öz xüsusi otağına aparsın və ona yaxşı qulluq etsin.[61] Şeyx Zahidin məktəbi müasiri olan digər sufi məktəblərindən bir sıra xüsusiyyətlərinə görə fərqlənirdi. Zahidiyyə təriqətinin müridləri digər sufi məktəblərinin müridləri kimi qapalı mühitdə yetişdirilmirdi. Mənbələr müridlərin bəzən Şeyx Zahidə etiraz etdiyini yazır. Bu davranış dönəmin bəzi təsəvvüf məktəblərində itaətsizlik kimi qiymətləndirilsə də, Zahidiyyə təriqətində adi hal hesab olunurdu. Bu nüans Şeyx Zahidin fərqli tərbiyə metoduna işarə edir. Şeyx Zahid müridi İshaqı Gilanda tərbiyə adı ilə həbs etməmiş, müəyyən müddət Ərdəbilə

---

[60] Cahanquşayi-Xaqan, s, 69

[61] *Müəllifin bildirdiyinə görə bu şəxs Şeyx Zahidin çox yaxın bir müridi olub. Onunla hətta gizli sirlərini də paylaşarmış.*

gedib anasını ziyarət etməsinə icazə vermişdi. Hətta bəzi hallarda bu ziyarət Şeyxin təşviqi ilə baş verirdi.[62]

Gənc İshaq burada ağır riyazətlərlə üzləşdi. Gününü ibadət və tapşırıqları yerinə  yetirməklə keçirər, nəfsini sındırmaq üçün özünü ən ağır xidmətlərə yönələrdərdi. Günlük orucların iftarını isə az, yağsız və sadə qida ilə açardı. Bu dövrdən etibarən o, heyvan mənşəli yeməkləri də tərk etmişdi. Şeyx İshaq Baqlanidən rəvayət edilir ki, bir gün Şeyx Zahidin xanəgahının kənarında idim. Eşidirdim ki, Şeyx, qardaşı Süleymana deyirdi ki, *bu oğlanı nə ilə sınadımsa, hər şeyi gözlədiyimdən yaxşı çıxdı.*[63]

Ərdəbildən gələn bu cavan qısa zamanda gözəl əxlaqı ilə Şeyx Zahidin rəğbətini qazandı. *“Səfiəddin”* adını da məhz burada yaşadığı illərdə həmin əxlaqına görə alıb. Nəsəbus-Səfəvinin müəllifi Şeyx Zahid və Şeyx Səfiəddinin münasibəti haqqında bu məlumatı bizə verir ki, Ramazan ayı gəldikdə Şeyx Zahid, Şeyx Səfiəddindən başqa heç kim ilə görüşməzmiş.[64] Bir müddət sonra Şeyx Zahid onu öz qızı Fatimə ilə evləndirdi. Mənbələrdə Şeyx Səfiəddinin bu xanımına verilən *“bibi”* ləqəbinə rast gəlmək mümkündür.

[62] Doktor Əbdülhüseyn Zərrinkub, İranda təsəvvüfün axtarışı, 62
[63] Fütuhati-şahi s, 18
[64] Nəsəbus-Səfəvi, s, 27

Ehtimal ki, bu ləqəb xanımın yoldaşı ilə birgə gördüyü xeyriyyəçilik işlərindən qazandığı ləqəb olmuşdur.

Şeyx Səfiəddin Şeyx Zahidin yanında 25 il qaldı. Bu 25 ilin sonlarında bir gecə Şeyx Səfiəddin yuxusunda başında tac, əlində isə kəskin bir qılınc olduğunu görmüş, tacı başından götürdükdə isə tacın parlaq bir günəşə çevrilib, ətrafı işıqlandırdığını müşahidə etdi. Şeyx Səfiəddin yuxudan oyanıb tez Şeyx Zahiddən yuxunun yozumunu soruşdu. Şeyx Zahid təbəssümlə ***“Qeyb aləmindən sizə verilən hökümət mübarək olsun. Sizə müjdə olsun ki, övladlarınızdan biri hökmdar və haqq dinin təbliğçisi olacaq”***[65]. Sonra müridlərinə dönərək dedi: ***“Uca Allahın seçilmişi olan bu gənclə nəzakətli olun.”***[66]

O, Şeyx Zahidin göstərişi ilə təbliğ üçün Ərdəbilə göndərilənə qədər burada yaşadı. Şeyx Zahidin cavan Səfiəddinə belə dediyi qeyd olunur:

**"Kənara çəkilib ibadət etmək mənim üçün mümkündür, amma sənin üçün yox. Allah səni böyük bir iş üçün nəzərdə tutmuşdur. Müridlərin tərbiyəsini hər zamandan**

[65] Ələmara-yi Səfəvi. Tehran, 1350, s.13
[66] Yenə orada

**daha ciddi şəkildə öz öhdənə almalı və onların sayını artırmalısan".**[67]

Şeyx Zahid ölüm yatağında müridlərinə Şeyx Səfiəddinə işarə edərək buyurdu: ***"Məndən sonra yerim Şeyx Səfiəddin İshaq əl-Hüseyni əl-Musəviyə məxsusdur"***. Şeyx Zahidin bəzi müridləri buna etiraz edərək dedilər: ***"Bu qədər zəhməti qoyub, yad birinə itaəti əmr edir, övladını isə məhrum edirsən?"***

Şeyx isə onlara belə cavab verdi: ***"Siz bilmirsiniz ki, Allah Təalanın Şeyx Səfiyə olan mərhəmət və diqqəti necə uca bir məqamdadır. Onun övladları bütün dünyaya yayılacaqlar."***

Şeyx Səfiəddin Şeyx Zahidin göstərişi ilə Ərdəbildə xanəgah və zaviyə tikdirdi. Təbriz və Marağada da irşad işləri ilə məşğul oldu.[68] Şeyx Zahidin görmə qabiliyyəti zəiflədikdən sonra xanəgahın işlərini Şeyx Səfi öhdəsinə götürmüşdü.

Son günlərində Şeyx Zahidin səhhəti daha da ağırlaşmış, şiddətli hərarət onu zəif salmışdı. O, vəfatından əvvəl son dəfə müridlərini bir yerə topladı. Xirqəsini Şeyx Səfinin əyninə geyindirdi, kəmərini açaraq onun belinə

---

[67] İranın siyasi dəyişiklik tarixi, Musa Nəcəfi, Musa Fəqih Həqqani, Tehran, 1388, s: 44
[68] Doktor Əbdülhüseyn Zərrinkub, İranda təsəvvüfün axtarışı, s, 63

bağladı və qulağına bir neçə nəsihət söylədi. Daha sonra müridlərə işarə etdi ki, hamısı ayağa qalxaraq Şeyx Səfi ilə yenidən beyət etsinlər.

Ertəsi gün Şeyx Zahid Gilani vəfat etdi. Onun cənazəsini Şeyx Səfi yuyub kəfənə bükdü, cənazə namazını qıldırdı və dəfn mərasimini yerinə yetirdi. Şeyx Səfi 6 il ustadının qəbrinin yanında ibadətlə məşğul olduqdan sonra Ərdəbilə doğru yola düşdü.[69] Ehtimal ki, mənbədə qeyd edilən bu altı illik müddət onun təriqət üzərində nəzarəti ələ aldığı mərhələ ilə əlaqədardır.

## Səfəviyyə cərəyanının təşəkkülü

Şeyx Zahid Gilani yalnız mənəvi deyil, həm də təşkilati və siyasi baxımdan güclü bir irsi Şeyx Səfinin ixtiyarına qoymuşdu. Geniş mürid şəbəkəsi, maddi imkanlar və Elxanilər ilə əlaqələr artıq Şeyx Səfinin əlində idi. Şeyx Səfiəddin İshaqın rəhbərliyə gəlməsi ilə təriqətdə bəzi dəyişikliklər meydana gəlmişdir. Zahidiyyə təriqəti Səfəviyyə adını almış və təriqətin mərkəzi Talışdan Ərdəbilə köçürülmüşdü. Həmin dövrdə Ərdəbil şəhəri kiçik və əsas yollardan uzaqda yerləşən bir məskən olması ilə yanaşı, strateji baxımdan da orduların asanlıqla nüfuz edə bilməyəcəyi coğrafi şəraitə malik idi.

[69] Cahanquşayi-Xaqan, s, 73

Dağlar, meşəliklər və keçilməsi çox çətin olan bataqlıqlar arasında yerləşən şəhər, səfəvilərin hakimiyyətə doğru gedəcəyi yolda möhkəm bir sığınacaq idi.

Şeyx Səfiəddin İshaq Ərdəbildə qısa fəaliyyət dövrü keçirdikdən sonra şəhərin nüfuzlu şəxsiyyətlərindən birinə çevrilmiş və ətrafında, eləcə də bölgədə geniş mürid şəbəkəsi formalaşmışdır.[70] Rəvayətə görə, bu şəbəkə Amudəryadan Fars körfəzinə, Qafqazdan Misirə qədər uzanan geniş bir coğrafiyaya yayılmış və həmin bölgələrdə Ərdəbilə bağlı təkkələr qurulmuşdur. Hətta onun bir nümayəndəsinin Seylonda (indiki Şri-Lanka) nüfuzlu bir mövqeyə yüksəldiyi də qeyd olunur.[71] Səfəvi təriqətinin formalaşması ilə şəhər bölgənin mühüm elmi və irfani mərkəzlərindən birinə çevrilmiş, eyni zamanda kütləvi bir dini hərəkatın əsas mərkəzi olmuşdur.[72]

Təriqət irşad fəaliyyətləri ilə xalq kütlələrini, hətta hakim dairələri də özünə cəlb edirdi. Siyasi elitanın təriqətlərlə münasibəti o dönəm üçün təəcüblü bir hal

---

[70] Şeyx Hüseyn. Silsilət-ül nəsəb Səfəviye. Berlin, 1343, s. 38

[71] The Cambridge History Of Iran, c, 6, The Timurıd And Safavid Periods Edited By Peter Jackson Lecturer In History, University Of Keele And The Late Laurence Lockhart s, 191

[72] The Cambridge History Of Iran, c, 6, The Timurıd And Safavid Periods Edited By Peter Jackson Lecturer In History, University Of Keele And The Late Laurence Lockhart s, 191

deyildi. Lakin digər təriqətlərdən fərqli olaraq, heç biri Səfəvi təriqəti kimi siyasi çevrələrin mütəmadi ziyarət etdiyi və müəyyən dərəcədə siyasi proseslərdə iştirak edən bir mərkəzə çevrilməmişdi. Sultan Olcaytu Xudabəndə xan, Rəşidəddin Fəzlullah Həmədani, Məlik Əşrəf, Canibəy xan və Əmir Teymur bu təriqət ilə münasibət saxlamış dövlət xadimlərindən bəziləridir. Hətta rəvayət edirlər ki, Osmanlı dövləti II Mehmet ilə Şeyx Cüneyd arasındakı gərginliyə qədər hər il bu təriqətə "Çiraq axçası" adı ilə pul göndərirdi.[73]

Buna baxmayaraq Səfəvi şeyxləri Şeyx Səfiəddinin təyin etdiyi xətt etibarilə bu münasibətlərdə məsafəli mövqe tuturdular. Hər kəslə mülayim davranan, *"mən"* ifadəsini işlətməkdən çəkinəcək qədər həssas olan və hamını *"övladım, atam-balam, qardaşım"* deyə çağıran Şeyx Səfiəddin bu təvazökarlığını sultanlar və əmirlər qarşısında göstərməzdi. Oğlu Sədrəddin Musaya belə dediyi nəql olunur:

***"Dünya əhlinin (sultanların və varlıların) qarşısında özünü təvazökar göstərmə. Çünki o zaman onlar***

---

[73] https://islamansiklopedisi.org.tr/safeviyye

***özlərini bir şey zənn edər və düşünərlər ki, sən onlardan nəsə umursan.”***[74]

Dr. Seyyid Salman Səfəvi Şeyx Səfiəddin İshaqın hökmdarlar ilə münasibəti barədə bu məlumatları verir: ***“Şeyx Səfiəddin Ərdəbili böyük mənavi heybətə malik, fövqəladə bir şəxsiyyət idi. Şeyx Səfiəddin o qədər vüqarlı və əzəmətli idi ki, onun məclisində sultanlardan, alimlərdən və ölkə böyüklərindən heç kəs söz deməyə cürət etməzdi. Bir çox sultanlar, əmirlər və böyük şəxsiyyətlər ona könüldən bağlı idilər. Şeyx heç vaxt qüdrət sahiblərini tərif etməz, daim ehtiyat edərdi ki, onların təriflərinin təsiri altına düşməsin.***

***“Səfvat əs-Səfa” əsərinin müəllifi ibn Bəzzaz yazır ki, Şeyx padşahlarla elə danışardı ki, sanki bir uşaqla danışır; sultanlar və əmirlər Şeyxin hüzurunda elə oturardılar ki, sanki bir xacənin yanında duran qullar kimidirlər.***[75]

Səfəvi xanəgahına hər il nağd pul və əmtəə göndərən vəzir Rəşidəddin Fəzlullah Həmədani, Ərdəbil hakimi olan oğlu Əmir Əhmədə məktub yazaraq tövsiyə edirdi ki, Ərdəbil camaatı ilə elə davran ki Şeyx Səfiəddin

---

[74] Doktor Əbdülhüseyn Zərrinkub, İranda təsəvvüfün axtarışı, s, 65

[75] Dr. Seyyid Salman Səfəvi - Şeyx Səfi ictimai-irfani məktəbi, s: 91

narazı qalmasın.[76] Bu vəziyyət Şeyx Cüneyd dönəminə qədər sabit qalmışdır.

## Təriqəti fərqləndirən cəhətlər

Səfəvi təriqətini müasiri olan digər təriqətlərdən fərqləndirən elementlər onun geniş coğrafiyalara yayılmasında mühüm rol oynamışdır. Bu fərqləndirici cəhətlərdən bəziləri aşağıda belə sıralanmışdır.

### *1) Seçilmiş Şəxsiyyətlər Yetişdirmələri*

Səfəvi müridləri, xüsusilə şəbəkənin təbliğat işlərinə baxanlar, cəmiyyətin ən seçilmiş fərdləri kimi yetişdirilirdi. Hər bir Səfəvi müridinin qarşısına qoyulan ilkin tələblərdən biri onun təmizliyə riayət etməsi və baxımlı görünməsi idi. Bu xüsusiyyət onları ənənəvi dərviş tipindən ayıraraq, cəmiyyəti daha tez cəzb etmələrinə şərait yaradırdı. Bundan əlavə, onlar bəzi təriqətlərin müridləri kimi insanlardan ianə qəbul etmir və güzəranlarını öz zəhmətləri ilə təmin edirdilər.[77]

### *2) İfratdan uzaq durmaq*

Digər bir fərqləndirici cəhət isə bəzən dərvişlər arasında görülən *"şeyxin ayaqları altına baş qoymaq"* kimi

---

[76] "Səfvətüs-səfa", c. 1, s. 3-5.

[77] Mehman Süleymanov, Şah İsmayıl Səfəvi, s: 22

təvazökarlıq rəmzinin Səfəvi təriqətində qəti qadağan edilməsi idi. Səfəvi təriqəti bu kimi ifrat davranışlardan uzaq idi; Bu mövqenin əsasında isə təriqətin şəriətə möhkəm bağlılığı dayanırdı. Bəzi təriqətlər müəyyən müddətdən sonra şəriət qaydalarını kamilliyə çatdıqlarını iddia edərək bir kənara qoyurdular. Lakin Səfəvi təriqəti şəriətmehvər bir təriqət olmaqla birlikdə, sonrakı dönəmlərində də, şəriət prinsiplərini qorumuşlardır.

### 3) Səfəvi təriqəti – ictimai-siyasi bir təşkilat idi

Səfəvi təriqətini digər təriqətlərdən fərqləndirən əsas cəhət onun ictimai həyatdan kənarda qalmayan bir təriqət olması idi.[78] Alman tarixçi və şərqşünas Franz Babinger Səfəvi təriqətini mistik bir təriqətdən daha çox, siyasi bir təşkilat kimi dəyərləndirir.[79] *Lübb ət-Təvarixin*[80] müəllifi Mir Yəhya ibn Əbdüllətif Qəzvini və XIV əsrdə yaşamış məşhur tarixçi Həmdullah Mustövfi Qəzvini *Tarixi-Güzidə*[81] adlı əsərində qeyd edirlər ki, Səfəvi təriqəti Monqol işğalı dövründə xalq üçün siyasi-iqtisadi təhlükələr qarşısında pənah yeri olmuşdur. Şeyx Səfiəddin, malik olduğu imkanlardan fəqir insanların rifahı və təriqətin inkişafı məqsədilə

[78] Dr. Seyyid Salman Səfəvi - Şeyx Səfi ictimai-irfani məktəbi, s: 93
[79] Rudi Matthee - The Safavid World, s: 21
[80] Əbdüllətif Qəzvini, Lübbul-Təvarix, s, 20
[81] Həmdullah Mustovfi, Tarixi-Güzidə s. 675

istifadə edirdi. Gizli və aşkar formada təşkil olunan yardımlar sayəsində Ərdəbil və ətraf bölgələr işğaldan sonra yaranmış ağır şəraitdən müəyyən dərəcədə qoruna bilmişdilər. Demək olar ki, hər gün Səfəvi xanəgahında fəqir insanlar üçün yeməklər paylanılır və ictimai problemlər həll edilirdi.

Aşkar yardımlarla yanaşı, Şeyx Səfiəddin ətraf kəndləri gəzərək iqtisadi cəhətdən zəif hesab elədiyi bölgələrə də müvafiq yardımlar göstərirdi. Bu yardımlar çox vaxt gizli şəkildə həyata keçirilirdi və ianənin kim tərəfindən verildiyi bilinmirdi. Şeyx Səfiəddin, bu yardımları mənəvi məsuliyyət kimi qəbul edir və ailəsini də bu prinsip əsasında tərbiyə edirdi.[82] Qaynaqlara görə, o, yardım edərkən din və məzhəb fərqi qoymayaraq müridlərinə belə deyərdi: ***"Çörək paylayarkən dost–düşmən, mömin–kafir fərqi qoymayın ki, bu iş sırf Allah rizası üçün olsun."***[83] Eyni zamanda, o, kənd təsərrüfatının, sənətkarlığın və ticarətin inkişafını təşviq edirdi. Onun təsiri ilə Ərdəbildə və ətraf bölgələrdə

---

[82] Şeyx Səfi təzkirəsi ("Səffətüs-səfa"nın XVI əsr türk tərcüməsi). Bakı, 2006

[83] Seyyid Salman Səfəvi, Məktəbe erfane ectemai Şeyx Səfiyuddin Ərdəbili, s, 102

bazarlar qurulur, körpülər inşa edilir və su kanalları çəkilirdi.

İranlı tarixçi Bastani Parizi yazır: ***"Əgər bu, insan haqlarının qorunması deyilsə, bəs nədir? Bu gün Cimmi Karter BMT-nin dəstəyi ilə belə bir işi görə bilməz, amma Şeyx Səfiəddin bunu yeddi yüz il əvvəl etmişdi."***[84]

## Şeyx Səfiəddinin vəfatı

Şeyx Səfi Kəbə ziyarətinə getməmişdən əvvəl özü üçün vəsiyyətnamə qələmə almışdı:

> **"Şəriətin yolundan dönməyin, fəqirləri yedizdirin, qonaq edin və mərhəmətli olun."**[85]

Şeyx Səfiəddin müqəddəs Kəbə ziyarətinə doğru yola düşərkən, oğlu Sədrəddin Musanı öz varisi elan edərək, Səfəvi təriqətinin bütün idarəsini ona təhvil verdi. Həcc ziyarətindən qayıtdıqdan sonra isə halı pisləşdi. Çox ibadət etdiyi, çox oruc tutduğu və məxsusən ət yeməklərindən uzaq durduğu üçün ömrünün sonlarında çox zəifləmişdi. Ətsiz sadə yeməklərdən, bir qədər də

---

[84] Seyyid Salman Səfəvi, Məktəbe erfane ectemai Şeyx Səfiyuddin Ərdəbili, s, 97

[85] Tarixi-Soltani s, 20

şirin sudan başqa boğazından heç nə keçmirdi. Bununla belə şəri vəzifələrini həyata keçirməkdə çox diqqətli idi.

Ölüm onu ağuşuna aldığı zamanda belə zəiflərə xidmət edilməsinə və onlara süfrə açılmasına xüsusilə təkid edirdi. *"Tarixi-Soltani"* əsərinin müəllifi Seyyid Həsən Astrabadi və Cahanquşayi-Xaqan əsərinin müəllifi rəvayət edir ki, ağrıları şiddətləndiyi zaman yanındakılardan onu dəfn olunacağı yerə aparmalarını xahiş edir, orada bir müddət oturub geri qayıdırdı.

Ağrı gücləndikdə *"Məni evimə aparın"* deyirdi. Xidmətçilər *"Ey mürşid, siz elə öz evinizdəsiniz"* deyirdilər. O isə cavab verirdi: *"Mənim həqiqi evim oradır."*[86]

Xəstəliyin şiddəti onun bütün gücünü almışdı. Son günlərini asta səslə Quran oxumaq və salavat ayəsini zikr etmək ilə keçirdi. Miladi təqvimi ilə 1334-cü ildə sübh namazından sonra səksən yaşlarında ikən dünyasını dəyişdi.

Şeyxin vəsiyyətinə əsasən cənazə işlərini Seyyid Kamaləddin İsfahani öhdəsinə götürdü və onu son

---

[86] Tarixi-Soltani s, 20; Cahanquşayi-Xaqan s, 73

mənzilə tapşırdı.[87] Şeyxin vəfatından 18 gün sonra xanımı Bibi Fatimə də dünyasını dəyişdi.[88]

Şəhid İmam Seyyid Əli Xamenei Şeyx Səfiəddin türbəsini ziyarət etdiyi zaman bu ifadəni işlətmişdi:

**“Bu məqbərə mənəviyyat, siyasət və incəsənətin birləşdiyi bir məkandır.”[89]**

Vəsiyyətinə əsasən, Şeyx Səfiəddin öz xanəgahının həyətində çox sevdiyi söyüd ağacının altında dəfn edildi.[90] Şeyx Səfiəddinin qəbri dəfn işlərinin tamamlanmasından dərhal sonra ziyarətgaha çevrildi və oğlu Şeyx Sədrəddin tərəfindən qəbri üzərində möhtəşəm bir məqbərə tikdirildi. Məlumatlara görə, Şeyx Sədrəddin məqbərənin tikilməsini Mədinədən özü ilə gətirdiyi ustaya tapşırmışdı. Rəvayət olunur ki, məqbərə tikintisi başladığı zaman Ərdəbil əhalisi kömək üçün axışmışdı. Hətta şəhərin qadınları da Şeyx Səfiəddinin məzarı üzərində ucaldılan məqbərənin tikintisində iştirak etməyi savab sayırdılar. Ona görə toplaşan könüllülərin sayı həddən artıq çox olmuş və

---

[87] Əmir Mahmud Xondəmir, Həbib əs-siyər fi əxbar əfrad əl-bəşər, s, 19

[88] Cahanquşayi-Xaqan, s, 73

[89] Şeyx Səfiəddin Ərdəbili dər ayineyi erfan, honər və siyasət, s: 24

[90] Cəlilikiya M.Təzyin və memari-ye bəqəə-ye Şeyx Səfiəddin Ərdəbili

onların yardımları ilə məqbərə üzərindəki tikinti işləri ahəngdar xarakter almışdır.[91]

Professor Seyyid Hüseyn Nəsr hesab edir ki, Səfəvi təriqəti əvvəldən bir şiə təriqəti idi.[92] Şeyx Səfinin nəslindən gələn, London Üniversitetinin əməkdaşı olan Dr. Salman Səfəvi yazır:

**Şeyx Səfiəddin Ərdəbili Səfəvi hökumətinin və dünya şiəliyinin mərkəzi kimi müasir İranın mənəvi atasıdır.[93]**

Muhəmmədbaqir Purəmini mövzu ilə bağlı kitabında yazır ki, *Şeyx Səfidən Səfəvi hakimiyyətinin başlanğıcına qədər onun nəslindən beş parlaq şəxsiyyət yetişmişdi. Bu görkəmli simalar Səfəvi hakimiyyətinin formalaşmasında mühüm rol oynamış, İranın ictimai və siyasi dəyişikliklərinə ciddi təsir göstərmişlər.[94]*

Məşhur Ələvi ozanı Qul Himmet Şeyx Səfi üçün bu şeiri yazmışdır:

---

[91] İbn Bəzzaz Ərdəbili. Səfvətüs-səfa. Təbriz, 1373, s. 773

[92] Seyyid Salman Səfəvi, Arifane Səqlin, s, 26

[93] [93] https://iranianstudies.org/fa/1398/10/05/-اهمیت-شیخ-صفی-الدین-اردبیلی-در-تاریخ-ف

[94] Muhəmmədbaqir Purəmini, Səfəviyan nemad – eqtedare İran, s, 28

**“Şeyx Səfi buyruğun eylədim qəbul**

**Sözü onun daim Cəfərdən (İmam Cəfəri-Sadiq) gəlir**

**Şeyx Səfiyə dəyibdir**

**İmam Cəfər möhürü”**



*Səfəvi dövrünə aid bir miniatür*

## Şeyx Sədrəddin Musa

### Tarixi portret

Şeyx Sədrəddin Musa 1304-cü ildə Ərdəbil yaxınlığındakı Kəlxoran kəndində dünyaya gəlmişdir. Uşaqlıq illərini atasının yanında, Darül-İrşad mədrəsəsinin mühitində keçirmişdir. O, Şeyx Səfiəddin İshaqın oğlu olmaqla yanaşı, ana tərəfdən də Şeyx Zahidin nəvəsi kimi Səfəvi-Zahidiyyə silsiləsinin irsini özündə birləşdirirdi.

Qasim bəy Həyati Təbrizinin verdiyi məlumata görə, Sədrəddin Musa zahiri görkəmi etibarilə diqqətçəkən bir şəxs olmuş; hündür boylu, sürməli gözlü, qövsvari qaşlı biri idi.[95] Gənc yaşlarından etibarən atasının etimadını qazanan Sədrəddin Musa dövlət adamları ilə aparılan danışıqlarda vəkil kimi iştirak etmiş, xanəgahın maliyyə və təsərrüfat işlərini idarə etməyə başlamışdı. Şeyx Səfiəddinin xəstəlik dövrlərində isə onun yerinə bir sıra inzibati və təşkilati vəzifələri də öz öhdəsinə götürmüşdü.

1334-cü ildə atasının vəfatından sonra təriqətin rəhbərliyi ona keçdi. Onun rəhbərliyi dövründə Səfəvi xanəgahı ilk dəfə ciddi siyasi çətinliklər və təhlükəli

[95] Qasim bəy Həyati Təbrizi, s: 112

qarşıdurmalarla üzləşdi. Buna baxmayaraq, regionda artıq formalaşmış olan geniş mürid şəbəkəsi və Sədrəddin Musanın ehtiyatlı siyasi manevrləri nəticəsində təriqət öz mövcudluğunu qoruyub saxlaya bildi. İbn Bəzzaz Şeyx Sədrəddinin əxlaqi xüsusiyyətlərindən bəhs edərək qeyd edir ki, gənc Sədrəddin Ərdəbil xanəgahında atasının yanına gələn qonaqların ayaqqabılarını səliqəyə salaraq öz nəfsini tərbiyə edərdi. Lakin Şeyx Sədrəddin təvazökar biri olmaqla yanaşı, həm də prinsipial bir şəxsiyyətə sahib idi. "Fütuhati-Şahi" əsərinin müəllifi yazır: ***"Şeyx Sədrəddin bir dəfə evinə sığınmış bir şəxsi ələ keçirmək üçün icazəsiz və silahla daxil olan monqol əsgərlərinə müqavimət göstərib onları yaralamışdı".*** [96] Şeyx Sədrəddin bu prinsipial xarakteri ilə Səfəvi təşkilatının sonrakı mərhələsində mühüm rolu oynamışdır.

Atasının vəfatı zamanı 31 yaşında olan Şeyx Sədrəddin Musa Səfəviyyə təriqətinə 59 il rəhbərlik etmiş və onun dövründə təriqətin siyasi-mədəni təsiri daha da genişlənmişdir. İnşası təxminən on il davam edən Şeyx Səfiəddin məqbərəsi onun əsəri olmuş, özü də atasının yanında dəfn edilmişdir.

---

[96] "Fütuhati-şahi", s. 30.

Mənbələrdə Şeyx Sədrəddin ***"Quddis sirruh"*** kimi xatırlanır. Rəvayət görə, Marağa – Təbriz yolu ilə üç ay ərzində şeyxin ziyarətinə gələn zərvar və müridlərin sayı 30 min nəfərdən artıq olmuşdur. Toplanan gəlirləri yoxsul xalqa paylaması və fəqir kəslərə daim yemək süfrələri açdırması ilə Şeyx Sədrəddin Musaya ***“Xəlilul-Əcəm”*** adı verilmişdi.[97] İslam aləmində üçüncü şəhid adını almış Seyyid Nurullah Hüseyni Şüştəri özünün *“Məcalisül-möminin”* adlı əsərində Şeyx Sədrəddini böyük və yüksək məqamlı övliyaların sırasında qeyd etmişdir.[98] O, yalnız Səfəvi təriqətində deyil, həm də Nemətullahiyyə təriqətinin müridləri arasında da Mürşid-i Kamil kimi qəbul edilirdi.[99]

## Səfəvi təriqətinin siyasi fəaliyyətləri

Elxanilər dövlətinin tənəzzül etdiyi illərdə bölgədə siyasi vəziyyət daha da gərginləşmiş, müxtəlif qüvvələrin hakimiyyət uğrunda mübarizəsi nəticəsində bölgədə qeyri-sabit və təhlükəli şərait formalaşmışdı. Mövcud tarixi məlumatlara görə, Şeyx Sədrəddin dövrü Səfəvi tarixindəki ilk ciddi siyasi qarşıdurmaların müşahidə

---

[97] Hamidreza Mohammednejad "Erdebil Tarikatı ve İlhanlılar: Tasavvuf ve Siyaset İlişkisinde Yeni Dönem". s, 116

[98] Qazi Nurullah Şüştəri, Məcalisül-Möminin, c, 2, səh, 44

[99] Seyyid Salman Səfəvi, Məktəbe erfane ectemai Şeyx Səfiyuddin Ərdəbili, s, 93

edildiyi mərhələ kimi səciyyələndirilir. Şeyx Sədrəddin Musanın fəaliyyət dövründə müşahidə olunan ən təhlükəli mərhələ, Çobani əmiri Məlik Əşrəf ilə baş verən qarşıdurmalarla başlamışdır. Çobanilər monqol yürüşləri zamanı Urmiya ətrafında yerləşdirilmiş monqol tayfalarından biri idi. Xassə torpaqlarının idarəsi Sultan Xudabəndə Olcaytu tərəfindən bu tayfaya həvalə edildiyinə görə Çobanilər ***"Ali-İncu"*** adı ilə də tanınırdılar. Zaman keçdikcə bu tayfanın siyasi nüfuzu artmış və Hülakilər dövlətinin bürokrasiyasında mühüm yer tutmuşdu.

Elxanilər dövlətinin zəifləməsindən sonra Çobanilər, Məhəmməd Xudabəndənin qızı Satıbəy xatunu padşah elan edərək dövləti onun adından idarə etməyə başlamışdılar. Bu həmlə ilə regionda yeni siyasi qüvvə formalaşdı. Bu sülalənin ən məşhur siması Məlik Əşrəf olmuşdur. Müasirləri onu son dərəcə xəsis, qaniçən, hiyləgər və zalım sifətləri ilə yad edirlər.

Bir çox rəqibini aradan qaldırmış Məlik Əşrəf üçün bölgədə ciddi təsir gücünə malik yeganə qüvvə Səfəviyyə təriqətinin rəhbəri Şeyx Sədrəddin Musa idi. Çobanilər ilə Səfəvi təriqəti arasında münasibətlər ilk illərdə problemsiz keçmişdir. Məlik Əşrəf hətta Şeyx Səfiəddin zamanında xanəgahı ziyarət edən monqol

əmirlərindən biri idi. Şeyx ilə Məlik Əşrəf arasında yaranan problem əsasən əmirin bölgədə rəqibsiz olma istəyindən yaranmışdı.

Çobanilər ilə Şeyx Sədrəddin arasında yaranan ilk münaqişə Şeyxin Azərbaycana təyin olunmuş valinin zülmünə etiraz etməsindən sonra baş vermişdir. Valinin bu etirazlara necə cavab verməsi mənbələrdə gəlməsə də, Şeyx valiyə bu sözləri çatdırmışdı: "***Dərvişlərlə qarşı-qarşıya gəlmək namübarək işdir, yaxşı olar ki, bu növ rəftardan özünü kənara çəkəsən və bu mücadiləni tərk etməyə çalışasan.”***

Əbu-Bəkr isə ona bu cavabı vermişdir: ***“İndi mən sizinlə qarşı-qarşıya gəlmişəm, baxaq görək sizin kəramətiniz çoxdur, yoxsa mənim iqtidarım.”***

Hərəvi yazır ki, Əbu Bəkr Təbrizə qayıdan zaman (hansısa səbəbdən) Məlik Əşrəfin qəzəbinə tuş gəldi və əmir onun həbsi, əmlakının müsadirəsi və tərəfdarlarının tutulub işgəncə verilməsilə bağlı göstəriş verdi. Əbu-Bəkri qan qusana qədər döydülər.[100] Bu hadisə insanlar arasında Şeyx Sədrəddinin kəraməti kimi məşhurlaşdı. Şeyxin ictimai hadisələrdən kənar qalmaması, əlində tutduğu maliyyə qüvvəsi və nüfuzu artıq Məlik Əşrəfin diqqətini getdikcə daha çox cəlb edirdi. Bundan əlavə,

---

[100] “Fütuhati-şahi”, s. 31

Şeyx mövcud şəraitdə xanəgahı və Ərdəbili qorumaq məqsədilə müridlərini silahlandırmış və Ərdəbilin ətraf bölgələrinə silahlı dəstələr yerləşdirmişdi.[101]

Yeganə rəqibinin getdikcə artan nüfuzu görən Məlik Əşrəf Ərdəbilə elçi göndərərək Şeyxi Təbrizə dəvət edir. Şeyxin siyasi nüfuzunu nəzərə alan Məlik Əşrəf onu Təbrizdə şan-şöhrətlə qarşılayır və sarayda onun üçün böyük süfrə açır. Ərdəbilli qonağını burada zəhərləmək istəsə də, ehtiyatlı xarakterə sahib olan Şeyx Sədrəddin yeməkdən imtina edərək bütün planı pozur.

## Həbs və sürgün dövrü

Şeyx Sədrəddinin Təbrizə gəlməsilə onun fasilələrlə davam edən həbs dövrü başlandı. "Səfvətus-Səfa"da qeyd olunur ki, Şeyx Sədrəddinin həbsindən çox keçməmiş Məlik Əşrəf yuxusunda Şeyx Səfiəddini görür. Yuxuda Şeyx Səfiəddin qəzəbli halda Məlik Əşrəfdən övladının azad edilməsini tələb edirdi. Bu yuxudan təsirlənən Məlik Əşrəf Şeyx Sədrəddini həbsdən azad edib, ondan üzr istəsə də, hadisə şeyxin tam azadlığı ilə tamamlanmır.

---

[101] Safvetu's-Safa s, 382, 303

Şeyx Sədrəddin həbsdən azad olduqdan sonra növbəti təzyiq dövrünə qədəm qoydu. Bu dövrdə Şeyx Sədrəddin Musaya qarşı bir çox sui-qəsd cəhdi baş versədə, Şeyx bunların hamısından xilas olur. Amma Şeyx Sədrəddinə yönəlmiş sui-qəsdlərdən əlavə başsız qalan müridlər təqib etdirilir, həbs edilib öldürülürdü. Ərdəbildəki Darul-İrşad mərkəzinin bağlanması ilə Şeyx Sədrəddin müridlərinə ətraf şəhər və ölkələrə dağılışmalarına və təhlükələrdən qorunmalarına dair bir göstəriş verir. Şeyx Təbrizdə yaranmış böhranlardan istifadə edib Gilana gedir və üç il boyunca özünə orada sığınacaq tapır. Bu səfər onun həm can təhlükəsinin aradan getməsinə və azad fəaliyyətinə zəmin yaradır. Maraqlıdır ki, onun bu səfəri gələcəyin silsiləvi şiə qiyamlarının baş verməsindən cəmi üç il əvvəl baş verir.

## Şiə qiyamları və Şeyx Sədrəddin

Tarixçi Yəqub Ajənd “Mərəşilər qiyamı” kitabında yazır: ***“Deyləm torpaqları qədim zamanlardan şiə üsyanlarının tarixini özündə yaşadır. Bu ərazinin əksəriyyəti şiə məzhəbinə meyl etmişlər. Həmin dövrlərdən etibarən bu bölgə şiələrin sığınacağı olmuşdur. Abbasiləri öz hakimiyyəti altına alan şiə Ali-Buyə sülaləsi də bu torpaqlardan çıxmışdır. Elxanilərin tənəzzül dönəmində Mərəşilərin üsyanı baş***

***verdi, bütün ərazini əhatə etdi və Səfəvilərin hakimiyyətinə yol açdı.”***[102]

1353-cü ildə Şeyx Xəlifənin[103] şəhadəti sonrası müridləri fars dilində adı ***“başından keçənlər, başı dar ağacında olanlar”*** mənasını verən Sərbedaran hərəkatını başlatdılar. Elxanilərə qarşı qaldırılan qiyam uğurla nəticələnmiş, qiyama Səbzivar və ətraf bölgələrdən çoxlu insanlar qoşulmuşdu. Bu hərəkatın qələbəsi bölgədəki şiə qrupları arasında bir oyanış yaratmış və digər şiə qiyamlarının formalaşmasına zəmin hazırlamışdır. Sərbedaran üsyanının rəhbəri Şeyx Həsən Curinin tələbəsi olan Seyyid Qəvaməddin Mərəşi 1359-cu ildə Mazandaranda Mərəşilər hərəkatını başlatdı. Bölgədə şiə üsyanlarının cərəyan etdiyi bir dövrdə növbəti şiə üsyanı baş verdi. Seyyid Qəvaməddin Mərəşinin tələbəsi Seyyid Əli Kiya ustadının dəstəyi ilə Gilanda üsyan qaldırıb Ali-Karkiya sülaləsini formalaşdırdı. Bu sülalə illər sonra Mirzə Əli Karkiya rəhbərliyində Şah İsmayılı himayə etmiş və Səfəvilər dövlətinin qurulmasında önəmli rol oynamışdı. Ali-

---

[102] Yəqub Ajənd, Mərəşi qiyamı, s, 111

[103] Şeyx Xəlifə; Sərbədaran qiyamının zəminini hazırlayan şəxs idi. Onun Monqol məmurları tərəfindən şəhid edildiyi zamanı bəzi tarixçilər Sərbədaran qiyamının başlanğıcı hesab edirlər.

Karkiya sülaləsinin hakimiyyət dönəmində xalqla hökmdarlar arasında həmrəylik olmuşdur. Bu dövlətin təşəkkülü Lahicanda şiə məzhəbinin güclənməsinə və geniş şəkildə təbliğinə təkan vermişdir.[104]

Bəzi tədqiqatçıların fikrincə, Şah İsmayıl qiyamı ilə Sərbedaranın başlatdığı silsiləvi qiyamlar arasında Şeyx Sədrəddin dövrünə uzanan müəyyən əlaqə mövcud idi. Mirzə Abbaslı[105] və Amerikalı tarixçi Rudi Matthee-nin redaktoru olduğu ***"THE SAFAVİD WORLD"*** adlı araşdırmalar bu fikri dəstəkləyir. Bununla yanaşı, Mişel M. Mazzaoui də, Şah İsmayıl qiyamını Sərbedaran və Mərəşi qiyamlarının xələfi hesab edir.[106]

**Şeyx Orxan Məmmədov:**

***"Bütün bu şiələr tarixin müxtəlif zamanlarında, müxtəlif şəraitlərdə kəm-kəsirləri ilə üzə çıxmış vahid xətti təşkil ediblər."***

## Ərdəbilə qayıdış

Məlik Əşrəfin sonu isə bölgədən bir çox nüfuzlu şəxsin şikayətlərini dinləyib İrana hücum edən Qızıl Orda hökmdarı Canıbəy xanın əli ilə oldu. 1356-cı ildə Çobanilərə hücum edən Canıbəy xan Çobani və

---

[104] Mənuçehr Paradust, Şah İsmayıl əvvəl, s, 245
[105] Mirza Abbaslı, Safevilerin kökenine dair, s, 295
[106] The Origins of The Safavids, s, 67

Elxanilərin süqutu ilə tamamlanacaq Ucan döyüşündə Məlik Əşrəfi məğlub etdi. Məlik Əşrəf döyüşdən sonra edam olundu. Baş verən hadisələrdən sonra Şeyx Sədrəddin Gilandan Ərdəbilə qayıtdı və bu təhlükəli macəra Səfəvilərin lehinə tamamlandı.

Osmanlı tarixçisi Münəccimbaşı Əhməd ibn Lütfullahın verdiyi məlumata əsasən, Şeyx Sədrəddin Qızıl Orda hökmdarı Canibəyə qədər təsir göstərmişdi.[107] Roger Savorinin qeyd etdiyinə əsasən, Canıbəy xan suyurğal torpaqlarından əldə edilən gəliri Səfəvi təriqətinə ayırmaq istəmiş, lakin onun paytaxta qayıdarkən ölməsi ilə bu iş yarımçıq qalmışdı.[108]

İllər keçdikcə Şeyx Sədrəddinin nüfuzu sərhədləri aşmış, İslam coğrafiyasının ən tanınmış və güclü siyasi fiqurlarından biri olmuşdu. Təbliğatçıları Orta Asiya, Anadolu, Suriya və bir çox İslam torpaqlarında özlərinə yer tapmışdılar. Muhəmmədbaqir Purəmini yazır ki, mənəvi ucalığı və fəziləti sayəsində Sədrəddin dövrünün şairlərini, alimlərini və çoxsaylı müridlərini öz ətrafında toplaya bilmişdi.[109] Onun dövründə Səfəvi təriqətinin nüfuzu altında olan bölgələr vergidən azad

[107] Rudi Matthee - THE SAFAVID WORLD, s: 20
[108] Roger Savory, İran Under The Safavids, s, 12
[109] Məhəmmədbaqir Purəmini, Səfəviyan nəmad-e eqtedar-e İran, s, 28

olunmuşdu.[110] Dövlət adamları Şeyx Sədrəddindən çəkinir və tabeliyində olanlara fərmanlar yazaraq Şeyx Sədrəddinin hörmətini saxlamaları barədə xəbərdarlıq edirdilər. Onlardan biri Əhməd Cəlayiri idi. Cəlairi əmiri 1372-ci il tarixli fərmanında, hakimiyyəti altında olan bölgələrdə xidmət edən məmurlara ***"Şeyx Sədrəddin Ərdəbilinin müridlərinin əlindəki yerlərə müdaxilə etməyin"*** deyə xəbərdarlıq edilirdi.[111] Doktor Əbdülhüseyn Zərrinkub isə Şeyx Sədrəddin dövrünü belə xülasə edir: ***"Şeyx Sədrəddin və onun nəsli üçün artıq hakimiyyətin onlardan törəməsi "qeyri-mümkün bir xəyal" hesab olunmurdu.***"[112]

Şeyx Sədrəddin Məkkə ziyarətindən qayıtdıqdan sonra oğlu Xacə Əlini özünə varis seçir və 1392-ci ildə 90 yaşında ikən dünyasını dəyişir. Tədqiqatçılar Şeyx Sədrəddini Səfəvi təriqətinin, eləcə də şəbəkəsi zamanla daha da genişlənən Səfəvi təşkilatının əsas memarı kimi qiymətləndiririrlər.

---

[110] Mürtəza Ravəndi, İranın Sosial tarixi, s. 376
[111] Hamidreza Mohammednejad "Erdebil Tarikatı ve İlhanlılar: Tasavvuf ve Siyaset İlişkisinde Yeni Dönem".
[112] Doktor Əbdülhüseyn Zərrinkub, İranda təsəvvüfün axtarışı, s, 66



www.asnad.org

*Sultan Əhməd Cəlayirinin 1372-ci ildə verdiyi fərmanın surəti*

# Xacə Əli

## Tarixi portret

Əsl adı Əlaəddin olan Xacə Əli öz dövründə Şərif, Səfiəddin və Əbül-Vilayət adları ilə də tanınmışdır. Gözəl siması, orta boyu, açıq rəngli gözləri, qövsvari qaşları olub, nitqi isə olduqca fəsih və təsirli idi.[113] Xacə Əlinin, atasından sonrakı fəaliyyət dönəmi, Səfəvi təriqətinin tarixi gedişatında və Şah İsmayıl qiyamının formalaşmasında mühüm rol oynamışdır. O, 1392-ci ildən başlayaraq Səfəvi təriqətinə 36 il rəhbərlik etmişdir.[114].

Bu dövr siyasi təhlükələrin demək olar ki, gözə çarpmadığı, əsas diqqətin təbliğat işlərinə ayrıldığı bir mərhələ olmuşdur. Mürtəza Ravəndi özünün *"İranın Sosial Tarixi"* adlı əsərində Xacə Əlinin Anadoluda fəaliyyət göstərən bir çox təşkilatlarla sıx və dostyana münasibətlər saxladığını qeyd edir.[115] Rudi Matthee-nin redaktoru olduğu *"The Safavid World"* adlı araşdırma toplusunda qeyd edilir ki, onun dövründə Anadoluya göndərilən Səfəvi xəlifələri ilə bağlı konkret adlar və

---

[113] Qasim bəy Həyati Təbrizi, s, 112
[114] Abbasqulu Ğəfarifərd, Xanədan-e Səfəvi, s. 79
[115] Mürtəza Ravəndi, İranın Sosial Tarixi, s, 46

detallı məlumatlar müxtəlif Osmanlı dövrünə aid ilkin mənbələrdə qeyd olunmuşdur.

Həmçinin bu dövr Səfəvi təşkilatında şiəliyin açıq şəkildə ifadə edildiyi bir mərhələ kimi xarakterizə olunur. Xacə Əli öz dövründə*"Siyahpuş"* (farsca: "qara geyinən") ləqəbi ilə tanınırdı. Bunun səbəbi onun İmam Hüseynə matəm əlaməti olaraq daim qara geyinməsi ilə izah olunur. Belə ki, Şeyxin Əmir Teymura ünvanladığı bir məktubda özü də bunu bildirmişdi. Oxşar bir rəvayət Şeyx Məhəmməd Lahici (Şah İsmayılın müəllimi) haqqında da nəql edilir; o da balaca İsmayıla qara geyinməsinin səbəbini **"Əhli-beytin matəmi"** kimi izah etmişdi.[116] *"Ələmarayi Şah İsmayıl"* əsərində o, ***"qara geyimli dərviş"*** kimi xatırlanır.

Amma Zərrinkubun nəzərinə əsasən, onun qara geyməsi sadəcə matəm deyil, həm də siyasi bir nişanə, zülmə qarşı gizli bir dəvətin əlaməti olmuşdur; Elə həmin dövrdə Şeyx Səfiəddin məqbərəsində bir bayraq da ucaldılmışdı; bu bayraq haqqında deyilirdi ki, o, Peyğəmbərin bayrağı olmuş və onu Şeyx Sədrəddin Mədinədən Ərdəbilə gətirmişdir. Görünür, bu hadisə də həmin gizli müqavimət və dəvət ideyasının bir rəmzi

---

[116] Doktor Əbdülhüseyn Zərrinkub, İranda təsəvvüfün axtarışı, s, 67

idi.[117] Nəql olunur ki, Xacə Əli dövründə Səfəvi təşkilatının daxilində ***"Fədaiyyane-Təşəyyo"*** *(şiə fədailəri)* adlı xüsusi bir qrup da meydana çıxmışdır.[118] Bundan əlavə, mənbələrdə Xacə Əlinin öz xas tərəfdarlarını gələcək hadisələrə qarşı hazırlaşmağa tələsdirdiyinə dair məlumatlar gəlib: ***"Həqiqi İmamiyyət dini yaxınlaşır və siz canınızı fəda etməyə hazır olmalısınız."***[119]

## Qızılbaş dəstələrinin təşkili

Xacə Əli atası kimi mürəkkəb və təhlükəli siyasi şəraitdə fəaliyyət göstərsə də, bu dövrü minimum zərərlə geridə qoymuş, həmçinin siyasi nüfuzu və Əmir Teymur ilə münasibəti sayəsində gələcəkdə formalaşacaq Qızılbaş qüvvələrinin yaranmasında və təriqətin imkanlarının genişlənməsində mühüm pay sahibi olmuşdur. Rəvayətə görə, Əmir Teymur Xacə Əli ilə 3 dəfə görüşmüş, sonuncu görüşü isə Ərdəbildə olmuşdur. Əmir Teymur Ankara döyüşündən sonra Xacə Əlini ziyarət etmiş, bu ziyarətdə Xacə Əli döyüş əsirlərini Əmir Teymurdan istəmiş, Əmir Teymurda bu təklifi rahatlıqla qəbul etmişdi. Xacə Əlinin bu şəfaəti ilə Təkəlu, Şamlu,

[117] Doktor Əbdülhüseyn Zərrinkub, İranda təsəvvüfün axtarışı, s, 67
[118] Mürtəza Ravəndi, İranın Sosial Tarixi, s, 47
[119] Təlim və tərbiyyət dər əsri Səfəviyan, Məhəmməd derxşani, s, 135 Cahanqoşayi Xaqan, s. 33

Ustaclu, Qacar, Əfşar, Zəngənə və Rumlu kimi tayfaların böyükləri əsirlikdən azad olunaraq, Xacə Əlinin xidmətinə keçdilər. Mənbələrdə əsirlərin sayı 30 min nəfər olduğu qeyd edilir. Bu əsirlərin bəziləri Ərdəbildə məskunlaşmış, bəziləri isə Xacə Əli tərəfindən Anadolu və Orta Asiyaya göndərilmişdir. Teymurilər ilə yaxın münasibətlər sadəcə 30 minlik yeni mürid dəstəsinin əldə olunması ilə məhdudlaşmamış, eyni zamanda yeni dövrdə Səfəvi təşkilatının xeyrinə tamamlanacaq başqa fürsətlərin də qapısını açmışdır. Bunlar arasında Anadoludakı şəbəkənin təhlükəsizliyinin təmini[120] və Səfəvi xanəgahının *"Bəst"* torpaqlarından olduğunun elan edilməsi olmuşdur.[121] Yəni artıq İmamzadələr və məscidlərdən əlavə, dövlət məmurları Ərdəbil xanəgahına sığınan şəxslərə toxuna bilməyəcəkdi.

Bəs Əmir Teymur kimi böyük bir hökmdar Xacə Əli ilə niyə mülayim davranmış, hətta onun hər cəhətdən təhlükəli olan təklifini qəbul etmişdir?

Xacə Əlinin bir çox xəlifəsinin (təbliğatçılarının) Anadolu bölgəsində fəaliyyət göstərdiyi məlumdur.

---

[120] Oqtay Əfəndiyev, Azərbaycan Səfəvilər dövləti, s, 39-40
[121] Hüseyni Əstərabadi, Tarixi Sultani: Əz şeyx Səfi ta Şah Səfi, s. 22-23

Anadoluda Hamidoğulları və Karamanoğulları kimi böyük və nüfuzlu türk tayfalarından çox sayda insan Səfəvi təriqətinə mənsub idi. Anadoluda *Somuncu Baba* adı ilə tanınan Şeyx Həmiduddin Aksarayi kimi şəxslər bölgənin siyasi-ictimai gedişatında mühüm təsirə sahib idilər. Yenicə Anadolu ərazisinə daxil olan Əmir Teymur belə bir təhlükəni gözə almamış, onunla mübarizə aparmaq yerinə, onunla mülayim münasibətlər qurmağa çalışmışdır. Bu münasibət qarşılıqlı olduğundan iki lider arasında möhkəm siyasi münasibətlər yaranmışdı. Bu münasibət Şah İsmayıl-Babür Şah dönəmində öz təsirini göstərəcəkdi.

## Qüds səfəri və vəfatı

Xacə Əli Həcc ziyarətinə gedərkən oğlu İbrahimi Ərdəbildə saxlayaraq xanəgahın bütün işlərini ona tapşırdı. Lakin atasına hədsiz dərəcədə bağlı olan İbrahim ondan ayrı qala bilməyərək Ərdəbili tərk etdi və Məkkəyə çatmalarına az qalmış atasına yetişdi. Bundan sonra səfərlərinə birlikdə davam etdirdilər. Şeyx həcc mərasimindən sonra dörd Əhli-beyt imamının müqəddəs məzarlarını ziyarət etmiş[122], buradan növbə ilə Suriya və Fələstin bölgələrinə də getmişdir. Xacə irşad fəaliyyətləri çərçivəsində bir müddət Qüds şəhərində

[122] Fütuhati-şahi", s. 34.

qalır, lakin bu müddət ərzində davamlı oruc tutması, gecə ibadətləri və irşad fəaliyyətləri onun qoca bədənini daha da yorur. Nəhayət, 1427-ci ildə oğlu İbrahimə vəsiyyət etdikdən sonra Qüds-Xəlil şəhərində vəfat edir.[123] Dəfn olunduğu yer camaat arasında *"Seyyid Əli əl-Əcəmi"* adı ilə tanınmışdır.

Bununla yanaşı, Xacə Əlinin Təbrizdə və Dezfulda adına iki ayrı məqbərəsi də mövcuddur. Şeyx İbrahim Səfəvi atasının dəfn işlərini bitirdikdən sonra müridləri ilə birlikdə Ərdəbilə qayıdır və təriqət rəhbərliyini öhdəsinə alır.

## Şeyxşah İbrahim Səfəvi

İbrahim Səfəvi dövrü atasının dövrünün davamı şəklində güclü təbliğat işləri ilə müşahidə olunur. Şeyx İbrahim dövründə, Səfəvi xanəgahı imkansızların ümidgahı və fəqirlərin dayaq yeri olaraq fəaliyyətinə davam edirdi. Şeyx İbrahim xalq və müridləri arasında *"Şeyx Şah"* kimi də tanınırdı. Şeyxin müasiri olduğu dönəm Teymuri-Qaraqoyunlu və Ağqoyunluların mübarizəsinə şahid olduğundan Səfəvi təbliğatçılarının fəaliyyətləri üçün əlverişli şərait yaranmışdı. Şeyx İbrahimin göstərdiyi

[123] Mürtəza Ravəndi s: 47, Hüseyn Kazımzadə, Pənc əsəre ərzənde əz enteşarate İranşəhr (Race be Silsilətün-nəsəb əs-Səfəviyyə), s. 46.

səylər nəticəsində Səfəvi xanəgahı daha da genişləndi və təriqətə qoşulanların sayı gündən-günə daha da artırdı. Bu addımlar nəticəsində Səfəvi təriqəti daha da təşkilatlandı, onun bölgələrdəki və digər ölkələrdəki ardıcılları ilə əlaqələri gücləndi, təriqətin ideoloji və dini təsiri daha da genişləndi. Amma bütün bunlara baxmayaraq, mənbələrdə onun həyat və fəaliyyəti haqqında elə də geniş bir məlumat yoxdu. Məsələn, "Aləmarayi Şah İsmayıl Səfəvi" əsərində Şeyx İbrahim Səfəvinin hətta adı belə zikr edilmir. O, 19 il təriqət rəhbəri oldu və ömrünün sonlarına yaxın qəfildən xəstəliyə tutuldu. Onun bu xəstəliyini müalicə etmək bütün səylərə baxmayaraq, mümkün olmamış və nəticədə 1447-ci ildə dünyasını dəyişdi.

Tarixçilər, Şeyx Şahın ölümünü, Səfəvi şeyxləri arasında ilk ailəvi münaqişənin başlanğıcı olaraq görürlər. Bu münaqişələrdən isə Cahanşah kimi dövlət adamları faydalanmışdır.[124]

# II Fəsil

## Şeyx Cəfər Səfəvi

Şeyx İbrahim özündən sonra oğlu Cüneydi rəhbərlik postuna layiqli bilərək müridlərinə bildirmişdi ki,

[124] Derexşani, 136

***Cüneydin rəhbərliyi altında onlar zəlalət sərgəştəliyindən nicat tapacaq və özlərini mənzil başına yetirə biləcəklər.***[125] Lakin bu dövrdə elə bir kəs meydana çıxdı ki, onun nüfuzu qarşısında Şeyx İbrahimin vəsiyyəti öz təsirini itirdi. Bu müxalifət hadisələrin axarını o yerə gətirəcəkdi ki, Şeyx Cüneyd Qafqazda bu şəxsin məktubu sayəsində şəhadətə çatacaqdı. Xacə Əlinin böyük oğlu Şeyx Fəridəddin Cəfər, Cüneydin yeniyetmə olmasını (Təxminən 15 və ya 18 yaşı var idi) əlində bayraq edib özünü mürşidliyə daha uyğun hesab edirdi.[126] Bu hadisə ilə təriqət uzun müddət davam edəcək sarsıntılı bir dövrə qədəm qoydu. Qasim bəy Həyati yazır: ***"Rəhbərlik əvvəlcə Əbul Vilayət Sultan Xacə Əlinin təyin və vəsiyyətinə əsasən verilmişdir. O, Məkkəyə getmək üçün yola çıxanda rəhbərlik öz həqiqi varisi olan Şeyx Şaha (Şeyx İbrahimə) verilmiş və sonra bu liderlik, Vilayət məmləkətinin Sultanı Əbul-Ğazi Şeyx Cüneydə keçdi. Amma Şeyx Cəfər ona etibar etmədi."***[127]

---

[125] Əmir Sədrəddin İbrahim Əmini Herəvi. Fotuhat-e şahi. Tehran, 1383, s.36.

[126] Yenə orada

[127] Qasim bəy Həyati Təbrizi, Tarixi-həyati, s, 89

Şeyx Cəfər Xacə Əlinin ən böyük övladı idi. Ömrünün böyük bir hissəsini ilahiyyat elmlərinə sərf etmiş və rəvayətə görə Səfəvi xanədanının ən elmli fərdi idi.[128] Şeyx Cəfərin Səfəvi hərəkatına verdiyi bütün ziyanlara baxmayaraq, həm Şeyx Cüneyd, həm də Şeyx Heydər ona ədəbsizlik etməkdən çəkinmişlər. Əvvəlki fəsildə qeyd olunan Əli ibn Qasim Nəcəfinin tərtib etdiyi ***"Ərdəbil Şeyxlərinin nəsəbi"*** adlı şəcərənamədə, müəllif Səfəvi təriqətinin silsiləsinə Şeyx Cəfəri də əlavə edərək, onu şeyxlər sırasında qeyd etmişdir. Şeyx Cəfərin həm də, Qaraqoyunlu hökmdarı Cahanşah ilə qohumluq əlaqələri var idi. Bununla yanaşı, Şeyx Cəfərin Cahanşahın devrilməsindən sonra belə, yeni gələn hakimiyyətin (Uzun Həsənin) yanında da böyük hörməti var idi. Təhqiqatçıların ifadələrinə görə, o əgər birini dövlətin əlindən xilas etmək istəsəydi, bunu bacarardı. Bütün bunlar Şeyx Cəfərin necə bir nüfuza sahib olduğunu anlamaq üçün kifayət edər.

Şeyx Cəfər öz dominant şəxsiyyəti ilə Şeyx Cüneydi daim kölgədə saxlamağa çalışır və fəaliyyətlərinə maneələr törədirdi. Amma Şeyx Cüneyd əmisinin yaratdığı çətinliklərə məhəl qoymur, özünəinamı və çalışqanlığı ilə Ərdəbildə güclü fəaliyyət göstərirdi. Təriqətin bu böhranlı dönəmində hər iki şeyxin

---

[128] Nəsəbus Səfəvi, s, 50

özünəməxsus tərəfdar kütləsi yaranmışdı. Qiyam tərəfdarı olan Şeyx Cüneyd və tərəfdarları, onların müqabilində dayanmış olan Şeyx Cəfər və tərəfdarları.

Şeyx Cüneydin şəhadətindən bir müddət sonra Ərdəbilə qayıdan Şeyx Heydər, Uzun Həsənin himayəsi ilə Ərdəbil xanəgahının rəhbəri olsa da, bu simvolik məna daşıyırdı. Şah İsmayıl qiyamına qədər əsl hakimiyyət Şeyx Cəfər və ondan sonra da oğlu Şeyx Qasımda olmuşdur. Buna baxmayaraq Şeyx Heydər, zaman-zaman öz şəxsi ambisiyalarını həyata keçirmək üçün Şeyx Cəfərə qarşı çıxmışdır.[129] Şeyx Cəfərdə Heydərin Ərdəbilə gəldiyi və fəaliyyət göstərməyə başladığı illərdən bəri onunla sərt davranmağa və onun fəaliyyətlərinə qarşı maneələr törətməkdən əl çəkməmişdir. Şeyx Cəfərin nəvəsi ilə evlənəndən sonra araları mülayimləşsə də, nə Şeyx Heydər şəhid atasının mücahid xəttindən ayrılmış, nə də Şeyx Cəfər dəyişmişdi.[130]

1487 (və ya 1488)-ci ildə vəfat edən Şeyx Cəfərdən sonra oğlu Qasim 1501-ci ilə qədər Ərdəbil xanəgahına rəhbərlik etmişdi. Şah İsmayıl qiyamından sonra isə

---

[129] Muhəmməd Kazım Rəhməti, Səfəvilər dövründə Mədəniyyət, s, 86
[130] Muhəmməd Kazım Rəhməti, Səfəvilər dövründə Mədəniyyət, s, 89

Qasim İstanbula köçmüş və 1520-ci ildə vəfat edərək, Əbu Əyyub Ənsari türbəsi yaxınlığında dəfn edilmişdir.[131] Lakin sonralar Şeyx Qasimin övladları vətənlərinə qayıdaraq Ərdəbildə məskunlaşmışdılar.[132]

## Şeyx Cüneyd Səfəvi

Şeyx Cüneyd 1429-cu ildə Ərdəbildə dünyaya gəlmişdir. Cüneyd adı ərəb mənşəli olub, əsasən ***"gənc döyüşçü, cəsur əsgər"*** mənasında işlənir. Şeyx Cüneyd ilk Səfəvi şeyxidir ki, Sultan ləqəbini seçmişdir. Hərçənd, onun Şücaəddin və Bədrəddin kimi ləqəbləri də var idi. Valter Hinz Şeyx Cüneydin xarakterini belə vəsf edir: ***"Şeyx Cüneyd çox dinamik bir şəxsiyyətə malik idi."***[133] Tarixçi Abbasqulu Qəfarifərd isə Şeyx Cüneyd haqqında belə yazır: ***"Cüneyd, böyük hədəfləri olan biri idi. O, Ərdəbil şəhərini böyük bir ordugah halına gətirdi."***[134] İbrahim Əmini Hərəvi isə Şeyx Cüneyd haqqında bu ifadəni işlətmişdir: ***"O, müridlərini demək olar ki hər gecə kafir və zalımlarla döyüşməyə çağırırdı***."[135] İranlı

---

[131] Muhəmməd Kazım Rəhməti, Səfəvilər dövründə Mədəniyyət, s, 87
[132] Muhəmməd Kazım Rəhməti, Səfəvilər dövründə Mədəniyyət, s, 88
[133] W. Hinz, XV. Yüzyılda İranın milli bir devlet haline yükselişi, Türk tarih kurumu basımevi – Ankara 1992, s. 15
[134] Abbasqulu Ğəfarifərd, Xanedan-e Səfəvi, s, 91
[135] Fütuhati-şahi", s. 36

tarixçi Mənuçöhr Paradust Şeyx haqqında belə yazır: ***"O, şiə məzhəbində mübariz mövqelərə sahib idi."***[136] Əbdüllətif Qəzvini isə onun haqqında bu sözləri yazmışdır: ***"(O) Mustafa dinini qüvvətləndirməyə və Murtəza Həzrət Əlinin şəriətini yaymağa çalışdı."***[137] Roger Savori bu dönəmi hərəkatın əvvəlki fəaliyyətlərinin gəldiyi nəticə olaraq görür: ***"İbrahim oğlu Cüneydin Səfəvi Təriqətinin rəhbərliyinə keçməsi ilə, Səfəvi hərəkatı təqribən iki əsr davam edən səbirli hazırlıq prosesində növbəti mühüm mərhələyə qədəm qoydu."***[138]

## Şeyx Cüneydin Qaraqoyunlu Cahanşahla mübarizəsi

Şeyx Cüneyd dövründə müşahidə edilən macəralı və təhlükəli siyasi şərait, Şeyx Sədrəddin dönəminin təhlükəli şəraitini unutduracaq dərəcədə idi. *"Aləm-arayi Şah İsmayıl"*-ın müəllifi yazır: ***"Müridlər Sultan Cüneydə tabe olmaq üçün onun ətrafına yığılmağa***

136 M. Paradust, Şah İsmayıl əvvəl, s, 134
137 Lübbül-Təvarix s: 24
138 İran Under The Safavids, Roger Savory, S, 16

***başladılar. Uzun müddət Sultan Cüneyd, sufi müridləri düzgün yolda idarə edirdi.”***[139]

Şeyx Cüneyd öz bəlağəti, coşğun şəxsiyyət və fəaliyyəti ilə xanəgahda elə bir ruh yaratmışdı ki, hətta zəif iradəli müridlərin belə ruhiyyəsini dirçəltmişdi. Şeyx Cüneydin gələcək hərbi fəaliyyətləri isə Səfəvi təşkilatına bağlı qruplar arasında mənəvi birlik yaratmışdı. İsgəndər bəy Münşi məşhur əsərində Şeyx Cüneydin fəaliyyəti haqqında yazır: ***“İradət əhli olan adamlar hər tərəfdən sədaqətlə onun yanına gəlməkdəydilər. O, iradət ərbablarını azğın kafirlərlə qəza və cəhada şirnikləndirirdi. Ətrafındakı adamlar gün-gündən çoxalırdı və onların arasında iradətli və sədaqətli insanların sayı artmaqdaydı.”*** [140] Əmir Çoban Şeyx Sədrəddinin varlığından necə narahat idisə, Qaraqoyunlu Cahanşah da Şeyx Cüneyddən eyni dərəcədə qorxurdu. Mənuçöhr Paradust Cahanşahı əyyaş və qadınbaz olaraq xarakterizə edir. Mənbələrin bildirdiyinə görə, Cahanşah Şeyx Cüneyd haqqında məlumat almaq üçün Təbriz sarayına münəccimləri çağırır və onlara deyir: ***“Eşidirəm ki, Şeyx Cüneydin yanına çoxlu adamlar gedib-gəlir. Mən qorxuram ki, Şeyx Səfi övladlarından biri qalxar və hakimiyyət bizim sülaləmizdən qırılaraq***

[139] Aləm-arayi-Şah İsmayıl Səfəvi, s, 26
[140] Aləm-arayi-Şah Abbas Səfəvi, s, 39

***Şeyx Səfi xanədanına keçər. Əgər bunlardan mənim sülaləmə bir ziyan gələcəksə, deyin, mən də bu adamları dəf edim."***

Münəccimlər onun narahatçılığını təsdiq etdilər və bəyan etdilər ki, ***yaxın zamanlarda Şeyx Səfi övladlarından biri ayağa qalxaraq İranı, hətta Rum, Hindistan və Türküstanın bir hissəsini ələ keçirməklə insanların məzhəbini də dəyişəcək, öz iti qılıncının zərbəsi ilə bütün vilayəti bir-birinə vuracaq və bu vilayəti öz hakimiyyəti altına gətirəcəkdir. Münəccimlər sonra əlavə etdilər ki, bu hakimiyyət günü-gündən inkişaf edəcək və bu dövlət məhv olmayacaq. Həzrət Sahibül-Əmr (əleyhissalam) zuhur edəcək və onlar o həzrətin yanında qılınc çəkəcəklər, padşahlığı isə həmin həzrətin yoldaşlarına, yəni Sahibüz-zamana (əccəlallahu fərəcəhu) təslim edəcəklər.***[141]

Eşitdiyi xəbərlər Cahanşahın narahatçılığını daha da artırdı. O vaxt qərara gəldi ki, Səfəvi xanəgahının artan nüfuzunun qarşısını almaq üçün bu xanəgahın rəhbərinə xəbərdarlıq etsin. Cahanşahın Sultan Cüneydə qarşı daha sərt tədbirlər həyata keçirmək imkanı da var idi. Amma o, Ərdəbil xanəgahı üzərinə qoşun dəstəsi

---

[141] Cahanquşayi-Xaqan, s, 81

göndərməkdən, Şeyx Cüneydi həbsə etməkdən ehtiyat edirdi. Güman edilir ki, Cahanşah etiqad mərkəzi kimi qəbul edilən Ərdəbil təkkəsinə qarşı zor tətbiq edilməsinin etiqad əhli arasında böyük narahatçılığa səbəb ola biləcəyindən ehtiyatlanaraq silaha əl atmadı. V. Hinz isə Cahanşahın şiə məzhəbinə mənsub olduğundan belə bir işə əl atmaqdan çəkindiyini qeyd edir. Cahanşah Şeyx Cüneydə bir məktub göndərdi. Məktubun məzmunu belə idi: ***“Mənim məktubum sənə çatdıqda gərəkdir ki, xalqı özündən və öz söhbətlərindən uzaq edəsən, yanında olan müridləri pərakəndə edəsən və sakit dolanasan ki, mən sənin sufilərindən xatircəm deyiləm. Məbada ki, qalmaqallı cahillərə uyub qiyamətdən dəm vurasan, ürəyində səltənət arzusu yer tapsın, asan gedən işlər müşkülə düşsün və hər iki tərəfdən neçə min nəfərin qanı axmış olsun. Əgər mənim sözümü eşitməsən və bu hədyanlarına son qoymasan yəqin ki, sənin və müridlərinin dəf edilməsi bizim üçün fərz olacaqdır”***

Şeyx Cüneyd Cahanşahın məktubuna belə cavab verdi: ***“İran padşahına bəlli olsun ki, əgər sənin qəlbinə Şeyx Səfi övladları barəsində bir nigarançılıq düşübsə, bu, şeytani-rəcimin vəsvəsəsidir ki, səni azdırmaq istəyir. Mən bu aləmdən künc-i xəlvəti seçmişəm və cəddimin müqəddəs astanasında Haqq-Taala ibadəti ilə***

***məşğulam. Sufilərimi də yalnız Mütəal-Məlikin ibadətinə yönəltmişəm. Heç vaxt mənim qiyam və ölkə fəth etmək niyyətim olmayıb. Əgər münəccimlər, xoşsözlü müjdəçilər səni qorxudub söyləyiblər ki, Şeyx Səfi övladından bir sahib-qiyam çıxacaq, o şəxs mən deyiləm, bəlkə mənim övladlarımdan və nəvələrimdən olar. Əgər Allahın təqdiri belə olsa ki, Şeyx Səfi övladlarından kimsə qiyam qaldırsın, onda bütün aləm də istəsə bu Allah qədərinin qarşısını almağa müyəssər olmayacaqdır. Sən rahat ol və bizi öz halımıza burax, çünki mənim səninlə heç bir ədavətim yoxdur. Mənim tərəfimdən qəlbin arxayın olsun və Allahın qəzəb və qəhharından qorx. Mənim sözüm budur ki, yazdım, qalanı sən bilərsən.”***[142]

Bu məktub Cahanşahın nigaranlıqlarını bir müddət aradan aparsa da, bu uzun çəkməmişdi. Casuslarının gətirdiyi hesabatlar ona gündən-günə dəhşətə düşürürdü. Onun nəzərinə çatdırıldı ki, məğribdən (qərbdən) başlamış Bəlx və Buxaraya qədər hər yer Şeyx Səfi övladlarının müridləri ilə doludur və əgər o, üsyan qaldırmaq istəsə dərhal Ərdəbildə 20 min atlı toplana bilər.[143] Muhəmməd Kazım Rəhmətinin nəzərinə əsasən,

---

[142] Cahanquşayi-Xaqan, s, 82

[143] Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 24

Cahanşahı Şeyx Cüneyd sarıdan şübhələndirən əsas qüvvə Şeyx Cəfər olmuşdur.[144]

Cahanşahın yalnız bir çıxış yolu var idi: Sürgün. Cahanşah şeyxə son dərəcə sərt və təhdidedici bir məktub göndərir. Məktubda deyilirdi: **“Hərçənd ki, sənə qadağan etdik, sən qəbul etmədin. Elə bil ki, sənin ürəyində böyük bir arzu yer tutmuşdur. Nəhayət ki, qalx və bizim torpaqlarımızı tərk et. Yoxsa gələrəm və Ərdəbili xaraba qoyaram, hətta qətliam da edərəm”[145]** Dəfələrlə buna bənzər gizli və ya aşkar elçilər vasitəsilə şeyxə Ərdəbildən çıxması bildirilsə də, bu sonuncu məktub Şeyx Cüneydi narahat etmişdi. Məktubdan əlavə Cahanşah onu öz yaxınlarının vasitəsilə vurmaq planını da işə saldı.

Cahanşahın planları Ərdəbildəki siyasi vəziyyətlə üst-üstə düşürdü. Üstəlik, Şeyx Cəfərin Cahanşah ilə yaxın qohumu olması və Şeyx Cəfərin qardaşı oğlundan duyduğu narahatlıq, Cahanşahın Şeyx Cüneyd kabusundan qurtulması üçün əlverişli bir zəmin yaratmışdı. Şeyx Cəfərin məktuba istinadən etdiyi təkidlər, əmisi tərəfindən aldığı ilk böyük zərbə olsa da, sonuncusu deyildi. Şeyx Cüneyd müridlərini topladı və onlara xitabən belə dedi**: “Əgər mənimlə yoldaşlıq**

---

[144] Muhəmməd Kazım Rəhməti, Səfəvilər dövründə Mədəniyyət, s, 94
[145] Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.24

**edirsinizsə, xoşdur. Əgər istəmirsinizsə, ixtiyar öz əlinizdədir**" Müridlər isə belə dedilər: ***"Başımız üstə, sənin ayağın hara basarsa, biz də orada xidmətinizdəyik."***[146]

Nəhayət 1448-ci ildə Şeyx Cüneyd Ərdəbildən, babalarının yurdundan uzaqlaşdırıldı. Roger Savori bu sürgün haqqında belə deyir: ***"Əgər Cüneyd bu tələblərə əməl etməsəydi, Ərdəbil şəhəri tamamilə dağıdılacaqdı."***[147]

Şeyxin sədaqətli müridləri onu bu çətin səfərdə yalnız buraxmamış, Konyadan Kilikiyaya, Şamdan Trabzon və Diyarbəkirə qədər uzanan yolun əziyyətini onunla birlikdə çəkməyə razı olmuşdular. Əhməd Kəmranifərdə görə, Şeyx Cüneyd 5 min nəfərlik tərəfdar qrupu ilə birgə yola düşmüşdü.[148]

## Şeyx Cüneyd Anadoluda

İrandan çıxarıldıqdan sonra Şeyx Cüneydin hansı yol ilə hərəkət etdiyi tam olaraq məlum deyil. Lakin onun ilk izlərini Anadolu, yəni Osmanlı torpaqlarında tapmaq

[146] Cahanquşayi-Xaqan, s, 83
[147] Roger Savory, İran under the Safavids, s, 17
[148] Əhməd Kamranifər. Təkapuha-ye nizami-ye səfəviyan dər rah-e rəsidən be qodrət (Cüneyd, Heydər, İsmayıl).

mümkündür. Şeyx Qaraqoyunlu paytaxtı Təbrizdən keçə bilməyəcəyinə görə, Van gölünü cənubdan tərk edib, Qarabağ və Ermənistandan keçərək Anadoluya daxil olması ehtimalı yüksəkdir.[149]

Araşdırmalar göstərir ki, Səfəvi təşkilatı iki əsas mərkəzə sahib olub, Talış və Anadolu bölgəsi. Bu iki bölgənin əhalisinin çoxu Səfəvi təriqətinin müridləri idilər. Şeyx Cüneyd isə bu iki bölgə arasında Anadolu bölgəsinə köçməyi daha münasib görmüşdü. Çünki Talış bölgəsi Cahanşahın hakimiyyəti altında idi və şeyxin bu bölgəyə gəlməsi heç nəyi dəyişdirməyəcəkdi. Buna görə Şeyx Cüneyd Anadolunu öz fəaliyyəti üçün daha münasib yer kimi görürdü. Əlavə olaraq, tarixçi və xronikaçı Marinosano, Anadolu əhalisinin məzhəbi haqqında yazır: ***«Kiçik Asiyanın türkdilli əhalisinin beşdə dördü şiə idi və Səfəvilərə xüsusi rəğbət bəsləyirdi. Anadolu şiələrinin çoxluğu Cüneydi o tərəfə çəkən güclü cazibə idi».[150]***

Anadolu, o dövrlərdə həm dini, həm də siyasi baxımdan geniş bir qeyri-sabitlik içərisində idi. Bu qeyri-sabitlik, regiondakı siyasi sərhədlərin qeyri-müəyyənləşməsinə səbəb olmuş və Şeyx Cüneydin dini doktrini və siyasi

---

[149] XV. Yüzyılda İranın milli bir devlet haline yükselişi, Türk tarih kurumu basımevi – Ankara 1992, s: 16-17

[150] Mənüçöhr Paradust, Şah İsmayıl əvvəl, s, 133

ideologiyasını yayması üçün əlverişli bir mühit yaratmışdı. Şeyx Cüneydin 1448-1459-cu illər arasında Anadoluya etdiyi səfərlər, Anadolu əhalisi arasında əhəmiyyətli dərəcədə mürid artımına səbəb oldu. Xüsusilə, Mərkəzi Anadolunun Sivas, Tokat və Amasya bölgələrindən olan geniş köçəri və yarımköçəri qruplar, Şeyxin ardıcılı olaraq təriqətə qoşulmuşdular. Bu dövrdə Şeyx Cüneydin fəaliyyəti ilə paralel olaraq, Səfəviyyə təriqətinə aid əsas ideoloji mətnləri, xüsusilə də *Səfvət əl-Səfa* Anadolunun müxtəlif bölgələrində Osmanlı türkcəsinə tərcümə edilərək yayılmağa başlamışdı. Bu tərcümələr *Buyruq*, *Mənakıb*, *Şeyx Safi Buyruğu* kimi adlarla dövriyyəyə daxil olmuş və təriqətin ideoloji əsaslarını geniş kütlələrə çatdırmışdı. Bu, yalnız dini deyil, həm də mədəni-siyasi bir hərəkatın meydana gəldiyini göstərir.[151]

Şeyx Cüneyd keçmişdə Ərdəbil təkkəsinə hədiyyələr göndərən Osmanlı sarayına Quran, səccadə və təsbeh ilə elçilər göndərmiş və Anadoluda tərəfdarları ilə birlikdə rahatca ibadətlə məşğul olacağı bir yerdə onlara mülk verməsini xahiş etmişdi. Elçini qəbul edən Çandarlı Xəlil Paşa məsələni II Murada çatdırdı. Vəziri ilə məsləhətləşən Sultan Şeyxin hədiyyələrini qəbul etməklə

[151] Rudi Matthee - THE SAFAVID WORLD, s: 25

yanaşı, istəyini rədd etdi. II Murad Şeyx Cüneydə 200 flori[152], müridlərinə isə 1000 akçe hədiyyə göndərib bölgəni tərk etmələrini istədi. Sultan Murad Şeyx Cüneydin Osmanlı torpaqlarına özü ilə birlikdə şiəliyi gətirəcəyini və bununla da dövlətinin gələcəyi üçün təhlükəli bir cərəyanın yaranacağını düşünürdü. Bu dövrdən başlayaraq Osmanlının Səfəvilərə qarşı mədəni müharibəsi başladı.

Osmanlı sarayına yaxın tarixçi Əbülxeyr Fəzullah ibn Ruzbehan əl–Xunci əl–İsfahani əl–Əmini, bu yeni təbliğat dalğasını sərt şəkildə tənqid edərək Şeyx Cüneydin ətrafına yığılmış Anadolu türklərini “Rumun axmaqları” adlandırmış, onların yaydığı təlimləri isə *“Şeytani təsəvvürlə yaradılmış saxta üçlük” – Allah, Məhəmməd və Əli* – kimi qələmə vermişdi. Bu ifadə, sünni Osmanlı elitasının şiə Səfəvi təlimlərinə qarşı olan ciddi ideoloji müqavimətini açıq şəkildə ortaya qoyur.[153]

Şeyx Cüneyd buradan şiə təmayülləri olan Qaraman bəyliyinin paytaxtı Konyaya üz tutub, burada məşhur arif Sədrəddin Konyəvinin zaviyyəsində yaşamağa başladı. II Mehmedində müəllimi olan Krımlı Xoca Xeyrəddin ilə görüşdü. Bu şəxs Zeyniyyə şeyxi olan

---

[152] Flori - II Mehmed dövrünə qədər Osmanlılarda ən çox istifadə olunan qızıl pul vahidi

[153] Rudi Matthee - THE SAFAVID WORLD, s: 26

Şeyx Abdüllətif Qüdsi ilə Şeyx Cüneydin görüşündə vasitəçilik edirdi. İlk dəfə görüşdükləri zaman Şeyx Əbdüllətif ilə Şeyx Cüneyd İbn Ərəbi və Sədrəddin Konyəvinin fikirləri üzrə müzakirələri oldu və qərara gəldilər ki, təsəvvüf dünyasının bu iki böyük aliminin əsərlərini istinsah etsinlər[154]. İkinci görüşündə Şeyx Cüneydin şiə doktrinası Zeyniyyə şeyxini narahat etdi və Qaraman bəyinə məktub yazaraq onu buradan uzaqlaşdırmasını xahiş etdi. Şeyx Cüneyd yaranan bu vəziyyətdən sonra burada qala bilməyəcəyini anlayaraq Varsaq Türkmənlərinin yaşadığı Cənubi Tavr dağlarına doğru yola düşdü. Şeyx hər getdiyi yerdə təsir qoyur və Anadoluda məşhurlaşırdı. V. Hinz bildirir ki, *yüz il sonra belə, bu qəbilə üzvləri Səfəvi hakimiyyətinin tərəfdarı idilər.*[155] Amma çox keçmədi ki, Qaraman bəyi İbrahim Varsaq hakiminə xəbər yollayaraq, Şeyx Cüneydin tutulub həbs edilməsini əmr etdi.[156]

Şeyx hara gedirdisə böyük bir kütlə ətrafına yığılır və çox keçmədən hakim qüvvələr onu tutmaq üçün hərəkətə keçirdi. “THE SAFAVID WORLD” adlı əsərdə yazılır:

---

[154] Çap olunmuş mətnlərin təkrarən yazılması və ya surətinin alınması
[155] XV. Yüzyılda İranın milli bir devlet haline yükselişi, Türk tarih kurumu basımevi – Ankara 1992, s.18
[156] Yenə orada

***“Şeyx Cüneydin uğuru müxtəlif qrupları zamanla öz ətrafında birləşdirə bilən cazibə mərkəzi yaratmaq bacarığına əsaslanırdı.”***[157]

## Şeyx Cüneyd Suriyada

Şeyx Cüneydin yol aldığı hər bir yer şiə damarı olan bölgələr idi. Şeyx bu bölgələrə gələrək müstəzəf müsəlmanların üsyankar ruhunu dirçəldir və gələcəyin qiyamının yol xəritəsini çəkirdi.

Pənahi Semnani yazır: ***“Səfəvi hərəkatı, yalnız bir dini hərəkat olmaqla qalmadı, həm də geniş xalq kütlələri arasında inqilabi ruh yaratmağa başladı.”***[158]

Şeyxin cəlb etdiyi tayfalar sonradan Şah İsmayıl qiyamına qoşularaq Şeyx Səfiəddindən başlayan bu işi tamamlayacaqdılar. Şeyxin səfərlərində iki əsas hədəfi var idi:

1. **Təbliğat arealını genişlətmək**
2. **Güclü müttəfiq tapmaq**

Onun növbəti səfəri Suriyaya oldu. Şeyx Cüneyd ilk iş Misir Məmlük sultanı Sultan Çaxmağdan icazə alaraq İsgəndərun körfəzi hövzəsindəki Ursuz dağında səlib yürüşləri dövründən qalmış köhnə bir qalada yerləşdi və

---

[157] Rudi Matthee - The Safavıd World s: 43

[158] Şah İsmayıl Səfəvi, Pənahi Semnani, s, 29

bu qalanı öz iqamətgahına çevirdi. Güman edilir ki, həmin qala 1129-cu ildə viran edilmiş Sarepta qalası idi. Artıq onun üçün təhlükəsiz bir məkan tapılmışdı. Şeyx 1456-cı ilə qədər burada məskunlaşdı. Qalanın əldə edilməsi ilə qısa müddət ərzində rahat fəaliyyət imkanına sahib olan Şeyx, Hələbdə məscid və hamam inşa edərək, buradan geniş təbliğat şəbəkəsini idarə etməyə başladı. Artan təbliğat səyləri olduqca uğurla nəticələndi ki, həm yaşadıqları bölgədən həm də ətraf bölgələrdən bir çox qrup ona qoşuldu. Bu qruplardan biri də, Şeyx Bədrəddinin tərəfdarları idi. Şeyx Bədrəddin XIV əsrin sonları və XV əsrin əvvəllərində Rumelidə Osmanlı əleyhində böyük bir hərəkat formalaşdırmış və 1420-ci ildə edam olunmuşdu. Artıq Səfəvi təriqəti digər hərəkatları da özünə cəlb etməyə başlamışdı.

Şeyx Cüneydin nüfuzunun artması bölgədəki sünni üləma arasında narahatlıq yaratmışdı. Vəziyyət o həddə çatmışdı ki, Şeyx Cüneydin kafir olduğu barədə 1457-ci ildə Hələb alimləri və dörd məzhəb üzrə qazilərin (Şəmsəddin ibn Şəma, Şəmsəddin Məhəmməd ibn İbrahim Səlami Şafei və b.) iştirakı ilə bir məclis təşkil edilmişdi.

Qazilər, bir-bir məclisə şahidlər çağırır və Şeyx Cüneyd əleyhinə dəlillər toplayırdılar. Bu şahidlərdən biri də

Muhəmməd ibn İdris Ərdəbili idi. Şeyx Cüneyd onun qızı ilə ailə qurmuş, lakin sonradan aralarındakı problemlər səbəbilə boşanmışdılar. Lakin bu şəxs məclisdə, Şeyx Cüneyd ilə şəxsi münasibətlərinin yaxşı olmadığını və buna görə də etdiyi şahidliyin ədalətli olmayacağını bildirib, məclisdən üzrxahlıq istəyib, oranı tərk etdi.[159] Şəmsəddin əs-Suyuti və Əmir Fəxrəddin Osman bin Əğləbək (vəf. 1480) Cüneyd haqqında fətva yazmış, Şəmsəddin ibn Şəma isə bu fətvanın doğruluğunu təsdiqləmişdi.[160] Bu hadisədən sonra, Şeyx Cüneyd Şəmsəddin ibn Şəmaya bir məktub ünvanlamış və ona qarşı irəli sürülən ittihamları cavab vermişdi. Şeyx Cüneydin Şəmsəddin ibn Şəmaya ərəb dilində yazdığı məktubda belə deyilir ***"Əgər birisi buna (müsəlmanlığıma) şübhə edirsə, mənə yaxınlaşsın və həqiqəti öyrənsin."***

Ona qarşı ortaya qoyulan iftiralardan biri onun özünü son xilaskar İmam Mehdi (ə.c.f) kimi tanıtması idi. Şeyx Cüneyd isə məktubunda, İmam Mehdinin şiəlikdəki on ikinci imam olduğuna və onun qayıdacağına inandığını ifadə etmişdir.

---

159 https://www.khabaronline.ir/news/773414/-رساله-شیخ-جنید-صفوی-در-اثبات-وجودحضرت-مهدی-ع)

160 Muhəmməd Kazım Rəhməti, Səfəvilər dövründə Mədəniyyət, s, 84

Şeyx Cüneyd yazır: “***İslam ümməti Məhdi haqqında müxtəlif fikirlər irəli sürmüşdür. Əhli-İmamiyyə (on iki imamçı) məzhəbinin ardıcılları isə belə deyirlər: Məhdi yalnız Həsən əl-Əskərinin (ə) oğludur. Onların bu iddiasını dəstəkləyən bir sıra hədislər mövcuddur ki, bu hədislər etibarlı və doğru xəbərlərdən rəvayət edilmişdir. Bu hədislərdən biri isə Peyğəmbərimizin (s) belə dediyini bildirir: “Mənim ardıcıl rəhbərlərim (xəlifələrim) İslamdan sonra İsrail oğullarının on iki rəhbəri qədər olacaqdır.”***[161]

Amma Şeyxin cavab məktubu məkrli niyyətlərin qabağını almağı bacarmadı. Üləma, Şeyx Cüneydin şəriətə zidd hərəkət etdiyini və bölgədə şiə təbliğatı apardığını bildirərək, Məmlük Sultanına şikayət etdilər. Beləliklə, Sultan Hələb naibinə Şeyxi həbs etmələrini əmr etdi. Hələb naibi də bu əmrin icrasını öz vəkilinə tapşırdı və onun rəhbərliyi altında Şeyx Cüneydin həbs edilməsi üçün hərbi qüvvə göndərildi. Amma bu qüvvə Şeyx Cüneydin silahlı müridləri tərəfindən qarşılandı və şeyxlərinin oradan uzaqlaşması üçün şərait yaratdılar. Bu Səfəvi müridlərinin çıxdığı ilk döyüş idi. Onlardan 70 nəfəri də bu döyüşdə şəhid oldu. Şeyx oradan Canik

[161] Kunuz əl-Zəhəb fi-Tarix Hələb, cild 2, səhifə 284-289.

adlı məntəqəyə üz tutdu. Şeyx Cüneyd hər dəfə belə təhlükələrlə üzləşdikcə nüfuzu daha da artırdı.

## Şeyx Cüneydin Trabzon səfəri

Şeyx Cüneyd uzun və çətin bir səfərdən sonra Qara dəniz sahillərində yerləşən Canik bölgəsinə yetişdi. Bölgənin hakimi Məhəmməd bəy Şeyxi xoşluqla qarşıladı və onun fəaliyyətlərinə heç bir maneəçilik törətmədi. Şeyxin Qara dəniz hövzəsində 3 il müddətində fəaliyyət göstərdiyi bildirilir. Buradakı fəaliyyətlərində Ustaclı tayfasının silahlılarını da bu dəstəyə cəlb etdi. Artıq Şeyx Səfiəddin İshaqdan başlayan Səfəvi hərəkatı siyasi qüvvədən hərbi qüvvəyə çevrilmişdi. Kembric üniversitetini "İran tarixi" nəşrində qeyd edilir:

***"Cüneydin xarizmatik və güclü şəxsiyyəti, xüsusilə ziddiyyətləri və həyəcanı sevən türkmən tayfaları arasında dərin təsir buraxmışdı."***

Şeyx Cüneydin həyata keçirməyi nəzərdə tutduğu əsas hərbi-siyasi planlardan biri, yunan mənşəli Komnenoslar sülaləsinin hakimiyyəti altında olan Trabzon Rum imperiyasına qarşı silahlı hücum təşkil etmək və bu imperiyanı məğlub etməklə siyasi fəaliyyətini dövlət səviyyəsinə yüksəltmək idi. Beləliklə, bu təşəbbüs həm Anadoluda davam edən təhlükələrdən qorunma imkanı

yaradacaq, həm də şiə icması üçün təhlükəsiz bir sığınacaq formalaşdıracaqdı. Şeyx Cüneydin dövlət qurmaq ideyası, onun malik olduğu azsaylı tərəfdarları və dövrün siyasi-hərbi reallıqları nəzərə alındıqda, olduqca riskli və reallıqdan uzaq bir təşəbbüs kimi dəyərləndirilə bilər. Bununla belə, Şeyx Cüneydin başlatdığı silahlı mübarizə, bütün maneələrə və çətinliklərə baxmayaraq, sonda Şah İsmayılın siyasi və hərbi liderliyi ilə öz bəhrəsini verdi.

Şeyx 1456-cı ildə ətrafına sadiq tərəfdarlarını toplayıb Trabzon Rum İmperiyasına doğru hücuma keçdi. Hücum çox yaxşı bir dönəmdə həyata keçirilmişdi. Taxtda oturan IV İohann Komnenos tarixi ədəbiyyatda kifayət qədər zəif bir hakim kimi təsvir olunur. Onun atasına qarşı apardığı taxt mübarizəsi nəticəsində Trabzonun müdafiə sistemləri xeyli zəifləmiş və şəhər xarici hücumlar üçün açıq bir hədəfə çevrilmişdi.

Şeyx Cüneyd əvvəlcə strateji mövqeləri, o cümlədən Kapanyun keçidini ələ keçirdi və həmin ərazidə müəyyən sayda hərbi qüvvə yerləşdirdi. Hücumdan xəbər alan, IV İohann dəniz və quru qüvvələri hərəkətə gətirdi. IV İohann dəniz qüvvələrinin rəhbərliyini öz üzərinə götürdü. Tarixi mənbələrə əsasən, Trabzon ordusu bu hücuma qarşı gözlənilən fəallığı

göstərməmişdi. Ordudan sadəcə Aleksandr adında bir sərkərdə Trabzon hakiminin köməyinə tələsdi. Ona görə Aleksandra quru qoşunların rəhbərliyi verilmişdi. Bir təriqət rəhbərinin, Roma İmperiyasının siyasi-mədəni mirasını daşıyan bir dövləti bu dərəcədə çarəsiz vəziyyətə salması, Səfəvi tarixinin diqqətəlayiq və maraqlı məqamlarından biridir. Plana əsasən, Aleksandr qurudan, IV İohann isə dənizdən hücum edərək döyüşdə üstünlüyü təmin edəcəkdilər.

Nəzərdə tutulan plan, ilahi iradə nəticəsində dənizin coşğun dalğaları tərəfindən yerlə yeksan oldu. IV İohannın rəhbərlik etdiyi dəniz qoşunu tufan nəticəsində sahilə belə yaxınlaşa bilməmiş, hətta qoşunu az qala dənizdə qərq olacaqdı. Tənha qalan Aleksandr Səfəvi qoşunu ilə qarşılaşdı. Şeyx Cüneydin rəhbərlik etdiyi qoşun Trabzon ordusunu darmadağın etdi. Döyüşdə Aleksandr və oğlu öldürüldü. Sağ qalan qoşun isə qaçmağa üz tutdular.[162] Bu qələbə ilə Şeyx Cüneydin bölgədəki nüfuzu əhəmiyyətli dərəcədə artdı; elə ki, əvvəllər ona məsafəli yanaşan şəxslər belə, ona rəğbət göstərməyə başladılar.

Səfəvi qoşunu döyüş zamanı bu şeiri oxuduğu rəvayət olunur:

[162] Valter Hints. Təşkil-e dövlət-e milli dər İran. Tehran, 1361, s. 27

**Qılınclar parlayıb od saçdı yenə,**
**İgidlər hücum çəkdi şir tək önə.**
**Nizələr sinədən keçdi alovla,**
**Qılınc dəydi başa – dağ çəkdi qana.**
**Yer ləl kimi qızardı axan qanla,**
**Qan seli axdı Ceyhun tək aramla.**[163]

Sonrakı mərhələdə baş verənlər isə Şeyx Cüneydin strateji biliyinin yüksəkliyini göstərir. Şəhər daxilində baş verən "təsadüfi" yanğın əhalidə təhlükənin çox yaxında olması gümanını yaratmış və şəhərdən qaçmaq imkanı olanlar şəhəri tərk etmişdilər. Şəhər əhalisinin bir hissəsi quru yolla, bir hissəsi isə gəmilər vasitəsilə Gürcüstana yollandılar. Şeyx Cüneyd heç kimə ziyan vurmadan trabzonluların müqavimətini qırmağı bacardı.

Lakin Osmanlı sultanı II Mehmetin hücuma hazırlaşdığı xəbəri, uğurla davam edən Trabzon mühasirəsinin dayandırılmasına səbəb oldu. Nəticədə Şeyx Cüneyd müridləri ilə birlikdə bölgədən geri çəkildi.[164]

## Şeyx Cüneyd Diyarbəkirdə

1456-cı ildə Şeyx Cüneyd, beş min nəfərlik qoşunu ilə birlikdə *"Həsən Keyf"* adlı məntəqəyə doğru hərəkət

[163] Qasim bəy Həyati Təbrizi, Tarixi-həyati, s, 131
[164] Aşıkpaşazade Tarihi, s, 375

etdi. Onun bu bölgəyə gəldiyini eşidən Uzun Həsən, ona ehtiramını ifadə edən bir məktub göndərərək, Şeyx Cüneydi öz yanına dəvət etdi.[165] Uzun Həsən, Şeyx Cüneydin gəlməsi xəbərini aldıqdan sonra onun qarşılanması üçün xüsusi hazırlıqlar gördü. O, Ağqoyunlu əmirlərindən və nüfuzlu şəxsiyyətlərdən ibarət nümayəndə heyətini onun qarşılanması üçün göndərdi. Şeyx Cüneyd bir mənzil məsafəyə çatdıqda isə Uzun Həsən şəxsən onun görüşünə getdi, atından endi və onu qucaqlayaraq dərin hörmət və ehtiramını ifadə etdi.[166] Uzun Həsən yalnız Şeyx Cüneydə yox, onun müridlərinə də böyük hörmət göstərdi və onları uyğun vəzifələrə təyin etdi.

Şeyx Cüneyd tam dörd il müddətində burada qaldı. Zaman keçdikcə, Uzun Həsən hətta bacısını ona ərə verməyə razı oldu. Əbül-Fəth Hüseyni Gorqaninin rəvayətinə əsasən, Həsən bəy Şeyx Cüneydə bir bacısını verərək ittifaqlarının təməllərini möhkəmləndirmək istəyirdi. Ona dedi: ***“Böyük bacımı cariyə kimi qəbul et”*** Şeyx isə cavab verdi ki, ***“Sənin bacılarından yalnız Sara Xatun qızı Xədicəni qəbul edərəm.”***[167] Şeyx Cüneydlə Xədicə bəyim 1458-ci ildə ailə qurdular. Bu

---

[165] Həsən bəy Rumlu. Əhsənüt təvarix. Tehran, 1349, s. 408
[166] Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.24
[167] Abbasqulu Ğəfarifərd, Xanedan-e Səfəvi, s, 94

nikah ilə Uzun Həsən Səfəvilərlə qurduğu siyasi ittifaqı ailə birliyi ilə möhkəmləndirdi ki, bu da gələcək Səfəvi-Ağqoyunlu münasibətlərinin əsasını formalaşdırdı. Şeyx Cüneydin Diyarbəkir dönəmi təbliğat sahəsində ən rahat olduğu dövr hesab olunur. O, sadəcə Diyarbəkirdə deyil ətraf bölgələrdə də təbliğat aparmaq imkanı tapmışdı. Ağqoyunlularla müttəfiq olan türkmən tayfaları – Əfşar, Mosullu, Doğər, Xarbəndəli, İnallı və Qaramanlılar arasında həyata keçirilən ideoloji və dini təbliğat nəticəsində onun müridlərinin sayı nəzərəçarpacaq dərəcədə artmışdı. Qasım bəy Həyatinin məlumatına görə, Şeyx Cüneydin 4 minə yaxın xəlifəsi yəni, təbliğatçısı mövcud idi. Ərdəbildəki əsas təriqət mərkəzindən uzaqlaşdırıldığı şəraitdə belə, Şeyx Cüneydin 4 min xəlifəyə sahib olması, onun dini-siyasi nüfuzunun miqyasını göstərən bir göstəricidir.[168]

Məhz bu dövrdə Uzun Həsənin dəstəyi ilə, Səfəvi müridləri arasında 10 min nəfərdən ibarət, zirehli və müasir dövrün silahları ilə təchiz olunmuş mütəşəkkil bir ordu formalaşdırıldı. Bu hərbi struktur, Səfəvi təriqətinin

[168] Qasim bəy Həyati Təbrizi, Tarixi-həyati, s, 133

sırf dini-mistik bir hərəkatdan çıxaraq, siyasi və hərbi qüvvəyə çevrilməsinin açıq göstəricisi idi.[169]

## Ərdəbilə dönüş

Şeyx Cüneydin növbəti səfəri Ərdəbilə oldu. Lakin bu səfərini əvvəlkilərdən fərqləndirən cəhət, onun müridlərini geridə buraxaraq təkbaşına yola çıxması idi. Onun gizli şəkildə Ərdəbilə dönüşü, siyasi məqsəd daşıyan bir qərar kimi qiymətləndirilir. Əks təqdirdə, Cahanşahla münasibətlərin gərgin olduğu bir dövrdə, Şeyx Cüneydin mürid ordusu ilə İrana qayıdışı, siyasi təxribat xarakteri daşıyan bir addım kimi yozulardı.

Şeyx Cüneydin, Cahanşahın rəqibi Uzun Həsən ilə ittifaq qurduğunu və Ərdəbilə doğru hərəkət etdiyini Təbriz sarayı xəbər almışdı. Artıq Şeyx Cüneydin varlığı hakimiyyəti üçün daha böyük problem idi. Çünki o, Anadoluda nəzərəçarpacaq sayda tərəfdar qazanmış, Trabzon Komnenlərinə qarşı təşkil etdiyi hücumlarda müəyyən uğurlar əldə etmiş və Ağqoyunlu hökmdarı Uzun Həsənlə strateji müttəfiqlik münasibətləri quraraq regionda siyasi baxımdan təsirli bir fiqura çevrilmişdi.

---

[169] Əhməd Kamranifər. Təkapuha-ye nizami-ye səfəviyan dər rah-e rəsidən be qodrət (Cüneyd, Heydər, İsmayıl)

Qasım bəy Həyati Təbrizinin məlumatına əsasən, Şeyx Cəfər qardaşı oğluna burada fəaliyyət imkanı verməmiş, nəticədə Şeyx Cüneyd uzun müddət Ərdəbildə qalmayaraq şimala doğru hərəkət etməyə məcbur olmuşdu.[170] Müəllif Şeyx Cüneydin bu ayələri zümzümə edərək Ərdəbildən ayrıldığını qeyd edir: **"Madam ki biz yurdumuzdan çıxarılmışıq və övladlarımızdan ayrılmışıq, onda nə üçün Allah yolunda vuruşmayaq?"[171]**

## Şeyx Cüneyd və Şirvanşahlar

Ərdəbildən ayrıldıqdan sonra Şeyx Cüneyd, çox qısa müddət ərzində İran, Qafqaz və Anadolunun müxtəlif bölgələrində mövcud olan, hərbi hazırlığa malik 10 mindən artıq mürid şəbəkəsini təşkilatlanmış şəkildə öz ətrafına topladı. Təkcə qüvvələrin toplanması ilə kifayətlənilmədi, eyni zamanda bu qüvvələr tam şəkildə silahlandırıldı və zəruri təchizatla təmin olundu ki, bu da Şeyx Cüneydin hərbi gücünü daha sistemli və təsirli hala gətirdi. Bu hadisələr Şeyx Cüneydin Səfəvi təşkilatının gizli potensialını öz nəzarətinə aldığına və regionlararası

---

[170] Qasim bəy *Həyati Təbrizi, Tarixi-həyati, s, 133)*
[171] əl-Bəqərə surəsi, 246-cı ayə

koordinasiyalı bir mürid şəbəkəsini idarə etdiyini dəlalət edir.

Şeyx Cüneydin fəaliyyətinin başlanğıcında tutduğu strateji xətt aydın idi: ***Ələvi dövləti yaratmaq və Əhli-Beyt tərəfdarlarının birliyi üçün sabit və davamlı bir qərargahın qurulması.***

Şeyx üçün əsas məsələ, bu ideoloji-siyasi şəbəkənin fasiləyə uğramaması və harada olursa olsun, bu dövlətin gerçəkləşdirilməsi idi. Qasim bəy Həyati Təbrizi yazır: *"O, bu yolda Allahın uca vəd etdiyi savab və dərəcələrə ümid edərək* ***"Malları və canları ilə Allah yolunda cihad edənlər, Allah yanında ən yüksək dərəcəyə malikdirlər"***[172] *ayəsinə imanla, bir an belə istirahət etmədən cəbhədən-cəbhəyə keçirdi."*

Şeyx Cüneyd Gürcüstana təşkil etdiyi hücum nəticəsində əhəmiyyətli bir hərbi uğur qazandı. Qələbədən sonra İrana geri dönən Şeyx, bu dəfə İslamı qəbul etməmiş Çərkəz tayfaları üzərinə yürüş planlaşdırırdı. Lakin bu istiqamətdə irəliləmək üçün ən qısa və strateji baxımdan əlverişli yol, Şirvanşahlar dövlətinin ərazisindən keçirdi. Silahlı bir ordunun başqa bir dövlətin torpaqlarından icazəsiz keçməsi, təbii olaraq siyasi gərginliyə səbəb ola bilərdi. Bunu öncədən nəzərə alan Şeyx Cüneyd,

---

[172] əl-Tövbə surəsi, ayə:20

Şirvanşah Xəlilullaha bir məktub ünvanlayaraq, ərazidən keçmək niyyətini və bu keçidin məqsədini izah etməyə çalışdı.

Şirvanşaha məktub ünvanlayan yalnız Şeyx Cüneyd deyildi. Gürcüstana edilən hücumun sarsıdıcı təsiri, yalnız yerli əhalini deyil, Qafqazın digər siyasi güclərini də narahat etmişdi. Xüsusilə, İslamı qəbul etməmiş Çərkəz tayfalarının başçıları Şeyx Cüneydin növbəti hədəfinin öz torpaqları ola biləcəyini düşünərək təşvişə düşmüşdülər.

Onlar bu təhlükəni qabaqlamaq üçün Şirvanşah Xəlilullaha müraciət etmişdilər. Çərkəz böyükləri Şeyx Cüneydin artan nüfuzunu və silahlı yürüşlərini təhdid kimi qiymətləndirərək, onu əvvəlcədən xəbərdar etmiş və ərazilərinin müdafiəsi üçün dəstək istəmişdilər.

Bu müraciət, Şeyx Cüneydin regiondakı fəaliyyətinin artıq təkcə dini təbliğat və sufiliyin yayılması ilə məhdudlaşmadığını, eyni zamanda ciddi siyasi və hərbi nəticələr doğuran bir qüvvəyə çevrildiyini açıq şəkildə göstərirdi. Şirvanşah Xəlilullah isə cavab məktubunda onu hərbi yürüşdən çəkindirməyə çalışdı və bildirdi ki, kafirlərlə mübarizə aparmaq dərvişlərin işi deyil. Ona görə bu işdən çəkinsin və insanların mənəvi irşadı ilə

məşğul olsun. Şeyx Cüneydin nəzərinə o da çatdırıldı ki, hücum etməyi planlaşdırdığı çərkəslər onun dövlətinin təbəələridir və onun xəzinəsinə vergi verirlər.[173]

Şeyx Cüneydin bir təriqət lideri, Şirvanşah Xəlilullahın isə dövlət başçısı olmasına baxmayaraq, reallıqda güc balansı düşündüyümüzdən daha mürəkkəb idi. Anadoludan Qafqaza qədər uzanan mürid şəbəkəsi, silahlı dəstələri və Əhli-beyt məktəbinə əsaslanan ideoloji cazibə qüvvəsi, onu regionda qorxulu bir siyasi aktor halına gətirmişdi. Üstəlik, Şeyx Cüneyd, Ağqoyunlu hökmdarı Uzun Həsənin kürəkəni kimi strateji bir ailə ittifaqına da sahib idi. Bu, amillər Şirvanşah Xəlilullah kimi təcrübəli bir hökmdarı da ehtiyatlı davranmağa vadar edirdi.

Bütün xəbərdarlıqlara baxmayaraq, Şeyx Cüneydin yürüşlərdən əl çəkməməsi, Şirvan taxtı üçün ciddi təhlükə yaradırdı. Şirvanşah Şeyx Cüneydin şiə əsaslı bir hökumət qurmaq üçün çalışdığının xəbərlərini almışdı. Şirvanşah kafirlərə qarşı başladılan yürüşlərin qəfil şəkildə Şirvanşahlar dövlətinə yönələcəyindən qorxurdu. Üstəlik, ölkə daxilində onun gizli şəbəkəsinin mövcud olması vəziyyəti daha da gərginləşdirirdi**.** Osmanlı

---

[173] Ali Mu'ayyid Sabiti, Esnad ve Nameha-yı Tarihi ez Evayil-i Devreha-yı İslami ta Evahir-i Ahdı- Şah İsmail Safevî, (Bundan sonra:Esnad ve Nameha-y Tarihi), Kitab-hane-yi Tehuri, Tahran, Aban 1346, s. 374, 376.

mənbələrinə əsasən, Şirvanşah hətta Şeyxin yanına elçilər vasitəsilə hədiyyələr belə göndərmişdi.

Şirvanşahın ehtiyatlı mövqedən açıq hücum mərhələsinə keçidi, Şeyx Cəfər Səfəvinin göndərdiyi məktubla başladı. Şeyx Cəfər açıq şəkildə qardaşı oğlunun hökmünü vermişdi: ***"O, öldürülməlidir."***

Şeyx Cəfər məktubunda yazırdı: ***"Vilayət" xanədanının müridlərindən və kəramət ailəsinə etiqad edənlərdən [ibarət] bir dəstə Şeyx Cüneydi yüksək məqamlı atasına görə özlərinə mürşid bilmiş və onun göstərdiyi yolla getmişlər. Halbuki Şeyx Cüneyd bu mənada yalançıdır, onun xilafəti və mürşidliyi həqiqətə uyğun deyildir. Qarşıda duran ən birinci məsələ onun dəf edilməsi üçün səy göstərməkdir"***[174]

Muhəmməd Kazım Rəhmətinin nəzərinə görə, Həsən bəy Rumlu Şeyx Cəfərin sərt məktubunu yumşaldaraq kitabına əlavə etmişdir.

Qasim bəy Həyati məktubun sərt üzünü belə təqdim edir:

"Bu sırada Şeyx Cəfərdən bir məktub gəldi. Orada yazılmışdı ki, **Şeyx Cüneyd bir müddətdir xilafət**

---

[174] Həsən bəy Rumlu. Əhsənüt-təvarix (Tarixlərin ən yaxşısı). Kastamonu: Uzanlar, 2017, s. 229

**arzusu ilə yaşayır** və (qəlbi) daim ölkə fəthinə yönəlmişdi. **Mirzə Cahanşahın əmri ilə onu Ərdəbildən çıxarmışdıq.”**

Davamında yazılırdı ki, **“Ən münasib yol budur ki, onun fəaliyyətinə son verilsin və varlığı tarixdən silinsin.”[175]**

Bütün bu gərginliklər və siyasi narahatlıqlar nəticədə Şeyx Cüneydin şəhadət yolunu hazırladı. Maraqlıdır ki, bu son, bir döyüş meydanında deyil, doğma əmisinin yazdığı məktubun təsiri ilə gerçəkləşdi. Şeyx Cəfərin məktubu olmasaydı, nə Şirvanşah, nə də Cahanşah siyasi və dini cəhətdən bu qədər riskli bir addımı atmağa cəsarət etməzdilər.

## Şeyx Cüneydin şəhadəti

Şeyx Cüneyd Şirvana heç bir müdaxilə olmadan girmişdi. Lakin həmin günlərdə Şirvan sarayında onun əleyhinə gizli planlar cızılmaqda idi. Şirvanşah Xəlilullah Qaraqoyunlu Cahanşah və Tabasaran hakimi Əbu Məsum ilə danışıqlar aparırdı. Şirvanşahın müttəfiq axtarışına çıxması bizə göstərir ki, Şeyx Cüneydin hərbi qüvvəsi Şirvanşahlar ilə müqayisədə çox güclü olub və Şirvanşahı müttəfiq axtarmağa məcbur edib. Həm

[175] Qasim bəy Həyati Təbrizi, Tarixi-həyati, s, 138

Tabasaran hakimi, həm də Cahanşah Şeyx Cüneydin öldürülməsində maraqlı idi. Tabasaran hakimi öz-özlüyündə Şeyxin qoşunu ilə mübarizə aparacaq qüvvədə deyildi. Cahanşah isə illərdən bəri kabusuna çevrilən bir şəxsin Şirvanda dövlət qurma təhlükəsini fikirləşmək belə istəmirdi.

Hər iki hakim Xəlilullahın əmrinə qoşun dəstələri göndərmişdir. Mənbələrə əsasən, hər bir hakim fərdi olaraq Xəlilullahın köməyinə 5 min nəfərlik qoşun dəstəsi göndərmişdi. Nəticədə, Xəlilullahın sərəncamında olan hərbi qüvvələrin ümumi sayı təxminən 30 min nəfərə çatmışdır.[176]

1460-cı il mart 4-də Şirvanın şimalında, Samur çayı yaxınlığında iki qoşun qarşılaşdı. Mənbələrin bildirdiyinə görə, Şeyx Cüneyd özü şəxsən döyüşün mərkəzində vuruşur və qoşun dəstələrini istiqamətləndirərək düşmən qoşununa müqavimət göstərirdi. Qasim bəy Həyati Təbrizi yazır: ***“O, harada kafirlərin sıxlığı daha çox olurdusa, dərhal ora yetişirdi.”*** [177] Rəvayət edilir ki, Şeyx döyüş meydanında daim şəhidlik barədə olan ayələri zikr edirmiş. Düşmən

[176] Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 25
[177] Qasim bəy Həyati Təbrizi, Tarixi-həyati, s, 137

qoşunu həlledici məqamı Şeyx Cüneydi öldürməkdə görüb onu mühasirəyə aldılar. Əvvəl güclü və sürətli atını yıxdılar, [178] Şeyx, piyada şəkildə bacardığı qədər vuruşsa da, qılınc və ox zərbələri onu taqətdən saldı və döyüş meydanında şəhid oldu. Onunla birgə olan tərəfdarlarından çoxu şəhid olarkən, bəziləri də meydandan geri çəkildilər. Qasım bəyin rəvayətinə əsasən, 6 min nəfər bu döyüşdə şəhid olub.[179] İsgəndər Münşi qoşunların dağılışmasından sonra, Şeyx Cüneydin cansız bədəninin tabasaranlı müridləri tərəfindən yaxın bölgədə dəfn edildiyini yazır.[180]

Şeyx Cüneydin məzarı yeri ilə bağlı ən yekdil fikir onun Qusarın Həzrə kəndində dəfn edilməsidir. Bu fakt ilə bağlı ən mühüm sübut, Şah Təhmasib tərəfindən həmin məzarın üzərində türbə inşa etdirilməsidir. Abbasqulu ağa Bakıxanovun bildirdiyinə görə, Səfəviyyə xanədanının tabasaranlı tərəfdarlarından bir dəstə camaat, onun nəşini Samur çayının sol tərəfində, Qıpçah kəndinin yaxınlığında olan müharibə meydanından çıxarıb Quba və Qülhan nahiyəsini Quryan (indiki Həzrə) kəndində basdırdılar. Öldürüldüyü yerdə indi də

---

[178] Cahanquşayi-xaqan, s, 84

[179] Qasim bəy Həyati Təbrizi, Tarixi-həyati, s, 141

[180] İsgəndər bəy Münşi Türkman. Dünyanı bəzəyən Abbasın tarixi (Tarixe-aləmaraye-Abbasi). Bakı, "Şərq-Qərb" Nəşriyyat evi, 2010, s, 18

nişangahı (ziyarətgahı) vardır.[181] Şeyx Cüneyd şəhid olarkən cəmi 31 yaşı var idi.

Şeyx Cüneydin ölümündən sonra təşkilat nəinki dağılmadı, əksinə müridlər Şəhid Şeyxin bir ay sonra dünyaya gələcək oğlu Heydər ətrafında daha möhkəm birləşdilər. Bəzi təhqiqatçılar tərəfdarlarının Şeyx Cüneyd və davamında gələn şeyxlərə bəslədiyi məhəbbət və bağlılığı ilahlıq səviyyəsində qiymətləndirirlər. Lakin bu yanaşma, həmin dövrdə yaşayan insanların sosial və siyasi vəziyyətini nəzərə almamaqdan qaynaqlanır. Qasım bəy Təbrizi Səfəvi hərəkatının bu dönəmləri haqqında bu sözləri deyir: ***Allahın nöqsansız hikmətinin hökmü belə olmuşdur ki, bu dünya nizamında sevinc və qəm bir yerdə olsun.***[182]

## Əhli-İxtisas

Şeyx Cüneyd Ərdəbilə doğru yola çıxarkən təhlükələri nəzərə alaraq ailəsini özü ilə birgə aparmamışdı. Xədicə bəyim Şeyx Cüneydin şəhadətindən 1 ay sonra bir oğlan uşağı dünyaya gətirdi. Dünyaya gələn yeni uşağa Heydər adı verilmiş Səfəvi müridləri isə onu yeni Səfəvi şeyxi olaraq qəbul etmişdilər. Balaca Heydər uşaqlıq illərini

---

[181] Abbasqulu Bakıxanov, Gülüstani-İrəm, s, 107

[182] Qasim bəy Təbrizi, Tarixi-həyati, s, 142

dayısı Uzun Həsənin və *İxtisas əhli* adlanan sadiq Səfəvi müridlərinin müşaiyəti altında keçirdi.

Bu qrup Şeyx Cüneyd dönəmindən fəaliyyətinə başlamış, şeyxlərin hərbi, fikri və siyasi cəhətdən yetişdirilməsi və qorunmasına nəzarət edirdilər. Bu qrup haqqında məlumatın azlığı səbəbindən onları tanıma imkanımız yoxdur. Amma tədqiqatçılar bu təşkilatı *"Səfəvi hərəkatının nüvə mərkəzi"* olaraq səciyyələndirir və həmin illərdə hərəkatın uğurla sona çatdırılmasında bu qrupun xüsusi rolunu qeyd edirlər. R. Savori bu təşkilatı belə təsvir edir:

***"Səfəvi inqilabi hərəkatının sürətini qoruyub saxlamaq məsuliyyəti əsasən "əhli-ixtisas" adlanan yeddi nəfərlik kiçik müşavir heyətinin üzərinə düşürdü."[183]***

Təşkilatın tam adı *Əhli-ixlas və ixtisas* olmuşdur[184] və təriqətin Xəlifətül xüləfa adlanan şəxsləri əsasən bu qrup daxilindən seçilirdi.[185] Bu şəxslər isə təriqətin mürid şəbəkələrinin rəhbərləri idilər. Muhəmmədkərim Yusif Cəmali Bayram bəy Türkmən, Mənsur bəy Qıpçaq,

---

[183] Roger Savory, İran Under The Safavids, s, 22

[184] Tarixe təhəvvülate İran əsri Səfəvi, Muhəmmədkərim Yusif Cəmali, s, 281

[185] Safevî Devleti'nin Kuruluş Sürecinde "Ehl-İ İhtisas" Ve Önemi, Türk Kültürü Ve Hacı Bektaş Velî Araştırma Dergisi, Bahar-Mart 2025, Sayı 113, 108

Seyyid Əli, Ğulam bəy, Qoç Əli bəy kimi şəxslərin adlarını çəksə də,[186] məşhur nəzər aşağıdakı kimidir:

**Hüseyn bəy Şamlı:** Səfəvi hərəkatında mühüm şəxslərdən biri olan bu şəxs Şamlı tayfasından idi. Şeyx Heydər zamanında hərəkata qoşulmuşdur. Bəzi məlumatlara əsasən, Şeyx Heydərin qızlarından biri ilə evlənmişdi. Hələb, Ədirnə, Tarsus və digər Şam torpaqlarında fəaliyyət göstərirdi. O həm Şah İsmayılın həm də böyük qardaşı Şeyx Əlinin lələsi (tərbiyəçisi) olduğu üçün ona Hüseyn bəy Lələ adı verilib. Abbasqulu Ğəfarifərdin nəzərinə görə, o həm də Şeyx Heydərin lələsi olmuşdur.[187]

**Abdal bəy Talış:** Şah İsmayılın mühafizəsində və hakimiyyətə çatmasında mühüm rol oynamışdır. Şah İsmayıl atasının şəhadətindən məsul olan şəxsləri müəyyən edib cəzalandırılması işini ona həvalə etmişdir. Ölüm tarixi və yeni hökümətdə hansı vəzifələri tutduğu dəqiq olaraq bilinmir.

**Karkiya Mirzə Əli:** Karkiya Sultan Əli Biyəpiş Karkiya sülaləsinin hökmdarı idi. Karkiya dövləti onun

---

[186] Tarixe təhəvvülate İran əsri Səfəvi, Muhəmmədkərim Yusif Cəmali, s, 282

[187] Abbasqulu Ğəfarifərd, Xanedan-e Səfəvi, s, 106

hakimiyyəti dönəmində qızıl dövrünü yaşamışdır. Onun nüfuzu müasiri olan Ağqoyunlu hökmdarlarına rəqib sayılacaq qədər yüksək idi ki, bu rəqabət Qəzvin şəhərinə nəzarətdə özünü biruzə vermişdir. O, Əhli-ixtisas qrupunun ən güvəndiyi şəxslərdən biri idi.

**Məhəmməd Bəy:** Talış əsilli Məhəmməd bəy Şeyx Cüneydin yeznəsi idi. Həmçinin, Şah İsmayılın ilk lələsi olan bu şəxs onun Ərdəbildən qaçırılmasında da misilsiz rol oynamışdır.

**Xadim bəy Talış:** Talış əsilli Səfəvi müridi və sərkərdəsi Xadim bəy Talış Şeyx Heydər dönəmində hərəkata qoşulmuş və onun şəhadətindən sonra Ərdəbilə gələrək Şeyx Əli ilə beyət etmişdir. Daim Şeyx Əlinin yanında olmuş və onun şəhadətindən sonra isə cənazəsini Ərdəbilə gətirərək burada dəfn etmişdir. Şah İsmayılın mühüm müşavirlərindən olan Xadim bəy, Şirvan və Bağdad fəthlərində mühüm rol oynayıb. Əvvəlcə divan əmiri, Bağdad fəthindən sonra isə Bağdad şəhərinin hakimi təyin edilmişdir. Bağdad hakimliyi ilə yanaşı müqəddəs Kərbəla ziyarətgahının nəzarəti də ona həvalə edilmişdir. Xadim bəy Çaldıran döyüşündə şəhid olanlarının sırasında idi. Xadim bəyin nəvəsi Yadigar Əli Sultan Talış qısa müddət üçün 1626–1627-ci illərdə Xəlifətul-xüləfa olmuşdur.

**İlyas bəy Xınıslu:** Xunuslu tayfasına mənsub olan İlyas bəy Şeyx Heydər zamanında Səfəvi hərəkatına qoşulmuşdur. Almaqulağı döyüşündən sonra İlyas bəyə Rey bölgəsinin rəhbərliyi həvalə edilmişdir. Şah İsmayıl tərəfindən ona Əmiri-əzəm (böyük əmir) rütbəsi verilmişdir. Əmir Hüseyn Kiya Çəlavinin üsyanında hiylə ilə şəhid edilmişdir.

**Qara Piri bəy Qacar:** Qacar tayfasına mənsub olan Qara Piri bəy Şeyx Heydər dönəmində hərəkata qoşulmuşdu. Süvarilik məharətinə və şücaətinə görə Şah İsmayıl ona "*Tozqoparan*" ləqəbini vermişdir. Şeyx Heydərin şəhid edildiyi Tabasaran döyüşündə Səfəvi qoşunun sağ cinahına başçılıq edirdi. Şah İsmayılın onu çox sevdiyi və ona "ata" deyə səsləndiyi rəvayət edilir. Şəhadəti haqqında iki rəvayət var: birincisi Ağqoyunlu qoşun başçılarından Osman bəyin oğlu Məhəmmədin ona tuşladığı nizənin kürək nahiyyəsinə dəyməsi nəticəsində şəhid olduğu, ikincisi isə onun özbəklər ilə başverən Qicduvan döyüşündə şəhid olduğu qeyd edilir.

**Rüstəm bəy Qacar:** Qara Piri bəy Qacarın oğludur. Mənbələrdə haqqında çox az məlumat mövcuddur.

**Rüstəm bəy Qaramanlu:** Qaramanlı tayfasına mənsub olan Rüstəm bəy Şeyx Heydər zamanında hərəkata

qoşulmuş və onun şəhadətindən sonra digər şeyxlərin xidmətində olmuşdur. Səfəvi sərkərdəsi Bayram bəy Qaramanlının əmisidir. Mənbələrdə Şah İsmayılın uşaqlıq dövrünə aid hissələrdə adı çəkilsə də, hərəkatın gələcək illərində adı yad edilmir. Bir ehtimala görə ya yaşının çoxluğuna görə vəfat etmiş ya da baş verən ilk döyüşlərdə şəhid olmuşdur.

## Şeyx Heydərin əhəmiyyəti

Şeyx Cüneydin şəhadətindən sonra hərəkat daxilində müəyyən ümidsizliklər hərəkatın gələcəyini təhlükəyə atırdı. Əhli-ixtisasın bu dönəmdəki əsas vəzifəsi isə təşkilatı və təşkilat rəhbərliyinə seçilən azyaşlı şeyxlərini qorumaq idi. Amma uzun illərin ərsəyə gətirdiyi hərəkatı qorumaq gənc Heydərin məsuliyyətində idi. Heydərin gələcək tarixlərdə görəcəkləri işlərin əsas qayəsi hərəkatın atəşini diri saxlamaq və şiənin dövlət amalını həyata keçirmək idi.

## Şeyx Heydər

Şeyx Cüneydin şəhadəti ilə Uzun Həsən - Cahanşah düşmənçiliyi pik səviyəyə çatdı. Kiçik Asiyaya hücum edən Cahanşah Uzun Həsənin qoşunu ilə girdiyi Muş döyüşündə məğlub oldu və Bingöl vilayəti sərhədləri daxilindəki Sancaq bölgəsinə tərəf geri çəkildi. Düşmənin təhlükəsinin miqyasını başa düşməyən

Cahanşah burada vaxtını eyş-işrət məclislərində keçirirdi. Uzun Həsənin casusları ordu daxilinə sızdılar və Uzun Həsənə Cahanşah da daxil olmaqla, bütün əsgərlərin sərxoş olduqlarını xəbər verdilər. Nəhayət Ağqoyunluların hücumu ilə çıxan münaqişədə Cahanşah bir əsgərin xəncəri ilə öldürüldü.

Qaraqoyunluların məğlubiyyətə uğrayaraq tarix səhnəsindən çəkilməsi ilə İran, siyasi və ictimai baxımdan yeni bir mərhələyə, Ağqoyunlular dövrünə qədəm qoydu.

Uzun Həsən, bacısı oğlu Heydərin siyasi fiqur kimi əhəmiyyətini nəzərə alaraq, qızı Aləmşah bəyimi onunla evləndirdi. Bu nikah, Səfəvi–Ağqoyunlu siyasi ittifaqını daha da möhkəmləndirdi. Bu nikahdan Şeyx Heydərin **Əli Mirzə** (1469), **İbrahim Mirzə** (1484) və **İsmayıl Mirzə** (1487) adında 3 övladı olmuşdu.

Uzun Həsən, balaca Heydəri heç vaxt öz yanından ayırmamış, hətta Ağqoyunlu-Teymuri müharibələri zamanı belə onu öz yanında saxlamışdı. Beləliklə, Şeyx Heydər uşaqlığından etibarən müharibələrin rəngini tanımış və döyüşləri yaxından müşahidə edə bilmişdi.[188]

---

[188] W. Hinz, XV. Yüzyılda İranın milli bir devlet haline yükselişi, Türk tarih kurumu basımevi – Ankara 1992, s. 62

Uzun Həsənin dəstəyi ilə Şeyxlik məqamı Şeyx Cüneydin azyaşlı oğlu Heydərə verildi. Bu təyinata Şeyx Cəfərin münasibəti barədə V. Hinz belə yazmışdır: ***"Orada, böyük əmisi Şeyx Cəfər onu qısanc baxışlarla, lakin dostcasına qəbul etdi. Çünki, Uzun Həsənin heç kimlə zarafatı yox idi."*** [189]

Şeyx Cəfər ilk dönəmlərdə Şeyx Heydər ilə yaxşı dolanmış hətta bir rəvayətə görə, ona *"Nücum"* elmini, yəni ulduzların və göy cisimlərinin hərəkətlərini və bunlarla bağlı elm və hesablamaları öyrətmişdir. Lakin aralarında gərginlik həmişə davam edirdi. O, bilərək Şeyx Heydərin dini təhsilini tamamlamasına və ya daha da yaxşılaşdırmasına qarşı bəzi maneələr törədirdi. [190] Şeyx Cüneyd dövründə olduğu kimi, Şeyx Heydər dövründə də hərəkatın fəaliyyətinə qarşı əsas maneə Şeyx Cəfər idi. Şeyx Cəfər ilk olaraq, Şeyx Səfiəddin dövründən müridlərin Səfəvi Şeyxinə gətirdikləri hədiyyələri tələb etməyə başladı. Halbuki, Həsən bəy Rumlunun qeydlərinə əsasən, Şeyx Heydər bu hədiyyələri camaat arasında bölüşdürür və özünə heç bir pay götürmürdü. [191] Şeyx Cəfərin davam edən bu

---

[189] Yenə orada

[190] The Cambridge History Of Iran, c, 6, The Timurıd And Safavid Periods Edited By Peter Jackson Lecturer In History, University Of Keele And The Late Laurence Lockhart s, 207

[191] Əhsən ət-Təvarix, Həsən bəy Rumlu, s. 323

təzyiqləri o səviyyəyə çatdı ki, Şeyx Heydər bir müddət xəlvətə çəkilmək məcburiyyətində qaldı.[192]

Amma bu təzyiqlər Şeyx Heydərin, Şeyx Cəfərin qızı ilə evlənməsi ilə yumşaldı və Şeyx Heydərin fəaliyyətlərində müəyyən dərəcədə sərbəstlik yarandı. Şeyx Heydərin ətrafına, bölgənin müxtəlif yerlərindən hərəkat tərəfdarları axışırdı. V. Hinzin qeydlərinə əsasən, bu insanlar Qaraman, Teke yörəsi, Həmid eli, Şam, Gilan və Talış bölgəsindən gəlirdilər.[193] Anadoludan Ərdəbilə axın edən şəxslərdən bəziləri isə Osmanlı dövlətinə müxalif insanlar idilər. Bunlardan biri də, 1468-ci ildə Rum Mehmet Paşanı məğlub edən Varsaq Uyuz bəy idi.[194]

## Səfəvi hərəkatı yenidən dirçəlir

Şeyx Heydərin daxilindəki intiqam və cihad hissi artıq özünü biruzə verməyə başlamış və onu dini-siyasi fəaliyyətə cəlb edirdi. O, 15 yaşına çatdıqda hərbi hazırlıqlarla məşğul olur, dəmirçilik sənətinə mükəmməl şəkildə yiyələnərək silahlar düzəldirdi. Qasim bəy Şeyx Heydərin dəmirçilik sənətində mahir bir ustaya

---

[192] Qasim bəy Həyati Təbrizi, Tarixi-həyati, s, 145

[193] W. Hinz, XV. Yüzyılda İranın milli bir devlet haline yükselişi, Türk tarih kurumu basımevi – Ankara 1992, s. 63

[194] Topkapı Sarayı Müze Arşivi (TSMA), No.E. 5469/1.

çevrildiyini hətta, Şah Təhmasib dövründə belə onun düzəltdiyi silahların istifadə edildiyini yazır.[195] Hinz, Şeyx Heydərin dövründə, şeyxin öz otağı da daxil olmaqla, Ərdəbil təkkəsinin bütövlüklə bir silah anbarına çevrildiyini və xanəgahın müəyyən bir hissəsinin həm özünün, həm də müridlərinin təlim fəaliyyəti üçün istifadə olunduğunu qeyd edir. Burada, Şeyx Heydər müridlərinə döyüş təlimləri keçirərək, onları döyüşə hazırlayırdı.[196]

Səfəvilərə müxalif olan Ruzbehan Xunci Şeyx Heydər barədə yazır: ***"Onun evi zirehlər və qılınclarla dolu idi. Özü də silah düzəltməkdə və döyüş sənətlərində çox mahir idi. Həyatını pəhləvanlıq məşqlərinə sərf etmişdi. Təkbaşına minlərlə nizə, zireh, qılınc və qalxan düzəltmişdi."***[197]

## Qızılbaş geyiminin yaranması

Şeyx Heydərin mühüm fəaliyyətlərindən biri müridlərini vahid bir ad və libas ətrafında toplaması idi. Kembric nəşriyyatının "İran Tarixi" adlı əsərində cəmlədiyi araşdırma, bu dəyişikliyi hərəkatın hərbi cəhətdən

---

[195] Qasim bəy Həyati Təbrizi, Tarixi-həyati, s, 147
[196] W. Hinz, XV. Yüzyılda İranın milli bir devlet haline yükselişi, Türk tarih kurumu basımevi – Ankara 1992, s. 65
[197] R. Xunci, Tarixi Alam-ara-yi Əmini, s: 296

inkişafının əlaməti olaraq dəyərləndirilir.[198] Rəvayətə görə, Şeyx Heydər yuxusunda İmam Əli (ə)-ı görmüş və həzrət ona Şah İsmayılın doğulacağı illə bağlı müjdə verərək, müridləri üçün qırmızı tacı ərsəyə gətirilməsini tapşırmışdı.[199] Papağın məhz qırmızı rəngdə olması, Həzrət Peyğəmbər və Həzrət Əlinin döyüşlərdə başlarından yaralanaraq əmmamələrinin qana boyanması, həmçinin İmam Hüseynin qanının intiqamını təcəssüm etdirən rəmzi məna daşıması ilə izah olunur. Şeyx Heydər yuxusunda geyimin düzəldilmə üsulunu yadında saxlamış və yuxudan oyandıqdan dərhal sonra geyimin düzəldilməsinə yönələrək ilk baş örtüyünü əvvəlcə özü üçün hazırlamışdı. Müridlər Şeyx Heydərin hazırladığı başlığı taxmaqdan şövqlənir və özlərini mənəvi mərtəbəyə çatdıqlarını hiss edirdilər. Bu başlıq müridlər ətrafında ***"Heydəri tacı"*** adını almışdılar. Eyni zamanda, həmin başlığın mənasını ifadə edən ***"Qızılbaş"*** adı da müridlərə sonradan verildi.

Tarixi mənbələrdə qeyd olunur ki, ***"Kamillik mərtəbəsinə çatmış mürşidin bu libası ixtira etməkdə***

---

[198] The Cambridge History Of Iran, c, 6, The Timurıd And Safavid Periods Edited By Peter Jackson Lecturer In History, University Of Keele And The Late Laurence Lockhart s, 222
[199] Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 30.

***məqsədi, saf görüşlü sufilərin haqq məzhəbinə olan etiqadlarını aşkar surətdə bəyan etmək idi.”***[200]

Mərhum Əllamə Əli Kurani yazır ki, ***Şah İsmayılın atası Seyyid Heydər, öz ordusu və tərəfdarları üçün şiə baş örtüyünün (Qızılbaş başlığının) tətbiqi ilə ağıllı bir yenilik və mənəvi səfərbərlik həyata keçirmişdir. Bu, onların Əhli-beytə bağlılığını və məqsədləri uğrunda mübarizələrini simvolizə edirdi. Baş örtüyünün geniş yayılması İranda, xüsusilə türk tayfaları arasında şiəliyin sürətli yayılmasının göstəricisi idi.***[201]

Şeyx Heydərin müridlərini hərbi və mədəni hazırlıqlar ilə təşkilatlandırması, Şeyx Cəfəri daha da hiddətləndirdi. Əvvəlcə Rum və Qaracadağ sufilərini Ərdəbildən uzaqlaşdırdı. Təhdidlərlə digər müridləri də ondan uzaqlaşdırmağa çalışdı. Bundan sonrakı dövr, onun ətrafında toplanan müridlər ilə atasının irsini davam etdirib Çərkəslər üzərinə yürüş etdiyi mərhələ oldu.

---

[200] Qasim bəy Həyati Təbrizi, Tarixi-Həyati, 148

[201] Mərhum Əli Kurani, Şiələr monqol istilasına necə cavab verdilər, C. 1, s, 235

Roger Savori yazır: ***“Səfəvi təşkilatının uzun illər ərzində apardığı səbirli ideoloji hazırlığın dəyəri indi üzə çıxırdı.”[202]***

## Şeyx Heydər Tabasaranda

Mənbələrin bildirdiyinə görə, Şeyx Heydər daim Şirvana hücum edib, atasının və digər şəhidlərin axan qanının intiqamını almaq istəyirdi, amma tərəfdarlarının azlığı səbəbindən bu arzusu həmişə gecikirdi. Uzun Həsənin (vəf. 1478) vəfatından sonra[203] hakimiyyətə oğlu Xəlil keçdi. O, qardaşı Maqsudu edam etdirdi və anası daxil olmaqla müxaliflərini sürgün edərək təhlükələrini aradan götürməyə çalışdı. Səkkiz ay davam edən hakimiyyətinin ardınca qardaşı Yaqubun ordusu tərəfindən öldürüldü. Növbə Sultan Yaquba çatdıqda hakimiyyəti nisbətən sülh içində keçmişdi. O, Şirvanşah Fərrux Yasarın qızı Gövhər sultan ilə evlənərək Şirvanşahlar ilə yaxşı münasibətlər qurdu. Sultan Yaqub atasının əksinə, Səfəvilərdən ehtiyat edirdi. Şeyx Heydərin Şimali Qafqaza ilk yürüşü 1483-cü ilə təsadüf edir. Bu zaman onun cəmi 22 yaşı olub. Çərkəslər üzərinə hücum etmək niyyətində olan Şeyx Heydər

---

[202] Roger Savory, İran Under The Safavids, s, 18

[203] Həsən bəy Rumlu onun xanımı Səlcuqbəyim tərəfindən boğdurulduğunu rəvayət edir (Həsən bəy Rumlu, Əhsən ət-təvarix, 303)

əvvəlcə bu barədə Sultan Yaquba məlumat vermiş və ondan xahiş etmişdi ki, Fərrux Yasara bildirsin: *onların məqsədi cihaddır və yürüşün Şirvanşahlarla hər hansı bir əlaqəsi yoxdur. Fərrux Yasar bu işə razı olmasa da, Sultan Yaquba qarşı çıxa bilməmişdi.* [204]

Qasim bəyin verdiyi məlumata görə, Şeyx Heydər hücum marşrutunu dəniz yolu ilə seçmişdi. Astara bölgəsinə çatdıqda, ustalığı və təcrübəsi ilə tanınan bir neçə dülgəri yanına çağıraraq onlara bir neçə gəmi inşa etməyi əmr etdi. Qısa müddətdə bir neçə gəmidən ibarət donanma hazırlandı. [205] Yürüş uğurla nəticələndi və Ərdəbilə geri qayıdan Qızılbaşlar çoxlu qənimət və əsirlə geri qayıtdı.

Həsən bəy Rumlunun verdiyi məlumata əsasən, Şeyx Heydər Ərdəbilə qayıdarkən qohumlarına və yaxınlarından olan Ərdəbil camaatına çoxlu qənimətlər payladı. [206] Qələbə Şeyx Cüneydin şəhadətindən sonra hərəkatın gələcəyinə ümid bəsləməyən mürid qruplarında dirçəliş ruhu oyatmışdı. Səfəvi müridləri qələbədən sonra Şeyx Heydərə Əbul-Qazi künyəsi verdilər. Ərdəbilə qayıtdıqdan sonra Şeyx Heydər müridlərinə qənimətləri silah-sursat almaq üçün

---

[204] Fəzlullah ibn Ruzbehan Xonci İsfahani. Aləmara-yi Əmini, s. 269
[205] Qasim bəy Həyati Təbrizi, Tarixi-həyati, s, 151-152
[206] Həsən bəy Rumlu, Əhsən ət-Təvarix, s, 324

xərcləmələrini əmr etdi. Bundan əlavə, qənimətin bir hissəsi də Ağqoyunlu hökmdarı Yaquba göndərildi.[207]

Şeyx Heydərin çərkəzlər üzərinə növbəti hücumu 1484-cü ildə baş verdi. Mənbələr, Şeyx Heydər rəhbərliyindəki ordunun (Bakı ətrafına) azalmaqda olan yol azuqələri və digər zəruri ehtiyacları almaq üçün gəldikləri zaman, maddi çətinliklərlə üzləşən bir məntəqəyə çatdıqlarını və burada yaşayan insanlara geyim və digər yardımları təqdim etdiklərini qeyd edirlər.[208]

Buradan ayrılan Şeyx Heydər, gəmi ilə Şimali Qafqaza doğru yola düşdü. Sahilə çatdıqdan sonra ordusunun bir hissəsini Tabasaran tərəfinə göndərən Şeyx Heydər, özü ilə birlikdə olan digər qoşunu isə Həştərxan istiqamətinə yönəltdi. Həştərxana çatan Şeyx Heydər, bir qrup müridi ilə birlikdə şəhərə daxil olub, diyarın hər tərəfini diqqətlə müşahidə etdi. O diyarın əhalisi heç bir halda bu adamların hansı məqsədlə bu məntəqəyə gəldiyini və kim olduqlarını güman etmirdilər. Lakin şəhər sakinlərindən biri Şeyx Heydəri görmüş və onun Şeyx Cüneydə bənzərliyindən, onun Səfəvi şeyxi olduğunu

[207] W. Hinz, XV. Yüzyılda İranın milli bir devlet haline yükselişi, Türk tarih kurumu basımevi – Ankara 1992, s. 70
[208] Qasim bəy Həyati, Tarixi-həyati, s, 152

anlamışdı. Gedib həmin vilayətin hakimi olan Mürtəza xana xəbər verdikdə xan Şeyx Heydəri xoş qarşıladı. Qasim bəy Həyati Təbrizi yazır: ***“(O) əmr verdi ki, əsgərlərin qalması üçün ali məqamın yaxınlığında çadırlar və otaqlar qurulsun. Həmçinin qonaqpərvərlik və xidmət qaydalarına əməl edildi, dəyərli hədiyyələr təqdim olundu: dəyərli parçalar, qiymətli əşyalar, Misir qılıncları, qədim kamanlar, ox dəstələri, hər birinin əlində qızıl kisələri ilə qulamlar. Bunlar hüzura gətirildi və bəyənilərək qəbul olundu. Mürşid Kamil isə bütün bu təqdim edilənləri qələbə əsgərlərinin xeyrinə sərf etdi.”***[209]

Burada Şeyx Heydər Ləməci və Əlməq adlı iki qaladan xəbər aldı; məlum oldu ki, bu qalalar kafirlərin sığınacağıdır. Bunun nəticəsində o, həmin qalalara hücum etmək qərarına gəldi. Mürtəza xandan bələdçi təmin edib yola düşdü. Qalaların yerləşdiyi məntəqəyə doğru irəliləyərkən, oranı tərk edib ayrılan əsgərlər ilə qarşılaşdılar. Şeyx Heydər onlardan qalalar barədə kəşfiyyat məlumatları aldı. [210] Qızılbaşlar Qala ətrafındakı məntəqələrə çatdıqda hücum edib düşməni məğlub etdilər və çoxlu qənimət əldə etdilər - at, dəvə və

---

[209] Qasim bəy Həyati, Tarixi-həyati, s, 152-153
[210] Qasim bəy Həyati Təbrizi, Tarixi-həyati, s, 153

sürülərlə dolu mal-qaranı ələ keçirdilər.[211] Şeyx Heydər bu qalaların alınmasında qərarlı olsa da, Ərdəbildə məskunlaşan anası Xədicə bəyimin istəyinə tabe olub Ərdəbilə qayıtdı.[212]

Mənbələrin məlumatına görə, Şeyx Heydər babalarını ziyarət etdikdən sonra müridlərinə əmr etdi ki, mücahidlər əldə etdikləri bütün qənimətləri silah və döyüş alətlərinin hazırlanmasına sərf etsinlər və əsla qənimətdən özləri üçün bir şey gözləməsinlər.[213] Şeyx Heydər 1 il müddətində Ərdəbildə qaldı. Bu müddət ərzində müridlərin təşkilatlanması və təbliğatların genişləndirilməsi üçün çalışdı. Qasim bəy yazır: *"Minlərlə cəsur və igid gənc, kinlərini kənara qoyub bir dəstədə birləşdilər; bir çoxları da nifaqdan uzaqlaşıb, vəfa və vəhdət ilə məşhur oldular.*[214]

Bu fəaliyyətlərin müqabilində Şeyx Cəfər Şeyx Heydərə atasının şəhadətini xatırladır və ona bu işlərdən uzaq olmasını tövsiyə edirdi. Şeyx Heydər isə ona belə deyirdi: *"Padşah o vaxt arzusunun camını dodağına qoya bilər ki, bəxtsiz düşmənin piyaləsini zəfər daşları*

---

[211] Qasim bəy Həyati Təbrizi, Tarixi-həyati, s, 154
[212] Qasim bəy Həyati Təbrizi, Tarixi-həyati, s, 155
[213] Yenə orada
[214] Qasim bəy Həyati Təbrizi, Tarixi-həyati, s, 156

*ilə sındıra bilsin.”* Amma Şeyx Heydər gördü ki, söz-söhbət artıq fəsada və hörmətsizliyə gətirib çıxardacaq, susmağa məcbur oldu.[215] Çünki Şeyx Cəfər nə qədər Şeyx Heydərə və atasına əziyyət etmiş olsa da, Şeyx Heydər yenə də onun böyüklük hörmətini saxlayır və Ərdəbildə lazımsız münaqişələrdən çəkinirdi.

1488-ci ildə Şeyx Heydər Çərkəz sərhədlərinə doğru hücuma başladı. Havanın sərt soyuğuna baxmayaraq, Qızılbaşlar Ləməci qalasına yetişdilər. Şiddətli və ağır bir döyüşdən sonra Qızılbaşlar qalanı fəth etdilər. Ardınca isə digər qalanı fəth etmək məqsədilə yürüşlərini davam etdirdilər. Əlməq qalasının mühasirəsindən çox keçməmişdi ki, qala komadiri qızılbaşlara təslim oldu. Qalanın düşməsinin ardından qala dağıdıldı.[216]

Bu əsnada, Qaytaq camaatından 18 min nəfər Qızılbaşlara hücum etdilər. Qızılbaşlarla baş verən döyüş qaytaqlıların məğlubiyyəti ilə başa çatdı. Döyüşdən sağ çıxanlar isə Şamxal adında bir xana sığındılar. Şeyx Heydər döyüşlərin ardınca Hümeyra adında gözəl bir düzənlikdə çadır saldı və müridlərindən bəzilərini kəşfiyyat üçün ətraf bölgələrə göndərdi.[217]

---

[215] Qasim bəy Həyati Təbrizi, Tarixi-həyati, s, 156--157
[216] Qasim bəy Həyati Təbrizi, Tarixi-həyati, s, 157
[217] Qasim bəy Həyati Təbrizi, Tarixi-həyati, s, 158

Şeyx oradan Dərbəndə tərəf getdi və Şamxal xan ilə birləşmiş Qaytaq camaatı ilə qarşılaşdı. Döyüş uzun çəksə də, Şeyx Heydər uğurla bu hücumu dəf edə bildi.[218] Qasim bəy Şeyx Heydərin əsirlərə mülayim davrandığını və o bölgənin əhalisinə toxunmadığını yazır. Şeyx Heydər bu cihad yürüşlərindən qələbə ilə ayrıldıqdan sonra Ərdəbilə qayıtdı. Əldə etdiyi qənimətləri fəqirlər arasında payladı. Cahanquşayi-Xaqanda yazılır: ***"O, atalarının və əcdadlarının sünnətlərini dirildib canlandırdı, yoxsulları doyurmaqda və miskinlərə mal ehsan etməkdə əcdadlarını da qabaqladı."***[219]

Tarixi-Həyatinin verdiyi məlumata əsasən, bir müddət sonra Şeyx Cəfər vəfat etdi.[220] Onun vəfatından sonra Şeyx Heydərin fəaliyyəti üçün daha əlverişli şərait yarandı. Ərdəbilə daxil olmaqda çətinlik çəkən bəzi mürid dəstələri isə bu dəfə şəhərə daxil olub, daimi surətdə Şeyx Heydərin yanında, xanəgahda məskunlaşdılar. Əlbəttə, Şeyx Cəfərin oğlu Şeyx Qasım da hərəkata maneələr törədirdi, lakin Şeyx Cəfər qədər təsirli deyildi.

---

[218] Qasim bəy Həyati Təbrizi, Tarixi-həyati, s, 159

[219] Cahanquşayi-Xaqan, s, 84

[220] Qasim bəy Həyati Təbrizi, Tarixi-Həyati, 163

## Şeyx Heydər Lənkəranda

Şeyx Heydər bir gün yuxusunda babası Şeyx İbrahim Zahid Gilanini gördü. Yuxusunda ulu babası ona tezliklə qəbrinin dağılacağını xəbər vermiş və ondan məzarını Hiləkəran adlı yerə köçürməsini istəmişdi. Şeyx Heydər bu yuxudan sonra ətrafına mahir bənnaları toplayaraq babasının məzarını ziyarət etdi. Şeyxin yuxusu düz çıxmışdı. Əgər Şeyx Heydər və qızılbaşlar bir az da geciksəydilər, məzar su ilə dolacaqdı. Şeyx Heydər iki il ərzində yeni məkanda qübbə və zaviəni inşa etdirdi, onun üzərinə vəqf təyin etdi. Hər gün fəqir və miskinlərin yeməkləri və ehtiyaclarının ödənilməsi üçün vəsait ayırdı, türbənin xidmətçiləri və mühafizəçiləri üçün isə xüsusi vəzifələr müəyyənləşdirdi.[221]

## Sonuncu hücum

Şeyx bir daha müridlərinə carçılar göndərib onları müəyyənləşdirdiyi məkana topladı. Onlar gəldikdən sonra məşvərət məclisi quruldu və hər kəs öz fikrini bildirdi: bir qismi Çərkəzlərə, digərləri Dərbəndə, bir hissəsi isə Şirvanşahlara hücum edilməsini təklif etdilər. Şeyx Heydər isə əvvəlcə uğurlu yürüşlər etdiyi Dərbənd üzərinə, daha sonra isə Şirvanşahlar üzərinə hücum

[221] Qasim bəy Həyati Təbrizi, Tarixi-Həyati, s, 164

etməyi qərara aldı.[222] Qızılbaşlar özləri ilə birlikdə mancanaq kimi qala mühasirəsi üçün nəzərdə tutulan silahlar da gətirmişdilər. Onların Dərbəndə hücumu o qədər güclü oldu ki, alınmaz sayılan qalanın bir bürcü və şəhərin bir hissəsi ələ keçirildi.[223] Qasim bəy Həyati hadisəni belə nəql edir: ***"Qala sakinləri, "Harada olursunuz olun, hətta uca qalalar içərisində olsanız belə, ölüm sizi haqlayacaq." (ən-Nisa surəsi, 78-ci ayə) ayəsini oxuyub, qürurlarını itirdilər və təslim oldular."***[224]

## Köhnə dost qatı düşmənə çevrilir

Şeyx Heydərin Qafqazda əldə etdiyi ardıcıl qələbələr Şirvan və Ağqoyunlu sarayında ayrı əks-səda doğurmuşdu. Səfəvilərə qarşı məsafəli olan Sultan Yaqub və onu daim bu xanədana qarşı təhrik etməyə çalışan Şirvanşah Fərrux Yasar artıq birləşmiş orduları ilə Şeyx Heydəri öldürməyi düşünürdülər. Şirvanşah Ağqoyunlu hökmdarına ünvanladığı son məktubunda yazırdı: ***"Şeyx Heydər Dərbənd yürüşünə niyyət edib, Şirvan vilayətlərinə qədəm qoymuşdur. Rum (Anadolu) sufilərindən, Qaracadağ və Ərdəbil əhalisindən bir çox***

[222] Qasim bəy Həyati Təbrizi, Tarixi-Həyati, s, 166
[223] Mehman Süleymanov, Şah İsmayıl Səfəvi, s: 80
[224] Qasim bəy Həyati Təbrizi, Tarixi-Həyati, s, 170

***adam onun ətrafına toplanmışdır.*** ***<u>Onun məqsədi ölkələr fəth etmək və dövlət qurmaqdır.</u>*** ***Əgər (o) bu bölgələri ələ keçirsə, bununla kifayətlənməyəcək, ona yaxın olan digər bölgələrə, xüsusilə Azərbaycan diyarına hücum etməyi düşünəcək. Onun nüfuzu və hakimiyyəti mərhələlərlə artacaqdır. Ən doğru yol budur ki, bu düyünü birgə həll edək və onun dəf olunması üçün bütün gücümüzü sərf edək. Çünki mən məğlub oldum, yardım et*** (əl-Qamər surəsi, 10-cu ayə). ***Əgər özünüz şəxsən iştirak etməsəniz, o zaman çoxsaylı, qəddar və kinli əsgərlər bu diyara göndərilsin ki, ruzigardan onun sonunu gətirək. Vəssəlam”***[225]

Sultan Yaqub bu məktuba cavab olaraq Süleyman Bicənoğlunu 4 minlik qoşun ilə Şamaxı şəhərinə doğru göndərdi. Ağqoyunlu qoşun dəstələri Şirvanşah ordusu ilə Şirvanın şimal-şərqində, Samur çayı yaxınlığında qarşılaşdılar. Qoşunlar arasındakı qeyri-bərabərliyi görən Şeyx Heydər sürətlə geri çəkilərək istiqaməti Samur çayı sahəsinə yönəltdi. Bu Qasim bəy Həyati Təbrizidən aldığımız məlumat idi.

Amma digər Səfəvi mənbələri hadisəni bir-birindən fərqli formada rəvayət edirlər. O cümlədən, “*Fütuhati-Şahi”* əsərində bu hadisə başqa cür rəvayət edilir. Əmin

---

[225] Qasim bəy Həyati Təbrizi, Tarixi-Həyati, s, 168

Hərəvinin nəqlinə əsasən, Şeyx Heydər qoşunu ilə Şamaxı şəhərinə hücum edir. Fərrux Yasar ailəsi və yaxınları ilə birgə şəhəri tərk edərək Gülüstan qalasına sığınmağa məcbur olur. Gülüstan qalası bir neçə ay mühasirədə saxlanılır və müqabilində Ağqoyunlu hökmdarı Fərrux Yasara kömək üçün bir ordu göndərir. Bundan savayı, Fərrux Yasarın ətraf bölgələrdə gözləməkdə olan sərkərdələri Şirvanşah hökmdarına məktub yazır və hökmdarı mühasirədən xilas etmək planını izah edirlər. Belə ki, Fərrux Yasarın qaladan çıxması ilə gizlənməkdə olan Şirvanşah qoşunları Qızılbaşlara qəfil hücum edəcək və onun qaçmasına şərait yaradacaqlar. Lakin məktubu aparan qasid Qızılbaşların əlinə keçir. Şeyx Heydər Gülüstan qalasına dəstəyi planlayan Şirvanşah əmirlərinin yerini müəyyənləşdirir və özü onlardan öncə hücuma keçir. Bu hücumda Şirvanşahın əmirləri məğlub olaraq minlərlə itki verirlər. Şeyx Heydərin Gülüstan qalasının mühasirəsinə son qoyduğunu düşünən Fərrux Yasar qaladan çıxıb əmirlərinin olduğu mövqeyə yollanır. Lakin yarı yolda əmirlərinin Qızılbaşlar tərəfindən öldürüldüyünü eşidən Fərrux özünü Sulut qalasına çatdırır.[226] Şeyx Heydər növbəti mərhələdə Dərbəndə üz

226 "Fütuhati-şahi", s. 412

tutur və şəhadətinə doğru gedən hadisələr cərəyan edir. Fərqli rəvayətlərə baxmayaraq, əksər mənbələr Şeyx Heydərin ilk öncə Dərbəndə hücum etdiyi, lakin birləşmiş qoşunların xəbərini aldıqdan sonra Samur çayı ətrafına çəkildiyi fikri ilə həmfikirdirlər.

## Şeyx Heydərin şəhadəti

Şeyx Heydərin Ağqoyunlu-Şirvanşah qoşunu ilə qarşılaşdığı bölgə Şeyx Cüneydin şəhid olduğu bölgədən çox da uzaq deyildi. Məlumata görə, Şeyx Heydər Şirvanşah  və Ağqoyunlu qoşunlarının fəaliyyətlərini diqqətlə izləyir və öz hazırlıqlarını görürdü. Hər şeydən əvvəl Şeyx Heydər döyüş meydanının seçilməsinə diqqət yetirdi. Dərbənddən geri çəkildikdən sonra Qafqaz dağlarının düzənliyə açılan ətəklərində elə bir döyüş mövqeyi seçdi ki, qoşunların arxası Qafqaz dağlarına söykənsin. Əminlik yarandı ki, arxadan qoşunlar üçün hər hansı bir təhlükə yarana bilməz. Döyüşün uğurlu aparılması üçün qızılbaş qoşunlarının döyüşqabağı düzülüşü müəyyənləşdirildi və qoşunlarının mərkəzində Şeyx Heydər özü qərar tutdu. Sağ cinah Qara Piri bəyə, sol cinah isə Hüseyn bəy Şamlıya həvalə olundu. Bu sərkərdələrə tapşırılmış olan qoşunların kimlərdən və nə qədər olması barəsində mənbələr məlumat vermirlər. “Aləm arayi - Şah İsmayıl”da bu qoşunun 40 min olduğu

bildirilir.[227] Şübhə yoxdur ki, bu qoşunlarını əsasını atlılar təşkil edirdilər. Qarşı tərəf də döyüşə girməzdən əvvəl öz qüvvələrini qruplaşdırdı. Şirvanşahın rəhbərliyi altında olan Şirvan qoşunları cəbhənin sağ cinahında, Əbulməsum xanın rəhbərliyi altında olan Tabasaran qoşunları cəbhənin mərkəzində və Süleyman Bicənoğlunun rəhbərliyi altında olan Ağqoyunlu qüvvələri isə cəbhənin sol cinahında qərar tutdular.[228] Şeyx Heydər döyüşün əvvəlində Bəqərə surəsinin 250-ci ayəsini zümzümə edirdi:

وَلَمَّا بَرَزُوا لِجَالُوتَ وَجُنُودِهِ قَالُوا رَبَّنَا أَفْرِغْ عَلَيْنَا صَبْرًا وَثَبِّتْ أَقْدَامَنَا وَانْصُرْنَا عَلَى الْقَوْمِ الْكَافِرِينَ

***(Onlar Calutun və onun qoşununun qarşısına çıxdıqda dedilər: "Ey Rəbbimiz! Bizə səbir ver, qədəmlərimizi möhkəmlət və kafir qövmə qələbə çalmaqda bizə yardım et!)***[229]

"Aləmarayi Şah İsmayıl"da döyüşün başlanğıcının bəzi səhnələri təsvir edilmişdir. Bu təsvirə görə, döyüş başlamazdan əvvəl Süleyman Bicənoğlu qızılbaş qoşunlarının sərkərdələrindən birini təkbətək döyüşə

[227] Aləm arayi - Şah İsmayıl, s, 31
[228] Cahanqoşayi-Xaqan, s, 87
[229] Qazi Əhməd Qumi, Xülasət-üt-təvarix s, 39

çağırdı. Şeyx Heydər bu çağırışa cavab verdi və onun qarşısına çıxdı. İlk hücumda Şeyx Heydər nizəsi ilə Süleyman Bicənoğlunu vurub atdan yerə saldı. Amma onu öldürmədi. Müridləri soruşanda isə demişdi ki, ***“Onun əcəli hələ çatmayıb, mənim isə ömrümün günəşi batmaq üzrədir və bu döyüşdə mən şəhidlik şərbəti içəcəyəm.”*** [230] Xəcalətli formada ordusunun yanına qayıdan Süleyman Bicoğluna türkmənlər belə dedi: “***Şeyx Heydər sənə rəhm etdi, istəsəydi səni öldürərdi.***”[231]

Döyüş 1488-ci ilin 9 iyulunda baş verdi. Qızılbaş qoşunları həm döyüş meydanını düzgün seçmələrinə, həm qüvvələrin qruplaşmasını yaxşı apardıqlarına görə döyüşə uğurla başladılar. Nəticədə, Ağqoyunlu-Şirvan qüvvələrinin təxminən üçdə biri məhv edildi. [232] Şeyx Heydər bu döyüşün ən qaynar nöqtələrində olmaqdan çəkinməyərək qızılbaş döyüşçülərini də öz arxasınca aparırdı. Ağqoyunlu və Şeybanilərlə olan yaxınlığı və Səfəvilərə olan qərəzinə baxmayaraq, Ruzbihan Xunci qızılbaşların bu döyüşdə göstərdiyi şüaəti etiraf etmişdir. Şeyx Heydərin döyüşünü Rüstəm Zalın döyüşü ilə müqayisə etmiş, hətta onun döyüşü Rüstəm Zalın və

---

[230] Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.28

[231] Cahanqoşayi-Xaqan, s, 87

[232] W. Hinz, XV. Yüzyılda İranın milli bir devlet haline yükselişi, Türk tarih kurumu basımevi – Ankara 1992, s. 75

İsfəndiyarın döyüşlərindən üstün tutmuşdu. Müəllifin təsvirinə görə, Şeyx Heydər hansı tərəfə üz çevirdisə, orada bir qəhrəmanlıq nümayiş etdirdi, hansı tərəfdə qılınc vurdusa, orada əcəl kimi çoxlu sayda adlı-sanlı pəhləvanların həyatına son qoydu.[233]

Döyüşün qızılbaşlar üçün uğurla davam etdiyi bir vaxtda hansı tərəfdən gəldiyi bilinməyən ünvansız bir ox Şeyx Heydərin boğazına tuş gəldi və onu yerə sərdi. Qızılbaşlar onu qorumaq üçün ətdən divar hörsələr də, hücumların sıxlığı ilə, Şeyx Heydər şəhid oldu.[234] "Xülasətut-təvarix" əsərində Şeyx Heydərin yaralanmasından əvvəl döyüşün Səfəvilərin xeyrinə olduğunun və az qala düşmən ordusunun pərakəndə vəziyyətdə qalacağı haqqında məlumat verilir.[235]

Bu hadisə döyüşün ümumi gedişinə təsir göstərsə də, qızılbaşlar öz mürşidlərinin şəhid olmasından sonra heç də qaçıb dağılmadılar və öz döyüşlərini davam etdirdilər. Qızılbaşların döyüşdə olduğu bir zamanda Əliağa adlı biri, ya da Süleyman Bicənoğlu Şeyx Heydərin cansız bədəninə yaxınlaşdı və başını bədənindən ayıraraq

---

[233] Fəzlullah ibn Ruzbeh Xonci İsfahani. Aləmara-yi Əmini, s. 259-260
[234] W. Hinz, XV. Yüzyılda İranın milli bir devlet haline yükselişi, Türk tarih kurumu basımevi – Ankara 1992, s. 75
[235] Qazi Əhməd Qumi, Xülasət-üt-təvarix s, 40

oradan uzaqlaşdı.[236] Vəliəhd İbrahim bəy Cahangirin rəhbərliyi altında olan Ağqoyunlu dəstəsi mərkəzdə hücumu genişləndirdi, qızılbaş döyüşçülərinə güclü zərbə vurdu və bu istiqamətdə üstünlüyü ələ aldı. Şeyx Heydərin başsız bədəni isə elə döyüş meydanında dəfn edildi. Şeyx Heydər şəhid olarkən cəmi 28 yaşı var idi. İslam dünyasında üçüncü Şəhid ləqəbli Qazi Şeyx Nurullah Şüştəri Şeyx Heydəri belə vəsf edir: ***"Fəzilətli, şəhid və məzlum Seyyid Heydər Səfəvi"***[237]

Şeyx Heydərin başı 1488-ci il iyulun 16-da Sultan Yaqubun düşərgəsinə gətirildi. Sultan Yaqub Təbrizə qayıtdıqdan sonra göstəriş verdi ki, Şeyx Heydərin kəsilmiş başını şəhər küçələrində gəzdirsinlər. Belə də edildi. Şeyx Heydərin başı küçələrdə gəzdirildikdən sonra şəhər bürclərinin birində asıldı.[238]

Bir müddət sonra Mövlana Sufi Kəlibri adında bir Səfəvi müridi bu kəlləni gizlicə götürərək Təbrizdəki Əskəriyyə məhəlləsində, Həzrət Muhəmmədin (s) Qüdsdən gətirilmiş ayaq izinin olduğu bir daşın altında dəfn etdi. Şah İsmayıl qiyamından sonra isə Mövlana Mütəhhər və Mövlana Şeyx Kəbir Şəms Gilani, Şeyx Heydərin

---

[236] Valter Hints. Təşkil-e dövlət-e milli dər İran. Tehran, 1361, s.109
Mənuçehr Parsadust. Şah İsmayil əvvəl. Tehran, 1375, s. 154
[237] Qazi Şeyx Nurullah Şüştəri, İhqaqul-Həqq və İzhəqul-Batil, səh: 157
[238] Valter Hints. Təşkil-e dövlət-e milli dər İran. Tehran, 1361, s.109-110

cəsədini Ərdəbilə gətirdilər. Daha sonra başını Təbrizdən gətizdirib bədəninə qoşdular və Ərdəbildə dəfn etdilər.[239] Şeyx Heydərin şəhadəti Sultan Yaqubu o qədər sevindirmişdi ki, Osmanlı Sultanı II Bəyazidə belə məktub göndərmişdi. O, məktubunda II Bəyazidə Səfəvilərin ölkələrin işğalına başlaması və Ağqoyunlu qüvvələrinin onları məğlub etməsi haqqında məlumat verirdi. Sultan II Bəyazid isə Ağqoyunlu hökmdarının bu qələbəsinə sevincini gizlətməmiş və bu qələbədən sonra Anadolu türklərindən Səfəvi təriqətinə qoşulanların sayının azalacağına ümid etmişdi.

Beləcə, Şeyx Heydər səhifəsi də şəhadət ilə tamamlandı, amma təriqətin dövlət qurmaq ideyası daha da möhkəmləndi. Qızılbaşlar geri çəkilib yeni şeyxə beyət edir və öz yurdlarına qayıdaraq fəaliyyətlərinə davam edirdilər. Roger Savori təriqətin bu dönəmi haqqında yazır: ***"Beləliklə, Səfəvi hərəkatı ikinci dəfə döyüş meydanında öz rəhbərini itirsə də, irəliyə doğru qarşısı alınmaz şəkildə yoluna davam etdi."***[240]

Şeyx Cüneyd və Şeyx Heydərin dövrü acılı-şirinli hadisələrlə yanaşı, müəyyən rahat mərhələləri də əhatə

---

[239] Qasim bəy Həyati Təbrizi, Tarixi-həyati, s, 179
[240] Roger Savory, İran Under The Safavids, s, 20

edirdi. Lakin Şeyx Heydərin böyük oğlu Əlinin şeyxlik dönəmi kifayət qədər çətin və boğucu keçmişdi.

## Şeyx Heydərin yetirməsi – İlahi Ərdəbili

Şeyx Heydər qısa ömür sürməsinə baxmayaraq, həyatının əsas hissəsini cihad hazırlıqlarına sərf etmiş, bununla yanaşı Ərdəbildə şiəliyin yayılması üçün də bir sıra mədəni tədbirlər görmüşdür. Bu fəaliyyətlərin bir çoxu tarixdə gizli qalsa da, mövcud tarixi faktlar vasitəsilə onların izini sürmək mümkündür. Bu mədəni fəaliyyətlərin mövcudluğunu və təsirini göstərən mühüm nümunələrdən biri İlahi Ərdəbilidir. İlahi Ərdəbili kimi tanınan Hüseyn ibn Xacə Şərəfəddin Əbdülhəqq Ərdəbili, çoxşaxəli elmi fəaliyyəti ilə seçilən görkəmli şiə alimlərindən biri olmuşdur. Onun elmi fəaliyyəti irfan, təfsir, kəlam, fəlsəfə, astronomiya, riyaziyyat, fiqh və poeziya sahələrini əhatə edirdi.

İlahi Ərdəbili hicri IX əsrin səksəninci illərində Ərdəbildə anadan olmuşdur. O, uşaqlıq və yeniyetməlik illərini öz doğma yurdunda keçirmişdir. Özünün Əllamə Hillinin "Qəvaid"inə yazdığı haşiyədə verdiyi işarəyə əsasən, gənclik çağlarında Şeyx Əli Amulinin yanında şəriət elmlərini öyrənmişdir.[241] İlahi Ərdəbili daha sonra Şiraza getmiş və bir müddət Cəlaləddin Məhəmməd

[241] Abdullah Əfəndi İsfahani, Riyazül-üləma, cild 2, səh. 98

Dəvani (vəf. 1502) və Əmir Qiyasəddin Mənsur Şirazinin (vəf. 1541) yanında əqli və nəqli elmləri öyrənmişdir. O, Dəvaninin "Şəvakilül-hür" kimi əsərlərini birbaşa müəllifinin özündən oxumuş və hicri 892-ci ilin cəmadiül-əvvəlində ondan əsərlərinin rəvayəti və tədrisi üçün icazə almışdır.[242] O, həmin dövrdə Şeyx Heydər Səfəvinin yanına qayıtmış və onun mürşidliyi ilə bir müddət Şeyx Səfiəddin Ərdəbili dərgahında seyri-sülukla[243] məşğul olmuşdu. Daha sonra İlahi Ərdəbili Şeyx Heydər Səfəvinin göstərişi ilə təhsilini davam etdirmək üçün Herata yollanmışdır.[244] Orada Əmir Cəmaləddin Ətaullah Hüseyninin yanında təfsir və hədis təhsili almışdır. Bu müddət ərzində onun yanında Xətib Təbrizinin "*Mişkətül-məsabih*" əsərinin bir hissəsini, həmçinin "*Səhih Buxari*", "*Səhih Müslim*" və Beyzavinin "*Ənvarüt-tənzil*" təfsirinin bir bölümünü oxumuş və ondan miladi 1493-cü ildə rəvayət icazəsi almışdır.[245]

O, 1496-cı ildə Heratı tərk etmiş və Ərdəbilə qayıtmışdır. Ərdəbildə Şeyx Səfiəddin Ərdəbilinin

---

[242] Abdullah Əfəndi İsfahani, Riyazül-üləma, cild 2, səh. 103–104
[243] Seyri-süluk – insanın kamilləşmə yolunda keçirdiyi daxili tərbiyə prosesidir. Adətən, mürşidin rəhbərliyi ilə həyata keçirilir.
[244] Sam Mirzə Səfəvi, Töhfeyi-Sami, cild 1, səh. 77–78
[245] Əmin Əhməd Razi, Həft İqlim, cild 3, səh. 256, Tehran, 1340

zaviyəsində xadim təyin olunmuş və elə həmin məkanda dərs deməyə başlamışdır. [246] Şah İsmayılın hakimiyyətə gəlişi ilə Əhli-beyt maarifinin İranda yayılması missiyasına ən böyük dəstək məhz İlahi Ərdəbilidən gəlmişdir. İlahi Ərdəbili fars, ərəb və türk dillərini bilir və hər üç dildə əsərlər qələmə alırdı. Onun elmi irsi sırasında *“Minhəcül-fəsahə”* adlı *Nəhcül-bəlağənin* fars dilinə tərcümə və geniş şərhi, türk dilində qələmə alınmış *“İmamət risaləsi”*, həmçinin məsum imamların fəzilətlərinə həsr edilmiş farsca *“Tacül-mənaqib”* əsəri xüsusi yer tutur. Bu və digər əsərlər müəllif tərəfindən Şah İsmayılın adına ithaf edilərək qələmə alınmışdır. İlahi Ərdəbili Şah İsmayılın 23 illik hakimiyyətinin tamamına və Şah Təhmasibin hakimiyyətinin ilk 20 ilinə (1524–1576) şahid olmuşdur. İlahi Ərdəbili bir çox elmə vaqif olsa da, əsasən fiqh mövzuları ilə məşğul olur və müctehid kimi fəaliyyət göstərirdi. Buna görə Səfəvi qaynaqlarında ondan *“müctəhiduz-zaman”* (zamanın müctəhidi) adı ilə bəhs edilmişdir.[247]

## Sultan Əli

Səfəvi mənbələrində Sultan Əli Mirzə və ya Sultan Əli adı ilə xatırlanan Şeyx Mirzə Əli Səfəvi, Şeyx Heydərin

---

[246] Məhəmməd Əli Tərbiyət, Azərbaycan alimləri, cild 1, səh. 47, Tehran, 1314 şəmsi.
[247] Qazi Əhməd Qumi, Xülasətüt-təvarix, cild 1, səh. 237

ilk övladı idi. O, “Xülasətut-təvarix” əsərində ***“Əbul-Hidayə”*** ləqəbi ilə yad edilir. Uzun boylu, şabalıdı gözlü və xınalı saçlı bir cavan idi. [248] Şeyx Heydərin şəhadətindən sonra qızılbaşlar onun vəsiyyətinə əsasən, Şeyx Əlinin ətrafında birləşdilər. Şeyx Əli pərakəndə hala düşmüş Səfəvi mürid şəbəkəsini yenidən bərpa etməyə çalışdı. Ərdəbil xanəgahının fəaliyyətinin canlanması yaxın və uzaq diyarlardan zəvvarların və təriqət tərəfdarlarının buraya axışması Şeyx Əlinin nüfuzunun artmasına səbəb oldu. Şeyx Əlinin əsas vəzifəsi bu çətin dönəmdə həm hərəkatın, həm də iki qardaşının həyatını qorumaq idi. Mənbələrin verdiyi məlumata görə, Ərdəbildə silahlı dəstələr belə təşkil olunmuşdu və Şeyx Əli bu qüvvələrlə Şeyx Heydərin intiqamını almaq niyyətində idi.[249]

Lakin bu vəziyyət uzun çəkmədi. Sultan Yaqubun casusları Ərdəbildə baş verənləri saraya çatdırdılar. Casusların yazdıqlarına görə, Şeyx Heydərin oğlu atasının yerini tutmuş, sufilər isə onun ziyarətinə gəlib-gedirlər. Əlavə olaraq, casuslar Sultana yeni şeyxin təhlükəsini belə xülasə etmişdilər: o yaxın zamanda

---

[248] Ceymz Daun, Aref-e Tacdar, s, 16
[249] Seyyid Hüseyn ibn Murtuza Hüseyni Astrabadi, Tarix-e soltani əz Şeyx Səfi ta Şah Səfi. Tehran, 1358, s. 28

dünyanın hakimiyyət bayrağını qaldıracaq.[250] Sultan Yaqub əvvəlcə Şeyx Əlini öldürməyi ya da kor etməyi planlaşdırsa da, bacısı Aləmşahın xatirinə bu fikrindən daşınmış, bunun yerinə Şeyx Mirzə Əli və qardaşlarını Ərdəbildən uzaq bir məkana sürgün etməyi qərarlaşdırmışdı.[251]

Başqa bir rəvayət də mövcuddur. Sultan Yaqub Şeyx Heydərin övladlarını öldürmək və ya kor etməyi planlaşdırdığı bir vaxtda, Təbrizin nüfuzlu alimlərindən olan Şeyx Məhəmməd Şəbüstəri bu təşəbbüsə maneə olmuşdu. Çünki, Şeyx Şəbüstəri özünü Şeyx Heydərə və və bu ailəyə borclu bilirdi.[252] Dövlətin bu qərarı İranın digər nüfuzlu qrupları arasında etirazla qarşılansa da, bunun qarşısını ala bilmədilər.

Ərdəbilə bir qoşun göndərildi. Ordu Ərdəbilə çatdıqda Səfəvi müridləri Şeyx Əli və ailəsini müdafiə etmək istəsələr də, Şeyx Əli bunu faydasız hesab edərək gələn qoşuna təslim oldu və Ağqoyunlu məmurlarının müşayiəti ilə Aləmşah bəyim ilə övladları İstəxr qalasında həbs olundular. “Cahanquşayi-Xaqan” əsərində nəql olunur ki, Şeyx Əlinin yanında Mahmud

---

[250] Cahanquşayi-Xaqan 88-89

[251] Qulam Sərvər. Tarix-e Şah İsmayıl Səfəvi. Tehran, 1374, s. 35

[252] Ceymz Daun, Aref-e Tacdar, s, 16

adlı bir qardaşı da olmuşdur. O, bu səfərin əziyyətinə dözə bilməyərək Ojan adlı bir kəndin yaxınlığında vəfat etmiş və orada dəfn olunmuşdur.[253] Sürgünə məhkum olunmuş bu ailəni Şirazda Mənsur bəy Pornak adlı bir sərkərdə qarşıladı. Mənsur bəy bəzi rəvayətlərə əsasən onlarla mülayim, bəzi rəvayətlərə görə isə bu qafilə ilə sərt davranmışdır. E. G. Broun yazır ki, *Şeyx Heydərin bu məqamda tamamilə düşmənlərinin əlinə keçmiş üç kiçik oğlunun taleyi qədər acınacaqlı və ümidsiz bir tale təsəvvür etmək olmazdı.*[254]

## İstəxr qalası

İstəxr qalası siyasi dustaqlar üçün nəzərdə tutulan dövlət həbsxanası idi. Günümüzdə bu qala mövcud olmasa da, uca bir təpənin ətəklərində yerləşirdi. Kimlər tərəfindən tikilməsi məlum olmasa da, sonradan üsyançıların sığınacağı olmasın deyə dağıdılmışdır. Qalanın heç bir tərəfdən çıxışı yox idi. Təpənin şərq, qərb və şimal yamacları demək olar ki, tamamilə dik idi. Əgər bir məhbus o tərəflərdən qaçmaq istəsəydi, yerə dəydiyi andaca həlak olardı. Şeyx Əli və ailəsi belə bir qalada

[253] Cahanquşayi-Xaqan, s, 89
[254] Hinz, Walther. Uzun Hasan ve Şeyh Cüneyt: XV. Yüzyılda İran'ın Milli Bir Devlet Haline Yükselişi. Ankara: Türk Tarih Kurumu Basımevi, 1992, s. 77.

dustaq olunmuşdular. Keşikçilər onları o qədər aciz görürdülər ki, özlərinə zəhmət verib qalada qalmır, darvazanı qıfıllayıb özləri üçün təyin olunan bir evdə yaşayırdılar. Şeyx Əli və ailəsi bu qalada ağır şəraitdə yaşayırdılar. Geyimləri cırıq və köhnə idi. Onlara yalnız quru çörək, həftədə bir dəfə isə yağ və üzüm bəhməzi ilə hazırlanmış bir yemək verilirdi.[255] Mənsur bəy Pornak ilk zamanlarda dustaqların dolanışığı üçün dövlətin vəsait ayıracağını düşünsə də, Sultan Yaqub onlar üçün heç vaxt pul göndərmədi. Xəyalları suya düşən Mənsur bəy artıq dustaqlardan əlini üzmüş və onlara ara-sıra əziyyət etməyə başlamışdı.

Ağqoyunlu dəstəsi Şeyx Mirzə Əli və ailəsini Ərdəbildən çıxardığı zaman gedəcəkləri yeri gizli tutmuşdu. Şeyx Heydərin yadigarlarından ötrü narahat olan tərəfdar və dostları onların harada qaldıqlarını öyrənə bilmir, beləcə onlara pul göndərə bilmirdilər. Dustaqların yuyunması üçün bir hamamları və suyun isidilməsi üçün vəsaitləri belə yox idi. Havanın isti olduğu zamanlarda qalanın su anbarından istifadə edirdilər. Amma Qış fəsli olduğu zaman isə, yuyunmağa imkan tapa bilmirdilər. Şeyx Əli neçə dəfə qala mühafizlərindən xahiş etmişdi ki, onlar üçün paltar göndərilsin, ya da ən azından Ərdəbildən göndərilməsinə

---

[255] Ceymz Daun, Aref-e Tacdar, s, 15-16

icazə verilsin. Lakin hər dəfə mühafizlər cavab verirdilər ki, Şeyxin istəyi Mənsur bəyə çatdırılıb, lakin o cavab verməyib. Halbuki onlar yalan danışırdılar və heç vaxt şeyxin xahişini Mənsur bəyə çatdırmamışdılar. Çünki Mənsur bəy onlara göstəriş vermişdi ki, dustaqların heç bir ismarıcı ona çatdırılmasın. [256] Bu laqeydlikdən deyildi, Ağqoyunlu hökmdarından gələn bir əmrin nəticəsi idi. Sultan Yaqub Mənsur bəyə göstəriş vermişdi ki, o üç qardaşın həyat şəraiti orada elə olmalıdır ki, orada ölsünlər. [257] Dustaqlara sadəcə qala içərində rahatca gəzmək icazəsi verilmişdi. Qalanın ətrafı əkin sahələri ilə dolu idi. Qardaşlar gündüzlər qalanın bürclərinə çıxaraq ətrafı seyr edirdilər. Gecələr isə qaranlıq zindanlarda yatırdılar.

Şeyx Əli atasının şəhadətindən sonra Ərdəbil xanəgahının mürşidi olsa da, onun sənətə, ələl-xüsus xəttatlıq sənətinə xüsusi marağı var idi. Şeyx İstəxr qalasına özü ilə bərabər qələm, kağız və mürəkkəb gətirmişdi. Qalanın gözəl təbiəti və sürgünlük abu-havası içində Şeyx bu boş vaxtlarını xəttatlıqla məşğul olaraq keçirirdi.[258]

---

[256] Ceymz Daun, Aref-e Tacdar s, 17-18
[257] Ceymz Daun, Aref-e Tacdar s,18
[258] Ceymz Daun, Aref-e Tacdar s,19

Bütün bu çətinliklər içərisində Lahicandan Şeyx Əli və qardaşlarına yardım əli uzandı. Lahicanda hökmdarlıq edən Mirzə Əli Karkiyanın İran üzərində kəşfiyyat imkanları daha çox idi. O, Şeyx Heydərin varislərinin Şiraza sürgün olunduqlarını və İstəxr adlı bir qalada saxlanıldıqlarını öyrənmişdi. Beləliklə üç qardaş üçün yeni ümid qapısı açıldı. Mirzə Əli Karkiya Mənsur bəy ilə razılaşdıqdan sonra İstəxr qalasına hər iki aydan bir 60 dukat[259] qızıl göndərməyə başladı. Əlbəttə bu pulun üçdə birini Mənsur bəy, digər hissələri isə keşikçilər mənimsəyirdi. Pul az olsa belə artıq nisbi rahatlığa qovuşmuşdular.[260]

## Sultan Yaqubun ölümü

Sultan Yaqubun hakimiyyət illərində Ağqoyunlu dövləti nisbətən sakit bir dövr yaşamışdır. Osmanlı ilə münasibətlər düzəlir, iqtisadi reformlar üzrə planlar qurulur və monqollar dönəmindən qalan vergilər ləğv edilməyə çalışılırdı. Lakin bütün bu asayiş dönəmi Sultan Yaqubun ölümündən sonra özünü daxili iğtişaşlar dönəmi ilə əvəzlədi. Sultan Yaqubun ölümü isə öz müəmmasını günümüzə qədər qoruyub saxlamışdır.

[259] Duka – Avropada 20-ci əsrə qədər istifadə olunmuş pul vahidir. Osmanlı və İran ərazilərində də istifadə olunmuşdur.

[260] Ceymz Daun, Aref-e Tacdar s, 24

Mənbələr Sultanın ölümünü fərqli rəvayətlərlə təqdim edir. Bəziləri xəstəlik ilə, bəziləri Fərrux yasarın qızı Gövhər Sultanın zəhəri ilə öldüyünü rəvayət etsə də, akademik Ziya Bünyadovun tərcümə etdiyi Solakzadə Mehmetin *“Tarix”* əsərində fərqli və ibrətamiz bir rəvayət mövcuddur. Əsərdə yazılır ki, Sultan Yaqubun Mirzə Yusif adında bir qardaşı var idi. Anası bu qardaşı daha çox sevdiyindən Sultanın qardaşına kini yaranmışdı. Bütün bu kin və nifrət işi o yerə çatdırdı ki, Sultan qardaşını öldürmək üçün zəhərli şərbət hazırlatdı. İki qardaş ovdan qayıtdıqları zaman susuzluqlarını yatırmaq üçün gördükləri ilk şərbət kasasını götürdülər və ondan doyunca içdilər. Bu kasa həmin zəhərli kasa idi. Anaları otağa daxil olduqda artıq iki qardaş canlarını tapşırmışdı. Bu ağır mənzərəyə dözə bilməyən anaları zəhərli kasada qalan zəhəri içərək intihar etdi.[261]

Səfəvi hərəkatına ağır zərbələr vuran Sultan Yaqub öldüyü zaman cəmi 30 yaşında idi. Sultanın ölümü İranda yeni və parlaq bir səhifənin də açılmasına vəsilə oldu. Sultanın ölümündən sonra taxta çatmaq arzusu Uzun Həsənin övladlarını bir-birininə qarşı qaldırmış, dövlətin ömür tellərini qırmışdı.

---

[261] Solakzadə Mehmed, Tarix (Azərbaycan tarixinə dair iqtibaslar), Bakı; Elm, 1992, s, 18

## Ağqoyunlu taxtı uğrunda mübarizə

Sultan Yaqub dünyasını dəyişəndə varisi olaraq onun Baysunqur, Həsən və Murad adında üç oğlan övladı qalmışdı. Hakimiyyət davasında ağqoyunlular iki cəbhəyə bölündü - Sufi Xəlilin himayəsində olan azyaşlı Baysunqur  və digər Ağqoyunlu əmirlərinin himayə etdiyi Məsih Mirzə.

Sufi Xəlilin rəhbərliyində olan tərəf Baysunqur Mirzəni Ağqoyunlu hökmdarı elan etdikdən sonra iki tərəf arasında mübarizə başlandı. Tərəflərin arasında baş verən ilk qarşıdurmalarda Məsih Mirzə öldürüldü. Onunla birlikdə bir sıra digər əmirlər də ya öldürüldü ya da əsir düşdü. Baysunqur əsas rəqibindən xilas olmuşdu. Amma Əlincə qalasına həbs edilən Rüstəm Mirzə hələ də sağ idi. Rüstəm Mirzə Uzun Həsənin başqa bir nəvəsi idi. Məsih Mirzəni dəstəklədiyindən Əlincə qalasında həbs edilmişdi.  Ağqoyunlu əmirləri arasında o qədər də ciddiyə alınmırdı. Elə bu zamanda, Baysunqurun tərəfdarları arasında baş verən intriqalar yeni hakimiyyətin davamlılığını sarsıdacaq hadisələrin cərəyan etməsinə səbəb oldu. Ağqoyunlu əmirlərindən biri olan Eybə Sultanın Baysunqurdan incik düşməsi ilə hər şey dəyişdi. Eybə Sultan Baysunqurdan üz çevirərək Rüstəmin gələcək hakimiyyəti üçün çalışmağa başladı. Əvvəl Rüstəmi həbsdən azad etdi, sonra isə bir ordu

topladı. İki ordu Mərənddə qarşılaşdı və Eybə Sultanın ordusu Baysunquru məğlub etdi. Baysunqur məcburi olaraq Şirvana qaçdı və babası Şirvanşah Fərrux Yasara sığındı. Rüstəm Mirzə də bunun ardınca Təbrizə daxil olaraq hakimiyyəti əlinə aldı. Rüstəmin hakimiyyətə gəlməsi də sabitlik yarada bilmədi. Baysunqur məğlub olub Şirvana qaçsa da, hakimiyyət iddiasından heç də əl çəkməmişdi. Mübarizənin səmərəli şəkildə aparılması üçün Rüstəm Mirzə həbsdə olan Səfəvi şeyxi ilə əməkdaşlıq yaratmaq fikrinə düşdü.[262] Rüstəm Mirzə Şeyx Mirzə Əliyə digər Ağqoyunlu şahzadələrindən daha yaxın idi. Çünki, Rüstəm Mirzənin atası Maqsud Mirzə Aləmşah bəyimin doğma qardaşı idi.

Şirvanşah Fərrux Yasarın ona sığınmış Baysunqura kömək hazırlıqları Rüstəm Mirzəni məcbur etdi ki, çox tez bir zamanda hakimiyyətinin müdafiəsi üçün Səfəvi xanədanı ilə əlaqə yaratsın. Rüstəm Mirzənin vəziyyəti də bunu tələb edirdi. Çünki yaranmış şəraitdə onun Şirvanşah dövlətinə və ya onun dəstəklədiyi Baysunqura qarşı ciddi müqavimət göstərmək imkanları yox idi. Şirvanşah Fərrux Yasar isə yalnız qohumluq əlaqələrinə görə Baysunqura kömək göstərmirdi. Baysunqurun yenidən Ağqoyunlu hakimiyyətinə gətirilməsi ilə Fərrux

[262] Mənuçehr Parsadust. Şah İsmayil əvvəl. Tehran, 1375, s. 214

Yasar Dərbənddən başlayaraq Fars körfəzinə qədər olan əraziləri öz nəzarəti altına ala bilərdi.

Rüstəm Mirzənin Səfəvilər ilə ittifaqı ikibaşlı oyuna əsaslanırdı. Əgər Səfəvilər Baysunqur və Şirvanşahı məğlub edə bilsələr bununla rəqiblərini aradan götürə bilərdi. Amma qızılbaşlar məğlub olsalar belə rəqibləri ən azından zəifləyər və sonrakı mərhələdə onları məğlub edə bilərdi. Şeyx Mirzə Əlinin fəaliyyət dönəmi məhz belə çətin dönəmə təsadüf etmişdi.

## Şeyx Əlinin azad olması

Şeyx Əli və ailəsi İstəxr qalasında 4 il yaşadılar. Qasim bəy Həyati Səfəvi hərəkatının bu dövrünü Həzrəti Yusif Peyğəmbərin zindandan Misir səltənətinə keçdiyi dövrə bənzədir. O yazırdı: ***"İlahi hikmət və sonsuz fəzlin ümumi iradəsi belə tələb edir ki, şadlıqla qəm, gül ilə tikan, şirin ilə acı bir-birinə qarışmış olsun. (Yusif peyğəmbər) quyunun və zindanın ağır çətinlikləri ilə üzləşdikdən sonra, o, Misir səltənətinin şan-şöhrət taxtına sahib oldu."***[263]

Rüstəm bəy Şeyx Əlini azad etdikdən sonra onu Təbrizə dəvət etdi. Şeyx Təbrizə böyük bir təmtəraqla daxil oldu və Rüstəm onu mehribanlıqla qarşıladı. Rüstəm

[263] Qasim bəy Həyati Təbrizi, Tarixi-Həyati, s, 183

Mirzənin Şeyxə belə dediyi rəvayət olunur: ***“Əzizim, sənə etdikləri işlər keçmişdə qaldı, inşallah mən çalışacağam bunların əvəzini çıxam. Sən mənim qardaşım kimisən və məndən sonra İran səltənəti sənə çatacaq”*** Sonra Şeyxə səltənət nişanələri sayılan tac, kəmər, daş-qaşla bəzədilmiş qılınc, gürz, qızıl yəhərli ərəb atları və başqa təmtəraqlı əşyalar verildi. Səltənət nişanələrinin Şeyxə verilməsindən sonra Rüstəm ona dedi: ***“Səni padşah adlandırıram, bundan sonra sənə Mirza deməsinlər”***[264]

Şeyx Əlinin azad olma xəbəri Səfəvi müridlərinə çatdıqda bu xəbər məyus müridlər arasında canlanmaya səbəb oldu. Altı ay ərzində 15 min qızılbaş döyüşçü Təbrizdə toplandı.[265]

Baysunqurun hücum xəbəri Rüstəmə çatdıqda Şeyx Əlini Eybə Sultanın komandanlığı altında Qarabağa göndərdi. Qoşunlar isə öz yolunu Ərdəbildən saldılar. Şeyx Əli Ərdəbil xanəgahına gələrək burada babalarının məzarını ziyarət etdi, öz yaxınları və müridləri ilə görüşdü və sonra Baysunqurla döyüş üçün yola düşdü.[266] Tərəflərin qüvvələri Araz çayı sahillərində bir-biri ilə

---

[264] Cahanquşayi-Xaqan, s, 91
[265] Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 30
[266] Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 30

rastlaşdılar. Amma bu qüvvələr heç biri Araz çayını keçməyə cəsarət etmədilər. Tərəflər Araz çayının müvafiq sahilində düşərgə salaraq bir neçə gün bir-birini müşahidə etdilər və sonra da döyüşə başlamayaraq geri çəkilməyi üstün tutdular. Bu döyüşdə Şeyx Əlinin atasının qanını almaq istəyi olsa da, xüsusi canfəşanlıq göstərməməsi onun Ağqoyunlulara güvənmədiyini göstərir.

Növbəti döyüş İsfahan hakimi Hacı Bayandurun 1493-cü ilin avqust ayında Baysunqur Mirzə adına xütbə oxutdurması ilə başlayan üsyanı ilə cərəyan etdi. Baysunqur üsyan xəbərini eşitdikdə yenidən qoşun toplayaraq cənuba doğru hərəkətə başladı. Yaranmış mürəkkəb vəziyyətdən qalib çıxmaq üçün Rüstəm Mirzə yenidən Şeyx Əliyə üz tutaraq onun müridlərinin Baysunqura qarşı mübarizəyə qalxmasını xahiş etdi. Şeyx Əli növbəti dəfə bu xahişi qəbul etdi və yenidən öz müridlərinə hərbi yürüşə hazırlıq göstərişi verdi. Şeyx Əli əsas qüvvələri ilə Baysunqura və Şirvanşah qüvvələrinə qarşı döyüşdə iştirak etməli idi. Qızılbaşlardan təşkil olunmuş bir qoşun dəstəsi isə Qarapiri bəy Qacarın rəhbərliyi altında Hacı Bayandurun üsyanının yatırılmasına göndərildi. Qarapiri bəyin rəhbərliyi altında olan bu qızılbaş dəstəsi verilən

tapşırığı uğurla yerinə yetirdi və Rüstəm Mirzə əleyhinə üsyan qaldırmış Hacı Bayanduru məğlub etdi.[267]

Üsyanın yatırılmasından sonra iki tərəfdə döyüş hazırlıqlarına başladılar. Tərəflər arasında döyüşün həm Qarabağ yaxınlığında, həm də Meşkin və Əhər yaxınlığında baş verməsi rəvayət olunur. Şirvanşah qoşunlarının sağ cinahı Baysunqur Mirzəyə, sol cinahı isə Şirvanşahların sipəhsaları Kiya Bəhmənə tapşırıldı. Onun oğlu Kiya Məlikə isə çərxçi vəzifəsi həvalə olundu və onun sərəncamına 5 min nəfərlik dəstə verilərək döyüş meydanına göndərildi. Ağqoyunlu-qızılbaş qoşunlarında da döyüşqabağı qruplaşdırılma aparıldı. Şeyx Əli qüvvələrin mərkəzinin rəhbərliyini öz üzərinə götürdü. Bu qüvvələrin sağ cinahını Şeyx Əli öz lələsi Hüseyn bəy Şamlıya, sol cinahını isə Dədə bəy Talışa həvalə etdi. Bu məlumatdan belə bir qənaətə gəlmək olar ki, Ağqoyunlu-qızılbaş qoşunlarının rəhbərliyi Sultan Əliyə tapşırılmışdı. Döyüşü hər iki tərəfdən çərxçilər başladılar. Şirvanşahlar tərəfindən Kiya Məlikin rəhbərliyi altında olan çərxçi dəstəsi, Ağqoyunlular tərəfindən isə Eybə sultanın rəhbərliyi altında olan çərxçi dəstəsi ilkin olaraq döyüş meydanına yeridilər. Şirvanşah çərxçiləri döyüşə çox fəal şəkildə başladılar

[267] Qulam Sərvər. Tarix-e Şah İsmayıl Səfəvi. Tehran, 1347, s.36

və qısa zaman ərzində Ağqoyunlu döyüşçülərinə xeyli ziyan yetirdilər. Şirvanşah çərxçilərinin rəhbəri Məlikin fəallığı mənbələrdə xüsusi olaraq qeyd edilir. Onun rəhbərliyi altında olan dəstənin yetirə biləcəyi itkilərin qarşısının alınması üçün Eybə sultan da özünü döyüş meydanına atdı. O, Şirvanşah çərxçilərinin rəhbərini nişan alıb ona güclü zərbə endirdi. Bu zərbə hədəfə yetməklə Məlikin qətlinə yol açdı. Öz başçılarını itirmiş Şirvanşah çərxçiləri döyüş meydanını tərk etməyi daha üstün tutdular.[268]

Bundan sonra Şirvanşah çərxçiləri döyüş meydanından geri çağırıldılar və sipəhsalar Bəhmənin rəhbərliyi altında olan qüvvələr Ağqoyunlu qoşunları üzərinə atıldılar. Sipəhsalar Bəhmənin rəhbərliyi altında olan sol cinahın hücumu Baysunqurun rəhbərliyi altında mərkəzdə dayanan qüvvələr tərəfindən daha da gücləndirildi. Nəticədə Şirvanşah qüvvələrinin təzyiqi artmağa başladı. Bu təzyiqin nəticəsində öndə olan Ağqoyunlu-qızılbaş qüvvələri geri çəkilmək məcburiyətində qaldı. Ağır vəziyyətdə Eybə sultan da yara almışdı. Belə olanda Şeyx Əli döyüş meydanına yeni qüvvələr daxil etdi və Şirvanşah qoşunlarının təzyiqinin qarşısını saxlaya bildi. Bu zaman onun nümayiş etdirdiyi əzmkarlıq və qətiyyət döyüş

[268] Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 30-31

təşəbbüsünün hətta Ağqoyunlu-qızılbaş qüvvələrinin əlinə keçməsinə yol açdı. Mənbələrin verdiyi məlumata görə, Şeyx Əli döyüşün gedişində Baysunqurun döyüş bayrağının harada yerləşməsini müşahidə etdi və özü həmin bayrağın ələ keçirilməsi üçün irəli atıldı. Ətrafındakılar onu bu hərəkətdən çəkindirməyə çalışsalar da, Şeyx Əli döyüşə-döyüşə özünü Baysunqurun döyüş bayrağına yetirdi. Şeyx Əli həm qəfil hücum ilə Baysunquru öldürdü, həm də onun döyüş bayrağını ələ keçirdi. Döyüş meydanının mərkəzinin əldən getməsi Şirvanşahların vəziyyətini xeyli ağırlaşdırdı. Belə olanda Şirvanşah Fərrux Yasarın geri çəkilməkdən başqa digər bir seçimi qalmadı. Şirvanşah qoşunları elə bir mürəkkəb vəziyyətə düşdülər ki, düşərgələrini, döyüş əmlakını döyüş meydanında buraxaraq qaçdılar. Nəticədə Şeyx Əli rəhbərliyi altında olan qüvvələrlə Rüstəm Mirzənin hakimiyyəti üçün mövcud olan əsas təhlükəni aradan qaldıra bildi[269]

Mənbələrdə Rüstəm Mirzənin əyanları ilə birgə 3 fərsəx yol gedib Şeyx Əlini Təbrizə daxil olmamış qarşıladığı qeyd olunur. Rüstəm Şeyx Əlini ehtiramla qarşılayaraq Təbrizə birlikdə daxil oldular. Bir müddət keçdikdən sonra isə, Şeyx Heydərin övladlarını təmtəraqla Ərdəbilə

---

[269] Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 31

yola saldı ki, əvvəlki qayda üzrə Ərdəbildə əcdadlarının xanəgahında oturub, müridlərini hidayət etsin.[270]

## Şeyx Əlinin şəhadəti

Şeyx Əlinin Ərdəbilə dönüşü müridləri tərəfindən böyük sevinclə qarşılandı. Şeyx Əli nəhayət siyasi asayişə qovuşdu və hərəkatın mərkəzində qərar tutaraq irşad fəaliyyətinə başladı. Beləliklə, qısa müddət belə olsa, Ərdəbil xanəgahı öz keçmiş fəaliyyətinə qovuşdu. Amma Rüstəmin bütün vədələrinə baxmayaraq, Şeyx Əli ehtiyyatını əldən vermir və fəaliyyətlərinin bir qismini gizlədirdi. Çünki Rüstəm hakimiyyət taxtına yeni oturmuş, hələ canında qorxu qalmışdı. Şeyx Əli onun bu xislətini bildiyindən, bacardığı qədər tam açıq fəaliyyət göstərməməyə çalışırdı. Lakin müridlərin Ərdəbilə axını Şeyx Əlinin işini çətinə salırdı.

Şeyxin Ərdəbilə qayıdışı hərəkat tərəfdarları üçün böyük coşqu yaratmış, müridlərin müxtəlif bölgələrdən şəhərə gəlmələrinə səbəb olmuşdu. Şeyx Əlinin ziyarətinə gələnlərin və ona sədaqət göstərənlərin sayı durmadan artır və bunun nəticəsində isə Səfəvi hərəkatı yenidən dirçəlirdi. Şübhəsiz ki, Şeyx Əlinin genişlənən fəaliyyəti və artan nüfuzu, onun ətrafında çoxlu sayda insanın toplaşması Rüstəmi qorxutmağa başladı. Ona görə də

---

[270] Cahanquşayi-Xaqan, s, 94

Şeyx Əli və onun qardaşları bir müddət sonra Təbrizə gətirildilər.

Qasim bəyin rəvayətinə görə Rüstəmin Şeyx Əliyə qarşı olan şübhələrini öyrənən xanəgahın yaxın adamları məsləhət gördülər ki, Şeyx Heydərin xanımı Aləmşah bəyim Təbrizə getsin və qardaşı oğlu ilə danışsın. Təbrizə yollanan Aləmşah bəyim Rüstəm tərəfindən təmtəraqla qarşılandı. O, Rüstəm Mirzəyə ərz etdi ki, ***Şeyx Heydər övladlarının Ağqoyunlu hökmdarına qarşı heç bir pis niyyətləri yoxdur. Onlar dostluq yolunda möhkəm irəliləyirlər. Əgər həsəd aparanlar fitnə məqsədilə qulağınıza bir söz çatdırıblarsa şübhəsiz ki, o, qərəzdən doğmuşdur.***

Rüstəm bəy bibisinin bu sözlərinə haqq verdi və qısa müddət də olsa, şübhələrindən aramlıq tapdı. Aləmşahın qardaşı oğlu ilə danışması Rüstəmə elə bir təsir göstərmişdi ki, ən gözəl bacısını Şeyx Əli ilə nişanlamışdı.[271] Bu aramlıq bir müddət belə davam etdi. Həmin müddət ərzində Rüstəm bəy, hətta Ərdəbil rəhbərliyinin maliyyə işlərini belə izləmirdi.[272] Lakin

[271] Qasim bəy Həyati, Tarixi-Həyati, s, 192
[272] Qasim bəy Həyati, Tarixi-Həyati, s, 194

saray əyanlarının Şeyx Əlidən bədgümanlıqla danışması vəziyyəti əvvəlki halına qaytardı.

Şeyx Əli Təbrizdə ciddi nəzarət altında idi. Amma buna baxmayaraq, müridlər müxtəlif yollarla şəhərə gələrək gizlicə Şeyx Əli ilə görüşürdülər. Belə hadisələr artdıqca Rüstəm öz taxtının gələcəyindən qorxuya düşür və Şeyx Əlinin varlığını özü üçün ciddi təhlükə görürdü. Rüstəm onu öldürməzdən əvvəl ona iftiralar ataraq ətrafındakıları ondan uzaqlaşdırmaq, sonra isə onu aradan qaldırmaq istədi. Bu məqsədlə ölkədə çirkin bir şayiə yayıldı: (***güya) Şeyx Əli şərab içir!*** Ancaq bu iftira heç bir nəticə vermədi, çünki insanlar bu pakfitrətli gəncin belə bir işə əl ata biləcəyinə inanmamışdı. Belə olduqda ikinci plana əl atıldı: Şeyx Əli və ətrafındakıların bir məclisə çağırılaraq orada öldürülməsi, daha sonra isə Səfəvi tərəfdarlarının kütləvi şəkildə təmizlənməsi nəzərdə tutulurdu. Bununla Rüstəm yeganə rəqibindən də xilas olaraq taxtının möhkəmlənəcəyini düşünürdü. Lakin Ağqoyunlu sarayında sui-qəsd planından xəbərdar olan bir əyan bütün bu gizli planı Şeyx Əliyə çatdırdı. Şeyx Əli xəbəri alandan sonra əhli-ixtisası çağırıb onlardan məsləhət istədi: ***"Sabah bizi öldürmək istəyirlər. Tədbir nədir?***

Hüseyn bəy Lələ, Dədə bəy Talış, Qarapiri bəy Qacar və İlyas bəy Xınıslı belə dedilər: ***"Qurbanın olaq, qalxıb***

***Ərdəbilə gedək. Müridləriniz o tərəflərdə daha çoxdur. Əgər Rüstəm bizi təqib etsə döyüşərik.”***[273]

Şeyx Əli, qardaşları və bir qrup sadiq tərəfdarı ilə birlikdə gecə yarısı Təbrizdən Ərdəbilə doğru yola düşdülər. Şeyx Əlinin Təbrizdən çıxma xəbəri Rüstəm Mirzəyə səhər üfüqü açılarkən çatdı. O, bu xəbəri alarkən dəhşətə düşdü və tez Eybə Sultanı beş min nəfərlik bir qoşun ilə Ərdəbilə göndərdi. O, yaxşı bilirdi ki, Şeyx Əlinin rəhbərliyindəki qızılbaşların Ərdəbilə daxil olması, vəziyyəti tamamilə onun əleyhinə dəyişdirəcək və Səfəvi şəbəkəsinin yaradacağı böyük bir üsyan ilə onun dövlətinin təməlini sarsacaq. Roger Savori hadisənin ciddiyətini bu rəvayət ilə nəql edir: ***“O belə deyirdi: “Əgər Sultan Əli bir dəfə Ərdəbilə girsə (Allah göstərməsin!), onda 10.000 türkmənin ölümü də faydasız olacaq.”***[274]

Şeyx Əli Ərdəbil yaxınlığındakı Şəmasi kəndinə çatdıqda, buranın onun son məskəni olacağını hiss etdi. O, Eybə Sultanın qoşununu gördükdə təcili balaca qardaşı İsmayılı yanına gətizdirib belə dedi: ***“Ay qardaş, bizim payımıza bu düşdü. Mən bu gün öldürüləcəyəm,***

---

[273] Cahanquşayi-Xaqan, s, 94

[274] Roger Savory, İran Under The Safavids, s, 21

***cənazəmi müridlər aparıb babamın məqbərəsində dəfn edəcəklər. İstəyirəm ki, mənim, atanın və babanın qisasını Həsən Padşahın övladlarından alasan. Bu talenin payı sənin adına çıxdı. Sən Gilandan günəş tək çıxacaq və küfrün qara ləkəsini qılıncının zərbəsi ilə yer üzündən siləcəksən."***

Sonra atasından yadigar qalan qızılbaş başlığını öz başından götürüb qardaşının başına qoydu. Belindəki kəməri də çıxarıb onun belinə bağladı və qulağına əyilib atasının özünə çatdırdığı nəsihətləri onun qulağına pıçıldadı. Sonda isə İsmayıl və İbrahimi dostlarına əmanət edərək onları Ərdəbilə aparmalarını tapşırdı.[275] Amma bu ayrılıq razılıq ilə yox, məcburiyyət ilə oldu. Şeyx Əlinin dostları onunla qalmağa və onunla birlikdə canlarını qurban etməyə hazır olduqlarını desələr də, Şeyx bunu qəbul etmədi. Daha sonra, Şeyx Əli qardaşı İsmayılı Hüseyn bəy Şamlıya əmanət etdi və tez Gilana doğru yola düşmələrini tapşırdı.[276] Bir rəvayətə görə, ətrafındakılar Şeyx Əliyə qardaşları ilə birlikdə bu məntəqədən uzaqlaşmağı məsləhət gördülər. Səfəvi müridləri Şeyx övladlarının salamat geri çəkilmələri üçün özləri Eybə sultanın dəstəsi ilə vuruşmaq niyyətində idilər. Lakin Şeyx bu təklifi də qəbul etmədi.

---

[275] Cahanquşayi-Xaqan, s, 95

[276] Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 33

Nəhayət, Şeyxin dediyi üstün gəldi. Qızılbaşlardan bir dəstə uşaqları götürüb Şeyx Əli ilə vidalaşdılar və Ərdəbil istiqamətində yola düşdülər.[277]

Tezliklə Ağqoyunlu dəstələri ilə döyüş baş tutdu. “Cahanquşayi-Xaqan” əsərinin bildirdiyinə görə, Şeyx Əlinin Şəmasidə 300 nəfərdən artıq adamı yox idi.[278] Tarixi-Soltani isə qoşunun 700 nəfərdən ibarət olduğunu yazır.[279] Döyüşün başlanğıcında Ağqoyunlu döyüşçüləri Şeyx Əlinin dəstəsini mühasirəyə aldılar. Amma qızılbaşlar məharətlə Ağqoyunluların mühasirəsindən çıxa bildilər. Həsən bəy Rumlunun rəvayətinə görə, Şeyx Əli gah qılınc, gah nizə, gah da ox ilə hücuma keçirdi. Ağqoyunlular Şeyx Əlinin üstünə elə axışmışdılar ki, meydanda toz-tufanından başqa bir şey görünmürdü. Mənbələr Şeyx Əlinin ölümü haqqında bu məlumatı verir ki, Şeyx Əli üzərinə gələn düşmən qoşununa hücum edərkən bir çayı keçməli olur. Çay üzərində döyüşlər gedərkən birdən atın ayağı büdrəyir və Şeyx Əli suya düşür. Atdan yıxılan Şeyx Əlinin boynu

---

[277] Rəhimzadə Səfəvi. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran,1389, s. 117-118

[278] Cahanquşayi-Xaqan, s, 96

[279] Seyyid Hüseyn ibn Murtuza Hüseyni Astrabadi. Tarix-e soltani əz Şeyx Səfi ta Şah Səfi. Tehran, 1358, s. 30

qırılır və boğularaq şəhid olur.[280] Şəhid olduqdan sonra Ağqoyunlu əsgərləri onun başını kəsib özləri ilə birgə Təbrizə aparırlar.

Döyüşün sonlarına yaxın anlarda Qızılbaşlar şeyxlərinə çatmaq üçün toz-tufanına baş vururlar və Şeyx Əlinin başsız bədənini tapıb meydandan çıxarırlar. Şeyx Əlinin başı Ağqoyunlu əmirləri tərəfindən Rüstəm Mirzəyə təhvil verildi. Rüstəm xoşhal olsa da, digər qardaşların əldən verilməsi onun sevincini kədərə çevirir.

---

[280] Həsən bəy Rumlu. Əhsənüt təvarix. Kastamonı, 2017, s. 342



*Şah Ismayıl və Əhli-ixtisas*

# III Fəsil

## Şeyx İsmayıl Mirzə Səfəvi

Kembric nəşriyyatının dərc etdiyi *"İran Tarixi"* əsərinin Səfəvi dövrü hissəsində yazılır: ***"Kim idi bu İsmayıl – öz dövrünün İranına bu qədər böyük təsir göstərən və əsrlər sonra da nüfuzu hiss edilən şəxs?!"*** [281]

İsmayıl Mirzə 1487-ci ildə Ərdəbildə dünyaya gəldi. Rəvayət olunur ki, Şeyx Heydər övladını qucağına alıb adını İsmayıl qoydu və İbrahim surəsinin 39-cu ayəsini zümzümə etdi: ***"İxtiyar çağımda mənə İsmayılı bəxş etmiş Allaha həmd olsun"*** [282]

Şeyx İsmayıl Mirzə hələ bir yaşını tamamlamamışkən, atası Şeyx Heydər döyüşdə şəhid oldu. Sultan Yaqubun əsgərləri ailəsini əsir aldıqda isə o, südəmər bir körpə idi. Dünyanı İstəxr qalasından tanıyan İsmayılın həyatında bu mərhələ böyük dəyişikliklərə səbəb olmuşdu. Mənbələrdə onun uşaqlıq illəri barədə müxtəlif əfsanəvi hekayələr nəql olunsa da, bu rəvayətlər arasında bəzi həqiqətlər də mövcud idi. Allah bu şəxsə liderlik bacarığı və iti zəka nemətlərini vermişdi.

---

[281] The Cambridge History Of Iran, c, 6, The Timurıd And Safavid Periods Edited By Peter Jackson Lecturer In History, University Of Keele And The Late Laurence Lockhart s, 190

[282] "Həbibus-siyər", c, 4, s. 429

İsmayıl Mirzə şəhid qardaşından mürşidlik məsuliyyətini qəbul etdiyi zaman hələ uşaq idi. O, anası Aləmşah bəyim, böyük qardaşı İbrahim və yaxın silahdaşları ilə birlikdə Ərdəbilə yola düşdü. Onlar şəhərə çatdıqda Aləmşah bəyim böyük oğlunun şəhid olması xəbərini aldı. Bu ağır müsibət qarşısında Aləmşah bəyim həm dərd-qəm içində idi, həm də sağ qalan övladlarının gələcək taleyindən dərin nigaranlıq duyurdu. Bu səbəbdən, övladlarının canını qorumaq üçün onları Şeyx Səfi məqbərəsinə göndərdi. Özü isə evində böyük oğlunun yasını tuturdu.[283]

Rüstəm Mirzə Ərdəbilə Əlixan adlı bir hakimi təyin edib, ona Şeyx Heydər övladlarının tapılıb yerindəcə öldürülməsi göstərişini vermişdi. Eyni əmri Eybə Sultana da verib onu Ərdəbilə yolladı. Lakin Əhli-ixtisas qardaşları xanəgahdan çıxarıb Qazi Əhməd Kakuli adlı şəxsin evində gizlətdilər. Eybə Sultan isə hər evi axtarır və uşaqları gizlədənlərin ölümə məhkum ediləcəyini elan edirdi. Mənbədə bu axtarışların necəliyi barəsində belə yazılır: “***Ertəsi gün Eybə Sultan və zalım türkmənlər şahzadələrin dalınca şəhərə daxil olub Ərdəbil əhlinə***

283 Cahanquşayi-xaqan, s, 96

***zülm etdilər, qətl, qarət törədib şahzadələrin axtarışına başladılar."***[284]

Ağqoyunlulular hər evi yoxladıqlarından qardaşlar bir yerdə uzun müddət gizlənə bilməzdilər. Onlar Qazi Əhmədin evində üç gündən artıq qala bilməyib, Xancan adlı bir qadının evinə pənah gətirdilər. Mənbələr göstərir ki, Şeyx İsmayıl Mirzənin gizlədilməsində bibisinin xüsusi rolu olmuşdur. Burada bir ay qaldıqdan sonra isə Zülqədr tayfasından salehə bir qadın olan Cərrahə Xanımın (Rumlu məhəlləsində) evində bir müddət gizləndilər. Qasım bəy Həyatinin məlumatına görə, həmin xanım bir zamanlar İsmayıl Mirzənin süd anası və onun dayəsi olubmuş.[285]

Bu təhlükəli günlərdə qızılbaşlar İsmayıl və İbrahimin yerini heç Aləmşah bəyimə belə deməmişdilər. Elə buna görə də, Rüstəm bəy Aləmşah bəyimi sorğu-suala tutsa da, ondan heç bir məlumat ala bilməmişdi.[286] Roger Savori bildirir ki, Rüstəm Mirzə Aləmşah bəyimə bu sorğu əsnasında işgəncələr etdirmişdir.[287] Lakin Qasım

---

[284] Cahanquşayi-Xaqan, s, 97
[285] Qasim bəy Həyati, Tarixi-Həyati, s, 209
[286] Cahanquşayi-Xaqan, s, 97
[287] Roger Savory, İran Under The Safavids, s, 21

bəy Aləmşah bəyimin əsir edilməsini qəbul etməklə yanaşı, ona işgəncə edilməsini rədd edir.[288]

Ağqoyunlu əsgərləri Rumlu məhəlləsinə girib evləri bir-bir axtardıqları vaxt, Cərrahə xanım iki qardaşı götürüb təcili olaraq Ərdəbil Cümə məscidinin yanındakı Allahvermiş ağa məqbərəsinə apardı və bir müddət onları məqbərənin günbəzində gizlətdi. Lakin bu müddətdə qardaşlarla şəbəkə arasındakı əlaqə kəsilmişdi. Təhlükə sovuşduqdan sonra Cərrahə xanım həm Aləmşah bəyimə, həm də şəbəkəyə uşaqların salamat olduqları xəbəri çatdırdı. O vaxta qədər övladlarının aqibətindən nigaran qalan Aləmşah bəyim isə bu müjdə ilə rahatlıq tapdı və fədakar Cərrahə xanımın sağ-salamat qalması və xoşbəxtliyi üçün dua etdi.[289]

Bəğrov dağında gizlənmiş Rüstəm bəy Qaramanlı səksən nəfər qızılbaşla birlikdə gecə yarısı məscidə gələrək İsmayıl və İbrahimi götürdü, onları Kərgan kəndinə doğru apardılar. Səfəvi tərəfdarlarından olan Vaiz Fərruxzad Kərgani qardaşları üç gün öz evində gizlətdi. Bu müddətdə Əhli-ixtisas məşvərət məclisi quraraq iki qardaş üçün təhlükəsiz sığınacaq axtardı. Nəhayət,

[288] Qasim bəy Həyati, Tarixi-Həyati, s, 209
[289] Cahanquşayi-Xaqan, s, 98

yekdil qərara gəldilər ki, həmin dövr üçün həm onların, həm də Şeyx Heydərin yadigarları üçün ən təhlükəsiz məkan yalnız Gilan ola bilər. Məhəmməd Əhməd Penhani Semnani bu dönəm haqqında yazır:

***“İsmayılın Ərdəbildə gizlədilməsi və sonra Gilana aparılması – fədakar və imanlı sufilərin həyata keçirdiyi həyəcanverici bir hadisə idi.”***[290]

Həsən bəy Rumlunun yazdığına görə, Şeyx İsmayıl Mirzə ilə birlikdə olan qardaşları bunlardır: Seyyid Həsən Mirzə, Seyyid Süleyman Mirzə, Seyyid Davud Mirzə və Seyyid Mahmud Mirzə.[291] Təhqiqatçılar Seyyid Həsənin, digər mənbələrdə adı tez-tez xatırlanan İbrahim Mirzə ilə eyni şəxs olmasını ehtimal edirlər.[292]

## Gilan səfəri

Əhli-ixtisas Şeyx Cüneydin yeznəsi Muhəmməd bəy vasitəsilə Rəşt hakimindən Rəştdə məskunlaşmaq üçün icazə alıb yola düşdülər. Onlar qardaşları Rəşt yolunda yerləşən Tul və Nav (Tulunad) hakimi Əmir Müzəffərin evinə gətirdilər. Əmir Müzəffər onları qonaqpərvərliklə qarşıladı və onları qısa müddət də olsa, evində qonaq etdi. Lakin Eybə Sultan, Əmir Müzəffərin Şeyx

---

[290] Məhəmməd Əhməd Penhani Semnani, Şah İsmayıl, s, 69
[291] Həsən bəy Rumlu, Əhsən ət-Təvarix, s, 344
[292] Valter Hints. Təşkil-e dövlət-e milli dər İran. Tehran, 1361, s. 123

Heydərin övladlarını gizlətdiyini xəbər alaraq, ona bu məzmunda məktub göndərdi: ***“Şeyx Heydərin övladı sənə pənah gətirmişdir. İtaət və sədaqətin şərti budur ki, onu tərəfdar və dostları ilə birlikdə hədiyyələr və təzimlərlə Rüstəm padşahın hüzuruna göndərəsən ki, padşahın lütfü və mərhəmətindən bəhrələnəsən. Əgər bu işdə itaətsizlik göstərsən və inad etsən, mütləq padşahın qəzəbinə və cəzasına düçar olacaqsan.”***

Bundan əlavə, Xalxal hakimi Çakər bəy də ona eyni məzmunda xəbərdarlıq göndərdi. Belə bir şəraitdə artıq İsmayıl Mirzənin burada qalması təhlükəli idi. Əmir Müzəffər qonaqlar ilə vidalaşarkən iki etibarlı adamını da onlara vermiş və yola salmışdı. Şeyx Cüneydin yeznəsi qonaqlar hələ yolda ikən, Əmir İshaqa ikinci dəfə məktub ünvanlayaraq, İsmayıl Mirzə və qardaşlarından muğayat olmasını xahiş etdilər. Qızılbaşlar Gilan bölgəsində yerləşən qədim Kəsgər bölgəsinə yollandılar. Buranın əmiri Əmir Siyavuş qonaqları mehribançılıqla qarşıladı və onlar burada 3 gün qonaq oldular. Şeyx İsmayıl Rəştə çatdıqda şəhərin məşhur Ağ məscidində məskunlaşdı. Bu məscidin gözəlliyi Şeyx İsmayılı o qədər valeh etmişdi ki, o başqa yerdə qalmaq istəmirdi. Hətta Əmir İshaqın davamlı

israrları belə bu qərarı dəyişdirə bilmədi.[293]Ağ məsciddə qaldığı müddət ərzində İsmayıl Mirzə burada Nəcməddin Məsud Gilani adlı bir zərgərlə tanış oldu. Aralarında yaranan dostluq Nəcməddin Məsudun qızılbaşlara qoşulub Səfəvi müridi olması ilə nəticələndi. Nəcməddin, Rəştdə qaldığı müddət ərzində hər gün onunla söhbət etməyə can atırdı. Hətta bu günlərin birində İsmayıl Mirzənin barmaq ölçülərini götürmüş və onun üçün gözəl bir üzük düzəltmişdi.[294] Şeyx İsmayılın Rəştdən ayrılması da bu iki dostu bir-birindən ayırmadı. Nəcməddin tapdığı ilk fürsətdə Əhli-ixtisasın növbəti mənzili olan Lahicana getdi. İsmayıl Mirzə ilə olan dostluğu və qiyamda fəal iştirakı gələcək illərdə onun dövlətin yüksək vəzifələrindən biri olan vəkil vəzifəsinə təyin olunmasına gətirib çıxaracaqdı. O, Şah İsmayıl üçün çox dəyərli idi. 1502-ci ildə vəfat etdiyi zaman Şah İsmayıl çox narahat olmuş, ondan sonra vəzifəyə təyin etdiyi Əmir Yar Əhməd Xuzani İsfahaniyə əziz dostunun xatirəsinə *“Nəcmi Sani”* adını vermişdi. Şah İsmayılın belə dediyini nəql olunur: ***“İstəyirəm ki, daim dilimdə Nəcm adı olsun.”***[295]

---

[293] Cahanquşayi-Xaqan, s, 99-100
[294] M. Paradust, Şah İsmayıl əvvəl, s, 240
[295] M. Paradust, Şah İsmayıl əvvəl, s, 248

Mənbələrdə İsmayıl Mirzənin Rəştdə qalma müddəti barədə müxtəlif rəvayətlər mövcuddur: bəzilərində onun yeddi gün, bəzilərində iyirmi gün, bəzilərində isə onların burada bir ay qaldığı qeyd olunur.

## Lahican dönəmi

Şeyx İsmayılın Rəştdə qaldığı müddətdə Səfəvi hərəkatının sadiq müridlərindən olan Mirzə Əli Karkiya, Rəşt hakiminin Şeyx İsmayılı yaxşı mühafizə edə bilməyəcəyini düşünərək, onu Lahicana dəvət etdi. Lahican Xəzər dənizinin cənub sahillərinə yaxın, Gilanın dağətəyi ərazilərində yerləşir. "Cahanquşayi-Xaqan" və "Tarixi-Xani" əsərində qeyd olunur ki, Mirzə Əli Karkiya digər hakimlərə nisbətən daha nüfuzlu və bölgədə müəyyən siyasi qüvvəsi olan bir hökmdar idi. O, eyni zamanda dindar, mərhəmətli və Səfəvi təriqətinin sadiq müridlərindən biri kimi tanınırdı.[296] Qasim bəy Həyati Şeyx İsmayılın Lahicanda 6 il qaldığını rəvayət edir.[297] İmam Zeynəlabidinin nəslindən olan bu xanədan Səfəvilər ilə yaxınlığı ilə digər hakim xanədanlardan seçilirdi. İsmayıl Mirzə və Əhli-ixtisas bu səmimi dəvəti məmnuniyyətlə qəbul edərək Lahicana yollandılar.

[296] Cahanqoşayi-Xaqan, s, 100; Əli ibn Şəmsəddin Lahici, Tarixi-Xani, s, 103
[297] Qasim bəy Həyati Təbrizi, Tarixi-həyati, s, 205

Mənbələrdə bildirilir ki, Mirzə Əli Karkiya qızılbaşların gəliş xəbərini eşidincə sevinmiş və onlar Lahicana yetişməzdən əvvəl bütün hazırlıqları tamamlamışdı. O, Kiya Fəridun mədrəsəsinin qarşısında münasib evlər ayıraraq qonaqların bütün ehtiyaclarını təmin etmişdi.[298] Tarixi-xani əsərində Mirzə Əli Karkiyanın qonaqpərvərliyi haqqında yazılır: ***"(O) Onların üzünə çökmüş vahimə tozunu və qəlblərində alışmış qorxu odunu öz mərhəmətinin sərinliyi ilə söndürdü; hər cür lütf və kəramətlə onlara təsəlli verdi və atalıq haqqının bütün tələblərini yerinə yetirdi. Səkkiz il davam edən qonaqlıq və qalma müddəti boyunca hər cür qayğı və himayəni onlara göstərdi."*** [299]

Lakin onların yola çıxdığı günlərdə Ərdəbildən acı xəbərlər gəldi. Şeyx İsmayılı gizlədən Cərrahə xanım həbs olunmuş, ağır işgəncələr altında qızılbaşların Gilana getdiyini etiraf etmişdi. Ardınca Təbriz meydanında edam olunmuşdu. İsmayıl Mirzəyə yardımlar edən bibisinin əri Muhəmməd bəy və qardaşının bütün mülkləri də müsadirə edildi. Beləcə, hərəkatı dəstəkləyən hər kəs amansız şəkildə cəzalandırıldı.[300] Qızılbaşlar Lahicana yetişdikdə Mirzə

---

[298] Yenə orada

[299] Əli ibn Şəmsəddin Lahici, Tarixi-Xani, s, 103

[300] Cahanqoşayi-Xaqan, s, 101

Əli Karkiya onları böyük ehtiramla qarşıladı. O, balaca İsmayılı yalnız himayə etməklə kifayətlənməyib, onun tədrisini də öz öhdəsinə götürdü. Lahicanın görkəmli alimlərindən olan Molla Şəmsəddin Lahici balaca İsmayıla Qurani-Kərim və qiraəti, ərəb dili, eləcə də şiə məzhəbinin əsaslarını öyrətmək üçün təyin olundu. Bunu qeyd etməkdə fayda var ki, Şəmsəddin Lahici məşhur İslam alimi İbn Fəhd Hillinin tələbəsi olmuşdur.[301] Bütün bu dərslər ilə yanaşı, Nəcməddin Məsud Gilani də ona hikmət, nücum və riyaziyyat elmlərindən dərslər deyirdi.[302] Beləliklə, İsmayıl Mirzə nisbətən təhlükələrdən xilas olmuş və günlərini təlim-tərbiyə və müxtəlif bölgələrdən gələn müridləri qəbul etməklə keçirtdi. *"Tarixi-Xani"* əsərində görüşə gələnlərin çoxluğundan belə bəhs olunur: ***"O qədər adam gəlirdi ki, igidlər və nəcib kişilər üçün geniş məkan da daralırdı. Buna görə onları üç gün saxlayır, qulluq və ikram edərək yola salırdılar."***[303]

Mehman Süleymanov Şeyx İsmayılı ziyarətə gələnlər haqqında bunu yazır: ***"Bəzi elmi-tarixi ədəbiyyatda yazılanlardan fərqli olaraq İsmayıl Mirzənin ətrafına***

---

[301] Hans Robert Roemer, İran dər rahe əsre cədid, (Tərcümə) s. 263
[302] Abbasqulu Ğəfarifərd, Xanedan-e Səfəvi, s, 130
[303] Əli ibn Şəmsəddin Lahici, Tarixi-Xani, s, 104

***toplananlar yalnız Rumdan, Osmanlı dövləti ərazisindən gələnlər yox, həm də Azərbaycan ərazisindən gələnlər idilər və Şah İsmayıl hərəkatının***



*Mirzə Əli Karkiya Şah İsmayıl və qızılbaşları qarşılayır*

***ictimai bazasının formalaşmasında onların da fəal iştirakı var idi."***[304]

Bundan əlavə, o, Rəştdən tanış olduğu zərgər Əmir Nəcm, Mirzə Əli Karkiya, onun qardaşları Kiya Haşim və Kiya Həsənlə də yaxın dostluq edirdi. Mənbədə yazılır: ***"Həzrət onların yoldaşlığından və məclislərindən böyük şadlıq tapırdı."***[305] Bu səmimi dostluq barədə Budaq Qəzvini qeyd edir ki, görüş zamanı balaca İsmayıl Karkiya Mirzə Əlinin qucağında oturar və onun saqqalı ilə oynayarmış.[306]

Həsən bəy Rumlu Mirzə Əlinin xidmətlərini belə vəsf edir: ***"Ali əşrəfin könlünü razı salmaq və dövlət böyüklərinə xidmətkarlıq göstərmək üçün elə çalışdı ki, iki dilli qələm onları sadalamaqla qurtara bilməz."***[307]

Bir müddət sonra Şeyx Heydərin digər övladları Süleyman və İbrahim uzaq diyarlarda qalmağa tab gətirməyərək Ərdəbilə doğru yola çıxdılar.[308] Bu zaman çox keçməmişdi ki, İsmayıl Mirzə xəstələndi. Həkimlər bu əlacsız xəstəliyə bir çarə tapa bilməmiş və İsmayıl Mirzə bir il müddətində xəstə yatağında qalmağa məcbur

---

[304] Mehman Süleymanov, Şah İsmayıl Səfəvi, s, 115
[305] Cahanqoşayi-Xaqan, s, 101
[306] Budaq Qəzvini, Cəvahirul-əxbar, s, 285
[307] Həsən bəy Rumlu, Əhsən ət-Təvarix, s, 356
[308] Yenə orada

olmuşdu. Nəhayət, bir ildən sonra İsmayıl Mirzənin təvəkkülü və müridlərinin duaları sayəsində o, şəfa tapdı.[309]

Çətin zamanın İsmayıl Mirzəni sıxdığı günlərdə Lahicana Ərdəbildən bir karvan gəldi. Şeyx İsmayıl Mirzənin bibisi qardaşının oğluna hədiyyələr göndərmişdi. Karvan başçısı Şeyx İsmayıl Mirzəyə məktublar da gətirmişdi. Bunlar Ərdəbildə qalan anasından, bacısından, bibisindən və qardaşlarından gələn məktublar idi. Hədiyyələr arasında İsmayıl Mirzənin çox sevdiyi Ərdəbilə məxsus narın çörək də var idi. Bütün bu hadisələr, istər Ərdəbildən gələn karvan, istər Mirzə Əlinin qayğıkeşliyi İsmayıl Mirzənin keçmişdə yaşadığı ağır günlərin yükünü xeyli yüngülləşdirirdi.

Şeyx İsmayıl Mirzə hədiyyələrin bir hissəsini Mirzə Əli Karkiya və qardaşlarına göndərdi. Karvan 3 gün sonra yola düşdü, İsmayıl Mirzə onları dəyərli hədiyyələrlə– nəfis parça və əmtəələr, balıq, kök toyuqlar, narınc, limon və Gilan sovqatlarından növbənöv hədiyyələrlə yola salmışdı.[310]

---

[309] Həsən bəy Rumlu, Əhsən ət-Təvarix, s, 345
[310] Həsən Rumlu, Əhsən ət-Təvarix, s, 346

Bu hədiyyələr çətin vəziyyətdə olan bibisinə çox kömək etdi. Bu hədiyyələr Qara Dədə vasitəsilə Təbrizə, Rüstəm Mirzəyə göndərildi. Rüstəm Mirzə hədiyyələrdən məmnun qalaraq müsadirə edilmiş mal və torpaqları geri qaytardı. Əlavə olaraq, bu ailə üçün xüsusi bir fərman da yazdırdı ki, bundan sonra heç kim onların işinə qarışmasın. O, Muhəmməd bəyə xüsusi bir xələt hədiyyə edərək getməsinə icazə verdi.[311]

Təhlükə zahirən sovuşsa da, Rüstəm Mirzə hələ də Şeyx Heydərin övladlarını, xüsusən İsmayıl Mirzəni öldürmək arzusu ilə yaşayırdı. Bu axtarışlar Gilana qədər genişlənmişdi. Rüstəm yemək süfrəsində belə İsmayıl Mirzəni unutmurdu. Onun belə dediyi nəql olunur: ***"İndi ağzıma qoyduğum bu loxma mənə zəhər kimidir və mənim üçün o gün xoş olacaq ki, o oğlanı öldürüm."***[312]

Rüstəm Gilana iki qrup göndərmişdi. Casuslar və muzdlu qatillər. Hər birinə yüksək məbləğlər vəd etmişdi. Rüstəmin casusları İsmayıl və qardaşlarının orada olduqlarını xəbər verdikdə, o, dərhal Gilana elçilər göndərdi. Lakin elçilər Gilana yetişməmiş, Mirzə Əli onları Lahican yaxınlığındakı Ləşti-Nişa adlı yerdə gizlətdi. Elçilər Rüstəm Mirzənin sözlərini çatdırdıqda isə Lahican hakimi müxtəlif bəhanələr gətirərək onları

---

[311] Cahanquşayi Xaqan, s, 102
[312] Ceyms Daun, Arefe-Dihimdar, s, 148

yola saldı. Belə təhlükəli şəraitdə Mirzə Əli İsmayıl və qardaşlarını qorumaq məqsədilə öz sarayına gətizdirdi.

Rüstəm Lahican hakiminin bəhanələrinə inanmayaraq təkrar Gilana iki casus göndərdi. Casuslar Lahicana çatdıqda, əkinçiliklə məşğul giləklərlə söhbət etdilər. Söhbət Şeyx Səfi övladlarından düşdükdə isə onlar bu təriqətin müridləri olub, mürşidlərini axtardıqlarını bəyan etdikdə, saf bir Gilək: ***“Əgər həqiqətən də, bu ailəyə məhəbbətin varsa Mirzə Əli Karkiyanın yanın get, onlara dostluğunu bildir. Bəlkə o, sənə icazə verər.”***

Şeyxzadələrin Lahicanda olduğunu öyrənən casuslar birbaşa Təbrizə yollanıb bu xəbəri Rüstəmə çatdırdılar. Rüstəm bu xəbərlə bağlı bir məşvərət məclisi qurdu və onlardan çıxış yolunu soruşdu. Eybə Sultan təklif etdi ki, Mirzə Əliyə belə məktub yazılsın ki, bədbəxtlər məni aldadıb. Elə bir gənci öldürdüm ki, mənim qohumum və qoşunumun sərkərdəsi idi. İndi isə mənim etibar edəcəyim kimsəm yoxdur. İndi ki, Sultan Əlinin işi belə oldu, istəyirəm (ki, qardaşlarını da ki, ikisi də mənim övladım kimidirlər) mənim yanıma göndərəsən ki, onları övladım kimi böyüdüm və ata tərbiyəsi ilə yetişdirim; onlar mənim arxa dayağım olsunlar. Eşitdim ki, sən onlara hörmət etmisən və onlara qarşı mərdlik və dostluq

etmisən. Çox da yaxşı etmisən; çünki onlar izzət və kəramət ailəsindəndir.[313]

Bu hiyləgər məktub o qədər təsiredici idi ki, Mirzə Əlinin qəlbi yumşalmışdı. Amma elçiyə heç nə bildirməyərək belə dedi: ***"Mənim onlardan xəbərim yoxdur, bəlkə Gilanda olsunlar; mən axtarıb soruşaram. Sən bir neçə gün dincəl, mən də lazım olan nə varsa edəcəyəm, ürəyin rahat olsun"***[314] Elçilər mənzillərə yola salındıqdan sonra Mirzə Əli tez Şeyx İsmayıl və Əhli-ixtisasla görüşüb məktubu onlara göstərdi. Hüseyn bəy lələ, Dədə bəy Talış və Xadim bəy Xüləfa Mirzə Əlidən fikrini soruşdu. Mirzə Əli məktubdan xoşhal olduğunu dedikdə Əhli-İxtisas belə dedi: ***"Heyhat! Çox sadəlövhsən; Rüstəm padşah bu məktubu məkr ilə yazmışdır, zinhar, (bu məktuba) aldanma və cavabda yaz ki: 'Mənim o bəxtim olmayıb ki, o iki uğurlu ulduz mənim bürcümdən doğsun; padişahın canı haqqı ki, Şeyx Heydərin övladları mənim yanımda deyillər və deyə bilərəm ki, Gilanda da olmazlar. Çünki əgər Gilanda olsaydılar, mənə xəbər verməmiş olmazdılar. Padişah qəlbi məndən arxayın olsun ki, mən o hökmdarın düşmənlərini öz yanıma***

[313] Cahanquşayi-xaqan, s, 102-103
[314] Cahanquşayi xaqan, s, 104

***buraxmaram. Aman, bu sirri gizli saxla və bu işi aşkara çıxarma ki, axırda peşiman olacaqsan.”***[315]

Ağqoyunlu sarayından Lahicana bir neçə dəfə elçilər göndərilsə də, bu səylər hər dəfə nəticəsiz qalırdı. Mirzə hər dəfə Rüstəmi bir məktubla sakitləşdirir, lakin casusların verdiyi məlumatlar Təbriz sarayını yenidən elçi göndərməyə vadar edirdi. Bu dəfə Təbrizdən göndərilən elçi əvvəlkilərdən fərqli olaraq hərbi dəstə ilə gəlirdi. Qaraqoyunlu tayfasından olan minbaşı Qasım bəy Türkman üç yüz əsgərlə birlikdə Lahicana göndərilmiş və özü ilə sərt məzmunlu bir məktub gətirmişdi. Məktubda yazılmışdı: ***“Niyə bizi özündən incikli salırsan? Heydərin uşaqlarını təhvil ver. Əgər Qasım bəyə verməsən özüm gələrəm və Gilanda qətliam edərəm.”***

Bu təhlükəli vəziyyətdən çıxış yolunu düşünmək üçün Mirzə möhlət istədi və dedi: ***“İcazə verin bir müddət Gilanı axtarım, bəlkə deyilənlər düzdür, ola bilər burdadır və mənim xəbərim yoxdur.”*** Narahatlıq içərisində yuxuya gedən Karkiya Mirzə yuxuda İmam Əli (ə)-ı görmüş və ondan gələn elçilərdən necə xilas olmağın yolunu öyrənmişdi. Mirzəyə göstərilən tədbir

[315] Cahanquşayi xaqan, s, 104

belə idi: Şeyx Heydərin iki oğlunu heç kəsin görə bilməyəcəyi şəkildə bir zənbilə qoyub, hündür bir ağacdan as; daha sonra isə Qurani-Kərim gətizdirib Qasım bəyin qarşısında and iç ki, Şeyx Heydərin övladları hazırda Gilan torpağı üzərində deyillər.

Karkiya Mirzə tədbiri deyildiyi kimi həyata keçirdi. O, Qasım bəyin qarşısında Qurana and içərək İsmayıl Mirzənin Gilan torpağında olmadığını bildirdi. Qasım bəyin əlində Şeyxzadələrin Gilan ərazisində olduğuna dair açıq və qəti bir dəlil olmadığından, Ağqoyunlu əsgərləri yenidən əliboş halda paytaxta qayıtmalı oldular. [316]

"Cahanquşayi-Xaqan" əsərinin müəllifi yazır ki, Karkiya Mirzə Əli sədaqət və fədakarlıq dairəsindən bir addım belə çıxmır, heç bir şəkildə şahzadələrin və sufilərin Gilan torpağında olduğunu etiraf etmirdi.[317]

Belə aldatmalar qısa müddətli idi. Casusların gətirdikləri xəbərlər Mirzə Əlinin bütün məktublarını və xoş sözlərini puç edirdi. Artıq nə Rüstəmin nə də Mirzə Əlinin döyüşdən başqa yolu qalmamışdı. Ağqoyunlu və Karkiya sarayları arasında münasibətlərin gərginləşdiyi, bəzi bölgələrə hücumların başlandığı və Lahicana

---

[316] Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 40-41
[317] Cahanquşayi xaqan, s, 107

genişmiqyaslı hərbi yürüş planlarının hazırlandığı ərəfələrdə Səfəviləri tarix səhnəsinə çıxaracaq hadisələr cərəyan etməkdə idi. Ağqoyunlu xanədanı arasında taxt mübarizələri yenidən canlandı. Böhranlar zəminində Rüstəmin məşhur sərkərdəsi və eyni zamanda dayısı olan Eybə Sultan ona xəyanət etmiş və Rüstəm Mirzə məğlubiyyətləri ard-arda yaşayaraq gürcülərə sığınmağa məcbur olmuşdu. 4 ay sonra ordu toplayaraq rəqiblərinin üstünə getsə də, döyüşdə ələ keçirilərək öldürülür.[318]

Səfəvi müridləri növbəti çətin mərhələyə qədəm qoymaq üzrə ikən, böhranın həllediciliyi ilə dünyanın gedişatını dəyişəcək yeni bir dövlətin və yeni bir sistemin qarşısındakı əsas problem aradan qalxdı.

Rüstəmin ölümü ilə daha da genişlənən siyasi böhranlar Ağqoyunlu hakimiyyətini dərin bir iğtişasa sürüklədi. Bu qarışıqlıqlar sonrakı illərdə dövlətin tamamilə məhv olmasına qədər gətirib çıxaracaqdı. Amma Ağqoyunlu sarayında çıxan bu böhran Lahicanda Şeyx İsmayılın gələcək qiyamı üçün gözəl bir fürsət yaratmışdı. Gilanda olan altı illik dövrdə İsmayıl Mirzə oxçuluq, qılınc oynatmaq, ovçuluq və müxtəlif döyüş taktikaları

[318] Altan Çetin, Yahya Kazvini'nin Lubb Et-Tevari'hinde Akkoyunlularla Alakali Bilgiler, s, 61

zəminində davamlı təlimlər almağa başladı. Qazi Əhməd Qumi "Xülasətüt-təvarixdə" yazır: ***"Əzəmətli şah o kiçik yaşlarında daima əlində ox və kaman atır, ova gedib vəhşi heyvanları ovlayırdı. Bir an belə dayanmaq bilmirdi."***[319]

O, Lahicanda qaldığı müddət ərzində İran mədəniyyəti, xüsusilə Şahnamə ilə yaxından tanış olmuşdu.[320] Eyni zamanda bu altı illik müddət ərzində Mirzə Əli Karkiya himayəsində aldığı şiə təhsili onun dünyagörüşündə mühüm təsirlər qoymuşdu. 18-ci əsrdə yazılan *"Zuhuri Devleti Safeviyan"* adlı əsərdə İsmayıl Mirzənin bir təriqət şeyxi qədər yüksək dini biliyinin olduğu qeyd edilir.[321] Təşkilat baş verən böhranın hansı yöndəmə gedəcəyini diqqətlə izləyir və meydana çıxmaq üçün uyğun fürsəti gözləyirdi.

## İran, Osmanlının torunda

Rüstəm Mirzə Ağqoyunlu taxtında möhkəmlənməyə çalışdığı bir zamanda paytaxtdan uzaq bir məkanda, köhnə Kostantiniyyə (Konstantiopol, yeni İstanbulda)

---

[319] Qazi Əhməd Qumi, "Xülasətüt-təvarix", c. 1, s. 47

[320] Sheila R. Canby, Safavid Art and Architecture, s, 16.

[321] Dünya uygarlığı içinde Türk uygarlığı tarih ve dil meseleleri kurultayı jurnalı, 26-29 Haziran 2014, Doç. Namiq Musalı, s: 231

Uzun Həsən nəslindən bir şahzadə də uyğun fürsəti gözləyirdi.

Uzun Həsənin üsyankar oğlu Uğurlu Məhəmməd məğlubiyyətdən sonra şahzadə Bəyazidin vasitəçiliyi ilə Osmanlıya sığınmış və burada yaşamağa başlamışdı. II Mehmet onu mehribanlıqla qarşılamış və Uzun Həsənə qarşı siyasi planlarını Uğurlu Məhəmməd üzərindən qurmaq niyyəti ilə qızı Gövhərşahı onunla evləndirmişdi. Bu plan üçün ilk addımı II Mehmet atsa da, oyunun qurucusu Bəyazid idi. Hakimiyyətə gəldikdən sonra Bəyazid xələflərini hiyləgərlikdə arxada qoydu. Qonşu ölkələri diqqətlə izləyən Bəyazid hər böhrandan özünə bir qazanc yeri yaratmağa çalışırdı. Ağqoyunlu ilə Osmanlı münasibətləri məhz Bəyazidin dönəmində yaxşılaşmışdı. Amma Bəyazidin gələcək planları daha böyük idi: İranı ələ keçirmək.

Bəyazid şərqin incisinin dəyərini yaxşı bilirdi. İrana sahib olmaq həm İrandan keçən mühüm ticarət yollarına nəzarət, həm də regionda siyasi üstünlük deməkdir. İranı nəzərə almadan Şərqin siyasi hakimiyyətini təsəvvür etmək mümkün deyil. Bəyazid, Ağqoyunlu dövlətinin Uzun Həsən dövründən etibarən dərinləşməkdə olan siyasi böhranını vaxtında və düzgün qiymətləndirmiş, bölgədə yaranan bu zəiflikdən faydalanmaq üçün

strategiyasını məhz həmin şahzadə üzərində qurmuşdu. Amma həm özünün həm də atasının bu planı damadlarının Ərzincanda öldürülməsi ilə puç oldu. Amma Bəyazid öz planını həyata keçirməkdən ötrü Uğurlu Məhəmməddən geriyə qalan övladı Əhməddən yapışdı. Yetkinliyə üz tutan Əhməd dayısı qızı Aynışah adlı Sultan qızı ilə evləndirildi. Əhməd bəyin boyu qısa, əlləri isə balaca olduğundan bəzi tarixi mənbələrdə *"Gödək"* ləqəbi ilə xatırlanır. "*Aşıqpaşazadə tarixi"* adlı əsərdə isə onun adı Əhməd Mirzə kimi qeyd edilmişdir. Qaynaqlarda bu ləqəbin şəxsən II Bəyazid tərəfindən verildiyi qeyd olunur. [322] Rüstəmdən narazı qalan Ağqoyunlu əyanlarının İstanbula gedərək II Bəyazidlə görüşməsi və Gödək Əhmədi İran taxtına dəvət etməsi ilə Bəyazidin uzun müddət üzərində işlədiyi plan özünün son mərhələsinə yetişmişdi.

II Bəyazid Gödək Əhmədi bir dəstə əsgər ilə birgə İrana yolladı. Gödək Əhmədin gəliş xəbəri yayılan kimi, Rüstəmin kobud rəftarından bezmiş türkmən əmirlərinin əksəriyyəti tərəddüd etmədən onun tərəfinə keçdilər. Rüstəmin Sultaniyədəki nüfuzlu əmirlərindən Əbdülkərim bəy qətlə yetirildi və bunun ardınca Əhməd bəyin hakimiyyətini rəsmiləşdirmək üçün adına xütbə oxundu, pul zərb edildi. Hər şeyin nəzarətdən çıxdığını

---

[322] Cahanquşayi-Xaqan, s, 110

görən Rüstəm dərhal ordu toplayaraq Əhməd bəyin üzərinə yürüşə başladı.[323]

İki ordu Araz çayı kənarında qarşılaşdılar. Həsən bəy Rumlu Rüstəmin başçılıq etdiyi ordunun sayca üstünlük təşkil etdiyini nəql edir. Döyüşün qızğın vaxtında Eybə Sultan qəfildən Gödək Əhmədin tərəfinə keçdi. Rüstəmin ordusunda nizam pozulmuş və döyüşün gedişatı Gödək Əhmədin lehinə dəyişmişdi. Rüstəm təlaş içində atına minib döyüş meydanından qaçdı. Çox keçmədən yeni topladığı ordu ilə Gödək Əhmədin üzərinə yürüsə də, bu döyüşdə də məğlubiyyətə uğradı və qətlə yetirildi.[324] Təbriz taxtına yiyələndikdən sonra Gödək Əhmədin ilk işi II Bəyazidə təşəkkür etmək idi. O, məktubunda yazırdı: ***"İndi o həzrətin xilafət meydanı bu vilayətin əyalətinə birləşməklə İskəndər səltənəti böyüklüyünə genişləndi."*** O, məktubunun sonunda Osmanlı sultanına əminlik verdi ki, dünya idarəçiliyi üsulunu daima onun nümunəsi kimi götürəcək və ona uyğun davranacaq.[325]

Gödək Əhməd hakimiyyətə yiyələndikdən sonra bir sıra islahatlara girişdi. O, Osmanlı dövlətində olduğu kimi

---

[323] Cahanquşayi-Xaqan, 108-109

[324] Həsən bəy Rumlu, Əhsən ət-Təvarix, s, 347-348

[325] M. Paradust, Şah İsmayıl əvvəl, s, 235

hakimiyyəti mərkəzləşdirməyi, Osmanlı inzibati–siyasi modelini İranda tətbiq etməyi və ordunu da Osmanlı hərbi sisteminə uyğun şəkildə yenidən təşkil etməyi planlaşdırırdı. Əvvəlcə əmirlərin ixtiyarında olan bir çox imtiyazları məhdudlaşdırdı. Çox keçmədən Əhməd bəy özündən əvvəlki hökmdarların payladığı soyurqalları[326] geri almağa başladı. Bununla onların insanlar üzərindəki təsirini azaltmağı hədəfləyirdi. Onun islahatları əsasən tayfa əmirlərinin təsir dairəsini məhdudlaşdırmağa yönəlmişdi, ruhanilərin soyurqallarına isə toxunmurdu.

İranda Osmanlı idarəçilik modelini tətbiq etmək niyyətində olan yeni hökmdar, daim bir-biri ilə ixtilafda olan və ən kiçik fürsətdə şahzadə üsyanlarına zəmin yaradan bu əmirləri zərərsizləşdirmək üçün hazırlıqlara başladı. Mərkəzləşmə siyasətini həyata keçirmək məqsədilə o, çox keçmədən bir neçə əmiri öldürdü. Bu əmirlər arasında ən diqqət çəkəni isə onun taxta çıxmasında həlledici rol oynamış yeznəsi Hüseynəli bəy Əlixani idi. Hüseynəli bəy həm Sultaniyyə hakiminin, həm də Rüstəm Mirzənin qatili kimi tanınırdı.

Nəhayət, Əhməd bəy apardığı tədbirlər nəticəsində Şimali İrandakı köçəri əmirləri özünə tabe etdirməyə

---

[326] Soyurqal – Orta əsrlərdə hərbi xidmət müqabilində feodal əyanlara bağışlanan mülk. Monqol işğalından sonra meydana çıxmışdır.

nail oldu. Lakin mərkəzi hakimiyyətdən faktiki ayrılmış Əcəm İraqında və Fars əyalətlərində vəziyyət tam başqa cür inkişaf edirdi. Gödək Əhmədin islahatları burada əks nəticə verdi və o, hərbi köçəri əmirlərin güclü müqaviməti ilə üzləşdi. Əmirlər Əhməd bəyi ***"Rum padşahlarının üsulu ilə"*** davranmaqda ittiham edirdilər. Ağqoyunlu dövlətinin siyasi bünövrəsi o qədər zəif və süst idi ki, ən adi bir hadisə belə tərəflərin dərhal yeni ittifaqlar qurmasına və silaha sarılıb döyüş meydanına atılmasına səbəb olurdu. Əhməd bəy artıq təhlükəli saydığı Eybə Sultanı Kirmanşah əyalətinin hakimliyinə təyin edib onu paytaxtdan uzaqlaşdırması və Şiraz valisi olan Qasım bəy Pornakı paytaxta dəvət etməsi bu hadisələrdən biri olmuşdur. Bu hadisə sonrasında Şiraz valisi və Eybə Sultan birləşib İbrahim adını alan Eybə Sultanın adına xütbə oxutdular. Onlar qərara aldılar ki, Şirvanda yaşayan Sultan Yaqubun oğlu Muradı taxta çıxarsınlar və özləri də onun vəkili kimi hakimiyyəti ələ alsınlar. Çox keçmədən baş qaldırmış qiyam İsfahana doğru genişləndi. Gödək Əhməd üsyanı yatırmaq məqsədilə böyük bir ordu ilə İsfahana doğru hərəkət etdi. Əhməd bəyin yaxınlaşması ilə qiyamçıların ruhiyyəsi zəiflədi. Bu gərginlik Eybə Sultanın ordusundan xeyli sayda əsgərin Əhməd bəyin tərəfinə keçməsi ilə davam etdi. Hadisələrin öz zərərinə doğru

irəlilədiyini görən Eybə Sultan meydandan qaçmağa hazırlaşırdı. Elə bu zaman, qələbə qazandıqlarını zənn edən Əhməd bəyin əsgərləri qənimət toplamaq üçün nizamsız şəkildə səpələndilər.

Məhz bu qarışıqlıq anında fürsəti görən Eybə Sultan meydanı tərk etmədi; o, irəliləyib Gödək Əhmədlə üzbəüz gəldi və qəfil hücumla onu məğlub edib, başını kəsdi.[327] Bu hadisə Ağqoyunlu dövlətində mövcud siyasi böhranı daha da dərinləşdirdi. Bununla yanaşı, II Bəyazidin uzun müddət qurduğu hesablar da puç oldu. Lakin İranın hərc-mərclik içində çalxandığı bu dövrdə Bəyazidin qarşısında hələ də müəyyən imkanlar mövcud idi. Gödək Əhmədin ölümündən sonra nüfuzlu əmirlər yerdə qalan şahzadələri öz siyasi məqsədləri naminə alətə çevirdilər. Onlar şahmat taxtasındakı piyada daşları kimi irəli sürülür, sıradan çıxdıqda isə dərhal yeniləri ilə əvəz olunurdular.

Daha sonra Uzun Həsənin nəvələrindən olan Murad taxta çıxarıldı. Elə bu vaxt başqa bir qrup Əlvəndi irəli sürərək hakimiyyət uğrunda mübarizəni daha da qızışdırdı. Nəhayət, Ağqoyunlu dövləti Qızılüzən çayı sərhəd olmaqla iki hissəyə böləndü: mərkəzi Təbriz olmaqla Azərbaycan, Aran və Diyarbəkir əraziləri

---

[327] Həsən bəy Rumlu, Əhsən ət-Təvarix, s, 349-350

Əlvəndin nəzarətinə keçdi, çayın cənubunda yerləşən bütün əyalətlər (İraq-i Əcəm) isə Muradın hakimiyyəti altına düşdü. Bu hadisələr 1499–1500-cü illərdə baş vermişdir.



*Səfəvi dövrünə aid bir miniatür*

# IV Fəsil

## Fəcr vaxtı

Ağqoyunlu şahzadələri qanlı böhranların girdabında çabaladığı bir zamanda, Lahicanda yaşayan Şeyx İsmayıl Mirzə öz inkişaf mərhələlərini bir-bir ötürdü. 12 yaşında ikən o, öz yaşıdlarını geridə qoyan geniş dünyagörüşünə, yüksək savada, fiziki qüvvəyə və qeyri-adi cəsarətə malik idi. Şeyx İsmayıl müridlərini Mirzə Əli Karkiyanın hüzuruna göndərərək artıq meydana çıxmaq vaxtının yetişdiyini bildirdi. Lakin Mirzə Əli bu təklifə razılıq vermədi; o, İsmayıl Mirzənin yaşının az olduğunu və bir qədər də gözləməyin zəruriliyini qətiyyətlə vurğulayırdı. Aralarında olan məşvərət nəticəsində İsmayıl Mirzənin bir müddət daha Lahicanda qaldıqdan sonra hərəkata başlanması qərara alındı.

Bununla belə, Şeyx İsmayılın məhz həmin illərdə səhnəyə çıxması strateji baxımdan son dərəcə əlverişli idi. Çünki bölgədəki siyasi qüdrətlərin hamısı dərin bir böhran içində idi: Ağqoyunlu, Məmlük və Teymuri dövlətlərinin hakimiyyəti faktiki olaraq iflic vəziyyətinə düşmüşdü. Osmanlılar qərbdə, özbəklər isə şərqdə — ən azı həmin zaman — İrana müdaxilə edə biləcək gücdə deyildilər. Bir neçə kiçik və təsirsiz yerli sülalə istisna

olmaqla, bütün İranda siyasi boşluq hökm sürürdü.[328] Bu vəziyyət Səfəvi hərəkatının yüksəlişi üçün tarixi fürsət idi.

## İlk döyüş

İsmayıl Mirzə Əhli-ixtisas təşkilatının müşayiətində olsa da, Karkiya Mirzə Əli İsmayıl Mirzədən çox narahat idi. Onu yola salarkən bir neçə mənzil boyunca müşayiət etmiş, müəyyən miqdarda maddi vəsait vermiş və ən etibarlı adamı olan Mövlana Seyyid Əmiriyə də onunla birlikdə getməyi tapşırmışdı.[329] Şeyx İsmayıl hərəkatın gələcəyinə dərin inam bəsləyirdi. Onun Lahicandan cəmi yeddi nəfərlə (bəzi mənbələrə görə, 17 nəfərlə) yola çıxması da bu əminliyin bariz göstəricisidir. Qələbəyə imanı ilə yanaşı təşkilati hazırlıqlar da bu özgüvəninin təməlini təşkil edirdi. Şeyx İsmayıl Lahicandan çıxarkən Səfəvi şəbəkəsi artıq öz hazırlıqlarına başlamışdı. İsmayıl Mirzə meydana çıxdıqda, Səfəvi təşkilatının siyasi mənzərəsi ürək açan vəziyyətdə idi: geniş bir coğrafiyaya yayılan yüz minlərlə mürid, bu müridləri təsirli şəkildə nəzarətdə saxlayan xəlifə şəbəkəsi, eləcə də zərurət yarandıqda sürətlə səfərbər oluna bilən

---

[328] The Cambrıdge History Of Iran, c, 6, The Timurid And Safavid Periods Edited By Peter Jackson Lecturer In History, University Of Keele And The Late Laurence Lockhart s, 210

[329] “Tarixi Xani”, s. 102.

çoxsaylı təlim keçmiş döyüşçülər hazır vəziyyətdə idi. Üstəlik, Anadoludakı şəbəkədə dini rəhbərlər kimi fəaliyyət göstərən xəlifələr irşad və təbliğat işlərini fasiləsiz davam etdirir, uzun müddət ərzində Mürşid-i Kamilin gələcək qiyamını vəd edərək böyük bir gözlənti yaratmışdılar. Buna görə də, Şeyx İsmayılın hərəkata başladığı xəbəri Səfəvi müridləri arasında çox böyük bir həyəcan dalğası yaratdı.

İsmayıl Mirzə və dostları əvvəlcə çoxlu tərəfdarlarının olduğu Deyləm-Tarom yolu ilə Talışa hərəkət etmə qərarı aldılar. Taromda məskunlaşan Səfəvi müridləri İsmayıl Mirzənin çağırışı ilə hərəkətə keçmiş və həmin bölgədən gələn 70 nəfərlik dəstə Səfəvi ordusunun ilk dəstəsini formalaşdırmışdır. Hər gün beş, ya on nəfər İsmayıl Mirzəyə qoşulurdu. Artıq onlar Taromun özünə çatanda 130 nəfər olmuşdular. Lakin bu formalaşan yeni dəstə Tarom hakimi Hüseyn Sultanın narahatlığına səbəb oldu və o, dərhal tanımadığı bu dəstənin üzərinə qoşun yeritdi. Ovda ikən qoşundan ayrı düşən Əhli-ixtisas Tarom qoşununu gördükdə tez Şeyx İsmayılı gizlətməyə çalışsalar da, Şeyx İsmayıl artıq hərəkatın başlandığını və gizlənmək dövrünün bitdiyini bildirərək irəli atıldı. Döyüş başlamazdan əvvəl Hüseyn Sultan öz adamlarından birini İsmayıl Mirzənin yanına göndərərək

onun kimliyini və hara getdiklərini öyrənmək istədi. İsmayıl Mirzə elçi vasitəsilə cavab verdi ki, qarşısındakılar Səfəvi təriqətinin rəhbəri Şeyx İsmayıl Səfəvi və onun silahdaşlarıdır. O, Hüseyn Sultana bildirdi ki, əgər onlara qoşularsa, yüksək məqamlara çatacaq; əgər döyüşməyi seçirsə, bu da onun ixtiyarındadır. Hüseyn Sultan bu xəbəri eşidincə İsmayıl Mirzəyə qoşulmaqdan imtina etdi. Əksinə, onu ələ keçirmək fürsətinin yarana biləcəyini düşünüb sevindi və dərhal döyüşün başlanması əmrini verdi. Hüseyn Sultanın qardaşı irəli çıxaraq İsmayıl Mirzə ilə təkbətək döyüşmək istədiyini bildirdi. Lakin təşkilat Şeyx İsmayılın döyüşə istəkli olmasına baxmayaraq onu meydana buraxmadılar. Meydana İsmayıl Mirzənin lələsi Hüseyn bəy Şamlı çıxdı. Tarom hakiminin qardaşı ilə qarşılaşan Hüseyn bəy onu döyüşdən çəkindirməyə çalışsa da, fayda vermədi. Bu zaman Hüseyn bəy Lələ qılınca əl ataraq Hüseyn Sultanın qardaşını yerindəcə qətlə yetirdi. Qardaşının ölümündən qəzəblənən Hüseyn Sultan dərhal qoşununa hücum əmri verdi və azsaylı Səfəvi dəstəsi qısa müddətdə mühasirəyə alındı. Əhli-ixtisas üzvləri İsmayıl Mirzəni qorumaq üçün onu dövrəyə alsalar da, İsmayıl Mirzə qılıncını sıyırıb dövrəni yararaq meydana atıldı. İsmayıl Mirzənin o gün göstərdiyi şücaət və mərdanəlik təşkilatın İsmayıl Mirzə üçün nigarançılıqlarını aradan aparmışdı. İsmayıl Mirzə

və dəstəsi Tarom hakiminin qoşunundan 400 nəfəri məhv etmiş və bu döyüşdə çoxlu qənimətlər ələ keçirmişdi. Hüseyn Sultanın özü isə şəxsən İsmayıl Mirzə tərəfindən öldürülmüşdü.[330] İsmayıl Mirzənin bu cəsarəti isə onun şöhrətini dəstəsi arasında yüksəltdi və qələbəyə olan inam gücləndi. Taromda ona daha 120 nəfər qoşuldu. Qızılbaşlar Taromdan sonra Xalxala - Səfəvi hərəkatının əsas dəstəkçilərindən olan Şamlu tayfasının yaşadığı bölgələrə doğru yönəldilər.

## İsmayıl Mirzə Xalxalda

Qızılbaşlar əvvəl Xalxalın Bərəndəq və Nisaz kimi bir sıra kəndlərində məskunlaşdılar. İsmayıl Mirzə, təxminən bir ay Xalxalda qalaraq dəstəsinin sıralarının genişləndirilməsi ilə məşğul oldu. Xalxal, Ərdəbilə yaxınlığı səbəbindən Səfəvi müridlərinin sıx məskunlaşdığı bölgələrdən biri idi. Mənbələrin verdiyi məlumata görə, Xalxaldan ayrıldıqdan sonra İsmayıl Mirzəyə qoşulanların sayı təxminən 1500 nəfərə çatmışdı.[331] Qızılbaşlar Xalxaldan sonra hərəkatın əsas mərkəzinə - Ərdəbilə doğru irəlilədilər.

---

[330] Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 44-45

[331] Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.45

## Ərdəbil

Qızılbaşlar əvvəlcə Ərdəbilə yaxın olan Hefzabad və Raziabad kimi məntəqələrdə qısa müddətlik məskunlaşdılar. Şeyx İsmayıl Ərdəbil istiqamətində hərəkətdə olarkən, bu xəbər Ərdəbil hakimi Əlixan bəy Cagirluya çatdırıldı. Bunun ardınca keçirilən məşvərət məclisində qərara alındı ki, dəstə heç bir halda Ərdəbilə daxil olmamalı və İsmayıl Mirzənin gəlişi şəhər əhalisindən gizlədilməlidir.

Lakin Ərdəbil hakiminin iqamətgahında xidmət edən və mərhum Şeyx Heydərə sədaqət bəsləyən qulluqçulardan biri gizli şəkildə Hüseyn bəy Lələnin qardaşı Həsən bəyin evinə gedərək baş verənlər barədə onu məlumatlandırdı. Həsən bəy isə bu xəbərləri Şəhid Şeyx Heydərin xanımı Aləmşah Bəyimə çatdırdı. Aləmşah bəyim Həsən bəy vasitəsilə İsmayıl Mirzəyə mühüm məlumatlar göndərdi. Aləmşah Bəyimin göndərdiyi məlumatda vurğulanırdı ki, Şeyx İsmayılın Ərdəbilə gəlişi qətiyyən məqsədəuyğun deyil. Çünki şəhər hakimiyyəti bu hərəkətdən artıq xəbərdardır və ona qarşı silahlı qüvvə hazırlanmışdır. Bundan əlavə, Şəhid Şeyx Heydərin müridlərinin böyük bir qismi yaylaq mövsümü səbəbilə Ərdəbildən Qarabağa və digər bölgələrə çəkilmiş, onların geri dönüşü isə təxminən altı ay sonra

gözlənilirdi. Bu səbəbdən Ərdəbilə daxil olmağın hələlik təxirə salınması tövsiyə edilirdi.

Şah İsmayıl və ona sadiq olan sufilər bu xəbərləri nəzərə alaraq Ərdəbilə daxil olmaqdan imtina etdilər və hərəkət istiqamətlərini Astaraya doğru dəyişdirdilər.[332]

## Talış istiqamətində

Növbəti mərhələdə Şeyx İsmayıl Mirzə Səfəvi təşkilatının iki əsas şəbəkə mərkəzindən biri olan Talışa üz tutdu. Şeyx İsmayıl Səfəvi hərəkatının sələfi olan Şeyx İbrahim Zahid Gilaninin qəbrini ziyarət etdikdən sonra Astara hakimi Mirzə Məhəmməd Talışa elçilər göndərərək ondan qışlamaq üçün yer istədi. Mirzə Məhəmməd Əhli-ixtisasın bu xahişinə müsbət cavab verərək onları Ərçivanda yerləşdirdi. Şeyx İsmayıl və müridləri həmin qışı Ərçivanda keçirdilər. Mirzə Məhəmməd Talış üçün bunları demək şişirtmə olmaz ki, bu şəxs Səfəvi hərəkatının qiyama, qiyamdan isə qələbəyə gedən mübarizə yolunda mühüm rolu olan şəxslər arasında yer alır.

---

332 Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s, 51

Şeyx İsmayıl Ərçivana yerləşdikdən sonra çoxlu elçiləri Azərbaycana, İrəvana, Arana, Qarabağa, Əcəm İraqına, Diyarbəkrə, Sivasa, Ərzincana və digər bölgələrə göndərərək geniş dəvət dalğası başlatdı. Elə bu ərəfədə çoxlu müridlər dəvətə icabət edərək Talışa tərəf axışmağa başladılar.

Bütün hərəkat fəaliyyətləri ilə yanaşı, Şeyx İsmayılın Ərçivandakı şəxsi məşğuliyyətləri arasında dəniz kənarında vaxt keçirmək üstünlük təşkil edirdi. Belə ki, o asudə vaxtının böyük bir hissəsini dəniz kənarında, təbiətin qoynunda balıq tutmaqla keçirərmiş.

Müridlərin Talış bölgəsinə tərəf axışması xəbəri casuslar tərəfindən Şirvanşah və Ağqoyunlu saraylarına çatdırılmış və onlar yeni Şeyxin cərəyanından xəbərdar edilmişdi. İlk düşmən həmləsi Ərdəbil hakimi tərəfindən gəldi. Casuslar İsmayıl Mirzəni diqqətlə izləyir və onun nələr etdiyini bir-bir qeyd edirdilər. Belə ki, onlar İsmayıl Mirzənin ən çox dəniz qırağında vaxt keçirdiyini başa düşdükdən sonra onu dənizə ataraq boğmaq istəsələr də, bu işin qarşısı Mirzə Məhəmməd Talış tərəfindən alınır. Bu uğursuz plandan sonra düşmən diplomatik yollar ilə Şeyx İsmayılı ələ keçirməyi arzu edir. Ağqoyunlu və Şirvanşah saraylarından Astaraya elçilər göndərilir və Şeyx İsmayılın öldürülməsi, ya da təslim edilməsi

müqabilində müxtəlif və cazibədar vədlər təklif edilirdi. Həsən bəy Rumlu yazır:

“Bəziləri belə nəql edirlər ki, Əlvənd bir nəfəri Mirzə Məhəmməd Talışın yanına göndərib dedi ki, əgər İsmayılı tutub mənim yanıma göndərsən Ərdəbil və Xalxalın hakimiyyətini sənə verərəm. Mirzə Məhəmməd bəyin cavabı isə qısa və sadə idi: ***“Fani dünya hakimiyyəti uğrunda özünü belə bir pis işə bulaşdırmaq, talışın qeyrətinə yaraşmaz.”***[333]

Şeyx İsmayılın qorunması missiyasını yerinə yetirən bu şəxs qiyamın qələbəsindən sonra da yeni yaranmış dövlətin məşhur və etibarlı sərkərdələrindən birinə çevirilir. Həmin ilin qışı Ərçivanda sərt keçir. Hətta Əhsənüt-təvarixin verdiyi məlumata görə, İsmayıl Mirzə Astaranın soyuğundan təəccübdə qalıbmış. Amma Şeyx qışın sərt soyuğuna məhəl qoymayaraq, hərbi hazırlıqlara davam edir.[334] Şeyx İsmayıl və ətrafı baharın gəlişinə qədər Ərçivanda qaldılar. İsmayıl Mirzə Novruz bayramını qeyd etdikdən sonra Ərdəbilə doğru yola çıxmağı planlamış, amma Talış bölgəsindəki *“bəzi kəslər”* ilə görüşməyi də unutmamışdı. Həsən bəy

---

[333] Həsən bəy Rumlu, Əhsən ət-Təvarix, s, 356

[334] Həsən bəy Rumlu, Əhsən ət-Təvarix, s, 358

Rumlu Şeyx İsmayılın Lənkəranda Şahsüvar bəyi və Manian kəndində Muğanat hakimi Nuşir bəy Talışı ziyarət etdiyini yazır.[335] Ehtimal veririk ki, bu şəxslər Səfəvi təşkilatının şəbəkə rəhbərlərindən və ya bu şəbəkədə mühüm rol oynayan şəxslər olmuş və İsmayıl Mirzə bu şəxsləri gizli fəaliyyətə keçmiş şəbəkəni bərpa etmək naminə ziyarət etmişdi. Bu görüşlərdən sonra isə Şeyx Ərdəbilə doğru hərəkət etdi. Şeyx İsmayıl Mirzənin Ərçivandan çıxarkən bu sözləri dediyi nəql olunur:

***Utansın bundan sonra öz qınında yatan qılınc,***

***Gözümü yumub düşmənin qanını axıtmasam yerə***

***Şirin yuxu haram olsun bədənimə***[336]

## Ərdəbil ziyarəti

Şeyx İsmayılın Ərdəbil ziyarəti haqqında iki nəzər mövcuddur:

1) **İsmayıl Mirzənin Ərdəbili tutması**
2) **Gizlicə şəhərə daxil olması**

Birinci nəzərə görə, Qızılbaş qoşunu şəhər daxilindəki Ağqoyunlu dəstəsinə qəfil hücum etmiş, bunun xəbərini

[335] Həsən bəy Rumlu, Əhsən ət-Təvarix, s, 358
[336] Cəvahirul-əxbar, s, 113

alan şəhər əhalisi də silahlanaraq qızılbaşlara yardım etmişlər. Şəhər hakimi olan Əlixan Cagirlunun 10 minlik ordusu xalq dəstələri və qızılbaşlara qarşı mübarizədə məğlub olurlar.

Şəhər hakimi əlibağlı şəkildə İsmayıl Mirzənin qarşısına çıxarıldı. İsmayıl Mirzə hakimin şiəliyi qəbul etdiyi təqdirdə keçmişdə etdiklərinin əfv olunacağını bildirdi. Lakin, Əlixan Cagirlu bu təklifi rədd etmiş və nəticədə edam olunmuşdu. Şeyx İsmayıl məhz təriqətin mərkəzində qiyama başladı, Ərdəbili ələ keçirdikdən sonra isə Anadolu bölgəsinə doğru irəlilədi. Bu nəzər sadəcə Aləmarayi-Şah İsmayıl əsərində mövcuddur.[337] Əksər mənbələr ikinci nəzər ilə həmfikirdirlər.

İkinci nəzərə əsasən, İsmayıl Mirzə gizlicə Ərdəbilə daxil olmuş, ata-babasının məzarını və ailəsini ziyarət etmişdir. Şeyx İsmayıl Ərdəbilə daxil olması ilə xalqın dəstəyi ilə qarşılaşmış, Ərdəbil hakimi də hadisələrin kütləvi qiyama çevrilməməsi üçün İsmayıl Mirzə və ətrafına toxunmamışdır. Ziyarətdən qısa müddət sonra isə İsmayıl Mirzə yenidən şimala doğru irəliləmişdir.[338]

---

[337] Aləmarayi-Şah İsmayıl. Tehran, 1384, s, 48-49
[338] İsgəndər bəy Münşi, Tarixe-aləmaraye-Abbasi, s, 55.

## İkinci şəbəkə mərkəzinə doğru

Şeyx İsmayıl Səfəvi durmadan pərakəndə hala düşmüş Səfəvi şəbəkəsini bərpa etməyə çalışır, bəzi bölgələrə adamlar göndərir, bəzi bölgələri isə özü şəxsən ziyarət edirdi. Talış şəbəkəsi ilə rabitələr qurduqdan sonra növbəti mərhələ Anadolu şəbəkəsini bərpa etmək idi. Bu məqsədlə tutduğu ilk istiqamət Göyçə mahalı olub. Şah Göyçəyə Muğan və Gəncə yolu ilə gedib.

Göyçə gölü ətrafında olarkən İsmayıl Mirzənin gəldiyini öyrənən və özünün Qara Yusifin nəvələrindən olduğunu iddia edən Hüseyn Barani onu öz oyununa çəkməyə cəhd edirdi. Bunu anlayan İsmayıl Mirzə ondan uzaq durmuş və onun heç bir təklifini qəbul etməmişdi.

Göyçə mahalından sonra Çuxursəd, Qars və Ərzincan onun üz tutduğu növbəti yerlər olub. İsmayıl Mirzə və əmrindəki qoşun 1500-cü ilin yazında Çuxursədə çatdılar. İbrahim Əmini Hərəvi bu ərəfələrdə Şah İsmayılın 1500 nəfərlik ordusunda olan tayfaların əsasən Qaradağlı, Talış, Şamlı, Rumlu və Zülqədərlilərdən ibarət olduğunu yazır.[339]

İsmayıl Mirzə və qoşunu Çuxursəddə bir neçə gün düşərgə saldıqdan sonra Doqquz-Uləma adlı bir

---

[339] "Fütuhati-şahi", s. 92-95

məntəqəyə yollandılar və orada da düşərgə saldılar. Bu zaman şamlı türkmanlardan Qaraca İlyas da tərəfdarları ilə birgə özünü düşərgəyə çatdırdı və İsmayıl Mirzəyə qoşuldu. Qaraca İlyas Şor gölün (və ya Şuregel) yanındakı Məntəş qalası nahiyəsində hücuma məruz qaldıqlarını, atları və digər əşyalarının qarət edildiyini, canlarını isə güclə xilas etdiklərini bildirdikdə Şeyx İsmayıl qəzəbləndi və adı çəkilən qalaya hücum əmrini verdi. Qızılbaşların hücuma keçdiyini öyrənən bölgə hakimi qalanı adamlarından birinə təhvil verib qaçdı. Qızılbaşlar qala ətrafını ələ keçirib, buradakı dəstəyə güclü zərbə vurdular. Hərəkatın gələcək planlarını yubada bilər deyə qala ələ keçirilmədi, amma qalada məskən tutan hərbi birliklər ya öldürüldü və da qaçmağa məcbur qaldılar. Qızılbaşlar Mürşidi-Kamilin əmri ilə ələ keçirilən qənimətləri də götürüb geri çəkildilər.[340] İsmayıl Mirzənin bu qeyrəti qızılbaşlar arasında qeyri-adi bir fəza yaratdı və bu fəza gələcək qiyamın qələbəsində və şərqin ***“Ya Əli mədəd”*** şüarı ilə yeni bir dönəmə daxil olmasında mühüm rol oynadı.

Qızılbaş ordusu Karsın Kağızman bölgəsindən keçməklə Ərzincanın Tərcan bölgəsinə, oradan da Anadolunun mərkəzində yerləşən Sarıqaya yaylağına gedib düşərgə

[340] “Fütuhati-şahi”, s. 97.

saldılar. Şeyx İsmayılın bu bölgəyə qədəm qoymasından sonra Səfəvi müridləri dəstə-dəstə Sarıqayaya axışdılar və hərbi hazırlıqları davam etdirməklə iki ay Sarıqayada qaldılar.[341] Bu hadisə tarixdə "*Sarıqaya yığıncağı*" kimi yadda qalmışdır. Şeyx İsmayıl Mirzə Anadoluda coşğu ilə qarşılanır və qiyam ordusunun sırasına şövqlə qoşulurdular. Anadolunun Şamlı, Ustaclı, Rumlu, Təkalu, Zülqədər, Əfşar, Qacar və Varsağ, eyni zamanda Qaracadağ sufilərinin Şeyx İsmayıla qoşulması ilə Qızılbaşların sayı 7 minə çatdı.[342]

"Hanivaldanus Anonimi" (və ya Anonymus Hanivaldanus) — XVI əsrə aid ənənəvi Osmanlı tarixi mənbəsi hesab edilən anonim xronikada bu hadisələr haqqında belə yazılır:

***"Onlar İsmayılı heyranlıq doğuran sədaqətlə sevirdilər və ona əllərindən gələni əsirgəmədən xidmət göstərməyə, hər zaman böyük bir zövqlə hazır olduqlarını nümayiş etdirməyə çalışırdılar. Çünki o, yalnız atasının və babasının şöhrəti sayəsində nüfuz qazanmış deyildi, eyni zamanda öz qabiliyyəti ilə üzərinə götürdüyü bütün vəzifələrdə, hətta layiq olduğu***

---

[341] Fütuhati-şahi, s. 105.
[342] Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s.126

***tərif və qiymətləndirmələrlə, onları geridə qoymuşdu."***[343]

Xoca Səadəddin Əfəndi isə Sarıqaya yığınacağı haqqında yazır: ***"Babalarının xəlifələri Rum diyarına yayılmış olduğundan, Əli dostlarının və müridlərinin sayı-hesabı yox idi, onların sayı ölçüyə və hesaba sığmayacaq dərəcəyə çatmışdı"***[344]

## Şirvana doğru

Şeyx İsmayıl 1500-cü ilin yayında Ərzincana üz tutdu və bir məşvərət məclisi keçirdi. Məclisdə bir neçə fikir irəli sürüldü: ya qışı Ərzincanda keçirərək düşmən üzərinə hücum etmək, Diyarbəkir və Çuxursəd səmtinə doğru irəliləmək, ya da Gürcüstandakı hərbi kafirlərlə vuruşmaq. Məşvərət məclisində fikir ayrılığı yarandı və vahid mövqe formalaşdırmaq mümkün olmadı. Buna görə də Şeyx İsmayıl istixarə edəcəyini bildirərək, məclisin təxirə salındığını elan etdi. Növbəti məclis zamanı isə İsmayıl Mirzə istixarənin nəticəsi olaraq

[343] Richard F. Kreutel, Haniwaldanus Anonimi'ne Göre Sultan Bayezid-İ Velî(1481-1512) s, 37-38

[344] Hoca Sadettin Efendi, Tacü't-Tevarih, cill III, s. 345-6. ed. lsmet Parmaksızoğlu, Ankara: Kültür Bakanlığı Yayınları, 1999.

hücumun Şirvana olacağını bildirdi.[345] Şirvana yönəlmək ağıllı bir addım idi. Bu həm yumşaq müharibə baxımından (şəhid olmuş şeyxlərin intiqamını almaq məqsədilə) düzgün bir hərəkət idi, həm də dönəmin siyasi mənzərəsini nəzərə aldıqda, bu seçimin məqsədəuyğunluğu açıq görünür. Şirvanşah dövləti, Əlvənd Mirzə və Murad Mirzənin rəhbərlik etdiyi Ağqoyunlu dövlətlərinə nisbətən daha zəif idi; buna görə də İsmayıl Mirzə bu dövlət üzərinə hücum etməklə hərəkatının uğurlu başlanğıcını təmin etməyi hədəfləyirdi. Əlavə olaraq, Əlvənd Mirzə ilə Murad Mirzə arasındakı rəqabət Əlvəndin Murad Mirzənin babası olan Fərrux Yasara olan münasibətinə də təsir göstərirdi. İsmayıl Mirzə bu qarışıq münasibətlərin kəsişməsində Əlvəndin ləngiyəcəyini bilirdi.

Yəqin ki, burada bir psixoloji məqam da mövcud idi. Həm Şeyx Cüneydin, həm də Şeyx Heydərin başladığı hərəkatlar Şirvan torpaqlarında uğursuzluğa düçar olmuş və ləngimişdi. Şeyx İsmayıl çox güman ki, bu psixoloji maneəni aşmaqla öz hərəkatının zəfərinə təminat yaratmaq istəyirdi.

---

[345] Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 257

## Səfəvilərin ilk fəth yürüşü

İsmayıl Mirzə və Qızılbaş qoşunu Pasin adlı bir məntəqədə düşərgə saldılar. İsmayıl Mirzənin Şirvan yürüşü öncəsi hücumları iki istiqamət üzrə həyata keçirildi: bir tərəfdən Xadim bəy Xüləfanın rəhbərliyindəki bir qrupu Gürcüstanın xristian silahlı dəstələri üzərinə, digər tərəfdən isə İlyas bəy Uyğusoğlunun rəhbərliyi altında qoşunu Məntəş qalasına göndərdi.[346]

Xadim bəy Xüləfa gürcü silahlı qüvvələrinə hücum etdi və yüklü qənimətlərlə Pasinə geri qayıtdı. İsmayıl Mirzə qənimətləri heç bir pay götürmədən ordu arasında bölüşdürdü. İkinci qrup isə Məntəş qalasına hücum etdilər. Qala sahibi yenidən qaçdı. Qala Qızılbaşlar tərəfindən tamamilə ələ keçirildi. Əsirlər birbaşa İsmayıl Mirzənin yanına gətirildi. Amma İsmayıl Mirzə əsirləri əfv edərək onları Məntəş qalasına geri göndərdi. Şeyx İsmayıl Həsənabad bölgəsinə çatdığı zaman qala sahibi Şeyx İsmayılın mərhəmətinə sığınmış, Şeyx İsmayıl da ona tabe olmaq şərti ilə onu qalaya hədiyyələr (əsil ərəb atı, bəzəkli tac və xüsusi kəmər) ilə göndərdi.[347] Bu

---

[346] Cahanquşayi-Cahan, s, 133
[347] Cahanquşayi-Cahan, s, 134

hadisə Şeyx İsmayıl Səfəvinin bölgədəki ilk fəth hadisəsi idi. Şeyx İsmayıl bölgəyə qardaş qanı ilə yox, müsəlmanlara təhlükə yaradan xristian qruplaşmaları məhv etməyi və mərhəməti ilə daxil oldu.

## Səfəvilərin Şirvana gəlişi

İsmayıl Mirzə Bayram bəy Qaramanlını Zülqədər və Təkəlu tayfalarından ibarət bir dəstə ilə Kür çayına doğru kəşfiyyata göndərdi. Bayram bəyin əsas vəzifəsi aşıb-daşan Kür çayını keçmək üçün Şirvan gözətçilərinin gözlərindən uzaq gizli bir keçid tapmaq idi. Amma Bayram bəy Kür çayının hövzəsində nə qədər axtarış etsə də, keçmək üçün uyğun bir mövqe tapa bilmədi.

İsmayıl Mirzə yol üzərində ikən Şirvanşah Fərrux Yasardan ona bir ismarıc gəldi: - ***Əgər o, Şirvana gəlsə, atasının başına gələn onun da başına gələcəkdir.***[348]

Bu ismarıc İsmayıl Mirzəni qorxutmaq əvəzinə daha da hiddətləndirdi. Ordu Kürə çatdıqda Bayram bəy Şeyx İsmayıla Kürün keçidlərinin qızılbaş qoşunu üçün yararsız olduğunu və ancaq qayıqlar ilə keçilə biləcəyini izah etdi. Bunun isə zaman alacağını başa düşən İsmayıl Mirzə bir an atını axının yuxarısına doğru sürdü. Atını məhmizləyərək Kür çayına hücum çəkdi.

---

[348] Cahanquşayi-Xaqan, s, 135



*Şeyx İsmayıl Kür çayını keçərkən, rəssam: Cahangir Əhmədov*

At bir nəfəsə o dəhşətli çayı keçmiş və bu iş Qızılbaşları heyrətdə qoymuşdu. Bu hadisə Qızılbaşlara da çaydan adlama fikrini oyatdı və hamı birdən Kür çayına doğru hücum çəkdi. Çayı bir-bir adlayan qızılbaşlardan bir müddət sonra arxada heç kim qalmamış və bu hadisə qızılbaşlar arasında misli görünməmiş mənəvi fəza yaratmışdı. Artıq onlar qələbənin bir addımlığında olduqlarından şübhə belə etmirdilər.

İsmayıl Mirzə çayı keçdikdən sonra Gilkan adlanan bir məntəqəyə doğru hərəkət etdi. O bölgədən Səfəvi şəbəkəsinə mənsub birisi Qızılbaşlara Fərrux Yasarın Şamaxı qalasından 20 min süvari və 6 min piyada

qoşunla çıxaraq Qəbələ qalasının ətəyində düşərgə saldığını xəbər verdi. Şeyx Şabrana doğru irəliləyib orada məskunlaşan Həsən Mirzə ləqəbli müridinə tapşırdı ki, Şabran və Şirvana getsin, insanlara Şeyx Heydər oğlu Şeyx İsmayılın gəldiyini bildirsin və əlavə olaraq əhalinin amanda olacaqları ilə bağlı qəti bir arxayınlıq versin.[349]

Şeyx İsmayıl Həsən bəyi göndərdikdən sonra Şamaxıya doğru hərəkət etdi. Fərrux Yasar da Şamaxıda Buğurd qalası ilə Gülüstan qalası arasında yerləşən meşədə düşərgə salmışdı. Qızılbaş qoşunlarının Şamaxıya yaxınlaşdığı xəbərini alan Fərrux Yasar qoşununu Gülüstan qalasının ətəyində yerləşən Cabanı adlı yaylağa yerləşdirdi və Səfəvi şeyxinin gəlişinə qədər bütün hazırlıqlarını tamamladı.[350]

---

[349] Cahanqoşayi-Xaqan, s, 136
[350] Cahanqoşayi-Xaqan, s, 137




*Cabanı döyüşü*

## Cabanı döyüşü

İsmayıl Mirzə Cabanı yaylağına çatdıqda tez döyüş hazırlıqlarına başladı. Sağ cinah Şamlı, sol cinah isə Ustaclı mücahidlərinə tapşırıldı. Şeyx İsmayılın özü isə qardaşı Həsən Mirzə ilə birgə mərkəzdə mövqe tutdu.[351]

Təkəlu, Rumlu və Zülqədr tayfalarından olan mücahidlər isə ehtiyyat qüvvələri olaraq təyin edildi. Şirvanşah qoşununda isə sağ cinahda Şirvan qoşunu, sol cinahda isə çərkəzlər yerləşdirilmişdi.[352]

Döyüşün başlamasından sonra Şirvan oxçuları qızılbaşlara ağır zərbə vurdular. Belə ki, "Cahanqoşayi-xaqan" əsəri bu hücumun nəticəsində qızılbaşların avangard dəstəsinin darmadağın olduğunu qeyd edir. Amma mərkəzi cinahın köməyə gəlməsi ilə Şirvan qoşununun sıraları yarılıb tez bir zamanda məhv edilir. Hətta bəzilərinin qaçmağa imkan tapmadan atların tapdağı altında qalaraq həlak olduğu nəql olunur. Oxçu - piyada dəstələrinin məhv edilməsi ilə Qızılbaş qoşunlarının əsas problemi aradan qalxmış və rahat hücum çəkə bilmə imkanı əldə etmişdilər.[353]

---

[351] Qasim bəy Həyati, Tarixi-Həyati, s, 249
[352] Qasim bəy Həyati, Tarixi-Həyati, s, 250
[353] Cahanqoşayi-Xaqan, s, 139

Şirvan qoşununun nizamsız hərəkəti döyüşün taleyini dəyişdi. Qızılbaşlar ***“Allah, Allah, Əli Vəliyullah”*** şüarı ilə düşmənə hücum edərkən, döyüşün ən qızğın nöqtələrində mürşidlərinin özləri ilə bərabər çiyin-çiyinə vuruşduğunu görmələri onlara böyük bir cəsarət verirdi. Pərakəndə olan Şirvan qoşunu Buğurd qalasına doğru qaçmağa üz tutdu. Qaçan qoşunun ardınca hərəkət edən qızılbaşlar qala ətrafında fərariləri tutdular və bir çoxunu məhv elədilər. Fərrux Yasar da onlardan biri idi. Onun kimliyi isə şirvanlı əsirlərin təşxisindən sonra anlaşıldı. Qızılbaşlar şəhid şeyxlərinin intiqamının əlaməti olaraq Şirvanşahın atını Şeyx İsmayıla təqdim etdilər.[354] Bu qələbədən sonra qızılbaşlar Şeyx İsmayıla artıq ***“Şah İsmayıl”*** deyə səsləməyə başladılar. Döyüşün kilid fiqurlarından biri, məhz Şah İsmayılın qardaşı Seyyid Həsən idi. Qasım bəy Təbrizi Həsən Mirzənin şücaətindən və döyüşdəki kilid rolundan bəhs edir.[355]

Bu döyüşün əsər-əlaməti hələ də Azərbaycanda qalmaqdadır. Talış bölgəsində zalım birinə Yezid adının digər bir variantı olaraq “Yasar” deyə də səslənilir.

[354] Cahanquşayi-xaqan, s, 140-141
[355] Qasim bəy Həyati, Tarixi-Həyati, s, 252

Onlar bu döyüşdə digər qızılbaş tayfaları ilə birlikdə toppuzla silahlanaraq iştirak etmişdilər.[356]

Qeyd edək ki, Şirvan qoşununda ilk pərakəndəlik Fərrux Yasar və oğlu İbrahim arasında baş vermişdi. Ata-oğul arasında baş verən mübahisə döyüşün nəticəsinə də təsir göstərdi. Belə ki, İbrahim atasını döyüş meydanında yalnız qoyaraq döyüşün nəticəsini gözləməkdəydi. Döyüş qızılbaşlar lehinə bitdikdə məğlub qoşunun geridə qalan əsgərləri Şeyxşah İbrahim ilə birlikdə Şəhri-nou[357] şəhərinə qaçdı. Şeyxşah İbrahimin məqsədi bu şəhərdə möhkəmlənmək və ətrafına böyük qoşun toplayaraq Qızılbaşlara qarşı mübarizə aparmaq idi. Amma Şah İsmayıl Xadim bəy Xüləfanın rəhbərliyi altında Şəhri-nouya bir dəstə göndərdi. Xadim bəyin güclü bir dəstə ilə üzərinə gəldiyini öyrənən Şeyxşah tez Şəhrinou şəhərini tərk edərək Gilana qaçdı. Xadim bəy Şəhrinou şəhərinə çatdıqda əhali heç bir müqavimət göstərmədən şəhəri qızılbaşlara təslim etdilər. Beləliklə Şah İsmayılın əzəli rəqiblərindən biri tarix səhnəsini tərk etdi. Şah

---

[356] Ceymz Daun, Arefe Dihimdar, s, 131

[357] "Fütuhati-şahi" əsərinə əsasən şəhərdə möhkəm qala var və şəhər dəniz kənarında adada (və ya yarımadada) yerləşir. Verilən təsvirlərdən şəhərin Bakı və ya Şabran olması da ehtimal edilə bilər. Xəzər dənizi kənarında ada və ya yarımadada Şəhrino adlı digər bir şəhərin olduğu və zamanla dağılıb aradan getməsi fikri də ehtimal olunur.

İsmayıl 3 gün döyüş meydanında düşərgə saldıqdan sonra  Şamaxıya doğru hərəkət etdi.

Həsən bəy Rumlu yazır ki, müzəffər şah Şamaxıya çatanda ***"şəhərin seyyidləri, ağsaqqalları, qaziləri, şəhər əhalisinin nümayəndələri və əyan-əşraf onu qarşılamağa tələsib barigahını öpməyə müşərrəf oldular. İsgəndər şanlı xaqan Şirvanın taxtına oturdu"***[358]

Şah İsmayıl qışı keçirmək üçün qoşunlarını Şamaxıdan Muğanda yerləşən Mahmudabada [359] çəkdi. Mahmudabad havasının mülayimliyi ilə seçilirdi və qışın bu məntəqədə keçirilməsi daha uyğun sayılırdı. Havanın münasibliyindən əlavə, bu bölgədə ərzaq tədarükü və heyvanlar üçün yem tapılması da daha asan idi.

---

[358] "Əhsənüt-təvarix", s. 65.

[359] Bu tarixi şəhərin hazırki Salyan rayonu ilə Masallı rayonu arasında yerləşdiyi ehtimal edilir. Coğrafiyaçı Həmdullah Qəzvininin "Nüzhətül-qülub" əsərində (s. 139) yazdığına görə, tarixdə mövcud olmuş Mahmudabad şəhərini Elxani hökmdarı Mahmud Qazan xan saldırmış və öz adı ilə adlandırmışdır. Bu şəhər Gavbari səhrasında (düzündə) yerləşib. Bəcirəvan şəhərindən 20 fərsəx (təqribən 120 km), Ərdəbildən 40 fərsəx (təqribən 240 km) məsafədə yerləşirdi. Şəhər sonuncu dəfə 1741-1742-ci illərdə Nadir şahın hücumu nəticəsində tamamilə dağıdılıb.

## Bakının Fəthi

Şah İsmayıl və Əhli-ixtisas Mahmudabadda olarkən, Qafqazın ələ keçirilməsi məqsədilə bir sıra strateji tədbirlər həyata keçirdilər. Bu tədbirlər arasında ən önəmlisi hərbi təchizatların təmin edilməsi idi. Şah İsmayıl Səfəvi öz şəbəkəsini işə salaraq, Təbrizdən dəfələrlə silah və sursat təmin etmişdi. Göndərilən ehtiyatlar arasında partlayıcı maddələr də mövcud idi ki, bu da Şah İsmayılın gələcək fəth planlarında strateji əhəmiyyət daşıyırdı. [360] Şah İsmayıl Mahmudabad düşərgəsində olarkən, baş verən ən önəmli hadisə də Əmir Şəmsəddin Məhəmməd Zəkəriyya Keçəçinin bu düşərgəyə gəlməsi olmuşdur. Bu şəxsin gəlişi, Ağqoyunlu hakimiyyətinin daxili strukturlarına bələdliyi səbəbindən strateji və siyasi baxımdan əhəmiyyətli idi. Şah İsmayıl böyük dövlətçilik və idarəçilik təcrübəsinə malik bu şəxsi öz vəziri təyin etmiş və onu *"Kilidi-Azərbaycan"* adlandırmışdı. Baharın mehi qışın sərtliyini əvəz etdiyi zaman Şah İsmayıl ordusundakı təcrübəli iki komandiri *(Məhəmməd bəy Ustaclını və İlyas bəy Uyğusoğlunu)* Uctaclı tayfasından ibarət bir dəstə ilə Bakı üzərinə göndərdi. Bakı hakimi Fərrux

[360] Əmir Sədrəddin İbrahim Əmini Hərəvi. Fotuhat-e şahi. Tehran, 1383, s.146

Yasarın ölüm xəbərini alsa da, gəlib Şah İsmayıla bağlılığını bildirməmişdi. Şah İsmayıl Bakı qalasına və onun bölgədəki əhəmiyyətinə biganə deyildi. Bakı az qala bölgənin ən möhkəm qalasına sahib idi. Dəniz ticarəti və Şirvanşah fəthini tamamlamaq yolundakı yaratdığı əngəl bu fəthi Şah İsmayıla vacib etmişdi. İsgəndər bəy Münşi Bakı qalasını belə təsvir edir: *"Badikubə qalası üç tərəfdən su ilə əhatə olunmuşdur. Heç bir əzəmət sahibinin əli onun xəndəklərinin kənarındakı torpağın ətəyinə çatmır. Qalanın quruya çıxan tərəfində aqillərin ölçüyəsığmaz düşüncələri qədər dərin və geniş bir xəndək qazılmışdır."*[361]

İsgəndər bəy Münşi tək digər Səfəvi mənbələri də, bu qalanın əzəmətindən söhbət açır, bu qalanı miflərdə adı zikr edilən İsgəndər səddi ilə müqayisə edirlər. Uctaclı dəstəsi bu qalanı ələ keçirməyə çalışsa da, qalanın müqaviməti onların işini çətinləşdirmişdi. Onlar Şah İsmayılın gəlişinə qədər öz vəzifələrinə əməl etdilər.

Şah İsmayıl yolun yorğunluğunu aldıqdan sonra qala divarlarına, bürclərə və istehkamlara baxış keçirməyə başladı. Hətta qalanı hündürdən müşahidə etmək üçün yəhərlərdən münasib yüksəklikdə bir platforma

[361] Tarix-i aləmara-yi Abbasi. "Şərq-Qərb", Bakı, 2010, s.57

hazırlanmasını da əmr etdi.[362] Şah İsmayıl qılıncı axırıncı həll yolu seçərək qala müdafiəçilərinin rəhbərinə bir elçi göndərərək ondan qalanı təslim etməsini istədi. Qalanın müdafiəsi Fərrux Yasar oğlu Qazi bəyin xanımının məsuliyyətində idi. Qazi bəyin yoldaşı təslim olmayacağının bir əlaməti olaraq gələn elçini öldürdü. Amma qala rəhbərliyi Qazi bəyin xanımı kimi düşünmürdü. Şəhər darğası Əbülfəth (ya da Əbülfəttah bəy) Şah İsmayıla təslim olmağın tək çarələri olduğunu bəyan etsə də, onun da sonu edam oldu. Edam olmasına baxmayaraq şəhər əhalisinin əksəri onunla həmfikir idilər. Şah İsmayıl mehribanlıq əlinə qılınc almış və hücum əmri vermişdi: *"Əsgərlər qalanın quruya baxan hissəsinə gedib, xəndək qazıb, lağım atsınlar və burada torpağın arxasından oxlarla qalanın bürclərindən baxanların gözlərini çıxarsınlar (yəni onlara hücum etməyə aman verməsinlər), onların düşündüyü xarmanı top və tüfəngin atəşi ilə yandırsınlar"*[363]

Həsən bəy Rumlu yazır ki, onlar möhkəm qalanın altında lağım atan zaman böyük bir qaya gördülər, (partlayıcı maddə olan) sirkə ilə o daşı parçalayıb qalanın bir bürcünü uçurtdular. Qala sakinləri alaçıq keçələri ilə bu uçulmuş yeri tutdular və daha üç gün

[362] "Fütuhati-şahi", s. 151.
[363] "Fütuhati-şahi", s. 151.

qalanı qorudular. Ondan sonra qazilər yekun hücuma keçdilər.[364]

Şah İsmayıl Bakı qalası ətrafındakı xəndəyə yaxınlaşanda atdan düşdü və yerdən bir daş götürərək o dərin xəndəyin içinə atdı. Sonra da döyüşçülərinə göstəriş verdi ki, hər kəs gücü miqdarında daş tapıb həmin xəndəyə atsın. Qızılbaşların əzmi sayəsində xəndəklər doldu və qala divarları yanında düzəldilmiş təpə üzərindən aşmaqla şəhərə daxil olmaq mümkün oldu. Şəhərdaxili döyüşlərdə qızılbaşlar qalib çıxdı və nəhayət İsgəndər səddi nisbəti verilən bu qala Şah İsmayılın məharəti ilə fəth olundu. Elçisinin öldürülməsinin intiqamını almasından qorxan Bakı əhalisi əllərində Quran-Kərim və qan bahası kimi 1000 tümən vəsait toplayıb Şah İsmayılın hüzuruna gəlib ona tabe olduqlarını bildirdilər. Əmin Hərəvi həmin səhnəni belə təsvir edir: ***“Heç vaxt intiqam almağı düşünməyən İmam Kazim (ə) xislətli, Xosrov kəramətli və məhəbbətli xasiyyətinə malik biri kimi addım atıb əlini qılıncdan çəkdi və yenicə səadətə qovuşa bilmiş o***

---

[364] “Əhsənüt-təvarix”, s. 67.

***qövmün əməl dəftərindəki cinayətlərinin üstündən əfv qələmini çəkdi."***[365]

Bəzi mənbələr Şah İsmayılın babası Şəhid Şeyx Cüneydin qatilləri sırasında yer alan Şirvanşah I Xəlilullahın cəsədini məzardan çıxardıb yandırdığını yazır. Bu səbəblə Güntay Gəncalp kimi Şah İsmayıla iftira yaxmağa həvəsli şəxslər Şah İsmayılı qaniçən bir şəxsiyyət olaraq göstərməyə çalışır. Gəlin, bu işin həqiqətini nəzərdən keçirək. XX əsrdə Şirvanşahlar saray kompleksi və burada olan məzarlarda aparılan təqdiqatlar göstərdi ki, I İbrahim Xəlilullahın qəbri dağıdılmayıb. Belə ki, 1946-cı ildə Şirvanşahlar sarayında arxeoloji qazıntı aparan N.B.Minkeviç adlı arxeoloqun işi, habelə, memar Rüfət Acalovun apardığı tədqiqatlar onu göstərir ki, sarayda toxunulmamış 14 qəbir tapılıb ki, onlardan biri I Xəlilullaha aiddir.[366] Cəsədin yandırılma məsələsi isə şişirtmədən ibarətdir. Həmçinin, Osmanlı sultanı II Bəyazidin Şah İsmayıla yazdığı şikayət və nəsihət məzmunlu məktubunda bu mövzuya heç bir işarə edilməmişdir.

---

[365] "Fütuhati-şahi", s. 153.

[366] Аджалов Руфат. Краткий очерк истории города по памятникам зодчества путеводитель по городу-заповеднику Ичеришехер, s. 112.

Şah İsmayıl Bakıda Şirvanşahlar tərəfindən illər boyu toplanmış olan xəzinəni ələ keçirmiş və döyüşçülər arasında bölüşdürmüşdür. Hətta şəriət baxımından ona çatmalı olan qəniməti də Şah İsmayıl öz döyüşçüləri arasında bölüşdürdü və bu yolla onların döyüş xidmətləri lazımınca mükafatlandırıldı. Bu xəzinənin çox böyük olması mənbələrdə də öz əksini tapmışdı. Bununla, Bakı şəhərinin ələ keçirilməsi də başa çatdırıldı.

## Şirvanşahın son qalaları

Şirvanşah dövlətinin sütunu qırılsa da, Şamaxıda yerləşən Gülüstan, Sərxab və Buğurd qalaları hələ də qiyam üçün öz təhlükəsini qoruyub saxlayırdı. Şirvanşah qoşunlarından silahı yerə qoymayan bütün qüvvələr bu qalalara sığınmışdılar. Amma bu qalalardan ən təhlükəlisi Gülüstan qalası idi. Gülüstan qalası həm dağlıq ərazidə yerləşməsinə, həm divarlarının möhkəmliyinə görə kifayət qədər möhkəm bir qala idi. Məhz buna görədir ki, Fərrux Yasar məğlub olduğunu başa düşdükdə Gülüstan qalasına doğru geri çəkilməyə başlamışdı. Həsən bəy Rumlunun bildirdiyinə görə, Sərxab qalası Fərrux Yasarın oğlu Qazi bəyin, Buğurd

qalasında isə nəvəsinin əlində idi.[367] Əlavə olaraq, gələcəkdə baş verməsi şübhə doğurmayan Qızılbaş hücumundan uzun müddət müdafiə olunmaq üçün qalanın daxilinə böyük həcmdə ərzaq ehtiyatları da toplanmışdı. Bu məqam özü də qalanın müdafiə imkanlarını daha da artırırdı. Qarşısı alınmadığı təqdirdə, bu qalalar bir müddət sonra qiyam əleyhinə fəaliyyətə keçəcək müqavimət ocaqlarına çevriləcəkdi. Buna görə, Şah İsmayıl Bakıdan sonra Şamaxıya doğru hərəkət etdi. Təhlükəsinə görə ilk Gülüstan qalası mühasirəyə alındı.

Rəvayət edilir ki, Şah İsmayıl şəxsən qala ətrafı kəşfiyyatda iştirak edərək qala divarlarını müşahidə etmişdi. Bölgəni dəqiqliklə analiz edəndən sonra Şah İsmayıl hər bölgəyə ayrı sərkərdələr təyin etmişdi və onlar həmin sahənin ələ keçirilməsinə görə məsuliyyət daşıyırdılar. Nəticəsiz keçən neçə günlük mühasirə dönəmindən sonra Şah İsmayıl qala rəhbərliyinə sərkərdələrindən birini elçi qismində göndərərək qala daxilindəkilərlə danışıqlar aparmağa və onları qalanı təhvil verməyə razı salmağa çalışdı.  Onlar isə qalanı təslim etmək əvəzində şərt qoşdular ki, Qazi bəyin

[367] Həsən bəy Rumlu, Əhsən ət-Təvarix, s, 367

rəhbərlik etdiyi qoşunlar təslim olacağı təqdirdə təslim olacaqlar.[368]

Qala müdafiəçilərinin inadkarlığı azmış kimi, Təbrizdən Əlvəndin 30 minlik bir qoşunla Şirvana doğru hərəkət etmə xəbəri qızılbaşlara yetişdi. Şah İsmayıl Əlvəndin gəlməkdə olan qüvvəsini hələ təşkilatlana bilməmiş Şirvan qüvvələrindən daha təhlükəli olduğunu bildirərək mühasirəni qaldırdı. Şah İsmayıl Əlvənd onu qarşılamadan o, Əlvəndi qarşılamaq istəyirdi. Buna görə də yollarda yubanmamaq üçün bir dəstəyə Kürlə Arazın birləşdiyi yerə (Cavada) gedib ordunun keçməsi üçün münasib körpü salmalarını tapşırdı.[369] Əlvəndin planı Şirvanşahın sərgərdan düşmüş sərkərdə və əsgərləri ilə birləşib keçmiş tarixi təkrarlamaq idi. Amma nə Şirvan əvvəlki Şirvan idi nə də Ağqoyunlu əvvəlki Ağqoyunlu.

## Həlledici döyüşə doğru

Şah İsmayıl düşmənin tədbirlərini öyrənmək üçün Azərbaycan bölgəsinə əvvəlcədən adamlarını göndərmişdi. Bu adamlardan biri olan Məhəmməd bəy

[368] Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s, 111
[369] "Fütuhati-şahi", s. 157

(bu şəxsin kimliyi barəsində fərqli nəzərlər var) Şaha qasid göndərdi ki, Əlvənd Mirzə artıq qoşunlarının Qarabağa doğru hərəkəti barəsində göstəriş vermiş və Həsən bəy Şüküroğlunu Muğan istiqamətinə, Qarçıqay Məhəmmədi isə Gəncə istiqamətinə yol və keçidləri öyrənmək, qızılbaşların çayların üzərində körpü salmalarına mane olmaq üçün göndərmişdir. Buna qarşılıq olaraq Şah İsmayıl Qara Piri bəy Qacarı Həsən bəy, Pirəhməd bəy Qarabaldırı da Qarçıqay Məhəmmədin üzərinə göndərdi. Amma bu qarşılaşmalar böyük döyüşlə nəticələnmədi. Qara Piri bəyin başçılıq etdiyi Qızılbaş qoşunu Həsən bəyin qoşunu ilə Gərmrud bölgəsində qarşılaşmış və onları məğlub etmişdilər. Cahanqoşayi-Xaqan əsərinin müəllifi, bu döyüşdən sonra Şah İsmayılın Qara piri bəyə *"Tozqoparan"* ləqəbini verdiyini nəql edir.[370] Qarçıqay Məhəmməd isə Qızılbaş qoşununun gəliş xəbərini aldıqdan sonra qorxusundan qaçıb Əlvəndin düşərgəsinə qoşuldu. Bu xəbərlər Şah İsmayıla çatdıqda hamı bunu gələcək böyük qələbənin əlaməti kimi qəbul etdilər.[371]

Həsən bəy Şüküroğlunun Gərmrudda başqa niyyəti də var idi: o, burada yaşayan və Şah İsmayıla rəğbəti olan əhalini qətl və qarət etmək istəyirdi. Amma Qara Piri

---

[370] Cahanqoşayi-xaqan, s, 151
[371] "Fütuhati-şahi", s. 157-159.

bəy Qacarın gəlişi bu namərd planın üstündən qanlı bir xətt çəkdi.[372] Qarapiri bəy Qacar bu uğurlu əməliyyatdan yüklü qənimətlə mərkəzi orduya doğru yola düşdü. Qərargahda alqış və təriflərlə qarşılandı.

Şah İsmayıl Cavada doğru yola düşdü və çayı vaxt itirmədən keçməyi planlayırdı. Çay hövzəsinə çatdıqda isə dəstəsinin məharətini görüb sevinmişdi. Körpü, bir-birinə bağlanmış qayıqlardan və onların üzərinə yerləşdirilmiş platformadan ibarət idi. Ordu Kür çayını keçdikdən sonra Nemətabad adlı bir məntəqədə düşərgə saldı.[373] Şah İsmayılın Cavadı keçdiyini öyrəndikdə Ərdəbil hakimi ilə birlikdə Mahmud adlı bir sərkərdənin onunla qarşılaşmaqdan çəkinərək Əlvəndin qoşununa tərəf yönəldiyi nəql olunur.[374] Bu fakt qızılbaşların 7 mindən ibarət olduğu nəzərini zəiflədir. Belə ki, Şərur döyüşü öncəsi avanqard dəstələri arasında baş verən döyüşdə Ağqoyunlu tərəfinin 15 min ordusuna qarşı, Qızılbaş tərəfi isə 5 minlik ordu çıxarır.

---

[372] Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s.114
[373] Tarixi-Həyati, s, 262
[374] Cahanqoşayi-xaqan, s, 151

## Şərur öncəki ilk döyüş

Ağqoyunlu və Səfəvi qoşunlarının qarşılaşacağı bu ilk döyüşdə Qızılbaş dəstəsinin rəhbərliyi 70 yaşlı Qara Piri bəy Qacar öz boynuna götürdü. Şah İsmayıl əvvəlcə Qara Piri bəyin döyüşdə iştirakına razı deyildi, amma atası yerində gördüyü sərkərdənin israrı onu razılığa gətirir. Onu yaşca nisbətən cavan İlyas bəy Halvaçıoğlu ilə meydana getməsi şərti ilə meydana yola salır.[375]

Şah İsmayılın döyüş öncəsi belə dediyi rəvayət olunur: ***"İmamlarımız bizi düşmən qoşunu üzərində qalib və müzəffər etmişdir. Qətiyyən tərəddüd etmədən döyüşə başlasınlar və igidliklə bağlı heç bir incəliyi əldən verməsinlər."***[376]

Bu döyüşdə Ağqoyunlu dəstəsinə rəhbərliyi Osman bəy Mosullu öz üzərinə götürmüşdü. O, Ağqoyunlu dövlətinin azsaylı təcrübəli sərkərdələrdən biri hesab olunurdu. Qüvvələr arasında qeyri-bərabərliyin mövcud olmasına baxmayaraq, qızılbaşlar hücuma keçməkdən çəkinməmişdilər. Döyüş zamanı Qara Piri bəy Qacar Osman bəy ilə üz-üzə gəlmiş və nizə zərbəsi ilə onu atdan salmışdı. Ağqoyunlu sərkərdəsinin atdan düşməsi

---

[375] Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 55
[376] Tarixi-Həyati, s: 267

ilə qızılbaşlar onu əsir tutdular. Qızılbaşların qəzəblə düşmən üzərinə hücum etməsi və Osman bəyin əsir götürülməsi döyüşün taleyini dəyişdi. Ağqoyunlu dəstəsi ciddi itkilər verərək geri çəkildi. Osman bəy Şah İsmayılın qarşısına çıxarılanda keçmişdə etdikləri xatırladılaraq ölümünə fərman verildi.[377]

Əlvənd Mirzə Osman bəyin məğlubiyyət xəbərini aldıqda təşvişə düşdü və Naxçıvanda mövqe tutmağın əlverişli olmadığını bəhanə gətirərək dağları keçib, Şərur çöllərinə doğru irəlilədi. Qızılbaş ordusu da Arazı keçib Əlvəndin dəstəsini izlədilər.

---

[377] Tarixi-Həyati, s: 268




*Qızılbaşlar döyüş meydanında*

## Şərur döyüşünün öncəsi

Əlvənd Mirzə meydana daxil olduğu zaman, Təbriz sarayını ona dar edən qorxu daha da artmış və Ağqoyunlu əyan-əşrəfin ona dediyi bütün proqnozlar puç olmuşdu. Onlar Səfəvi qiyamı haqqında Əlvəndə belə məlumat vermişdi ki, ***Qızılbaş qoşunu beş min nəfərdən artıq deyil və onların çoxunun döyüş alətləri yoxdur, halbuki bizim hazır və müntəzir təxminən otuz min əsgərimiz vardır.***[378] Amma deyilənlər təkəbbürlü və müftəxor saray əyanlarının işbilməzliyindən başqa bir şey deyildi. İndi Əlvənd Naxçıvanda əyan-əşrəfinin işbilməzliyinə görə böyük bir təhlükə ilə üzbəüz dayanmışdı. Ağqoyunlu dövlətinin pərakəndəliyi əsgərlərin və ordu başçılarının döyüş ruhiyyəsini darmadağın etmişdi. Əlvənd ordusunun çoxluğuna deyil, təcrübəli əmirlərinin məkrlərinə arxalanırdı. Buna görə Türkmən əmirləri ilə birlikdə məşvərət məclisi təşkil edildi. Əmirlər belə bir qərara gəldi ki, Şah İsmayılla mövcud qohumluq əlaqələrinə istinad edilərək ona mülayim və dostyana məzmunlu bir məktub göndərilsin. Elçilərin gediş-gəlişi isə qoşun sıralarının nizamlanması üçün kifayət edər. Əgər Şah İsmayıl bu məktubun

[378] Tarixi-həyati, s: 266

arxasında gizlənən məkrli niyyəti anlamayıb geri çəkilsəydi, Ağqoyunlu tərəfi üçün yeni fürsət qapıları açılacaqdı.[379] Məktubda yazılırdı: ***"Uca məqamlı, dinə pənah olan padşah Şah İsmayıla məlum olsun ki, aləmlərin Rəbbinin istəyi (qəza-qədəri) budur ki, sən üsyan mərəkəsində addımlayasan. Halbuki, sən Uzun Həsənin övladlarının oğlusan. Gərək bizimlə qohum-əqrəbalıq əlaqələrini qoruyasan. Elə olarsa niyə sənə diqqət və qayğı göstərməyək?! Qohumluq əlaqələri belə olmaz.***

***Elə isə yaxşı budur ki, səninlə savaşmayaq. Sən ata və babanın intiqamı üçün gedib Fərrux Yasar padşahı öldürüb, Şirvanı tutdun. Biz də Ərdəbil vilayətini sənə bağışlayırıq. Qayıt get Şirvana və orada hakimiyyətini et. O qədər biganə vilayətlər var ki, hansını istəyirsən get al. Haçan yardıma ehtiyacın olsa bizdən istə, göndərək. Sən başqa biri olmadığın üçün xüruc etməyinlə razılaşdıq. Məbada bunu zəif olmağımız kimi anlayasan. Çünki sülh müharibədən daha yaxşıdır. Amma sabah gec olsa, səni sülh addımı atmağa dəvət etməyəcəyəm. Rahat ol, bil ki, biz də otuz minlik ordu***

---

[379] Cahanqoşayi-Xaqan, s, 153

***ilə qarşında dayanmışıq. Nə olacağından asılı olmayaraq şükür edərik"[380]***

[380] Cahanqoşayi-xaqan, s, 153



*Əlvənd Mirzə miniatürlərdə, 1650-ci il*

Məktub Şah İsmayıla çatdırıldı. Şah İsmayıl isə belə cavab verdi: ***"Əlvənd padşaha məlum olsun ki, Həsən Padşahın övladları Şeyx Səfiəddinin övladlarına çox mürüvvətsizlik və pislik ediblər. Bu qədər əzab-əziyyət və işgəncə vermələrinə baxmayaraq, mən babamın, atamın və qardaşımın qanından keçdim. Mən məsum imamların – onlara Allahın salamı olsun – yolunu yaymaq üçün ayağa qalxmışam və canım olduğu müddətcə haqq öz mərkəzində qərar tutana qədər din yolunda qılınc çalacağam. Gərək sən təmiz etiqad və sədaqətlə əlini həzrətin pak ətəyinə tutub, "Əliyyən vəliyyullah" kəliməyi-təyyibəsini deyəsən, o zaman müstəqil padşah olarsan və mən də hansı yerdə bir bölgəni tutsam, orada sənin adına xütbə oxutdurub, sikkə zərb etdirər və səni öz böyük qardaşım bilərəm. O zaman sənin yolunda qılınc çalaram. Əgər bu səadəti əldən versən mənə xoş olar ki, günahsız qardaşımın (Şeyx Əlinin) intiqamını səndən alım. Hansı seçimi daha münasib bilirsən de"***[381]

---

[381] Cahanqoşayi-xaqan, s, 153

Məktub Ağqoyunlu Əlvəndə çatdı və cavabında bildirdi ki, ***“mən heç vaxt bu işə gedən deyiləm, şeyxoğlu əlindən gələni etsin”***[382]

Mənbələrdə bu məktublaşmaların başqa variantları da mövcuddur. Həmin alternativ nüsxələrdə Əlvənd Mirzənin məktubu belə təqdim edilir: ***“...Şirvanın işğalına qarşı deyiləm və buna müxalif olmuram. Lakin səndən istəyirəm ki, mənim ölkəmdə gözün olmasın və geri dönəsən. Əgər ölkənin asayişində və nizamında sənin üçün bir çətinlik yaransa bizdən olduğun üçün heç bir köməkdən imtina etməyəcəyik. Əgər mənim xahişimi hökumətimin zəifliyi kimi qəbul etsən, bil ki, 30 mindən çox olan qoşunla səni əzmək üçün gəlirəm. Mən açıq ürəklə nə baş versə onu qəbul edəcəyəm."***

Şah İsmayılın isə cavabı belə olub: ***"Bil ki, uzun müddətdən bəri Səfəvi xanədanının övladları Uzun Həsən xanədanının müxalifətçilyindən və zülmündən əziyyət çəkir. Buna baxmayaraq, mən keçmişdəkiləri unuduram. Amma qarşımda bir vəzifə var ki, onu həyata keçirməliyəm. Bu vəzifə əcdadlarımın məzhəbinin bərqərar edilməsidir. Bunun üçün canımı***

---

[382] Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s, 63.

***qurban verəcəyəm. Əgər sən öz taxt və tacını saxlamaq istəyirsənsə gərək sədaqətlə şiə məzhəbinə bağlanasan. Əgər qəbul etsən, sənin bayrağın altında müharibəyə yollanacağam və səni öz qələbələrimə şərik edəcəyəm. Yoxsa atamın qanını səndən alacağam. Öz seçimini etməkdə azadsan"***[383] Əslində, Şah İsmayılın verdiyi bu cavab onun gələcək siyasi-ideoloji planlarını açıq şəkildə ortaya qoyurdu. Şah İsmayıl bəzən intiqam hissi ilə hərəkət edən bir sərkərdə kimi təqdim edilsə də, bu cavab onun həqiqətdə şiə qiyamçıları silsiləsinin davamçısı olduğunu göstərir. O, Əlvənd Mirzəni açıq şəkildə öz qiyamına dəvət edir, bu yoldan dönməyəcəyini bildirir və yalnız şiəliyi qəbul etdiyi təqdirdə onun hakimiyyətinin davam edə biləcəyini bəyan edirdi.

## Şərur döyüşü

Əlvənd, Şah İsmayılın qətiyyətini gördükdə ordusunu Şərur düzünə doğru yönəltdi. Bu ərazinin döyüş meydanı kimi seçilməsi birbaşa Əlvənd Mirzənin təşəbbüsü idi. Çünki döyüşün Naxçıvan bölgəsində aparıldığı təqdirdə, bir tərəfdən Araz çayı, digər tərəfdən dağlıq ərazilər

[383] Mücirşeybani. Təşkil-e şahənşahi-ye Səfəviyye. Tehran, 1346, s. 86-87

Ağqoyunlu ordusunun hərbi manevr imkanlarını məhdudlaşdıracaqdı.

Şah İsmayıl casuslarının verdiyi məlumat əsasında Ağqoyunluların düşərgəsini müəyyən etmiş və dərhal öz qoşunu üçün orada düşərgə qurmuşdu. Şah İsmayıl düşərgələri qurduqda dərhal döyüş hazırlıqlarına başladı. Şah İsmayıl döyüşdən əvvəl at belində qoşunların nizamını yoxladı və qoşun dəstələrinə ən yaxşı əmirlərini rəhbər təyin etdi. Mənbələr Ağqoyunlu ordusunun 30 min, Qızılbaş ordusunun isə 7 min nəfərdən ibarət olduğunu yazır. Qızılbaş ordusunun tərkibi haqqında məlumat verən Həsən bəy Rumlu yazır ki, Şah İsmayıl ordunun sağ və sol cinahlarını Hüseyn bəy Lələ, Abdal bəy Dədə, Bayram bəy Qaramanlı, Xüləfa bəy, Məhəmmədi bəy Ustaclu, Əbdi bəy Şamlı, Qaraca İlyas Bayburtlu, Piri bəy Qacar və Əli Möhrdar kimi adlı sanlı əmirlərə həvalə etdi. Şah İsmayıl isə qardaşı Seyyid Həsən, İlyas bəy Div Əli adlı sərkərdələr ilə birgə mərkəzdə mövqe tutmuşdu.

Ağqoyunlu tərəfində isə mənzərə fərqli idi. Şah İsmayıldan fərqli olaraq Əlvənd Mirzə döyüş meydanında deyil, bir təpənin başında mövqe tutaraq, döyüşü izləməyi seçmişdi. [384] Əlavə olaraq Əlvənd

---

[384] Rza Yıldırım, Aleviliğin doğuşu, s: 278

döyüşdən qaçmaq istəyənlərin qarşısını almaq üçün ordusunun arxa hissəsində bir-birinə zəncirlənmiş dəvələr qoydurmuşdu.[385] Bununla yanaşı, Qızılbaşların sürətli hücumlarının qarşısının alınması üçün Əlvənd Mirzə qumbara atanları və zənburəkçiləri bir yüksəkliyin ətəyində yerləşdirmişdi. Ox və kamanla silahlanan döyüşçülər isə ön sırada mövqe tutmuşdular.

Döyüşü başlatmaq Halvaçıoğluna tapşırıldı. Şərurda iki ordu qarşılaşmadan öncə tərəflərin ön qaravul dəstələri bir-birilə toqquşdular. Zənburək və oxçu dəstələri Qızılbaş dəstələrinin irəliləməsinə maneə olur və itkilərin artmasına səbəb olurdu. Belə olduqda qızılbaşlardan bir dəstə oxçuların olduğu yüksəkliyə hücum etdi və onların təhlükəsini aradan qaldırdılar. Bundan sonra rahat hücum imkanı tapan qızılbaşlar Əlvəndin qaravul dəstəsini əsas ordunun olduğu yerə qədər geri otuzdurdular. Qızılbaşların böyük ordu üzərində hücuma keçdiyini görən Şah İsmayıl ordusuna hücum əmri verib irəli atıldı. Qızılbaşlar ***"Allah, Allah"*** qışqıraraq böyük sürətlə Ağqoyunlular üzərinə atıldılar. Qızılbaşların bu sürətli hücumu və nərələri Əlvənd Mirzənin qoşunlarının sol cinahında və mərkəzində

---

[385] "Həbibüs-siyər", c 4, s. 466.

vahimə yaratdı və onların müqavimətini xeyli zəiflətdi. Bildirilir ki, bu zaman Şah İsmayıl da şəxsən Ağqoyunlu qüvvələrinin mərkəzinə hücum etmiş və onun ardınca da qızılbaşların sağ cinahı Şah İsmayılı izləyərək hücumu daha da genişləndirmişdi. Tanınmış əmirlərin qətlə yetirilməsi, bütünlükdə, Ağqoyunlu qoşunlarına dağıdıcı təsir göstərdi və qoşunlar da döyüş meydanından qaçmağa başladılar. Eyni aqibəti Əlvənd Mirzə də yaşadı.[386] Mənbələr döyüşün bütün təfərrüatı haqqında danışmasa da, döyüşün səhərdən axşama qədər çəkdiyini nəql etmişlər. Döyüşdə qeyri-bərabər iki ordunun qarşılaşmasına baxmayaraq Ağqoyunluların itkisi daha artıq idi. Döyüşdə qısa müddətə 17 min Ağqoyunlu əsgərinin öldürüldüyü nəql olunur.[387] Əlvənd Mirzənin güvəndiyi *Lətif bəy, Seyyidi Qazi, Musa bəy, Xəlil bəy, Kəlbəli bəy, Qaraca Mahmud bəy və Qarçıqay bəy* kimi təcrübəli əmirlərin hamısı bu döyüşdə həlak oldular.

Əlvənd Mirzə Ərzuruma qaçaraq canını xilas edə bilmişdi, lakin əsgərləri Əlvəndin zəncirlənmiş dəvə taktikasının bəlasına düşərək can vermişdilər. Qaçan əsgərlər zəncirli dəvələrlə üzləşdikdə qızılbaşların ovuna

---

[386] Rəhimzadə Səfəvi. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran,1389, s. 147

[387] Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 59

çevrilirdi.[388] Dəvələrdən ötə bilənlər isə, ərazidə yerləşən bataqlığa düşərək orada həlak oldular.[389] "Cahanqoşayi-Xaqan"ın müəllifi hadisəni belə xülasə edir: ***"Çünki müharibə günü sərkərdələrdən hər biri ilahi lütflərə arxalanaraq ehtiyat gözü ilə döyüşün aqibətini nəzərdən keçirmiş və məqsədə bu yolla çatmışdır. Lakin kim çoxlu qoşuna və möhtəşəm mövqeyə arxalanaraq qürurla irəli atılmışdırsa, bunun əks nəticəsini görmüşdür."***[390]

İbrahim Əmini Hərəvi yazır ki, Ağqoyunlu Əlvəndin ordusundan geri saya-hesaba gəlməyən qənimətlər, xüsusilə də çoxlu atlar və dəvələr qalmışdı. Şah İsmayıl onların hamısını Qızılbaşlar arasında böldü.[391] Sonra Şah İsmayıl əldə olunan bu böyük qələbənin yorğunluğunu atmaq üçün döyüşçülərinə bir neçə günlük istirahət verdi və bu qələbənin şükrü üçün dua mərasimləri təşkil edildi.[392]

---

[388] Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s. 151
[389] "Həbibüs-siyər", c. 4, s. 466.
[390] Cahanqoşayi-Xaqan, s, 156
[391] "Həbibüs-siyər", c. 4, s. 467.
[392] Cahanqoşayi-xaqan, s, 160

## Səfəvi hakimiyyətinə doğru

Səfəvi təşkilatı 172 illik fəaliyyətinin ardından artıq öz qayəsinə çatmışdı. Şah İsmayıl, ata-babasının ölüm fərmanlarının verildiyi şəhərə doğru irəliləyirdi. Təbriz şəhərinə yaxınlaşdıqda şəhər əhalisinin böyük bir hissəsi şəhər kənarında onu təntənə ilə qarşıladılar və onun şərəfinə qurbanlar kəsdilər. Şəhər əhalisi ilə birgə Təbrizə daxil olan Şah İsmayıl Həşt-behişt bağında seyyidlər, qazilər, alimlər, mülkədarlar, sənətçilər, tacirlər və şəhərin digər sakinləri ilə görüşdü. Şah İsmayıl şiə məzhəbi və digər əsas məsələlər haqqında da onlara suallar verirdi. "Fütuhati-Şahi" əsərində Şah İsmayılın Təbrizin Əhli-sünnə alimləri ilə etdiyi elmi məclisdən söhbət açılır. Bu alimlərlə Şah İsmayıl arasında keçirilən məclisdən sonra müvafiq xütbənin oxutdurulması ilə bağlı razılıq əldə edilmişdi.[393]

Şah İsmayıl bu gözəl bağda və bağ daxilindəki müasirləri ilə müqayisədə sadə, amma daha füsünkar bir sarayda taxta oturdu. Bu bağ daxilində saraydan əlavə kitabxana, məscid, şəfa evi və cıdır meydanı da mövcud idi. Şah İsmayıl, hakimiyyətinin mərkəzini xalqla birbaşa rabitəsi olan bu gözəl məkanda qurmuşdu.

---

[393] "Fütuhati-şahi", s. 173.



*Şah İsmayılın Təbrizə daxil olması, rəssam: Çingiz Mehbalıyev*

Hakimiyyətinin ilk günlərində gördüyü ilk iş bir tərəfində *“La ilahə illəllah, Muhəmmədun Rəsulullah, Əliyyun Vəliyullah”* ifadəsi həkk olunan sikkələr zərb etdirməsi oldu. Sikkənin digər üzündə Şah İsmayılın adı və titulları, kənarlarında isə məsum imamların adları yazılmışdı. Şahın atdığı bu addımlar Qızılbaşları düşündürməyə başladı. Şah İsmayıla bu addımların əhali arasında narahatlıq doğura biləcəyi, hətta gələcəkdə qiyam təhlükəsinin yarana biləcəyi barədə xəbərdarlıq edilmiş, lakin o, bu narahatlıqlara əhəmiyyət verməyərək belə cavab vermişdi:

***“Bu iş mənim öhdəmə qoyulub. Aləmlərin Rəbbi və Həzrət Əli mənimlədir. Mən heç kimdən qorxmuram. Allah Taalanın tövfiqatı ilə əgər rəiyyətdən kimsə danışsa, qılıncı çəkər, Allahın yardımı ilə kimsəni sağ qoymaram. Cümə günü gedib, xütbəni on iki imamın adına oxuyacağam.***[394]

Cümə günü yetişdikdə, on dörd yaşlı Şah İsmayıl hamı ilə birlikdə Təbrizin Came məscidinə getdi. Mövlana Əhməd Ərdəbiliyə minbərə çıxmasını göstəriş verdi. O, minbərə çıxdı. Gənc şahın özü də minbərə qalxdı. Onun sıyrılmış qılıncı əlində hazır idi. Gün günortanı keçəndə xütbə oxundu. Camaatdan bəzilərinin səs-küyünə baxmayaraq, şəhər camaatından bəziləri də şükür etməyə başladılar. Onlardan *“ey Mövlana, sənin ağzına, dilinə qurban”* səsləri yüksəlirdi.[395] Cərəyan edən hadisələr artıq həm İranda, həm də regionda görünməmiş dəyişikliklərin baş verəcəyindən xəbər verirdi. Şah İsmayılın bu məsələdə belə israrcı olması hərəkatın əsas qayəsinə qayıdır. Onun işlərindəki ilahi tövfiqata olan bu imanı dəyişikliklərin təməlini formalaşdırdı. Yerli əhalidə bəzən şifahi narazılıqlar formalaşsa da, onların keçmiş hökümətlərin vergi siyasətindən narazı olması və Şah İsmayıl hökümətinin bu iqtisadi sıxıntılara çarə

---

[394] “Aləmara-yi Şah İsmayıl”. Tehran, 1384, s, 65.
[395] “Aləmara-yi Şah İsmayıl”. Tehran, 1384, s. 65.

tapması nəticəsində ölkədaxili ciddi etirazlar yaranmadı. Şah İsmayıl bundan sonra yüksək dövlət vəzifələrini öz yaxın əmirlərinə həvalə etdi. Tanınmış əmirlərdən olan Hüseyn bəy Lələ vəkil vəzifəsinə, Əmir Zəkəriyya şahın vəziri vəzifəsinə, vaxtilə Şah İsmayılın müəllimi olmuş Şeyx Şəmsəddin Lahicani dini işlərin rəhbəri vəzifəsinə *(Molla Şəmsəddin Lahici daha sonralar Şah İsmayılın şahzadələrinin müəllimi kimi də xüsusi məsuliyyət daşıyacaqdı.*[396]*)* və Əbdi bəy Təvaçi dövlətin sipəhsaları

[396] M. Paradust, Şah İsmayıl əvvəl, s, 246



*Şiəliyin rəsmi məzhəb elan edilməsi*

vəzifəsinə layiq görüldü. Bundan başqa Divəli Rumlu elan edilmiş qərara əsasən İmarət rütbəsi aldı. Digər dövlət vəzifələrinə də müvafiq şəxslər təyin edildilər.

Qışı Təbrizdə keçirməyi planlaşdıran Şah İsmayıl sadəcə dövlət işləri ilə deyil, qoşunların ehtiyatlarının təkmilləşdirilməsi, onların silah və sursatlarının, ərzaq və iaşələrinin, səfər təchizatlarının toplanması işləri ilə də məşğul olurdu. Gələcək dünya isə Şah İsmayılın fəaliyyətləri ilə fərqli xətt üzərində formalaşacaqdı.

## Qiyamın qələbəsindən sonra Əhli-sünnə

Səfəvi hərəkatının mübarizə apardığı hədəf kütlə zalım hakim qüvvələr idilər; nəinki, Əhli-Sünnə məzhəbinə mənsub insanlar. Sünni qırğını adı ilə məşhurlaşan hadisələr Ağqoyunlu əmirlərinin uğursuz üsyanlarından istifadə edən hegemon qüvvələrin əks-təbliğatından ibarətdir. Tarixçi Rəsul Cəfərian öz araşdırmalarında qırğın iddialarının Osmanlı və Məmlük saraylarının gündən-günə yayılmaqda olan *"Şah İsmayıl"* fenomeninə qarşı apardığı propaqandanın nəticəsi olduğunu qeyd edir.[397]

---

[397] R. Cəfərian, Səfəvi dövrü haqqında yeni araşdırmalar, s, 197

Araşdırmalar Səfəvi dövlətində əhli-sünnə ünsürünün mövcudluğunu göstərir. Sarayda fəaliyyətinə davam edən Hənəfi və Şafei məzhəbindən olan alimlər hətta, dövlətin ən yüksək mövqelərindən sayılan Sədr vəzifəsinə qədər yüksələ bilirdilər. Onlardan biri də Əmir Şəhabəddin Abdullah idi.[398] Yeni qurulan dövlət sünni əyan-əşrəf və torpaq sahibləri ilə öz yoluna davam edirdi. Şah İsmayıl hətta onların məzhəbinə də fikir vermirdi.[399]

Şah İsmayılın bölgədəki müttəfiqlərindən biri, Sünni Moğol hökmdarı Zahirəddin Məhəmməd Babur idi. Əlavə olaraq qeyd etmək yerinə düşər ki, Şah İsmayıl Sünni Şirvanşahlar ilə ailə münasibətləri də qurmuşdu. O, həm bu ailənin damadı olmuş, üstəgəl qızını bu ailəyə gəlin vermişdi. Zəbihullah Mənsuri Şah İsmayılın ordusunda sünni məzhəbinə mənsub olan əsgərlərin mövcud olduğunu yazır.[400] Səfəvilər dövlətinin 235 il ömür sürməsinə baxmayaraq, nəzarətindəki bir çox bölgələrdə, eləcə də Bağdad, Gilan, Kürdüstan, Sistan-

---

[398] Məhəmməd Təqi Məşkuriyan və Əliəkbər Cəfəri, "Sadate Lale Tebriz dər qozəre be əsre Səfəvi", Tarixi İslam və İran fəslnaməsi, Say: 28, 1394 qış, s. 261-262.

[399] Məhəmməd Kazim Rəhməti, Mirza Məxdum Şərif və Ketabe ən-Nəvaqiz, Pəjuheşhaye Tarixi İslam məcəlləsi, say: 5, 1384, s. 2

[400] Zəbihullah Mənsuri, Ceyms Daun, Arefe-Dihimdar, Negah nəşriyyatı, s, 12

Bəlucistan və Gülüstanda kompakt şəkildə və bəzən də əksəriyyət təşkil edərək həyatlarını davam etdirən, məzhəblərini azad yaşayan Əhli-sünnə camaatı var idi.[401]

Şah İsmayıl dönəmində var olan məzhəb dəyişikliyini zor güc və qətliamlarla izah etmək istəyən yazarların bu iddiaları öz qərəz və təəsüblərindən doğur.

*“Tarixe Camieyi İran”* adlı araşdırma toplusunda hadisələr belə izah olunur: ***“Həqiqətən, İranın bütün ərazisində məzhəbin dəyişdirilməsi yalnız bir insanın əməyinə bağlı deyildi. Görünür ki, bu prosesdə Şah İsmayılın rolu yalnız gizli qalmış gücü ortaya çıxarmaq və onu potensial vəziyyətdən fəaliyyətə çevirmək olmuşdur”***[402]

---

[401] Bağırov Samid, Şah İsmayılın Həyatı, səh: 273
[402] Kazım Musəvi Burucerdi, The Comprehensive History of İran, c, 2, s, 212

## Şəkillər və miniatürlər



**Şah İsmayılın qiyam bayrağı (1499-1524)**



**Şah İsmayıl Səfəvi dövründə zərb edilən bir Şahi sikkəsi**

*"La ilahə illəllah, Muhəmmədun Rəsulullah, Əliyyun Vəliyullah"*

**Şeyx Zahid Gilani türbəsi – Lənkəran**



## Şeyx Səfiəddin məqbərəsi - Ərdəbil



# Şeyx Cüneyd türbəsi - Qusar



## Şeyx Heydər türbəsi - Meşkin





*Səfəvi alimlərinin müzakirə məclisi, 16-cı əsr*



*“Cahanqoşayi-Xaqan” əsərində yer alan bir miniatür*



*Şiəliyin rəsmi məzhəb edilməsini təsvir edən bir miniatür*



*Səfəvi dövrünə aid bir miniatür*



*“Aləmarayi-Şah İsmayıl” əsərində yer alan bir miniatür*



*Qızılbaşlar ovda*



*Şah İsmayıl ayı ovunda*



*Aləmarayi-Şah İsmayıl əsərində yer alan bir miniatür*

**Tariximizin ən parlaq səhifələrindən biri Əhli-Beyt (ə) məktəbinə bağlılıqdır. Azərbaycan xalqı bu məktəb uğrunda qiyam edən toplumlar arasında önəmli yer tutur. Bunun bariz nümunəsi Şah İsmayılın rəhbərlik etdiyi Səfəvi hərəkatıdır. Təəssüf ki, bu şanlı hərəkat həqiqi mahiyyətindən uzaqlaşdırılmaq naminə qərəzli tənqidçilər tərəfindən ya şəriətdən kənar bir sufi cərəyanı, ya da sırf millətçi bir hərəkat kimi təqdim olunur. Halbuki qərəzsiz və dəqiq tarixi yanaşma göstərir ki, Səfəvi hərəkatı yerli şəraiti nəzərə alan, ali məqsədlərə xidmət edən dini bir cərəyan idi.**

**Qarşınızdakı bu kitab isə Şah İsmayıl inqilabının həqiqi mahiyyətini, onun keçmişini və tarixi mərhələlərini araşdırmaqla yanaşı, onu tarixi təhriflərdən təmizləməyə çalışır.**

